# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

**İLHAM**

**ƏLİYEV**

# ALTMIŞ BEŞİNCİ KİTAB

## SENTYABR 2014 - NOYABR 2014

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh..

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində «Əsrin müqaviləsi»nin 20 illiyinə və «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə dövlət başçısının geniş nitqi və bu mərasimdə iştirak etmək üçün ölkəmizə gələn dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının Rusiya Federasiyasının Həştərxan şəhərinə, Belarus, Tacikistan, Fransa və Macarıstana rəsmi və işgüzar səfərləri, həmçinin İran prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrə, hərtərəfli əməkdaşlıq məsələlərinə aid materiallar, bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxış və danışıqları da verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

# «ƏSRİN MÜQAVİLƏSİ»NİN 20 İLLİYİNƏ VƏ «CƏNUB QAZ DƏHLİZİ»NİN TƏMƏLİNİN QOYULMASINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*Heydər Əliyev Mərkəzi*

*20 sentyabr 2014-cü il*

*Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 20-də «Əsrin müqaviləsi»nin 20 illiyinə və «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Mərasimdən əvvəl prezident İlham Əliyev, dövlət və hökumət başçıları və digər qonaqlar birgə foto çəkdirdilər.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür – «Cənub Qaz Dəhlizi»nin təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

20 sentyabr ölkəmiz üçün tarixi bir gündür. 20 il bundan əvvəl – 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı» imzalanmışdır. O, tarixi bir hadisə idi. Çünki gənc, müstəqil Azərbaycan dünyada o qədər də tanınan ölkə deyildi. Azərbaycan çox böyük problemlərlə üzləşmişdi. Erməni işğalı, vətəndaş müharibəsi təhlükəsi, iqtisadi və siyasi böhran – bütün bu amillər ölkəmizin inkişafına böyük problemlər yaradırdı, böyük maneə idi.

Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan bu Mərkəzdə prezident Heydər Əliyevin fəaliyyətini bir daha yüksək qiymətləndiririk. Məhz onun uzaqgörənliyi, cəsarəti, müdrikliyi sayəsində «Əsrin kontraktı» imzalanmışdır. Beləliklə, Azərbaycanın inkişafı üçün yeni imkanlar yaranmışdır. Azərbaycana böyük həcmdə investisiyalar qoyulmağa başlanmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlandı. Azərbaycan öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq üçün imkan əldə etmişdir. Ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz «Əsrin kontraktı»ndan başlandı. Yeni neft strategiyamız 20 ildir ki, icra edilir. Ölkəmiz üçün böyük fayda gətirib. Bu illər ərzində Azərbaycan öz imkanlarını ardıcıl şəkildə genişləndirib. İlk dəfə olaraq o illərdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə neft kəmərləri birləşdirdi. Bu da tarixi nailiyyətdir. Deyə bilərəm ki, 1994-cü ildən başlayaraq bu günə qədər bütövlükdə neft-qaz sahəsində bir neçə önəmli mərhələ olmuşdur. Onların bir neçəsini mən indi sadalamaq istəyirəm. 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı»nın imzalanması, 1996-cı ildə «Şahdəniz» qaz kontraktı üzrə Sazişin bağlanması çox önəmli hadisə idi. Çünki bu gün «Cənub Qaz Dəhlizi»nin resurs mənbəyi «Şahdəniz» qaz yatağıdır. «Şahdəniz» dünyanın ən böyük qaz yataqlarından biridir ki, orada qaz ehtiyatları 1 trilyon kubmetrdən çoxdur.

1999-cu ildən Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı–Supsa neft kəməri tikilmişdir. Bu da yeni bir ixrac marşrutu idi. 2003-cü ildə isə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməl daşı qoyuldu. O kəmər ki, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. O bu gün nəinki Azərbaycan üçün, eyni zamanda, Xəzər sahilinin şərq hissəsində yerləşən ölkələr üçün də bir ixrac boru kəməri kimi fəaliyyət göstərir. Ondan sonra 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Çünki o hadisədən sonra Azərbaycan dünyada artıq özünü qaz ölkəsi kimi göstərməyə başladı.

Bu kəmərin yeni xəttinin tikintisi əslində bu gün başlayır. Azərbaycan artıq «Cənub Qaz Dəhlizi»nin birinci hissəsini 2007-ci

ildə istifadəyə vermişdir. Ondan sonrakı dövr ərzində biz böyük layihə üzərində işlədik. Bildiyiniz kimi, bir neçə variant var idi. 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində Trans–Anadolu kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilib. TANAP layihəsi və onun həyata keçirilməsi tarixi hadisədir. Məhz TANAP layihəsinin razılaşdırılmasından sonra artıq «Cənub Qaz Dəhlizi»nin konturları görünməyə başlamışdır. 2013-cü ildə TAP layihəsi – Trans–Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə idi. Keçən il artıq qazın satışı ilə bağlı kontraktlar imzalanmışdır. Yəni bu gün bizim önümüzdə bütün üfüqlər açıqdır, yollar aydındır. Sadəcə olaraq, biz birgə səylərlə «Cənub Qaz Dəhlizi»nin tamamlanmasını təmin etməliyik və bunu edəcəyik.

Bir sözlə, son illər ərzində Azərbaycan öz enerji siyasətini ardıcıl şəkildə irəliyə aparır. Yəni bugünkü mərasim sadəcə olaraq, görülən işlərin zirvəsidir. Əgər əvvəlki dövrlərdə dediyim məsələlər öz həllini tapmasaydı, bu gün «Cənub Qaz Dəhlizi»nin söhbəti belə, gedə bilməzdi. Hazırda layihə tam hazırdır. Bu gün dəhlizin tikintisi başlanır. Əlbəttə, biz gələcəkdə çalışmalıyıq ki, bütün bu işləri tərəfdaş ölkələrlə birgə edək, əlaqələndirmə yüksək səviyyədə olmalıdır.

Bu layihə Azərbaycana əlavə dividendlər gətirəcək. Ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək. Baxmayaraq ki, son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bu layihə bizim üçün yeni imkanlar açır. Son 10 il ərzində bizim ümumi daxili məhsulumuz 3 dəfədən çox, büdcə xərcləri 20 dəfə artıb. Xarici dövlət borcu ümumi daxili məhsulumuzun cəmi 8 faizini təşkil edir. İşsizlik 5 faizə düşüb, yoxsulluq 5 faizdən bir qədər çoxdur. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 38-ci yerdədir. Bu bizim üçün çox böyük nailiyyətdir və onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir.

Neft-qaz resurslarımız sadəcə olaraq, bizim üçün əlavə bir imkandır, dəstəkdir. Bu bizə imkan verir ki, öz investisiyala-

rımızı bu layihələrə qoyaq. TANAP layihəsində Azərbaycan əsas səhmdardır və əsas maliyyə yükünü Azərbaycan öz üzərinə götürəcəkdir. «Şahdəniz»də, TAP-da və digər layihələrdə Azərbaycan öz payını özü maliyyələşdirir və beləliklə, vaxtilə əldə olunmuş iqtisadi mənfəət bu gün bizim ümumi maraqlarımıza xidmət edir.

Bu layihə tərəfdaş ölkələrimiz üçün də çox faydalıdır. Bu layihənin icrası nəticəsində uduzan tərəf olmayacaq. Hər bir tərəf fayda götürəcək. Tranzit ölkələri eyni zamanda, istehlakçı ölkələrdir. İstehlakçı ölkələr də qaz mənbələrinin şaxələndirilməsinə nail olacaqlar. Bu layihə Avropanın enerji təhlükəsizliyini təmin edən layihədir. Təsadüfi deyil ki, 3 il bundan əvvəl Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənəd məhz bu amili diqqət mərkəzinə qoyur ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli rol oynayan bir ölkədir. Bu gündən sonra bu rol daha da artacaq.

Enerji təhlükəsizliyi əslində hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq qətiyyən mümkün deyil. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz hamımız tərəfdaşlarımızla iştirak edəcəyik. «Şahdəniz» qaz yatağı əsas resurs mənbəyidir. Ancaq Azərbaycanın qaz ehtiyatları daha da böyükdür. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,5 trilyon kubmetrə bərabərdir. Ehtimal olunan, proqnozlaşdırılan ehtiyatlarımız 4-5 trilyon kubmetr səviyyəsindədir.

Xəzər qazı Avropa üçün yeganə yeni mənbədir. Digər mənbələr də var. Avropa o mənbələrdən qidalanır. O mənbələrin həcmi arta bilər, ancaq yeni mənbə hazırda Azərbaycandır. Enerji təhlükəsizliyi marşrutlarının şaxələndirilməsi, hasilatçı, tranzit və istehlakçı ölkələrin birgə fəaliyyəti əminəm ki, uğur gətirəcək. Çünki bu işlərdə çox ciddi əlaqələndirmə aparılmalıdır. Bu günə qədər bizim qaz və neft layihələrimizdə ancaq 3 ölkə iştirak edirdi – Azərbaycan, Gürcüstan və Türkiyə. Bu gündən sonra biz geniş beynəlxalq əməkdaşlıq prosesinə

qədəm qoyuruq. Azərbaycan qaz istehsalçısı kimi, öz resurslarını dünya bazarına çıxaracaq. Ondan sonra Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, gələcək mərhələdə Monteneqro, Xorvatiya və digər ölkələr də bu layihəyə qoşula bilər. Ona görə burada əlaqələndirmə işləri çox yüksək səviyyədə aparılmalıdır.

Mən hesab edirəm ki, bu gün bu sahədə – neft-qaz sahəsində yeni beynəlxalq komanda formalaşır. Komandanın bütün üzvləri bu gün salondadırlar. Əminəm ki, bizim birgə fəaliyyətimiz uğurlu olacaq və komandamız qələbə qazanacaqdır. Qoy yolumuz açıq olsun!

* * *

**R o s e n  P l e v n e l i e v** (*Bolqarıstan Respublikasının Prezidenti*): Zati-aliləri!

Xanımlar və cənablar!

Əziz dostlar!

Cənab Prezidentə və Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm ki, bizi də bu tarixi layihənin iştirakçısına çeviriblər. 5 il bundan əvvəl Avropaya bir daha xatırladılmışdır ki, bizim ən həssas, zəif yerimiz haradadır. Bu da enerjidən asılılıqdır. Bolqarıstan bu baxımdan ən zərər çəkmiş ölkə olub. 2009-cu ilin qaz böhranından söhbət gedir. Bizim ölkə bir kəmərdən asılı idi və heç bir alternativimiz yox idi. Bolqarıstan iqtisadiyyatı ayda yüzlərlə milyon avro zərər çəkirdi. Alternativ mənbələrin təmin edilməsi, bizim üçün milli maraq əhəmiyyətli məsələ və enerjinin şaxələndirilməsi başlıca prioritet idi.

Ukraynada baş vermiş böhran bir daha onu nümayiş etdirdi ki, Avropa nə dərəcə qazdan asılıdır və bu bizim – Avropa İttifaqının gündəliyinin ən başlıca məsələsinə çevrilib. Burada müdrik siyasətin nə dərəcədə əhəmiyyətli olduğu vurğulandı. «Cənub Qaz Dəhlizi» bu illər ərzində yaşanmış asılılığın sonu olacaq. Bizim regionu və daha geniş məkanı – Avropanı asılılıqdan azad edəcək. Burada rəqabətlilik, bazarların azad olması və ədalətli qiymətlərin təklif edilməsi baxımından da

irəliləyiş olacaq. Türkiyə–Bolqarıstan, Yunanıstan–Bolqarıstan əlaqələndirici kəmərləri də «Cənub Qaz Dəhlizi»nin əhəmiyyətli tərkib hissəsi olacaq. Bu, Bolqarıstanı da, Rumıniya, Serbiya və digər ölkələri də qazla təmin edəcək. Bu birləşdirici kəmərlər gələcəkdə Bolqarıstanın qaz anbarlarının genişləndirilməsinə xidmət edəcək, bizi regionumuzda bir növ qaz qovşağına çevirəcək.

Bu səbəbdən Bolqarıstan bu layihələrin – Türkiyə, Yunanıstan, Serbiya və Rumıniya ilə birləşdirici kəmərlərin inşasına sadiqdir. Tezliklə bu layihələr həyata keçiriləcək və 2016-cı ilə qədər biz Yunanıstan ilə birləşdirici kəmərin inşasını başa çatdıracağıq. Bura bütün zəruri maliyyə resursları cəlb edilib. Biz türkiyəli həmkarlarımızla çalışırıq ki, Türkiyə ilə Bolqarıstanı birləşdirən kəmər ən qısa vaxtda inşa edilsin.

Cənab Prezident, Azərbaycan bütün dövrlərdə çox etibarlı və dəyərli tərəfdaş olub. Sizə buna görə təşəkkür edirəm ki, «Bolqarqazneft» şirkəti ilə ARDNŞ arasında müvafiq saziş imzalanıb. Bu sazişə əsasən 2019-cu ildən Bolqarıstana ildə 1 milyard kubmetr qaz nəql ediləcək. Biz Azərbaycandan əlavə qaz həcmlərinin alınması üçün əlimizdən gələni edəcəyik. Biz fərəhlənirik ki, bu layihənin tərkib hissəsiyik və buradan qaz alacağıq. Azərbaycan qazını toplayaraq onu paylamaq nəticəsində tranzit ölkəyə çevriləcəyik. Eyni zamanda, Azərbaycanın xarici bazarlara çıxışını təmin edəcəyik. Biz təbii ki, burada Nabukkonu unutmamalıyıq. Çünki bu, Nabukko layihəsinin digər komponentlərindən biridir. Bu, «Cənub Qaz Dəhlizi»nin ikinci fazası ola bilər.

Xanımlar və cənablar, əziz dostlar. Avropaya yenidən heç bir xəbərdarlıq lazım deyil, biz artıq dərslərimizi öyrənmişik. Biz artıq real işə başlamalıyıq.

Bu gün tarixi bir addım atılır ki, Avropanın enerji təhlükəsizliyi təmin edilsin. Bu, yalnız əlavə qaz kəmərinin, dəmir yolu xətlərinin inşası deyil. Bu gün biz regional əməkdaşlığı genişləndiririk. Bu gün biz bir araya gələrək sərmayə yatırırıq, birlikdə inşaat işləri aparırıq, şəbəkələrimizi, iqtisadiyyatlarımızı birləşdiririk. Bir növ nümunə göstəririk ki, sülh şəraitində bir çox

ölkələrin iştirakı ilə əməkdaşlıq necə təmin edilə bilər. Burada hər bir tərəf mənfəət əldə edir. Bu gün biz xalqlarımızın istəyini, onların iradəsini, arzularını həyata keçirdiyimizi nümayiş etdiririk ki, regionumuzda dostluq və etibarlı tərəfdaşlıq bərqərar olsun. Çox təşəkkür edirəm.

**İrakli Qaribaşvili** (*Gürcüstanın Baş naziri*):

Cənab prezident Əliyev!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar, əziz dostlar!

Əvvəlcə cənab Prezidenti bu tədbir – «Əsrin kontraktı»nın 20 illiyi münasibətilə təbrik etmək istərdim. Mənim üçün burada olmaq böyük məmnunluq doğurur. «Şahdəniz» qaz yatağının ikinci fazasının inşasının başlanması ilə bağlı tədbirdə iştirak etməkdən böyük şərəf hissi duyuram və cənab Prezident, Sizə təşəkkür edirəm ki, məni buraya dəvət etmisiniz.

Sizin vaxtınızı çox almayaraq əməkdaşlığımızın müəyyən aspektləri ilə bağlı fikirlərimi bölüşmək istəyirəm. Azərbaycan Gürcüstanın ən yaxın dostlarından və tərəfdaşlarından biridir. Enerji əməkdaşlığı burada müstəsna əhəmiyyət kəsb edir. Birgə səylərimiz nəticəsində biz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi çox mühüm layihələri icra etmişik. Bu gün tarixi qərarla bağlı yeni planlar qurulur və həmin kəmərlərin genişlənməsi qərarları verilir. Trans–Anadolu qaz kəmərinin inşasına başlanılacaq. Beləliklə, Gürcüstan ərazisindən Yunanıstan, Albaniya və İtaliyaya qədər uzanacaq kəmər inşa ediləcək. Bu, Avropanın enerji xəritəsini dəyişdirəcək. Cənab Prezident bunu çox düzgün qeyd etdi, Avropada istehlakçılar üçün Xəzər dənizinin neft və qaz ehtiyatlarına bu kəmər yeni imkanlar açacaq. Qara dəniz və Xəzər dənizi hövzələrinin dövlətləri üçün yeni imkanlar açılacaq. Biz mövcud infrastrukturu – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Supsa layihələrini genişləndirərək regional əməkdaşlığı və inkişafı təmin edəcəyik. İqtisadi inkişafa mühüm töhfə veriləcəkdir. Əlavə iş yerləri yaranacaq və bununla da yoxsulluğun səviyyəsi azalacaq. Bunlar bizim üçün

çox mühüm layihələrdir. Ancaq enerji sahəsində Avrasiya regionunun nəhəng potensialının yalnız kiçik bir hissəsidir. Bu səbəbdən də biz Trans–Xəzər kəmər layihəsini dəstəkləyirik ki, Qazaxıstan və Türkmənistandan olan təbii qaz ehtiyatları Avropaya nəql edilə bilsin.

Onu da əlavə etmək istərdim ki, Azərbaycan və Türkiyə ilə birlikdə biz daha bir mühüm layihə üzərində çalışırıq – Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi. Bu çox ümidverici bir layihədir. Geniş əhatə sahəsinə malik olan bir layihədir. Əminik ki, bizim üçtərəfli əməkdaşlığımız Əfqanıstanla bağlı bütün təşəbbüslərdə öz rolunu oynayacaqdır. Buraya Türkmənistanı da əlavə etmək olar. Nəqliyyat sahəsindəki bu inkişaf həm qlobal ticarətin liberallaşmasına, həm də davamlı tərəqqinin təmin olunmasına xidmət edəcək. Ticarətin liberallaşması məsələsində dəmir yolu nəqliyyatı infrastrukturunun, körpülərin və nəzarət-keçid məntəqələrinin inşası mühüm əhəmiyyət kəsb edir.

Vahid milli gömrük sistemlərinin inteqrasiyası çox vacib məsələdir. Biz regional qonşularımızı bürokratik maneələrdən azad edərək beynəlxalq təsisatlara inteqrasiya etmiş olacağıq. Türkiyə, Gürcüstan və Azərbaycan arasında gömrük sahəsində olan əməkdaşlıq bunun bariz nümunəsidir. Gürcüstan bu prosesi qəti şəkildə dəstəkləyir. Bununla biz qlobal bazarlara inteqrasiya edirik. Bu bizim ölkələrimiz üçün prioritet məsələdir. Qonşu dövlətlər üçün azad ticarət çox nəhəng bir töhfə olacaq. Bu baxımdan Avropa İttifaqı ilə azad ticarət sazişinin əhəmiyyətini digər ölkələrə də şamil etmək istərdik.

Xanımlar və cənablar, sonda onu da vurğulamaq istəyirəm ki, mənim hökumətim, mənim dövlətim və mənim xalqım əlindən gələni edəcək ki, Gürcüstan gələcəkdə də etibarlı tranzit ölkə və iqtisadi tərəfdaş olsun. Əminəm ki, bu tarixi layihə istər regional, istərsə də qlobal səviyyədə uğurlu olacaqdır. Diqqətinizə görə çox sağ olun.

**Antonis Samaras** (*Yunanıstanın Baş naziri*): Hörmətli cənab Prezident!

Hörmətli dövlət və hökumət başçıları, dəyərli qonaqlar!

Bu gün bu mərasimdə iştirak etmək mənim üçün böyük şərəfdir. Həqiqətən də tarixi bir hadisədir. «Cənub Qaz Dəhlizi» yalnız infrastruktur layihəsi deyil, gələcəyə olan bir baxışdır və bu baxış artıq reallığa çevrilir. Bu baxış nəticəsində Avropa və Asiya birləşir. Enerji təminatı və enerji təhlükəsizliyi baxımından gələcək illərdə müxtəlif dövlətlər və xalqlar arasında davamlı əməkdaşlığı təmin edəcək layihədir. Bu, nümunəvi bir əməkdaşlıq modelidir. Burada rəqabətqabliyyətli qiymətlər təklif olunacaq. Əlavə inkişaf və ətraf mühitin qorunması məsələləri də diqqətdə saxlanılıb.

Yunanıstan ilk gündən bu layihəni dəstəkləyən ölkə olub. Yunanıstan elə bir ölkədir ki, həmin kəmər bizim ərazimizdən keçəcəkdir. TAP və TANAP layihələri «Cənub Qaz Dəhlizi»nin tərkib hissələridir. Bu, Türkiyədən Yunanıstana keçərək 543 kilometr boyu ölkəmizin ərazisindən keçəcək və daha sonra Makedoniya və Albaniyaya çatacaqdır.

Bizim ölkədə bildiyiniz kimi, çətin vaxtlar yaşanır. Buna baxmayaraq, Yunanıstan əlindən gələni edir ki, bu layihənin həyata keçirilməsi vaxtında və keyfiyyətlə icra olunsun. Biz ətraf mühitə dəyə biləcək zərərlə bağlı dəyərləndirmə sənədini imzaladıq. Bununla da artıq tikinti prosesinə başlayacağıq. Bu mənim hökumətimin prioritet mövzusudur.

Nazir Maniatis ilə bərabər biz bunu diqqət mərkəzində saxlayacağıq. Bu o deməkdir ki, «Cənub Qaz Dəhlizi» məhdud layihə deyil. Çünki bu dəhlizi TAP layihəsi gələcəkdə digər şəbəkələrlə birləşdirə bilər. Təbii ki, bu fikirlərin həyata keçirilməsi üçün yekun rəylər verilməlidir. Amma əminəm ki, TAP layihəsi gələcəkdə daha geniş imkanlar açacaq. Beləliklə, biz irəliyə baxsaq görərik ki, Yunanıstan, Bolqarıstan birləşdirici kəmərləri də inşa edilə bilər. Bir qədər əvvəl Bolqarıstan Prezidenti bu barədə danışdı. Bu birləşdirici kəmərlər, bu layihə vasitəsilə biz şimala çata və Mərkəzi Avropanı əhatə edə bilərik. Maye qaz təchizatı baxımından da Yunanıstan Avropanın tələbatını ödəyə bilər. Yunanıstanın layihədə

iştirakı ölkəmizin beynəlxalq arenada rolunu gücləndirəcək. Yunanıstan Cənubi Avropa və kontinental Avropa üçün bir qovşaq rolu oynaya biləcək. Təbii ki, bu layihə TAP ilə məhdudlaşmır. Bunu diqqətinizə çatdırmaq istəyirəm.

Ölkəmizdə hazırda maye qaz terminallarının imkanları artırılır. Biz bu imkanı 73 faiz artıracaq və 225 min kubmetrə çatdıracağıq. Bundan əlavə, limanların infrastrukturu və ölkənin qazla təmin edilməsində müvafiq işlər aparılır və gələcəkdə kəmərlər də inşa edilə bilər. Artıq bizim sahillərdə 20-dən çox saziş imzalanacaq. Burada söhbət 20 müxtəlif blokdan gedir.

Çıxışımın sonunda qeyd etmək istərdim ki, bundan böyük rəmzi əhəmiyyət daşıyan layihə ola bilməz. Burada həm sahibkarlar, həm də digər iştirakçılar bəhrə görəcək. Bu əməkdaşlıq sərhədlər tanımır və əminəm ki, bu layihə belə bir əməkdaşlığın gözəl nümunəsi olacaq.

İllər öncə enerji təminatı ölkələr arasında münasibətləri pozan bir amil olub. Amma bu gün bu layihə vasitəsilə biz enerji təminatı və təhlükəsizliyinin uzunmüddətli və davamlı inkişafın təməlində duran bir məsələ olduğunu görürük. Biz yalnız kəmər inşa etmirik. Biz körpülər inşa edirik. Bu körpülər xalqları və ölkələri bir araya gətirir. Bu həqiqətən də qlobal bir baxışdır və bu, artıq bir reallığa çevrilir.

Cənab Prezident, məni dəvət etdiyinizə görə bir daha təşəkkür edirəm.

**Milo Cukanoviç** (*Monteneqronun Baş naziri*): Cənab prezident Əliyev, zati-aliləri!

Xanımlar və cənablar!

Əvvəlcə cənab Prezidentə və azərbaycanlı dostlarımıza belə gözəl bir tədbirin təşkil olunmasına və Monteneqronun bu tədbirə dəvət edilməsinə görə təşəkkürümü bildirirəm. «Cənub Qaz Dəhlizi»nin tikintisinin başlanılması istər «Əsrin müqaviləsi», istərsə də digər məsələlər baxımından çox vacibdir. Bu dönəm ərzində Azərbaycan həqiqətən də çox möhtəşəm inkişaf yolu keçib. Enerji sahəsindəki dinamik dəyişikliklər həm ölkədaxili, həm də qlobal səviyyədə aydın hiss olunur.

Monteneqro bu layihənin tərkib hissəsi olub. Tiranada imzalanan Anlaşma Memorandumu və ondan sonra Bakıda təşkil edilmiş konfrans nəticəsində biz bu layihədə iştirakımızla bağlı qərar vermişik. Beləliklə, TANAP və TAP layihələrinin reallığa çevrilməsinin tərkib hissəsi olmuşuq. Adriatik hövzəsi ölkələri – Albaniya, Monteneqro, Bosniya və Herseqovina və Xorvatiyanı birləşdirəcək kəmər çox əhəmiyyətli bir məsələdir. Bizim və qonşularımız üçün bu, yeni enerji imkanları açmaqdadır. Qərbi Balkanlarda bu layihələrin əhəmiyyəti çox böyükdür. İstənilən halda enerji məsələsi milli maraqlarla məhdudlaşmır. Bu sahədə əməkdaşlıq çox vacibdir və biz buna böyük əhəmiyyət veririk.

Mənim ölkəm Avropa İttifaqının enerji siyasətinə sadiqdir. Bu baxımdan enerji təminatı, rəqabətli enerji bazarının və davamlı enerji inkişafının təmin edilməsi mühüm əhəmiyyətə malikdir. Enerji təminatının şaxələndirilməsi bu məqsədlərə nail olunması üçün başlıca şərtlərdəndir. Regional yanaşma bu layihələrin reallaşdırılmasının perspektivlərini artırır. Qərbi Balkanlarla bağlı Berlin konfransında da «Cənub Qaz Dəhlizi» layihəsi Avropa üçün ən əhəmiyyətli bir layihə kimi vurğulanmışdır.

Monteneqro üçün qazlaşdırma inkişafın yeni mərhələsi olacaq. Bu, ölkəmizdə sərmayə üçün münbit şərait və yeni iş yerləri, təbii ki, Monteneqronun dəniz akvatoriyasında da neft və qaz hasilatı üçün yeni imkanlar yaradacaq. Birgə səylərimiz nəticəsində TANAP və TAP layihələri beynəlxalq əməkdaşlıq baxımından Avropa enerji strategiyasına uyğundur. Əminəm ki, biz ölkələrimiz üçün yeni gələcək yaradırıq. Ölkələrimizə və şirkətlərimizə uğurlar arzulayıram. Diqqətinizə görə çox sağ olun.

**Joze Manuel Barrozu** (*Avropa Komissiyasının sədri)*: Hörmətli cənab prezident Əliyev!

Baş nazirlər, nazirlər, icraçı direktorlar!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bugünkü tədbir həm Azərbaycan üçün, həm də Avropa İttifaqı ilə münasibətlər baxımından tarixi hadisədir. Biz Azərbaycanın inteqrasiyasını, xüsusilə Avropa ilə əlaqələrin

təməlində duran layihənin icrasını qeyd edirik. 20 il bundan öncə bugünkü gündə mərhum prezident Heydər Əliyev 11 şirkətdən ibarət konsorsiumla hasilatın pay bölgüsü üzrə tarixi müqavilə imzalamışdı. Bunun həqiqətən də «Əsrin müqaviləsi» adlandırılması tamamilə düzgündür. Prezidentin və iştirakçı şirkətlərin gələcəyə baxışı «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismarı və Bakı–Tbilisi–Ceyhan boru kəmərinin inşası ilə nəticələndi. Bu gün Azərbaycan Avropanın neft ixracatında mühüm rol oynayır. Eyni zamanda, «Cənub Qaz Dəhlizi»nin reallaşdırılması ilə bağlı irəliləyişi də qeyd edirik.

3 il bundan əvvəl – 2011-ci ilin yanvarında mən və prezident İlham Əliyev Bakıda «Cənub Qaz Dəhlizi» ilə bağlı Birgə Bəyannamə imzaladıq. O gündən Avropa Komissiyası, tərəfdaş ölkələr və şirkətlər bu planları reallaşdırmaq üçün birgə çalışmışlar. Bütün kəmərlərin inşasının başa çatdırılması üçün əlavə 5 il tələb olunacaq. Bu dəhliz başa çatdıqdan sonra Qafqazdan Türkiyəyə, daha sonra Yunanıstan və Albaniya ərazilərindən keçərək 2000 kilometrlik məsafəni qət edəcək və Xəzər dənizini Avropa İttifaqının mərkəzi ilə birləşdirəcək. Lakin bu layihə yalnız kəmər deyil, XXI əsrin mühüm strateji, enerji dəhlizidir. Bu, sözün əsl mənasında, geostrateji bir layihə olacaq. Bu münasibətlə prezident Əliyevə, «Şahdəniz» konsorsiumunun üzvlərinə, «Azəri–Çıraq–Günəşli» yatağının və Bakı–Tbilisi–Ceyhan kəmərinin səhmdarlarına, Azərbaycan ilə Avropa İttifaqı arasında güclü əməkdaşlığın qurulmasında gələcəyə baxışlara malik olan hər bir kəsə səmimi təbriklərimi çatdırıram.

Siz bizim birgə enerji təhlükəsizliyimizə töhfə verirsiniz. Əminəm ki «Cənub Qaz Dəhlizi» XXI əsrin layihəsi olacaq. Bu xüsusda layihənin hər mərhələsində prezident İlham Əliyevin rəhbərlik qabiliyyətini vurğulamaq istərdim.

Azərbaycan Avropa İttifaqına heç bir vaxt bu qədər yaxın olmayıb. Onun iqtisadiyyatı Avropa bazarları ilə sıx inteqrasiya olunub və bizim əlaqələrimiz daha geniş, təmaslarımız isə daha fəaldır.

Bir daha qeyd edim ki, Avropa İttifaqı müasirləşmə islahatları ilə bağlı Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir və müxtəlif sahələrdə daha da dərin münasibətlər yaratmaq istəyir. Şübhə etmirəm ki, bundan sonra da Avropa İttifaqı və xüsusilə Avropa Komissiyası bu layihəni enerji məsələləri üzrə komissar Günter Ottinger və mənim qədər dəstəkləyəcək.

Şəxsən mən artıq Avropa Komissiyasının sədri kimi deyil, Azərbaycanın dostu qismində «Cənub Qaz Dəhlizi» ilə bağlı irəliləyişi və ümumən münasibətlərin inkişafını məmnuniyyətlə izləyəcəyəm.

Diqqətinizə görə sağ olun.

**T a n ə r   Y ı l d ı z** *(Türkiyənin Energetika və Təbii Sərvətlər naziri):* Azərbaycanın dövlət başçısı hörmətli Əliyev!

Dövlət başçıları, hökumət başçıları, nazirlər, dövlət və özəl sektorun hörmətli təmsilçiləri, əziz qonaqlar!

«Əsrin müqaviləsi»nin 20-ci ildönümü və «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimi ilə bağlı burada, Azərbaycanda olmaqdan məmnunluq duyduğumuzu ifadə edərək, çıxışıma başlamaq istəyirəm.

Köklü bağlarımızın olduğu Cənubi Qafqaz Türkiyə baxımından vazkeçilməz əhəmiyyətdədir. Şərq ilə qərb, şimal ilə cənub arasındakı ticarət, enerji və nəqliyyat dəhlizlərinə əlavə olaraq mədəniyyətlərin qarşılıqlı təsirini təmin edən və bölgənin sülh, sabitlik və rifah qovşağına çevrilməsi geniş Avrasiya coğrafiyası ilə bağlı baxışımızın əsasını təşkil edir.

Bu gün təməlini qoyacağımız «Cənub Qaz Dəhlizi» layihəsi yalnız bir enerji və ya nəqliyyat layihəsi deyil. «Əsrin müqaviləsi»ndən bəri qardaş Azərbaycan ilə inkişaf etdirdiyimiz layihələr bütün ətraf ölkə və bölgələrə sülh gətirmək məqsədi daşıyan layihələrdir. Bakı–Tbilisi–Ceyhan layihəsi ilə Qafqazı Aralıq dənizinə, Bakı–Tbilisi–Ərzurum layihəsi ilə Qafqazı Anadoluya bağladıq. «Cənub Qaz Dəhlizi» layihəsi və onun onurğa sütunu olan TANAP ilə Avropanı və Qafqazı bir-birinə bağlayır və sanki bir sülh dəhlizi açırıq. Bu, 2 ölkənin ən

azı 10 ildən bu yana gecə-gündüz çalışaraq birlikdə ortaya qoyduğu böyük bir hədəfin göstəricisidir. Türkiyə Respublikasının Hökuməti olaraq, həm Türkiyə Böyük Millət Məclisində hökumətlərarası müqavilələrin və eyni zamanda, ev sahibliyi müqavilələrinin təsdiqi də tamamlanmışdır.

İcazə verin, açıq şəkildə söyləyim ki, Türkiyə və Azərbaycanın tərəfdaşlarımızla əməkdaşlıq şəraitində reallaşdırdığı bu layihələr, bir az əvvəl dediyim kimi, yalnız bölgəyə deyil, eyni zamanda, geniş bir coğrafiyaya sülh və sabitlik gətirəcək layihələrdir. Kaş ki hər ölkə bu gün burada olanlar kimi, bu layihələrin dəyərini anlaya və bu xoşniyyətli səylərimizə ortaq ola biləydi.

Hörmətli qonaqlar, son illərdə qlobal enerji sahəsindəki genişmiqyaslı dəyişikliklər dünyanın enerji xəritəsini dəyişdirir, enerji sahəsində yeni faktorların ortaya çıxmasına səbəb olur, yeni texnologiyalar ortaya çıxır və sözün qısası, enerji arenasında böyük dəyişikliklər yaradan bir çox proseslər meydana gəlir. Digər tərəfdən, təhlükəsizliyin, rifahın və sülhün mübahisə mövzusu olmadığı bir şəraitdə qarşılıqlı maraqların qorunduğu beynəlxalq əməkdaşlıq və həmrəylik indiyədək olmadığı qədər əhəmiyyət kəsb edir.

Bu dəyişikliklərə paralel olaraq, enerji təhlükəsizliyi xarici siyasət, milli təhlükəsizlik, iqtisadi və davamlı inkişaf kimi anlayışlarla əlaqələndirilməyə başlanmışdır. Bu mənada enerji təhlükəsizliyi mövzusu qlobal gündəmin ön sıralarına çıxır və hazırkı müzakirələrin əsas mövzularından birini təşkil edir. Türkiyə olaraq, müsbət mövqemizi davam etdirəcəyik, enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı sıx əməkdaşlığı və dialoqu inkişaf etdirməyə davam edəcəyik. Bu baxışımıza əsaslanaraq dost və qardaş ölkələr – Azərbaycan və Gürcüstan ilə birlikdə bütün bu ölkələrin Şərq–Qərb enerji dəhlizini reallaşdırırıq.

Böyük dövlət xadimi mərhum Heydər Əliyev «Azəri–Çıraq–Günəşli» yataqlarının TPAO-nun da daxil olduğu beynəlxalq bir konsorsium vasitəsilə işlənməsinə imkan yaradan «Əsrin

müqaviləsi»nin 1994-ci ildə imzalanmasına nail olmuşdu. Beləliklə, Bakı–Tbilisi–Ceyhan əsas neft boru kəmərinin həyata keçməsinə rəhbərlik etmiş oldu. Bu münasibətlə hörmətli Heydər Əliyevi rəhmətlə yad edirik.

Bakı–Tbilisi–Ceyhan əsas neft boru kəməri ilə birlikdə bu günə qədər 2 milyard barreldən çox neftin nəqli reallaşıb. Şərq–Qərb enerji dəhlizinin ikinci qovşağını təşkil edən Bakı–Tbilisi–Ərzurum boru kəməri ilə də 2007-ci ildən bu yana təbii qaz axını davam etməkdədir.

Bu gün isə ortaq hədəfimiz başda Xəzər və sonra Yaxın Şərq təbii qaz qaynaqlarının Qərbə daşınması və bir az əvvəl hörmətli Barrozunun da dediyi kimi, Avropa İttifaqının üzvü olan ölkələrin təbii qaz probleminin həllinə töhfə vermək baxımından bu işlərin daha da inkişaf etdirilməsidir. Bu qaz 2018-ci ilin sonunda Türkiyə, 2019-cu ildə də Avropaya, inşallah, axacaq.

Bu dəhlizin onurğa sütununu meydana gətirən layihələrdən biri də təbii ki, TANAP-dır. TANAP layihəsi baxımından böyük əhəmiyyət daşıyan bir məsələ də «Şahdəniz-2» yekun investisiya qərarına dair müqavilənin ötən il dekabrın 17-də məhz bu salonda imzalanmasıdır. Bu məsələdə «BOTAŞ» TANAP layihəsində 30 faizlik paya, TPAO isə istər «Şahdəniz» yatağında, istərsə də «Cənubi Qafqaz» boru xəttindəki hissəsini 19 faizə çatdırmışdır və ikinci böyük ortaq olmuşdur. Məlum olduğu kimi, TANAP ilk mərhələdə «Şahdəniz» yatağının işlənilməsi ilə birlikdə hərəkətə keçəcək, amma eyni zamanda, şərqindəki qaynaqların da bərabər işlənilməsi ilə birlikdə bu daha böyük uğur qazanacaq.

Daha sonrakı mərhələlərdə müxtəlif əlavə qaynaqların da bu boru xəttinə daxil olacağına ümid edirik. Yalnız ticarət investisiyası kimi dəyərləndirmədiyimiz TANAP layihəsinin Türkiyə ilə Azərbaycan arasında olduğu qədər, Avropa ölkələri ilə də uzun illər davam edəcək güclü, sağlam və təbii əlaqələr yaradacaq bir vasitə olduğuna inanırıq.

Bu münasibətlə hörmətli prezident İlham Əliyevə, bu layihənin reallaşmasında zəhməti olan bütün təşkilatlara, dövlət və özəl sektora təqdir və təşəkkürlərimi bildirirəm.

Hamınızı hörmətlə salamlayıram.

**Bard İvar Svendsen** *(Norveçin Azərbaycandakı səfiri)*:Möhtərəm cənab Prezident, zati-aliləri!

Xanımlar və cənablar!

Norveç Krallığının Baş naziri Erna Solberqin məktubunu diqqətinizə təqdim edirəm:

«Bu gün, Azərbaycan üçün mühüm, əhəmiyyətli bir gündə sizi salamlayıram. 1994-cü ildə imzalanmış kontrakt Azərbaycanın tarixində dönüş nöqtəsi oldu. Beynəlxalq şirkətləri və sərmayəçiləri Azərbaycana dəvət etməklə, «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku beynəlxalq bazarlar üçün açıldı və ölkənin firavanlığı, beynəlxalq bazarlara inteqrasiyası təmin edildi. 1994-cü ildə ticari əlaqələr başlandı. Norveçin «Statoyl» şirkəti ölkəyə dəvət edildi. 20 ildən sonra Norveç ilə Azərbaycan enerji sahəsində daha yaxın tərəfdaş oldular. Bu, istər Norveç, istərsə də Azərbaycan üçün böyük mənfəətlər verib və bizim müvafiq şirkətlər də bundan bəhrələniblər. Ümid edirəm ki, əlaqələrimiz gələcəkdə də davam edəcəkdir.

Bugünkü gün yalnız tarix deyil, həm də gələcəyə bir baxışdır. «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimi ilə münasibətlərimizin yeni mərhələsi, eyni zamanda, Azərbaycan və tərəfdaşlar üçün yeni mərhələ başlanır.

Bu gün enerji və təhlükəsizlik bir-biri ilə sıx bağlı məsələdir. Norveç «Cənub Qaz Dəhlizi» layihəsini dəstəkləyir və bu baxımdan enerji təhlükəsizliyi məsələsinə onun verəcəyi töhfəni alqışlayır. Azərbaycan və Norveç Avropa bazarı üçün etibarlı tərəfdaşlardır.

Cənab Prezident, xahiş edirəm «Əsrin müqaviləsi»nin 20 illiyi ilə bağlı təbriklərimi qəbul edəsiniz. Sizə gələcək uğurlar arzulayıram.

**Xanım Erna Solberq**

**Norveç Krallığının Baş naziri».**

**D a m i a n  G i k n u r i** (*Albaniya Respublikasının Energetika naziri*): Hörmətli cənab Prezident, zati-aliləri!

Xanımlar və cənablar!

Burada olmağımdan böyük məmnunluq duyuram. Bu çox mühüm və Avropanın enerji xəritəsini dəyişdirəcək bir tədbirdir. Bu layihə mənim ölkəm üçün çox vacib bir layihədir. Nəyə görə? Çünki Avropa etibarlı və alternativ enerji mənbəyi ilə təmin edilir. Bu, Avropa İttifaqının gələcəyi üçün vacibdir, onun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki alternativsiz qitənin gələcəyi təmin edilə bilməz.

Bu, müxtəlif ölkələr arasında əməkdaşlığı təmin edir. Vaxtilə münaqişədə olan ölkələr – Albaniya, Monteneqro bu gün bir yerdə çalışırlar və Azərbaycandan gələn kəməri digər kəmərlərlə birləşdirmək üçün əllərindən gələni edirlər. Eyni zamanda, bunun həm mənim ölkəm, həm Cənub-Şərqi Avropanın digər dövlətləri üçün böyük iqtisadi təsiri olacaqdır.

Bu bizim üçün çox əhəmiyyətli bir layihədir. Bu, Albaniyaya böyük həcmdə qaz verəcəkdir. Əvvəllər bizim çox məhdud imkanlarımız var idi və zənnimcə, bu istər iqtisadi inkişaf, istərsə də təhlükəsizlik baxımından çox böyük töhfə olacaqdır. Biz hazırda master-plan üzərində çalışırıq. Dost Azərbaycana və ARDNŞ-ə təşəkkürümüzü bildiririk ki, bu imkanları Albaniya üçün yaratmaqdadır.

Eyni zamanda, əminəm ki, bu layihə Albaniyanı və Cənub-Şərqi Avropanı enerji xəritəsi üzərinə qoyacaqdır. Çünki biz artıq enerji qovşağına çevriləcəyik. Bizim hökumətimiz bunu prioritet məsələ kimi müəyyən edib. Əlimizdən gələni edirik. Hökumət daxilində müvafiq komanda yaradılıb ki, TAP-ın mümkün qədər sürətlə həyata keçirilməsini təmin edəcək.

Roma Papasının səfəri ilə bağlı Baş nazirimiz təəssüflər olsun ki,  burada ola bilmədi. Amma bu, layihəyə verdiyimiz əhəmiyyəti heç də azaltmır. Bu bizim üçün, Avropa üçün,

Azərbaycan üçün çox mühüm layihədir. Sizə qarşıdakı illərdə uğurlar və uğurlu əməkdaşlıq arzulayıram.

**L o r d  L i v i n q s t o n** (*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və İnvestisiyalar üzrə Dövlət naziri*): Cənab Prezident, zati-aliləri!

Hörmətli dövlət və hökumət başçıları, qonaqlar!

Artıq məşhur olan «Əsrin müqaviləsi»nin imzalanmasının ildönümü ilə əlaqədar Britaniya hökuməti adından prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edirəm. Dəvətə görə təşəkkür edirəm və icazənizlə bir neçə kəlmə söyləmək istərdim.

Çox şadam ki, bu gün qarşınızda məhz britaniyalı memar Zaha Hadidin müəllifi olduğu möhtəşəm Heydər Əliyev Mərkəzinin səhnəsindən çıxış edirəm. Con Pol Gettin dediyi kimi, uğuru şərtləndirən 3 amil bunlardır: erkən oyanmaq, gecəyə qədər çalışmaq və neft tapmaq. Bunu Azərbaycanın uğuru haqqında da demək olar. Lakin buraya müdrik rəhbərlik amilini əlavə etmək çox vacibdir. Ölkəniz gərgin əmək və enerji ehtiyatları sayəsində Avropa və dünya iqtisadiyyatında mühüm rol oynayır. Böyük Britaniya bu uğurun tərkib hissəsi olmaqdan qürur duyur.

«Azəri–Çıraq–Günəşli» yataqlarının operatoru olan *bp* ARDNŞ ilə birlikdə dünyanın dənizdəki ən nəhəng neft komplekslərindən birini və Azərbaycanın iqtisadiyyatına töhfə verən ən iri müəssisəni yaradıb.

Xanımlar və cənablar, «Azəri–Çıraq–Günəşli» Azərbaycanda enerji inkişafının təntənəsidir. *bp* və Böyük Britaniya Hökumətinin Azərbaycan ilə əməkdaşlığı bu layihələrlə məhdudlaşmır və biz gələcək layihələri də gözləyirik. Bu mənada mən fəxr edirəm ki, biz yalnız «Azəri–Çıraq–Günəşli»nin 20 ilini deyil, 20 illik möhkəm Britaniya–Azərbaycan münasibətlərini qeyd edirik və bu layihə əməkdaşlığımızın təməlində durub. 20 il əvvəl Bakıda və Londonda səfirliklərimiz açıldı və o vaxtdan bu günə qədər münasibətlərimiz sürətlə inkişaf edir. Bizim davamlı ticarət əlaqələrimiz güclü ikitərəfli

münasibətlərin özəyini təşkil edib və bu istiqamətdə münasibətlər davam etməkdədir.

Britaniya şirkətləri ölkənizdə birbaşa xarici sərmayənin ən böyük mənbəyidir. Neft və qaz sahəsi daxil olmaqla, 500-dən artıq Britaniya şirkəti burada çalışır və gələcəkdə bu rəqəmi artırmaq niyyətindəyik. Təbii ki, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastrukturun yaxşılaşdırılması üçün enerjidən başqa, digər sahələrə də sərmayə qoyur. Britaniya bu işlərdə Azərbaycana yardım etməyə hazırdır. Məsələn, Azərbaycan yüksək texnologiyalar sahəsində böyük potensiala malikdir və mən böyük məmnuniyyətlə iyun ayında Londonda nazir Əli Abbasovun rəhbərlik etdiyi texnologiya şirkətlərindən ibarət olan heyəti qəbul etdim.

Azərbaycan hökumətinin sənaye üçün münbit biznes mühitinin yaradılması ilə bağlı qətiyyəti uğurumuzu şərtləndirən amil olub. Uğurun digər elementi isə insan kapitalının inkişafıdır. Gələcəyə baxdıqda biz «Şahdəniz» yatağının istismarını və «Cənub Qaz Dəhlizi»nin inşasını alqışlayır və bu işi tamamilə dəstəkləyirik. Həqiqətən də «Cənub Qaz Dəhlizi» Avropa İttifaqının qaz bazarının şaxələndirilməsində mühüm rol oynayacaq və bununla da qitənin enerji təhlükəsizliyini artıracaq. Onun tikintisi dünyada ən iri və ən mürəkkəb infrastruktur layihəsi olacaq. Lakin onun əhəmiyyətini qiymətləndirməyə bilmərik. Tikinti zamanı və təhvil verildikdən sonra belə, bu dəhliz marşrut üzrə bütün ölkələr üçün çox faydalı olacaq.

Bu gün qeyd edə biləcəyimiz nailiyyətlər çoxdur. Ancaq bundan sonra da birlikdə daha böyük işlər görə bilərik. Sonda bir daha bütün iştirakçılara uğurlar arzu edirəm. Onlara və Azərbaycana uğurlar və firavanlıq diləyirəm.

**Klaudio de Vinsenti** (*İtaliya Respublikasının İqtisadi İnkişaf nazirinin müavini)*: Zati-aliləri cənab prezident İlham Əliyev!

Xanımlar və cənablar!

Mən çox məmnunam ki, bu gün «Əsrin müqaviləsi»nin 20 illiyinə həsr edilmiş bu mötəbər mərasimdə iştirak edirəm. Mənim üçün böyük şərəfdir ki, bu gün bu mühüm məqamda sizinlə bir yerdəyəm. Bu, enerji sərvətlərinin hasilatı baxımından çox əhəmiyyətli bir tədbirdir. Bu, 20 il ərzində həyata keçirilmiş əməkdaşlığın təntənəsidir. Burada Azərbaycanın bir sıra neft şirkətləri ilə 1994-cü ildə imzaladığı «Əsrin müqaviləsi»ndən söhbət gedir. Bu müqavilə həm Azərbaycanın beynəlxalq əməkdaşlıq baxımından inkişafını təmin edir, eyni zamanda, ölkəyə külli miqdara xarici sərmayə cəlb edib. Bu baxımdan «Cənub Qaz Dəhlizi» heç şübhəsiz ki, «Əsrin müqaviləsi»nin qaz baxımından təkamülü olub.

Bu fürsətdən istifadə edərək ölkəmizin oynadığı rolu vurğulamaq istəyirəm. İlk gündən İtaliya TAP layihəsini dəstəkləyib və onun həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlığı təşviq edib. Çox şadam ki, bu gün rəsmi olaraq elan edə bilərəm: İtaliya hökuməti TAP layihəsinə razılığını verib və 2015-ci ildə bu layihə reallaşacaq. İtaliya hökuməti qərar qəbul edib ki, TAP layihəsi bizim ölkənin inkişafı üçün 5 prioritet layihə sırasındadır. Bununla da əminəm ki, icra ilə bağlı bütün tədbirlər uğurla həyata keçiriləcək.

Zənnimcə, TAP layihəsinin Avropa və İtaliya üçün qaz nəqlinin şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyəti var. Bu bizim enerji strategiyamızın tərkib hissəsidir. Bu bizə imkan verəcək ki, xüsusilə neft sahəsində təhlükəsizliyi və etibarlılığı təmin edək. Bu səbəbdən də Avropa ölkəsi olan İtaliya hökuməti TAP layihəsinin həyata keçirilməsinə öz sadiqliyini vurğulayır. Çünki şaxələndirmə və yeni tranzit marşrutları bizim enerji təhlükəsizliyimiz baxımından çox vacib bir məsələdir. Bu, ötən ilin iyun ayında da Avropa İttifaqı Şurası tərəfindən vurğulanıb.

Bundan əlavə, bu təkcə Cənubi Avropanın enerji şaxələndirilməsinə xidmət etməyəcək. Burada Balkan regionlarının enerji təhlükəsizliyi təmin ediləcək. Xüsusilə də digər qonşu

ölkələr də bu layihəyə qoşularaq TAP layihəsinin əhəmiyyətini daha da artıracaq və Balkan regionunda olan dövlətlərə müvafiq mənfəət verəcək. Bununla bağlı Monteneqronun Baş naziri artıq öz fikirlərini söylədi.

Vurğulamaq istərdim ki, Avropa İttifaqı Komissiyası tərəfindən TAP layihəsi də vahid maraq kəsb edən layihələr sırasına daxil edilib. Bununla da müvafiq lisenziyaların verilməsi ilə bağlı proses sürətləndiriləcək və müvafiq maliyyə dəstəyi göstəriləcək. Dediyim kimi, İtaliya TAP layihəsinin həyata keçirilməsində öz texniki təcrübəsini təqdim etməyə hazırdır ki, bu təcrübə nəticəsində işlər sürətlə və keyfiyyətlə görülə bilsin.

Sonda cənab Prezident, xanımlar və cənablar, bir daha vurğulamaq istərdim ki, bu gün mənim burada iştirakım İtaliya hökumətinin bu strateji layihəni nə dərəcədə dəstəklədiyinin göstəricisidir. Bu həm də bizim üçün bir stimul olacaqdır ki, enerji tələbatımızı ödəyək və gələcəkdə enerji qovşağı rolunu oynaya bilək.

Cənab Prezident, bu şərəfi mənə verdiyinizə və buraya dəvət edildiyimə görə bir daha təşəkkür edirəm. Diqqətinizə görə çox sağ olun.

**Amos Hokstayn** (*Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi)*: Cənab prezident İlham Əliyev!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Bugünkü tədbirdə iştirakımdan qürur duyuram. Bu gün biz «Əsrin müqaviləsi»nin – «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə hasilatın pay bölgüsü kontraktının imzalanmasının 20 illiyini qeyd edirik. «Əsrin müqaviləsi» həqiqətən də tarixi hadisə olub. Bu layihə ötən 20 il ərzində zamanın sınağından keçib. Biz fəxr edirik ki, Bakı–Tbilisi–Ceyhan layihəsinin inkişafı və həyata keçirilməsi istiqamətində Azərbaycana mühüm dəstək vermişik. Sabiq prezident Klintondan prezident Obamaya qədər hər bir ABŞ prezidenti bu layihənin qəti tərəfdarı olub.

Bu gün biz 20 il bundan öncə başladığımız mərhələni başa çatdırırıq. O zaman biz XX əsrin müqaviləsini imzaladıq. Bu gün Xəzər dənizindən Avropaya qaz nəql edəcək yeni layihənin təməlqoyma mərasimində iştirak edirik. Bununla da biz XXI əsrin monumental əhəmiyyətə malik yeni layihəsinin başlanğıcını qeyd edirik.

Bu tədbir çox münasib vaxtda təşkil edilib. Bizə bir daha xatırladılır ki, dövlətlər enerji təhlükəsizliyi ilə bağlı fundamental hüquqa malikdirlər və dünyada heç bir ölkə yeganə enerji mənbəyindən asılı olmaq məcburiyyətində qalmamalıdır. Burada çıxış yollarından biri mənbələrin, yanacaq növlərinin və ixrac marşrutlarının şaxələndirilməsidir.

Bakı–Tbilisi–Ceyhan layihəsinin başa çatdırılması, «Cənubi Qafqaz» kəmərinin genişləndirilməsi, TANAP və TAP boru kəmərlərinin inşası nəticəsində Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində getdikcə daha vacib rol oynayacaq. Azərbaycan Prezidentinin dediyi kimi, bu dəhlizin açılışı Avropanın enerji xəritəsini dəyişib. Digər natiqlərin dediyi kimi, burada söhbət yalnız TAP-ın 3 ölkəsindən getmir. Bu layihə Bolqarıstanı, daha sonra isə Balkanları, yəni Monteneqro və Xorvatiyanı, oradan isə Macarıstanı və Ukraynanı əhatə edə biləcək.

20 il öncə Bakı–Tbilisi–Ceyhan kəmərinin inşa ediləcəyinə inanmayanlar var idi. Son illərdə «Cənub Qaz Dəhlizi»nə skeptik yanaşanlar da var idi. Lakin biz bir şeyə əmin ola bilərik ki, skeptiklər heç vaxt qalib olmur və heç nəyə nail olmurlar. Azərbaycan xalqının iradəsi, ABŞ, Türkiyə və Avropadan olan tərəfdaşların əzmkarlığı skeptiklər üzərində qalib gəldi. Artıq yeni mərhələnin başlanğıcındayıq və bunun təsiri regionda, Avropada və Şərqi Aralıq dənizi hövzəsində hiss ediləcək.

Azərbaycan ilə bizim enerji tərəfdaşlığımız güclüdür və yeni layihələr meydana çıxdıqca daha da güclənəcək. İyun ayında prezident Obama məktubunda dediyi kimi, bu layihənin icrası Avropanın qaz təchizatının genişləndirilməsi baxımından mühüm addımdır və ABŞ onu dəstəkləməyə hazırdır.

Təəssüflər olsun ki, Dövlət katibi Con Kerri tədbirdə şəxsən iştirak edə bilmədi. Ancaq məndən xahiş edilib ki, bu tarixi hadisə ilə bağlı prezident İlham Əliyevə ünvanlanmış məktubu diqqətinizə çatdırım:

«Hörmətli prezident Əliyev! «Əsrin müqaviləsi»nin 20 illiyi və «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulması ilə bağlı Azərbaycan xalqına səmimi təbriklərimi bildirirəm. Bu tarixi hadisə keçmiş Sovet İttifaqında ilk böyük Qərb sərmayəsidir. Son 20 il ərzində ABŞ enerji ehtiyatlarının istismarı, Avropa və dünya enerji təchizatına töhfə, güclü və müstəqil dövlətə çevrilməsi istiqamətində Azərbaycanın əsl mənada, tərəfdaşı olub. Bakı–Tbilisi–Ceyhan kəmərinin inşası ilə yanaşı, Azərbaycan Xəzər və Aralıq dənizləri arasında birbaşa əlaqə yaradaraq dünya bazarında mühüm neft təchizatçısına çevrilib. Azərbaycan «Cənub Qaz Dəhlizi» vasitəsilə Avropa bazarlarının əlavə enerji təchizatı marşrutlarında və regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır.

Son 20 il ərzində Azərbaycan və ABŞ bir yerdə böyük işlər görüblər. «Əsrin müqaviləsi» gələcək naminə səylərimizi birləşdirərək mühüm layihələrə nail ola biləcəyimizi nümayiş etdirdi. Bu, digər sahələr üzrə də belədir: enerji təchizatının davam etdirilməsindən Şərq–Qərb ticarət dəhlizinin yaradılmasına, terrorçuluqla mübarizədən Azərbaycanda demokratik inkişafın davam etdirilməsinədək.

Azərbaycan 96 il öncə universal dəyərlərə sadiqliyini ifadə edən ilk müsəlman ölkəsi kimi, insan hüquqları və fundamental azadlıqların təmin edilməsində xalqın və hökumətin nümayiş etdirdiyi lider rolunu yenidən üzərinə götürüb. Əlaqələrimizin 3 sütunu – təhlükəsizlik, enerji və iqtisadi inkişaf, demokratiya və vətəndaş cəmiyyəti daha sadiq və daha firavan Azərbaycan ilə bağlı baxış üçün eyni dərəcədə əhəmiyyətlidir.

ABŞ bu məqsədlərə nail olmaq üçün Sizinlə və Sizin hökumətinizlə yaxından əməkdaşlıq etməyə hazırdır. Bu mü-

hüm hadisənin ildönümü ilə əlaqədar Sizə bir daha ən səmimi təbriklərimi çatdırıram.

**Səmimiyyətlə, Con Kerri».**

**A m o s   H o k s t a y n:** Cənab Prezident, cənab Kerrinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi qismində burada olmağımdan qürur duyuram. Məndən əvvəlki həmkarlarım kimi, mən də gözəl ənənəni davam etdirərək, «Cənub Qaz Dəhlizi»nin inkişafı ilə bağlı əlimdən gələni etməyə hazıram. Enerji təhlükəsizliyi Azərbaycan, Türkiyə və Avropa üçün mühüm maraq kəsb edir və bu mövzu ABŞ-ın milli təhlükəsizlik maraqlarına uyğundur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra enerji sahəsində lider olub. Əminəm ki, Siz bundan sonra da bu işləri cəsarət və əzmkarlıqla, açıq, ədalətli və şəffaf şəkildə davam etdirəcəksiniz. Firavanlığın təmin edilməsində ABŞ Sizin yanınızda olacaq.

Bir daha təbrik edirəm.

**R o b e r t   D a d l i** (*bp şirkətinin baş icraçı direktoru*):

Cənab Prezident, zati-aliləri!

Baş nazirlər!

Möhtərəm qonaqlar və həmkarlar!

Sabahınız xeyir olsun, hamımızı təbrik edirəm. Bu gün Azərbaycan və enerji sektoru üçün əlamətdar bir gündür. Burada 1994-cü ildən indiyədək son dərəcədə böyük nailiyyətlər əldə olunub. Buna görə də mən prezident Əliyevə və onun hökumətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən həmçinin Rövnəq Abdullayevə və onun ARDNŞ-dəki heyətinə və bu gün burada iştirak edən bütün tərəfdaşlara da minnətdarlığımı bildirirəm.

Biz birlikdə tərəfdaşlığın nəyə qadir olduğunu nümayiş etdiririk. Bugünkü tarix sadəcə 1 müqavilənin imzalanmasının ildönümü deyil. Bu həm də Azərbaycanın neft sənayesinin dirçəlişində əlamətdar bir gündür. Bu il mənim dünyanın enerji

sənayesini təmsil edən çoxsaylı insanların qarşısında çıxış etmək imkanım oldu. Mən həmin çıxışımda bildirdim ki, əksər insanlar müasir neft sənayesinin başlanğıcını 1859-cu ildə Pensilvaniyada qazılmış neft quyusu ilə əlaqələndirirlər. Lakin qeyd etdim ki, neft quyusu ilk dəfə 1848-ci ildə Azərbaycanda qazılıb. Odlar yurdu Azərbaycan həqiqətən də neft və qaz sənayesinin beşiyidir və 1994-cü ildə ölkə həmin sənayenin yenidən dirçəlişinin şahidi oldu. Həmin vaxt imzalanan kontrakt haqlı olaraq «Əsrin müqaviləsi» adlandırıldı. 6 müxtəlif ölkədən olan 11 şirkət ARDNŞ ilə bir araya gələrək ölkənin enerji sektorunda çıxdığı uzaq yolda yeni mərhələnin başlanğıcını qoydu. Bu yolda Azərbaycanın təbii ehtiyatlarının Bakı–Tbilisi–Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəqli mümkün oldu. Bakıdan başlanan bu kəmər Gürcüstan ərazisindən keçərək Ceyhana qədər uzanır və Bosfor vasitəsilə 1 milyon barrel neftin nəql edilməsi zərurətini aradan qaldırır. Dünyanın başqa yerində bu məsafə Hyustondan Çikaqoyadək və ya Londondan Madridədək olan məsafə qədərdir. Bu proqram çərçivəsində 2,5 milyard barrel neft hasil olunub və təxminən 30 milyard dollar dəyərində sərmayə yatırılıb.

Burada 3 əsas məqamı qeyd etmək istəyirəm. Ən əhəmiyyətli amil buraya cəlb olunmuş insanlardır. Bu həqiqətən də dünyanın müxtəlif yerlərindəki minlərlə əzmkar insanın əməyi olan beynəlxalq səyin göstəricisidir. Lakin işin əsas hissəsi burada azərbaycanlı işçilər tərəfindən həyata keçirilib.

Sizi burada salamlayıram. Əminəm ki, bu gün əməyinizin nəticəsini görürsünüz. Bir çox insanlar dərk etmir, amma «Səngəçal» terminalı həqiqətən də dünyada ən nəhəng neft terminalıdır. Bu tərəfdaşlığın uğurlu olmasına gətirən ikinci səbəb Azərbaycanın təchiz etdiyi enerjinin strateji əhəmiyyət daşımasıdır. Enerji təchizatına son dərəcə böyük tələbat var və biz təbii sərvətlərlə zəngin olan qapalı hövzədən dünya bazarlarına tam yeni bir marşrut açdıq. Bu gün biz yalnız geriyə nəzər salaraq ötən 20 ili qeyd etmirik. Həm də irəliyə baxaraq Azərbaycanın enerji tarixində yeni səhifə açırıq. Biz Xəzər

dənizindəki nəhəng «Şahdəniz» yatağından hasil olunan qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya və digər ölkələrə nəql edəcəyik.

Bu mərasimdən sonra möhtərəm Prezident bizimlə birgə «Səngəçal» terminalında «Cənub Qaz Dəhlizi»nin rəsmi təməlqoyma mərasimində iştirak edəcək. Biz birlikdə 3600 kilometr məsafədə uzanacaq, yəni Bakı–Tbilisi–Ceyhan boru kəmərindən 2 dəfə uzun olacaq boru kəməri sisteminin ilk mərhələsinin təməlini qoymağa gedirik. On illərlə davam edəcək 45 milyard dollar dəyərində olan bu layihə milyonlarla istehlakçıya xidmət edəcək və minlərlə iş yerinin açılmasına səbəb olacaq. İnnovasiya uğurun üçüncü şərtidir. Bu, ənənələrə söykənən investisiya ola bilər. Lakin eyni zamanda, texnologiya baxımından zamanı qabaqlayıb. Biz «Çıraq» platformasından 6 kilometr məsafəyə bir quyu qazmaqla, uzaq məsafəyə maili qazma texnologiyasının nəyə qadir ola biləcəyini nümayiş etdirdik. «Şahdəniz» hazırda bir çox texnologiyalar sayəsində aparıcı kimi, «Azəri–Çıraq–Günəşli» layihəsinin addımladığı yolu izləməyə hazırdır.

Cənab Prezident, enerji sahəsi böyük qayğı, əzmkarlıq və səbir tələb edən uzunmüddətli bir sahədir. İndi biz daha uzun illər davam edəcək hasilat üçün gələcəyə baxa bilərik. Bununla yanaşı, biz «Şahdəniz» yatağında hasilatın pay bölgüsü haqqında müqavilənin müddətini 2048-ci ilə qədər uzatmışıq. Bu həqiqətən də uzun müddətdir. Bu gün biz 20 illiyi qeyd edirik. Lakin 2048-ci ildə dünyada ilk neft quyusunun Azərbaycanda qazılmasının 200 ili tamam olacaq. Tədbirlər günbəgün, ilbəil bir-birini əvəz edir. Lakin iri layihələr, möhtəşəm texnologiyalar və yüksəkixtisaslı və əzmkar insanların əməyi qalır.

Fürsətdən istifadə edərək bu işə özünü həsr etmiş və «Azəri–Çıraq–Günəşli»nin 20 illik uğurlu tarixçəsinə töhfə vermiş bütün insanlara təşəkkürümü bildirirəm. *bp* şirkəti bu uzunmüddətli layihənin bir hissəsi olmaqdan çox qürur duyur. Ümid edirəm ki, biz hamımız qarşıdan gələn uzun illər boyunca

birgə əməkdaşlığımızı davam etdirəcəyik. Hamınıza təşəkkür edirəm.

Cənab Prezident, bir daha sağ olun. Gəlin bu mühüm gündən həzz alaq.

**Rövnəq Abdullayev** (*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti)*: Möhtərəm cənab Prezident, zati-aliləri!

Hörmətli xanımlar və cənablar!

Hamınızı salamlayıram. Azərbaycan Prezidenti dünən neftçilərin böyük bir qrupunu yüksək dövlət təltiflərinə layiq görüb. Bu, möhtərəm Prezidentimizin neftçilərə göstərdiyi daimi diqqət və qayğısının növbəti təzahürüdür. Mən neftçilər adından, tərəfdaş şirkətlər adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

Azərbaycanın qədim neft tarixi var. Neftin sənaye üsulu ilə çıxarılmasının, tankerlər, dəmir yolu, boru kəməri ilə nəql edilməsinin, ofşor qazmasının erasının əsası Azərbaycanda qoyulub.

XX əsrin əvvəllərində dünyada hasil edilən neftin yarısını Azərbaycan neftçiləri çıxarırdı. 90-cı illərdə isə şirkətimiz «Əsrin müqaviləsi» üzrə öz işlək payını belə, ödəyə bilmirdi. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və möhtərəm prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə uğurla davam etdirilən enerji strategiyası nəticəsində Azərbaycan böyük yüksəliş yoluna qədəm qoydu və ötən 20 ildə ölkənin siması dəyişdirildi, iqtisadiyyatı şaxələndirildi, neftdən gələn gəlirlər insan kapitalına çevrildi, SOCAR-ın imkanları genişləndi.

Bu gün «Cənub Qaz Dəhlizi»nin təməli qoyulur. Bu layihə Avropanın enerji təhlükəsizliyinə yönəlib. Biz dünyanın ən böyük, ən mürəkkəb qaz-kondensat yataqlarından biri olan «Şahdəniz» yatağının işlənilməsini uğurla həyata keçiririk. İşlənilmənin ikinci mərhələsində tərəfdaşlarımızla birlikdə «Cənubi Qafqaz» boru kəmərini genişləndirəcək, TANAP və TAP

kimi nəhəng qaz kəmərlərini inşa edəcəyik. Bu layihələrə 45 milyard ABŞ dolları məbləğində sərmayə qoyulacaq.

SOCAR artıq dünyanın neft-qaz bazarına inamla daxil olmuşdur. Biz bu gün «Cənub Qaz Dəhlizi» marşrutu boyunca böyük investisiya layihələri həyata keçiririk. Bu ölkələrin bəzilərində isə ən iri sərmayəçiyik. Qazanılmış nailiyyətlər də təsdiq edir ki, bu inkişaf davamlı olacaq, neftçilərimiz XXI əsrin layihələrini də vaxtında və yüksək keyfiyyətlə yerinə yetirəcəklər. 2018-ci ildə Azərbaycan qazı Türkiyəyə, 2019-cu ildə isə Avropaya çatdırılacaq. 2020-ci ildə isə biz böyük bir Avropa ailəsi kimi, Bakıda möhtəşəm futbol bayramını birlikdə qeyd edəcəyik. Diqqətinizə görə sağ olun.

* * *

*Sonra Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələrindən bəhs edən videoçarx nümayiş etdirildi.*

*Daha sonra dövlət və hökumət başçıları, digər rəsmi şəxslər «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimində iştirak etmək üçün «Səngəçal» terminalına yollandılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və təməlqoyma mərasiminin digər iştirakçıları rəmzi olaraq xüsusi qəliblərin üzərində əl izlərini qoydular.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Tanər Yıldız, Yunanıstanın Baş naziri Antonis Samaras, Bolqarıstan prezidenti Rosen Plevneliev, Albaniyanın Energetika naziri Damian Giknuri, İtaliyanın İqtisadi İnkişaf nazirinin müavini Klaudio de Vinsenti, Monteneqronun Baş naziri Milo Cukanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və İnvestisiyalar naziri Lord Livinqston, ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstayn, bp şirkətinin baş icraçı direktoru Robert Dadli, Azərbaycanın Energetika naziri Natiq Əliyev və ARDNŞ-in prezidenti Rövnəq Abdullayev*

*«Cənub Qaz Dəhlizi»nin təməlinə qoyulacaq ilk borunu imzaladılar və «Cənub Qaz Dəhlizi»nin təməli qoyuldu.*

## BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYALAR ÜZRƏ DÖVLƏT NAZİRİ LORD LİVİNQSTON İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və İnvestisiyalar üzrə Dövlət naziri Lord Livinqstonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu bildirildi, dinamik inkişaf edən əməkdaşlığımızın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları, qeyri-neft sektoru, kənd təsərrüfatı, səhiyyə, təhsil sahələrinin inkişafına, infrastruktur layihələrinin həyata keçirilməsinə xüsusi diqqət yetirildiyi bildirildi.*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN BEYNƏLXALQ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uzun illər səmərəli əməkdaşlıqdan məmnunluğunu bildirdi, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələrə Amerika Birləşmiş Ştatları Hökumətinin verdiyi dəstəyin önəmini qeyd etdi.*

*«Cənub Qaz Dəhlizi» layihəsinin böyük regional əhəmiyyət daşıdığını vurğulayan Amos Hokstayn layihənin təməlqoyma mərasimi münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT, HÖKUMƏT VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİ BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*20 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından sentyabrın 20-də «Əsrin müqaviləsi»nin 20 illiyinə və «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulmasına həsr edilən təntənəli mərasimdə iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə nahar verilmişdir.*

*Dövlət, hökumət və nümayəndə heyətlərinin başçıları Dağüstü parka gəldilər. Qonaqlar buradan Bakının mənzərəsini seyr etdilər.*

*Sonra xatirə şəkli çəkdirildi və prezident İlham Əliyevin adından qonaqların şərəfinə nahar verildi.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də bp şirkətinin baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzunmüddətli uğurlu əməkdaşlığın önəmi vurğulandı, «Cənub Qaz Dəhlizi» layihəsinin regional əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu, layihənin icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNİN BƏRƏ TERMİNALININ AÇILIŞI MƏRASİMİ

*22 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci mərhələsi çərçivəsində bərə terminalının açılışı mərasimində iştirak etmişdir.*

*Son illərdə respublikamızda, o cümlədən paytaxt Bakıda nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi və Azərbaycanın tranzit potensialının gücləndirilməsi üçün silsilə və kompleks tədbirlər həyata keçirilir. Bu baxımdan ötən əsrin 30-cu illərində tikilən Bakı Dəniz Ticarət Limanı da günün tələblərinə cavab vermirdi. Bakının mərkəzində yerləşən əvvəlki liman sakinlər üçün problemlər yaradır, bulvarın genişləndirilməsinə də mane olurdu. Dünyanın sürətli və dinamik inkişaf edən ölkələrindən biri olan Azərbaycanda yeni böyük və çoxfunksiyalı limanın tikintisinə ehtiyac duyulurdu. Bununla bağlı dövlətimizin başçısının 2007-ci ildə imzaladığı müvafiq sərəncama uyğun olaraq hökumət tərəfindən lazımi tədbirlər həyata keçirildi. Nəqliyyat Nazirliyinin sifarişi ilə Niderlandın «Royal Haskoning» şirkəti tərəfindən limanın baş planı və layihəsi hazırlandı. 2010-cu il noyabrın 3-də prezident İlham Əliyev yeni limanın təməlini qoydu. Layihənin birinci mərhələsi çərçivəsində bərə terminalı, quru yük terminalı, konteyner sahəsi, giriş-çıxış kanalı, avtomobil və dəmir yolları, eləcə də digər qurğular, infrastruktur obyektləri və binaların tikintisinə başlanıldı. Yerləşdiyi ərazinin böyük üstünlüklərə malik olması sayəsində yeni liman Azərbaycanda nəqliyyatın təhlükəsizliyi*

məsələlərini uğurla həll etməyə, Bakını Xəzər hövzəsində çox müasir və böyük logistika, nəqliyyat mərkəzinə çevirməyə, Xəzəryanı ölkələr arasındakı əməkdaşlığı dərinləşdirməyə, Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə əlverişli imkanlar yaradır. Ötən müddətdə görülən işlər nəticəsində artıq bərə terminalı istismara hazırdır.

Dövlətimizin başçısı əvvəlcə görülən işlərlə bağlı fotostendə və kompleksin maketinə baxdı. Prezident İlham Əliyevə məlumat verildi ki, yeni limanın tikintisi üçün 400 hektar ərazi ayrılıb. Limanın akvatoriyasında dərinləşdirmə işlərini Hollandiyanın «Van Oord» şirkəti həyata keçirib. Həmin qurum tərəfindən uzunluğu 7,5 kilometr, eni 160 metr, dərinliyi 7 metr və dönmə dairəsinin diametri 450 metr olan giriş-çıxış kanalı inşa olunub. Bu isə Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasına imkan verir.

Bildirildi ki, liman ərazisinin quru hissəsinin tikintiyə hazırlanması və Bakı–Ələt magistral avtomobil yolu ilə liman kompleksini birləşdirən yol infrastrukturunun layihələndirilməsini və tikintisini, avadanlıqların təchizatı və quraşdırılmasını «EvrAsKon» şirkəti reallaşdırıb. Birinci mərhələnin davamı olaraq inşa edilən quru yük terminalı və Ro-Ro körpüsünün 2016-cı ildə istismara verilməsi nəzərdə tutulub.

Diqqətə çatdırıldı ki, bərə körpüsünün ümumi tikinti sahəsi 17 hektar ərazini əhatə edir. Burada eyni vaxtda 2 bərəni qəbul edə bilən, uzunluğu 175 metr, eni 12,5 metr olan əsas yanalma körpüsü inşa edilib. Dəniz səviyyəsindən 4,25 metr hündürlükdə tikilmiş körpü Xəzərdə suyun səviyyəsinin dəyişməsindən asılı olmayaraq gəmilərin yanalmasına imkan yaradır. Bərə körpüsünə xidmət üçün hər birinin uzunluğu 79 metr olan dəmir yolu-bərə birləşdirici 2 körpü və uzunluğu 809 metr olan 1 xidməti körpü inşa edilib. 5 dəmir yolu xəttindən ibarət çeşidləmə parkı, müasir naviqasiya-rabitə sistemləri, avtomobil yolu, tunel, həmçinin digər infrastruktur və kommunikasiya obyektləri və qurğuları da istismara hazırdır. Limandakı böyükhəcmli tikinti işlərinə əsasən yerli işçilər olmaqla, 2000 nəfərlik heyət və 500-

*dən çox texnika cəlb edilib. Birinci mərhələ çərçivəsində indiyə qədər 6 milyon kubmetr həcmində torpaq, 300 min kubmetr həcmində beton, 1874 dəmir-beton svay işləri görülüb. Birinci mərhələ çərçivəsində Ro-Ro tipli gəmilər üçün 1 körpü və 4 körpüdən ibarət universal quru yük və konteyner terminalının inşası davam edir. Bundan başqa, təmir bazası, gözləmə salonları, anbarlar, sərhəd və gömrük xidməti məntəqələri və digər obyektlərin tikintisi və quraşdırma işləri vüsət götürür.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, birinci mərhələdə limanın yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdən ibarət olacaq. İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaq. Limanda layihə üzrə logistika mərkəzinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. İlkin mərhələdə burada 100 min konteynerin saxlanması və yük sahiblərinə müxtəlif növ xidmətlərin göstərilməsi nəzərdə tutulub.*

*Terminalla tanışlıqdan sonra dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Ələt qəsəbəsində Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu limanın fəaliyyəti nəticəsində Azərbaycanın inkişafı daha da sürətlə gedəcək, ölkə iqtisadiyyatına yeni investisiyalar qoyulacaq və Azərbaycan tranzit ölkə kimi, öz imkanlarını daha da genişləndirəcəkdir.

Təxminən 4 il bundan əvvəl – 2010-cu ilin noyabrında bu limanın təməli qoyulmuşdur. Məqsəd ondan ibarət idi ki, Azərbaycan öz tranzit imkanlarından tam şəkildə istifadə etsin. Mütləq bizə yeni böyük ticarət limanı lazım idi və dövlət bu məqsədlərə böyük həcmdə investisiya ayırıb. Burada tikilən

bütün infrastruktur dövlət büdcəsi hesabına mümkün olub və bu bir daha onu göstərir ki, ölkəmizin, o cümlədən nəqliyyat sektorunun inkişafı ilə bağlı çox konkret proqramlarımız, planlarımız var. Biz bu planları ardıcıl surətdə icra edirik və hazırda Azərbaycanda mövcud olan nəqliyyat infrastruktur obyektləri bizim nəqliyyat təhlükəsizliyimizi təmin edir.

Biz enerji təhlükəsizliyimizi tam şəkildə təmin etmişik və başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində iştirak edirik. 2 gün bundan əvvəl Bakıda tarixi hadisə baş verdi – «Cənub Qaz Dəhlizi»nin təməl daşı qoyuldu. Enerji təhlükəsizliyi məsələləri, əlbəttə ki, hər bir ölkənin milli təhlükəsizlik məsələləridir. Biz bu sahədə ardıcıl surətdə apardığımız fəaliyyət nəticəsində Azərbaycanın enerji təhlükəsizliyini tam şəkildə təmin etmişik və bundan sonra onilliklər ərzində bu, ölkəmizə həm maddi, həm siyasi dividendlər gətirəcək, həm də Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi, öz rolunu daha da böyük həcmdə oynayacaqdır.

Biz hazırda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəal işləyirik və demək olar ki, əsas ərzaq məhsulları ilə özümüzü təmin edirik, ixrac imkanlarımız yaranır. Bir sözlə, növbə çatıb ki, biz nəqliyyat təhlükəsizliyimizi tam şəkildə təmin edək. Artıq neçə ildir ki, bu istiqamətdə fəal iş aparılır. Bu limanın açılışı da bu böyük işlərin tərkib hissəsidir.

Bu gün bu böyük limanın birinci mərhələsinin birinci hissəsi istifadəyə verilir. Birinci mərhələ gələn il tam şəkildə başa çatacaq. Bu limanın yükaşırma qabiliyyəti 25 milyon ton yük və 1 milyon konteyner olacaq. Yəni Ələt Ticarət Limanı Xəzər dənizində ən böyük limandır. Biz bu limanın tikintisi ilə Xəzər dənizində əməkdaşlığı daha da dərinləşdirəcəyik.

Yaxın günlərdə Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti Zirvə görüşü keçiriləcək. Keçən Zirvə görüşü Bakıda keçirilmişdir. Hesab edirəm ki, yeni Zirvə görüşü ərəfəsində Xəzərdə ən böyük ticarət limanının istifadəyə verilməsi bizim ümumi işimizə bir töhfədir.

Bu limanın fəaliyyəti nəticəsində Ələt qəsəbəsində də müsbətə doğru daha böyük dəyişikliklər olacaq. Mən dəfələrlə demişəm, bütövlükdə Azərbaycanın bir neçə sənaye mərkəzi vardır ki, onlardan biri Qaradağ rayonudur. Burada yaradılan yeni sənaye müəssisələri – bu yaxınlarda ölkəmizin ən böyük Sement zavodunun, Metal konstruksiyalar zavodunun, «Səngəçal» terminalının və bu limanın fəaliyyətə başlaması Qaradağ rayonunun inkişafına bir töhfədir. Eyni zamanda, burada minlərlə yeni iş yeri açılacaqdır ki, Ələt qəsəbəsinin sakinləri bundan istifadə edəcəklər. Yüksək maaş veriləcək və bu liman gələcəkdə bu ərazidə infrastrukturun genişlənməsinə xidmət göstərəcək.

Bizim böyük planlarımız var və hesab edirəm ki, bu, bölgənin, bu zonanın inkişafına yeni təkan verəcək. Biz bu layihəni planlaşdıranda, əlbəttə, şəhərimizin ekoloji vəziyyətini də nəzərə aldıq. Çünki biz hesab edirik ki, bu gün Bakıda icra edilən quruculuq, abadlıq işləri mütləq ekoloji tədbirlərlə dəstəklənməlidir. Biz bu işləri paralel şəkildə aparırıq. Bakının yaşıllaşdırılması, milyonlarla ağacın əkilməsi, bəzi köçürmələrin həyata keçirilməsi və o ərazilərdə ictimai yerlərin, parkların, istirahət zonalarının yaradılması bizim siyasətimizin təzahürüdür.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Biz gözəl şəhərimizi öz işimizlə daha da gözəlləşdiririk. Hazırda şəhərimizin mərkəzində yerləşən ticarət limanı, əlbəttə ki, oradan köçürülməlidir və o zona bizim bulvara birləşdirilməlidir. Beləliklə, Bakıda yeni bir gözəl istirahət məkanı yaranacaqdır.

Bakı bulvarı artıq 100 ildən bir qədər çoxdur ki, mövcuddur. Onun ilkin uzunluğu 3,5 kilometrdir. Biz əlavə tədbirlər nəticəsində Bakı bulvarının uzunluğunu xeyli dərəcədə artıra bilmişik. Yeni bulvar tikilib, artıq fəaliyyətdədir. Yeni bulvardan sonra Bayraq Meydanı bulvarı artıq fəaliyyətə başlayıb. Bayraq Meydanından bu istiqamətə idman şəhərciyi tikilir. Orada da bulvarın uzadılması artıq icra edilir. Əks istiqamətə – Dəniz vağzalından Zığ, «Ağ şəhər» istiqamətinə

«Ağ şəhər» bulvarı tikilir və artıq «Ağ şəhər» istiqamətinə çatıbdır.

Beləliklə, bu ilin sonuna qədər Bakı bulvarının uzunluğu 16 kilometrdən çox olacaq – 100 il bundan əvvəl 3,5 kilometr, müstəqillik dövründə 16 kilometr. Hazırda şəhərin mərkəzində yerləşən ərazidə ictimai yerlər, parklar, istirahət zonaları olacaq. Beləliklə, Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün yeni imkanlar yaranacaq.

Bax, bu limanın fəaliyyətə başlaması görün nə qədər böyük dəyişikliklərə gətirib çıxarır. Yenə də deyirəm, ilk növbədə, bizim nəqliyyat infrastrukturumuz daha da gücləndiriləcəkdir. Bu istiqamətdə son illərdə böyük işlər görülüb.

Keçən il – düz 1 il bundan əvvəl – 2013-cü il sentyabrın 20-də Bakıda Gəmiqayırma zavodu istifadəyə verilmişdir. Bu da dövlət siyasətinin tərkib hissəsi idi. Çünki biz yükdaşımalarını artırmaq üçün indi böyük səylər göstəririk. Son 10 il ərzində 17 gəmi alınmışdır – tankerlər, yük gəmiləri, bərələr. Biz fikirləşdik ki, onsuz da donanmamızı yeniləşdirməliyik. Ona görə Bakıda Gəmiqayırma zavodu tikmək qərarına gəldik ki, artıq xarici istehsalçılardan asılılığımız olmasın.

Xarici şirkətlərlə əməkdaşlıq başlanmışdır. Keçən il istifadəyə verilmiş Gəmiqayırma zavodunda artıq gəmilər inşa edilir. Həm ölkə daxilindən, həm neft konsorsiumu tərəfindən sifarişlər verilib. Biz gözləyirik ki, Xəzəryanı ölkələrdən sifarişlər olacaq. Bizim Gəmiqayırma zavodumuzda bütün növ gəmilər istehsal oluna bilər. Bax, budur bizim siyasətimizin əsas istiqamətləri. Bu siyasət konkret nəticələrə gətirib çıxarır. Azərbaycanda heç vaxt Gəmiqayırma zavodu olmamışdı. Gəmi təmiri zavodu olmuşdu, amma Gəmiqayırma zavodu olmamışdı. Biz xaricdən asılı idik.

Bu liman Xəzər dənizində ən böyük ticarət limanıdır və bayaq qeyd etdiyim kimi, bütün Xəzəryanı ölkələrə xidmət göstərəcək. İlk növbədə, Azərbaycana xidmət göstərəcək. Bizim ərazimizdən daşınan tranzit yüklərin həcmi artacaq, onsuz da artır. Bu ilin göstəricilərinə görə tranzit yüklərin həcmi artıb.

Azərbaycanın əlverişli coğrafi vəziyyəti bizə imkan verir ki, gələcəkdə tranzit imkanlarımızı daha da genişləndirək. Şərq–Qərb və Şimal–Cənub dəhlizləri Azərbaycan ərazisindən keçir. Amma əgər burada müasir logistika, nəqliyyat infrastrukturu olmazsa, biz bu imkanlardan istifadə edə bilmərik. Ona görə hazırda Bakı–Tbilisi–Qars dəmir yolu tikilir. Bu layihə də Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə birlikdə reallaşır. Bu layihənin tarixi əhəmiyyəti var. İlk dəfə olaraq Azərbaycan dəmir yolu vasitəsilə Avropa ilə birləşəcək. Azərbaycan Avropa ilə Asiya arasında bir dəmir yolu körpüsü olacaqdır. İndi ehtimal edirik ki, bu layihə fəaliyyətə başlayandan sonra ən azı əlavə 10 milyon ton yük bizim ərazimizdən keçəcəkdir. Bu yükü daşımaq üçün yükaşırma qabiliyyəti olmalıdır. Bu limanın tikintisinin məqsədi də məhz budur. Yəni bütün bu nəqliyyat infrastrukturunun seqmentləri bir-biri ilə bağlıdır. Əgər bu liman olmazsa, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi bizə o qədər də böyük səmərə verməz. Bu dəmir yolu ilə 10 milyon ton, ondan sonra 20 milyon ton yük daşınacaqdır. Ancaq bu yükü qəbul etmək, aşırmaq lazımdır. Ona görə Bakı–Tbilisi–Qars dəmir yolu tarixi layihədir. Gəmiqayırma zavodu bizə imkan verəcək ki, yükləri öz gəmilərimizlə daşıyaq. Liman şərait yaradacaq ki, yükaşırma imkanlarımız genişlənsin. Yəni bu təbiidir. Sadəcə olaraq, bunu deməklə qeyd etmək istəyirəm ki, bugünkü hadisə böyük proqramın tərkib hissəsidir.

Biz Azərbaycanı bütövlükdə nəqliyyat, logistika mərkəzinə çevirmək üçün çox fəal işləyirik. Avtomobil yolları tikilir, Bakı–Gürcüstan sərhədi avtomobil yolu istifadəyə verilib, Bakı–Rusiya sərhədi avtomobil yolunun böyük hissəsi tikilib, Bakı–İran sərhədi avtomobil yolunun tikintisi davam edir. Yəni avtomobil yolları, dəmir yollarının reabilitasiyası, tikintisi, dəniz nəqliyyatı, Gəmiqayırma zavodu, ticarət limanı, aviasiyamız, xüsusilə yük aviasiyamız inkişaf edir. İndi bizim böyük yük təyyarələrimiz var. 7 aeroport tikilib, onlardan 5-i beynəlxalq aeroportdur. Artıq o aeroportlardan sərnişinlər başqa ölkələrə uçurlar. Azərbaycan bu mərkəzdə, bu regionda hava nəqliyyatı, hava yük nəqliyyatı üzrə liderliyini təmin edir.

Bir sözlə, bütün bu işlər artıq deməyə əsas verir ki, biz öz nəqliyyat infrastrukturumuzu ən müasir səviyyədə yaratmışıq, işlərin böyük hissəsi artıq başa çatıb. Bu liman çatışmayan bir seqment, element idi. Biz indi onu da istifadəyə veririk. Tam gücü ilə 2 il bundan sonra çalışacaq. O vaxta qədər biz yeni yükləri Azərbaycana gətirməliyik. Burada çox düşünülmüş tarif siyasəti aparılmalıdır ki, tərəfdaşlarımız Azərbaycan üzərindən yükdaşımalarını daha da böyük həcmdə göndərsinlər və biz də bundan fayda görək.

Eyni zamanda, görülən bütün bu işlərin məqsədi Azərbaycanı daha da gücləndirməkdir, Azərbaycanın önəmini artırmaqdır. 2 gün bundan əvvəl təməlini qoyduğumuz «Cənub Qaz Dəhlizi» ölkəmizin önəmini böyük dərəcədə artıracaq. Çünki biz Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində çox böyük addım atmışıq. Azərbaycan bu istiqamətdə əvəzolunmaz ölkəyə çevrilir.

Bu limanın tikintisi də bizim önəmimizi artırır. Çünki Xəzər dənizində buna bənzər ikinci liman yoxdur və bu liman bizim iqtisadi gücümüzü artıracaq. İqtisadiyyat da artır, inkişaf edir. Bu yaxınlarda dünyanın iqtisadi məsələlərlə məşğul olan ən mötəbər Forumu – Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Biz bir pillə də artmışıq və dünya miqyasında bu sahədə 38-ci yeri tutmaq, əlbəttə ki, böyük nailiyyətdir, böyük uğurumuzdur.

Ölkəmiz inamla irəliyə gedir, bizim konkret planlarımız var, bu planlar reallaşır. Bugünkü hadisə bir daha onu göstərir ki, bizim nəzərdə tutduğumuz bütün məsələlər keyfiyyətlə, vaxtında icra edilir. Limanın tikintisi beynəlxalq əməkdaşlığın təzahürüdür. Bu böyük, nəhəng infrastruktur obyektinin layihələndirilməsini Hollandiya şirkəti icra edib. Əlbəttə, bu bizə şərait yaradır ki, Azərbaycan belə gözəl infrastruktur imkanlarına malik olsun.

Azərbaycanda beynəlxalq əməkdaşlıq sürətlə inkişaf edir. Əgər enerji sahəsində beynəlxalq əməkdaşlıq olmasa idi, biz öz zəngin neft-qaz resurslarımızı dünya bazarlarına çıxara bilməzdik. Azərbaycan investisiyalar üçün açıqdır. Azərbaycanda minlərlə xarici şirkət fəaliyyət göstərir, işləyir, dövlətdən kontraktlar alır, o

kontraktları icra edir. Bizim xarici şirkətlər qarşısında qoyduğumuz əsas şərt keyfiyyətdir və ən müasir standartlardır. Biz burada bunu görürük. Ona görə bu limanın layihələndirilməsində, tikintisində iştirak etmiş bütün şirkətlərə, insanlara, həm xarici vətəndaşlara, həm Azərbaycan vətəndaşlarına minnətdarlığımı bildirirəm. Əminəm ki, limanın fəaliyyəti uğurlu olacaq. Bir daha sizi təbrik edirəm.

* * *

**Hans Luijenburq** (*«Van Oord Dredging and Marine Contractors BV» şirkətinin regional ofisinin rəhbəri*):

Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli qonaqlar!

Təmsil etdiyim «Van Oord Dredging and Marine Contractors» şirkəti adından bildirmək istəyirəm ki, belə əlamətdar bir günə – Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalının açılışına dəvət olunmağımız bizim üçün şərəfdir.

«Van Oord» Niderland Krallığının bir neçə onillik tarixə malik ailə biznesi şirkətidir.

Azərbaycan Respublikası kimi, Niderlandın da böyük hissəsi dənizlə həmsərhəddir. Niderland əhalisinin yarısı dəniz səviyyəsindən aşağıda yaşayır.

Digərləri kimi, holland xalqı da su ilə mübarizə aparmağın, eləcə də suyu özünün ən böyük fəaliyyət sahəsinə çevirməyin müxtəlif yollarını öyrənib. Limanın tikintisi hər bir ölkənin iqtisadi inkişafı üçün həyati əhəmiyyət daşıyır. Ticarət obyektləri, malların idxalı və ixracı yaxşı təşkil olunmazsa, ölkənin tərəqqisi bir sıra məhdudiyyətlərlə qarşılaşacaq. Hollandiyada hər gün «Rotterdam» limanının cəmiyyətimizin həyatında necə önəmli rol oynamasının şahidi oluruq.

Azərbaycan Respublikası bu limanın tikintisini həyata keçirməklə böyük uzaqgörənlik göstərib və digər Xəzəryanı ölkələr də hazırda bundan nümunə götürür.

Tezliklə Türkmənbaşı limanının genişləndirilməsi nəzərdə tutulur. Eyni işlər Aktau limanında da planlaşdırılır. Görüləsi

bir çox işlər var və bütün bu işlər regionun inkişafı üçün böyük əhəmiyyət daşıyır. Şərq ilə Qərbi birləşdirən tarixi İpək yolu layihəsinin «İpək ticarət yolu» layihəsinə çevrilməsi işləri ənənələrə uyğun olaraq aparılır.

Fəxr edirik ki, belə bir layihənin həyata keçirilməsi üçün bizim şirkətimiz seçilib. 2011-ci ilin sentyabrında Ələtdə yanaşma kanalı və liman hövzəsinin dibdərinləşdirmə işlərini aparmağa «Van Oord» şirkəti layiq görülüb və müqavilə imzalanıb. Həmin ilin noyabrından başlayaraq işlər 17 ay – gecə və gündüz, gündə 24 saat və həftədə 7 gün olmaqla davam edib və layihə sifarişçi Nəqliyyat Nazirliyini tam razı salacaq tərzdə başa çatdırılıb.

Niderlanddan gətirilən ixtisaslaşdırılmış avadanlığımızla dənizin dibindən ümumilikdə 8,8 milyon kubmetr torpaq qazılıb çıxarılıb. Hazırda limanda gəmilərin 7 metr dərinliyə kimi Xəzər dənizinə giriş-çıxışı mümkündür. Qazılan kanalın uzunluğu təxminən 7,5 kilometrə çatır.

İstənilən layihə həlli çətin olan bir sıra şərtlərlə üzləşir. «Van Oord» şirkəti bütün dünya üzrə fəaliyyət göstərir və dənizdə iş şəraiti ilə yaxından tanışdır. Layihənin icrası zamanı Azərbaycan barədə tamamilə yeni bir şey öyrəndik – Bakı küləklər şəhəridir. Bakının küləyi həqiqətən də güclüdür və kəskindir. Güclü külək gəmi heyətinin öhdəsindən gəlməli olduğu ən mürəkkəb şərtlərdən biridir. Beləliklə, bu ölkəni fərqləndirən amillərdən biri ilə tanış olduq.

Azərbaycanın yerli ictimaiyyətinin, şəxsi heyətinin və işçilərinin dəstəyi olmadan bu layihəni heç vaxt tamamlaya bilməzdik. Layihə komandasında Azərbaycandan və Niderlanddan olan işçilər çiyin-çiyinə çalışıblar. Fürsətdən istifadə edərək, bu layihənin müvəffəqiyyətlə başa çatmasında əməyi olan bütün işçilərə minnətdarlığımı bildirmək istəyirəm.

Bu bizim Azərbaycanda həyata keçirdiyimiz ilk layihə idi və xoşbəxtlikdən sonuncu olmadı. Daha sonra «Van Oord» şirkəti «Crescent» hotelinin tikintisi layihəsi çərçivəsində dib-dərinləşdirmə işlərinin və Bakı Gəmiqayırma zavodu üçün

dibdərinləşdirmə işlərinin aparılmasında iştirak edib. Məqsədimiz gələcəkdə yerli hökumət orqanları ilə birgə əməkdaşlıq və tərəfdaşlıq şəraitində tərəflərin qarşılıqlı mənafeyi üçün fəaliyyətimizi və digər tikinti işlərinin həcmini genişləndirməkdən, bu sahədə biliklərimizi bölüşməkdən ibarətdir.

Dünyanın bir çox ölkələrində yaşamış insan olaraq deyə bilərəm ki, Azərbaycanda yaşamaq və işləmək çox gözəl təcrübədir. İnsanların qonaqpərvərliyi və nəzakəti, müsbət düşüncə tərzi, gözəl landşaftı və dərin köklərə malik mədəniyyəti Azərbaycanı yaşamaq üçün çox cazibədar bir məkana çevirir. Ümid edirəm ki, Bakıda daha uzun illər keçirəcəyik və ölkənizin müasirləşdirilməsinə töhfəmizi verəcəyik.

Bir daha şirkətimiz adından cənab prezident İlham Əliyevə, Azərbaycan xalqına, Nəqliyyat nazirinə və nazirliyin əməkdaşlarına Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi layihəsinin həyata keçirilməsində «Van Oord» şirkətinin iştirakına göstərdikləri dəstək və inama görə minnətdarlığımı bildirirəm.

Mən cənab Prezidentə və Azərbaycan xalqına yeni liman kompleksində terminalın açılışı münasibətilə təbriklərimi çatdırıram, limanın gələcək istifadəçilərinə bu kompleksi Azərbaycan iqtisadiyyatının böyük uğuruna çevirməkdə müvəffəqiyyətlər arzu edirəm.

Diqqətinizə görə minnətdaram.

**Ziya Məmmədov** (*Nəqliyyat naziri*): Zati-aliləri, möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinin inkişaf etdirilərək müasirləşdirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Sizin, cənab Prezident, qəbul etdiyiniz qərarlar, bu sahəyə göstərdiyiniz yüksək diqqət sayəsində genişmiqyaslı işlər görülüb, ölkəmizdə dayanıqlı və rəqabətqabliyyətli nəqliyyat sistemi formalaşdırılıb. Zati-alilərinizin ideyaları əsasında reallaşan regional əhəmiyyətli nəhəng infrastruktur layihələri ulu öndər Heydər Əliyevin təşəbbüskarı olduğu tarixi İpək yolunun bərpasına, beynəlxalq daşımaların

asanlaşmasına, Avrasiya məkanında əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanın tranzit potensialının artırılmasına təminat yaradır.

Həyata keçirilən genişmiqyaslı layihələrdən biri də imzaladığınız sərəncama əsasən Ələt qəsəbəsində yeni inşa olunan Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır.

Möhtərəm cənab Prezident, ali diqqətinizə məruzə edirəm ki, yeni limanın tikintisinin birinci mərhələsi çərçivəsində inşa edilmiş bərə terminalı artıq istismara hazırdır.

Hollandiyanın «Royal Haskoning» şirkəti tərəfindən hazırlanmış limanın baş planına və layihəyə əsasən, tikinti üçün 400 hektar ərazi ayrılmış və inşaat işləri liman ərazisinin quru və dəniz hissələrini əhatə edir.

Limanın akvatoriyasında dibdərinləşdirmə işlərini Hollandiyanın «Van Oord» şirkəti həyata keçirib. Şirkət tərəfindən uzunluğu 7,5 kilometr, eni 160 metr, dərinliyi 7 metr və dönmə dairəsinin diametri 450 metr olan giriş kanalı inşa edilib. Bu, Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir.

Liman ərazisinin quru hissəsinin tikintiyə hazırlanması və Bakı–Ələt magistral avtomobil yolu ilə liman kompleksini birləşdirən yol infrastrukturunun layihələndirilməsi və tikintisi, avadanlıqların təchizatı və quraşdırılması Azərbaycan şirkəti olan «EvrAsKon» tərəfindən aparılır.

Birinci mərhələnin davamı olaraq inşa edilən quru yük terminalının və «Ro-Ro» körpüsünün 2016-cı ildə istismara verilməsi nəzərdə tutulur.

Bərə körpüsünün ümumi tikinti sahəsi 17 hektar ərazini əhatə edir. Burada eyni vaxtda 2 bərəni qəbul edə bilən uzunluğu 175 metr, eni 12,5 metr olan əsas yanalma körpüsü inşa edilib. Dəniz səviyyəsindən 4,25 metr hündürlükdə tikilmiş körpü Xəzərdə suyun səviyyəsinin dəyişməsindən asılı olmayaraq, gəmilərin yanalmasına imkan yaradır.

Bərə körpüsünə xidmət edən, hər birinin uzunluğu 79 metr olan dəmir yolu-bərə birləşdirici 2 körpü və uzunluğu 89 metr olan 1 xidməti körpü inşa edilib.

Limanın Baş Ələt stansiyasına bağlantısını təmin etmək üçün hər birinin uzunluğu 850 metr olan 5 dəmir yolu xəttindən ibarət çeşidləmə parkı, vaqonların bərələrə verilib-götürülməsi üçün hər birinin uzunluğu 450 metr olan 8 dəmir yolu xətti inşa edilib və yolların istismarı mərkəzi dispetçer idarəetmə sisteminə qoşulub. Çeşidləmə parkında əlavə olaraq daha 8 dəmir yolu xətti çəkiləcəkdir. Eyni zamanda, Baş Ələt stansiyasında yenidənqurma işləri aparılıb.

Bundan əlavə, limanda müasir naviqasiya-rabitə sistemləri quraşdırılıb, 8 kilometr uzunluğunda avtomobil yolu, magistral yola çıxışı təmin edən uzunluğu 56, eni 28 metr olan tunel tipli yol qovşağı, 10 kilometr su, 5 kilometr kanalizasiya və 6 kilometr drenaj, 41 kilometr kommunikasiya, 103 kilometr elektrik xətləri tikilərək hazır vəziyyətə gətirilib. Ballast və çirkab sularının təmizlənməsi üçün limanda 600 kubmetr həcmli tənzimləyici qurğu tikilib.

Buradakı böyükhəcmli tikintiyə əsasən yerli işçilər olmaqla, 2000 nəfərlik heyət və 500-dən artıq müxtəlif texnika və avadanlıq cəlb edilib. Birinci mərhələ çərçivəsində burada 6 milyon kubmetr həcmində torpaq, 300 min kubmetr həcmində beton, 1874 ədəd dəmir-beton svay işləri yerinə yetirilib.

Bu mərhələdə «Ro-Ro» tipli gəmilər üçün 1 körpü və 4 körpüdən ibarət universal quru yük və konteyner terminalı inşa olunacaqdır. Həmçinin xidməti gəmilər üçün təmir bazasının, limanın inzibatı binasının, sərnişinlər üçün beynəlxalq giriş-çıxış zallarının, yük sahələri və anbarların, müasir avadanlıqlarla təchiz olunmuş sərhəd və gömrük xidməti məntəqələrinin, bütövlükdə müxtəlif təyinatlı 30 binanın tikintisi həyata keçiriləcək, kran, maşın və mexanizmlərin quraşdırılması təmin olunacaqdır.

Terminal daxilində gömrük nəzarətinin təşkili və əməliyyatların aparılması məqsədilə beynəlxalq standartlara cavab

verən yoxlama-təyinetmə avadanlıqlarının, müşahidə kameralarının və digər rabitə vasitələrinin quraşdırılması nəzərdə tutulur.

Quru yük terminalının ümumi uzunluğu akvatoriya hissəsində 650 metr, baş hissədə divarın uzunluğu 260 metr, yükaşırma qabiliyyəti 3 milyon ton təşkil edir.

Birinci mərhələdə limanın yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdən ibarət olacaqdır. İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaqdır.

Layihənin önəmli hissələrindən biri də limanda logistika mərkəzinin yaradılmasıdır. İlkin mərhələdə 50 hektar ərazidə yerləşəcək mərkəzdə 80 min kvadratmetr xüsusi anbar və sahələr yaradılaraq, burada 100 min ədəd konteynerin saxlanılması və yük sahiblərinə müxtəlif növ xidmətlərin göstərilməsi təmin ediləcəkdir. Mərkəzin gələcək inkişafı üçün limanın ərazisində əlavə sahə nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Azərbaycan dəmir yollarının yenidən qurulması, ölkəmizin müasir magistral avtomobil yolları şəbəkəsinin yaradılması, yeni lokomotivlərin, vaqonların, bərə və gəmilərin alınması, Gəmiqayırma zavodunun inşası, beynəlxalq hava limanlarının tikintisi, regionun ən böyük Bakı–Tbilisi–Qars dəmir yolu xətti kimi layihələr məhz Sizin uzaqgörən siyasətinizin və şəxsi iradənizin nəticəsi olaraq, Azərbaycanın nəqliyyat sistemini regionun nəhəng nəqliyyat mərkəzinə çevirir, ölkəmizin nəqliyyat təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Bu cür müasir nəqliyyat infrastrukturu obyektlərinin yaradılması barədə qəbul etdiyiniz qərarlara, nəqliyyat sistemində çalışan insanların əməyinə verdiyiniz yüksək qiymətə görə zati-alilərinizə dərin minnətdarlığımızı bildirirəm və Sizi əmin edirəm ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının növbəti mərhələlərinin tikintisi də məsuliyyətlə yerinə yetiriləcəkdir.

Diqqətinizə görə minnətdaram.

* * *

*Daha sonra prezident İlham Əliyev bərə terminalını işə saldı, yük vaqonlarının «Bərdə» və «Azərbaycan» gəmi-bərələrinə yüklənərək terminaldan yola salınması prosesinə baxdı.*

*Dövlətimizin başçısı bu mühüm layihəni reallaşdıranlara bir daha uğurlar arzuladı.*

## İSMAYILLI RAYONUNA SƏFƏR

*22 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İsmayıllı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə İsmayıllı şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov abidənin yerləşdiyi ərazidə – rayonun mərkəzi meydanında görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

## RAYON MƏRKƏZİ XƏSTƏXANASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də əsaslı yenidənqurmadan sonra İsmayıllı Rayon Mərkəzi Xəstəxanasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, 1978-ci ildə tikilən binada indiyədək əsaslı təmir işləri aparılmayıb. Səhiyyə Nazirliyinin sifarişi əsasında aparılan təmir işlərinə 2012-ci ilin avqustunda başlanılıb. Əsaslı təmir işləri «İnam YR İnşaat» Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən yüksək səviyyədə və zövqlə həyata keçirilib. Yenidənqurma işləri çərçivəsində xəstəxananın ərazisi hasarlanıb, yaşıllıq sahəsi salınıb, bina su anbarı, elektrik yarımstansiyası və generatorla təchiz edilib.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə səhiyyə sisteminin inkişafına göstərdikləri diqqəti əks etdirən fotostend yaradılıb. Xəstəxananın 105 çarpayılıq ikimərtəbəli binası 2,4 hektar ərazidə yerləşir. Binadakı iş otaqları və palatalar bütün zəruri avadanlıqlarla təchiz olunub. Xəstəxanada təcili yardım, qəbul, laboratoriya, funksional diaqnostika, cərrahiyyə, terapiya, pediatriya, mama-ginekoloji, reanimasiya, yoluxucu xəstəliklər, travmatologiya, hemodializ şöbələri fəaliyyət göstərir. Tibb ocağının fizioterapiya, rentgen-flüoqrafiya, ultrasəs müayinəsi, elektro-kardioqramma və digər kabinetləri də müasir avadanlıqlarla təchiz edilib.*

*Xəstəxananın ən müasir tibb avadanlığı ilə təchizatı, burada elmin ən son yeniliklərinə əsaslanan aparatların quraşdırılması bir daha sübut edir ki, Azərbaycan dövləti vətəndaşların*

*sağlamlığının təmin edilməsi üçün mühüm işlər görür. Bütün bunlar həm də onu göstərir ki, 2003-cü ildən sonrakı dövr Azərbaycan səhiyyəsində yeni inkişaf mərhələsi ilə yadda qalıb. Bu dövr prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə daha çox səhiyyə infrastrukturunun yaradılması, yeni xəstəxanaların tikintisi, mövcud tibb ocaqlarının yenidən qurulması ilə xarakterizə olunur. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturun təkmilləşdirilməsi sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilir. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan dövlət proqramları müstəsna rol oynayır. Beləliklə, Azərbaycan səhiyyəsinin son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi böyük yol ilk növbədə, geniş islahatlarla xarakterizə olunur. Bu islahatlar ölkədə səhiyyə infrastrukturunun tamamilə yenidən qurulmasına xidmət edir.*

*Xəstəxanada aparılan əsaslı yenidənqurma işləri ilə tanışlıqdan sonra dövlətimizin başçısı tibb ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**G ü l ə r B a b a y e v a** *(həkim):* Möhtərəm cənab Prezident!

Sizi rayon ictimaiyyəti, o cümlədən tibb işçiləri adından salamlayıram. İsmayıllıya xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Necəsiniz? Nə var, nə yox? Hər şey yaxşıdır?

**G ü l ə r B a b a y e v a:** Çox sağ olun. Bizim xəstəxanamız ötən əsrin 70-ci illərində tikilib. Zəmanəsinə görə çox gözəl bir bina olub. Amma aradan keçən bu illər öz sözünü deyib və binanın əsaslı təmirə ehtiyacı yaranıb. Biz artıq bu gün xəstəxanamıza daxil olduqda çox sevinirik. Sizin tapşırığınıza əsasən xəstəxanamız yüksək səviyyədə təmir olunub, müasir avadanlıqla təchiz edilib.

Artıq bizim hər bir şəraitimiz var ki, xəstələrimizə yardım göstərək. Həkimlərimiz dünyanın öndə gedən bir çox ölkələrinin tibb müəssisələrində kurslarda olur, bilik və baca-

rıqlarını artırırlar. Biz söz veririk ki, belə bir gözəl şəraitdə daha da yaxşı işləyəcəyik, insanların sağlamlığının keşiyində əzmlə dayanacağıq, bizə göstərilən etimadı layiqincə doğruldacağıq.

Sizin tapşırığınıza əsasən ilin əvvəlində Azərbaycanın digər regionlarında olduğu kimi, İsmayıllıda da əhalimiz tibbi müayinələrdən keçib, bütün əhali qrupları müayinə olunub. Bu gözəl xəstəxanamızda qeydiyyata götürülmüş xəstələr müalicə və müayinələrini davam etdirəcəklər.

Möhtərəm cənab Prezident, Siz həmişə deyirsiniz ki, insanların həyatı, onların sağlamlığı Sizin üçün hər şeydən qiymətlidir, əzizdir. Son illərdə bu sahədə çox böyük işlər görülüb. Səhiyyəmiz çox böyük inkişaf yolu keçib. Ölkəmizdə yüzlərlə xəstəxana, Müalicə-Diaqnostika Mərkəzi açılıb. Cəmiyyətimizin həyatının hər sahəsində olduğu kimi, bu sahədə də Sizin ən yaxın köməkçiniz Azərbaycanımızın birinci xanımı Mehriban Əliyevadır. Mehriban xanım Sizə hər işdə köməkçidir. Siz və Mehriban xanım əhalinin, xüsusən də gənclərimizin sağlamlığının qayğısına qalırsınız. Sizin və Mehriban xanımın xalqımız üçün gördüyü işlər yüzilliklərə bərabərdir.

**İ l h a m   Ə l i y e v:** Çox sağ olun. Xəstəxananın əsaslı təmirdən sonra açılışı rayon sakinləri üçün gözəl hadisədir. İndi burada bütün imkanlar var. Gözəl şərait, avadanlıq və tibbi xidmət də buna uyğun şəkildə, yüksək səviyyədə olmalıdır. Çünki insanların sağlamlığı, əlbəttə ki, hər bir insan üçün, dövlətimiz üçün çox vacibdir. Yeni gənc nəsil yetişir. Onlar da fiziki, mənəvi cəhətdən sağlam olmalıdırlar.

İnsanların sağlamlığını şərtləndirən bir neçə amil var. Onlardan birincisi, əlbəttə ki, tibbi xidmətdir – vaxtında diaqnostikadan, müayinədən keçməkdir. Şadam ki, İsmayıllı rayonunda da dediyiniz kimi, bu dispanserləşdirmə uğurla keçirilib.

Biz bu prosesləri bundan sonra da mütəmadi qaydada davam etdirəcəyik ki, hər bir insan gedib xəstəliyini aşkar etsin və gözəl tibbi xidmət görsün.

Rayonun inkişafı sürətlə gedir. Mən keçən il İsmayıllı rayonuna gəlmişdim və indi gördüklərim məni çox sevindirir. Şəhərin abadlaşması, küçələrin salınması, binaların bərpası, yeni ictimai yerlərin yaradılması Azərbaycanda gedən ümumi siyasətimizin təzahürüdür. Çünki mən istəyirəm ki, hər bir şəhərdə, hər bir rayonda işlər yaxşı getsin.

Son dövrdə İsmayıllıda görülən işlər, yerli rəhbərlik tərəfindən irəli sürülən təşəbbüslər xalq tərəfindən də dəstəklənir. Mən də prezident kimi, daim İsmayıllının inkişafını diqqət mərkəzində saxlayacağam. Rayonun gələcək inkişafı ilə bağlı konkret proqramlar var. Xüsusilə indi infrastruktur layihələri icra edilir. İçməli su, kanalizasiya layihəsi icra olunur, yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Kənd yollarının tikintisinə vəsait ayrılır. Sosial obyektlər tikilir. Bax, bu gözəl xəstəxana artıq 40 ildən sonra əsaslı şəkildə təmir edilib, insanların sərəncamına verilir. Bu gün uşaq bağçası açılacaq. Məktəblər tikilir. Hələ ki bu sosial infrastrukturla bağlı görüləsi işlər çoxdur. Çünki biz ilk növbədə, vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binaları – sosial obyektləri bərpa etməliyik, yenilərini tikməliyik və bunu edirik. Ölkəmizi irəliyə aparırıq, inkişaf etdiririk. Çünki ölkəmizin uğurlu inkişafı regionların inkişafından böyük dərəcədə asılıdır.

Yeni sənaye müəssisələri yaradılır, iş yerləri açılır. Bilirəm ki, İsmayıllıda da yeni sənaye müəssisələri yaradılır. Keçən il burada olarkən artıq bunun ilkin nəticələrini gördük. Bildiyimə görə, indi burada yeni investisiya layihələri icra edilir ki, işsizlik tamamilə aradan götürülsün.

İsmayıllının çox gözəl turizm potensialı var. Ümumiyyətlə, hesab edirəm ki, bu zona turizm üçün ən cəlbedici zonadır. Şamaxıdan Balakənə qədər bu, böyük bir turizm zonasıdır ki, indi müasir hotellər, əyləncə və istirahət yerləri tikilir. Bu bölgənin inkişafı üçün Qəbələdə bir neçə il bundan əvvəl beynəlxalq aeroport tikilmişdir. Digər qonşu rayonlarda işlər gedir. Gözəl hotellər tikilir. İsmayıllının da çox gözəl turizm imkanları var. Əminəm ki, biz bu imkanlardan səmərəli şəkildə istifadə edəcəyik.

Yaxın gələcəkdə buraya qoyulacaq investisiyaların həcmi daha da artmalıdır. Bu, Dövlət Proqramında nəzərdə tutulub. Üçüncü regional inkişaf proqramı icra edilir. 2 proqram artıq icra edilib. 3-cü proqram isə 2018-ci ilə qədər başa çatmalıdır. Ümid edirəm ki, o vaxta qədər rayonda bir dənə də olsun sosial infrastruktur problemi qalmayacaq. Hər halda, bu bizim istəyimizdir.

Əlbəttə ki, gələcək illərdə rayonun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək. Bu günlərdə biz «Əsrin müqaviləsi»nin 20-ci ildönümünü təntənəli şəkildə qeyd etdik və XXI əsrin kontraktına start verdik. Bax, deyə bilərəm ki, bugünkü inkişaf və hətta bu gözəl xəstəxana məhz o illərdə qəbul edilmiş müdrik qərarlardan sonra mümkün olmuşdur. Əgər o vaxt ulu öndər Heydər Əliyev o tarixi addımı atmasaydı, bizim maddi imkanımız o qədər də böyük olmazdı, iqtisadi təhlükəsizliyimizi təmin edə bilməzdik, istər-istəməz asılı vəziyyətdə ola bilərdik.

Bu gün Azərbaycan dünya miqyasında öz sözünü deyən ölkədir. Bizim siyasi iradəmiz ən yüksək kürsülərdə özünü göstərir. Heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilməz. Bunun səbəblərindən biri bizim iqtisadi gücümüz və iqtisadi müstəqilliyimizdir. Əlbəttə, iqtidarın siyasi iradəsi kifayət qədər möhkəmdir. Xalq ilə iqtidar arasındakı birlik əsas şərtdir. Bu bizim müstəqil həyatımızı şərtləndirən əsas amildir, eyni zamanda, iqtisadi müstəqilliyimizdir. «Əsrin kontraktı»nın bəhrəsini hər bir vətəndaş görür – abadlaşan şəhərlərdə, tikilən binalarda, salınan yollarda, artan maaşlarda və vaxtilə tikilmiş, indi təmir olunan belə gözəl xəstəxanalarda.

Növbəti tarixi layihənin – «Cənub Qaz Dəhlizi»nin təməli 2 gün bundan əvvəl təntənəli şəkildə qoyuldu. Bilirsiniz ki, çoxlu qonaqlar var idi və bu layihə Azərbaycana əlavə imkanlar gətirəcək. Biz öz siyasətimizi ardıcıl şəkildə aparırıq. Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edirik. Hər bir rayonda, hər bir kənddə əgər bütün problemlər həll olunarsa, onda ölkədə problem qalmayacaq. Hər halda, biz buna çalışmalıyıq və əminəm ki, İsmayıllı rayonu qısa müddət

ərzində ölkədə ən qabaqcıl rayonlardan birinə çevriləcəkdir. Mən də çalışacağam ki, sizinlə bərabər bu məqsədə nail olaq. Bir daha sizi təbrik edirəm.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İsmayıllıda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Körpələr evi-uşaq bağçası 120 yerlikdir. Ümumi ərazisi 520 kvadratmetr olan Körpələr evi-uşaq bağçası ən müasir tələblər səviyyəsində inşa olunub. Burada tibb otağı, zəruri qurğular və oyuncaqlar ilə təchiz edilmiş idman zalı var. 120 yerlik yeməkxanada da balacaların normal qidalanmaları üçün bütün imkanlar yaradılıb. Binadakı yataq və oyun otaqları da uşaqların zövqünə uyğun tərtib edilib. Bir sözlə, burada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait var. Uşaqların günün əsas hissəsini burada keçirmələri nəzərə alınaraq bu məktəbəqədər təhsil müəssisəsində onların təlim-tərbiyəsinin keyfiyyəti, hökm sürən ab-hava vacib amillər kimi əsas götürülüb. Balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması diqqət mərkəzində saxlanılır. Bu amillərə Körpələr evi-uşaq bağçasında xüsusi diqqət yetirilib. Körpələr evi-uşaq bağçasının ərazisinə dekorativ hasar çəkilib, oyun meydançaları yaradılıb. Bina ən müasir infrastrukturla təchiz edilib.*

*Görülən bütün bu işlər bir daha təsdiqləyir ki, dünyada xoş məramı, xeyirxah işləri ilə seçilən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva gələcəyimiz olan uşaqlara xüsusi diqqətlə yanaşır, onların sağlam, bilikli, savadlı və intellektli*

*olmaları üçün əlindən gələni edir. Son illərdə Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə paytaxtla yanaşı, bölgələrimizdə də bir çox uşaq tərbiyə və təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni uşaq bağçaları tikilib. Belə layihələrin icrasında əsas məqsəd məktəbəqədər təhsildə əvvəllər mövcud olan çatışmazlıqların aradan qaldırılması idi və buna da nail olunur. Heydər Əliyev Fondu bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması üçün yeni bir layihəyə start verib. «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı ictimaiyyətə təqdim edilib. Bütün bu addımlar isə Azərbaycanın uğurlu gələcəyinə hesablanıb.*

**İsmayıllı Rayon İcra Hakimiyyətinin inzibati binasında əsaslı yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İsmayıllı Rayon İcra Hakimiyyətinin inzibati binasında əsaslı yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov dövlətimizin başçısına İsmayıllıda görülən abadlıq və quruculuq işləri, həmçinin icrası nəzərdə tutulan layihələr barədə məlumat verdi.*

*Qeyd edildi ki, rayon icra hakimiyyətinin inzibati binasının əsaslı yenidənqurma işləri 2013-cü ilin martında başlanılıb və cari ilin iyununda başa çatdırılıb. Burada yenidənqurma işləri ən yüksək səviyyədə aparılıb. Müasir memarlıq üslubunda yenidən qurulan üçmərtəbəli binada işçilərin normal fəaliyyəti üçün hər cür şərait yaradılıb.*

*Ümumi sahəsi 1631 kvadratmetr olan binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin İsmayıllı rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb. Binada vətəndaşların qəbulu və gözləmə otaqları, mətbəx,*

*yeməkxana, eləcə də texniki otaqlar yaradılıb. Burada 40-a yaxın iş otağı var ki, onların da hamısı zəruri avadanlıqlarla təchiz edilib. 50 nəfərlik konfrans və 194 nəfərlik akt zallarında isə müxtəlif səviyyəli tədbirlərin keçirilməsi üçün hər cür şərait var.*

*Dövlətimizin başçısı inzibati binanın operativ idarəetmə otağı ilə tanış oldu.*

*Bildirildi ki, bu otaq ən son informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilib. Buradan rayonun 10 yaşayış məntəqəsi ilə birbaşa əlaqə yaratmaq mümkündür. Bu da əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəlməsinə və məsələləri operativ şəkildə həll etməyə imkan verir.*

## Mədəniyyət sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İsmayıllı Rayon Mədəniyyət sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Bildirildi ki, ikimərtəbəli bina yüksək zövqlə təmir edilib. İnşaat işlərində keyfiyyətə xüsusi diqqət yetirilib. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin İsmayıllıya səfərləri zamanı çəkilən fotolardan ibarət stendlər qurulub. Mədəniyyət sarayının iş, məşq, dərnək, rejissor və qrim otaqları müasir səviyyədədir. Burada 270 nəfərlik zal da yaradılıb. Zal səs və işıq effekti yaradan ən müasir sistemlə təchiz edilib. Zalda rayonun həyatında baş verən əlamətdar hadisələrlə bağlı toplantılar keçirmək üçün geniş imkanlar var. Mədəniyyət sarayında sərgi qalereyası da fəaliyyət göstərəcək. Binada 60 nəfərlik konfrans zalı və foto-laboratoriya yaradılıb.*

*Bu işlər bir daha sübut edir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən daxili siyasət bütün sahələri, o cümlədən mədəniyyət sahəsini də əhatə edir. Bu sarayda yaradılan şərait rayonun mədəniyyət və incəsənət*

*xadimləri üçün böyük hədiyyə olmaqla yanaşı, həm də gənc nəsildə bu sahəyə marağı artıracaq.*

**Yeni Azərbaycan Partiyasının İsmayıllı rayon təşkilatı üçün inşa olunan inzibati binasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Yeni Azərbaycan Partiyasının İsmayıllı rayon təşkilatı üçün inşa olunan inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə inzibati binada yaradılan şərait haqqında ətraflı məlumat verildi. Bildirildi ki, inşaat işləri yüksək keyfiyyətlə həyata keçirilib. İkimərtəbəli binanın foyesində partiyanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada, həmçinin ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin partiyanın müxtəlif qurultayları, iclasları və bu siyasi qurumun fəaliyyəti ilə bağlı keçirilən tədbirlərdəki iştirakını əks etdirən maraqlı fotolardan ibarət guşələr yaradılıb.*

*Binada bütün otaqlar zəruri avadanlıqlarla təchiz edilib. Burada informasiya-kommunikasiya texnologiyalarının tətbiqi də xüsusi diqqətdə saxlanıb. İnzibati binada YAP Gənclər Birliyinin və Qadınlar Şurasının rayon təşkilatları da fəaliyyət göstərəcək. Binadakı 50 yerlik konfrans zalında isə partiyanın fəaliyyəti ilə bağlı tədbirlərin keçirilməsi üçün zəruri şərait yaradılıb.*

*Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün belə müasir binaların inşası bir daha sübut edir ki, ölkəmizin inkişafına mühüm töhfələr verən bu partiyaya inam və sevgi daha da artır və onun sıraları həm kəmiyyətcə, həm də keyfiyyətcə zənginləşir.*

## Uşaq istirahət və əyləncə parkında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Uşaq istirahət və əyləncə parkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına burada aparılan əsaslı təmir işləri barədə məlumat verildi. Bildirildi ki, ümumi ərazisi 2 hektar olan bu istirahət mərkəzində balacalar üçün hər cür şərait yaradılıb, yaşıllıq zolaqları salınıb, müxtəlif dekorativ ağac və kollar əkilib, hovuz, kafe, 250 yerlik açıq kinoteatr, 2 uşaq-əyləncə meydançası inşa olunub. Burada müxtəlif heyvan fiqurları qoyulub ki, bu da balacaların marağına səbəb olur. Bu istirahət ocağı İsmayıllının ən gözəl və görməli yerlərindən birinə çevrilib.*

*Uşaq istirahət və əyləncə parkında yaradılan şərait həm də ümumilikdə rayonda aparılan abadlıq-quruculuq işlərinin miqyasını aydın göstərir. Beləliklə, bu parkda yaradılan şərait istər uşaqlar, istər rayon sakinləri, istərsə də İsmayıllıya gələn qonaqların istirahətinin mənalı təşkili üçün geniş imkanlar açır.*

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*22 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İsmayıllıya səfərini başa çatdıraraq Qəbələ rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev son vaxtlar Qəbələdə görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

## «QAFQAZ YENGİCƏ TERMAL HOTEL VƏ SPA» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Qəbələdə «Qafqaz Yengicə Termal Hotel və SPA» kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni turizm obyekti ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, Qəbələnin Yengicə kəndi ərazisində yerləşən hotel kompleksi 9 hektar sahədə inşa edilib. Müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi altımərtəbəli hotel kompleksi gözəl memarlıq üslubunda tikilib. Hoteldəki 61 nömrədə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıb.*

*Diqqətə çatdırıldı ki, hoteldə xidmət göstərəcək heyət yükək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Hotel kompleksində müxtəlif toplantı və konfrans-arın keçirilməsi üçün geniş imkanları olan zal, müasir resto-anlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq.*

*Dövlətimizin başçısı hoteldəki nömrələrdə yaradılan şəraitlə maraqlandı.*

*Məlumat verildi ki, müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu*

*sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. Bu çərçivədə «Qafqaz Yengicə Termal Hotel və SPA»-da yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir.*

*Hoteldə uşaqların istirahətinin təşkili üçün lazımi şərait yaradılıb, qonaqların vaxtlarını səmərəli keçirmələri üçün xüsusi idman zalları da var. Burada qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır. «Qafqaz Yengicə Termal Hotel və SPA» kompleksində 100 nəfər üçün daimi iş yeri nəzərdə tutulur. Mükəmməl infrastruktura malik kompleksin avadanlıqlarla təchizatı ən müasir standartlara uyğundur.*

*Kompleksin ərazisi tam abadlaşdırılıb, yaşıllıq sahəsi salınıb. Beləliklə, qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hoteldə yaradılan şərait bir daha təsdiqləyir ki, prezident İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bölgələrdə bununla bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.*

*Qeyd olundu ki, hotelin əhəmiyyətini artıran mühüm cəhət burada müalicəvi su mənbəyinin olmasıdır. Tarixi araşdırmalar, kimyəvi və tibbi yoxlamalar bu mineral suyun yüksək dərəcədə müalicəvi və bərpaedici təsirini sübut edib. Hoteldə Naftalan nefti ilə müalicə proseduru da həyata keçiriləcək.*

*Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m Ə l i y e v**: Qəbələ rayonunda yeni hotel istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm! İndi tanış oldum, çox gözəl şərait var, ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Qəbələnin turizm potensialının inkişafı üçün bu hotelin də çox böyük əhəmiyyəti olacaqdır. İndi Bakıdan sonra hotellərin sayına görə Qəbələ ikinci yerdədir. Bu məni çox sevindirir. Çünki bu bölgənin çox gözəl turizm imkanları var.

Şadam ki, son illər biz bu imkanlardan maksimum dərəcədə istifadə edirik.

Qəbələdə beşulduzlu, dördulduzlu, üçulduzlu hotellər tikilir. Bu hotelin də xüsusiyyəti ondan ibarətdir ki, burada insanlar müalicəvi sulardan istifadə edəcəklər və əlbəttə ki, bura turistlərin axını daha da güclü olacaqdır. Qəbələ Beynəlxalq Aeroportunun tikintisindən sonra indi buraya xarici qonaqlar da gəlirlər, onların da sayı artır. Azərbaycan vətəndaşları burada istirahət edirlər. Çox gözəl, əlamətdar hadisələrdir. Çünki bunlar həm bölgənin, həm Qəbələ rayonunun, eyni zamanda, ölkəmizin inkişafına xidmət göstərir.

Bu gün Qəbələdə tikilən hotellər ən yüksək səviyyədədir. Yəni bunların hamısı müasir standartlara cavab verir və istirahət etmək üçün çox gözəl imkanlar var. Qəbələ eyni zamanda, mədəniyyət mərkəzinə çevrilir. Ənənəvi musiqi festivalları keçirilir və qonaqların sayı artır. Xarici qonaqlar Qəbələ ilə tanış olarkən vətənə döndükdə, əlbəttə ki, öz təəssüratlarını bölüşürlər. Beləliklə, bu bölgəyə, bu şəhərə maraq daha da artır. Əlbəttə, bu, insanlar üçün də yeni imkanlardır. Bax, bu ərazidə bir neçə kənd yerləşir. O kəndlərin sakinləri də bundan istifadə edəcəklər. Minlərlə iş yerləri açılır, turizm obyektlərində işləyənlərin sayı artır. Həm təcrübə toplayırlar, həm də yaxşı maaş alırlar. Beləliklə, ölkəmizin turizm sektoru sürətlə inkişaf edir.

Turizmin inkişafı baxımından Bakı – bizim paytaxtımız birinci yerdədir. Bakıda indi dünyanın bütün əsas hotel şəbəkələri fəaliyyət göstərir. Son 2-3 il ərzində şəhərimizdə beşulduzlu 6 hotel tikilmişdir. Bütün bu hotellər ən yüksək səviyyədə xidmət göstərir. Baxın, cəmi 2 il ərzində Bakıda «Marriott», «Hilton», «Kempinski», «Jumeirah», «Fairmont», «Four Seasons» – dünya miqyasında ən birinci sırada olan 6 hotel, ondan sonra isə «Sheraton», «Hyatt», «Radisson» hotelləri fəaliyyət göstərir. Bu, ölkəmizin inkişafını göstərir və investorların Azərbaycanın gələcəyinə inamını əks etdirir.

İndi bölgələrdə də bu proses gedir. Şadam ki, digər rayonlarda da gözəl hotellər açılır və mən də bütün o açılışlarda şəxsən iştirak edirəm. Misal üçün, bu yaxınlarda Şamaxıda gözəl hotel açılmışdır

– «Rixos». Qubada böyük qolf meydançası ilə bərabər, müasir hotel açılmışdır. Burada naftalan vannaları da vardır. O da çox düzgün addımdır. Çünki indiyədək insanlar naftalandan ancaq Naftalan şəhərində istifadə edə bilirdilər. İndi Naftalan şəhərində beşulduzlu 2 hotel fəaliyyət göstərir. Üçüncüsü də təxminən yaxın zamanlarda açılacaqdır. Yəni bütün bölgələrdə bu proses gedir. İndi şəhərlər arasında turizmin inkişafı ilə bağlı gedən rəqabət məni çox sevindirir. Çünki bu, sağlam rəqabətdir. Bizim çox gözəl ölkəmiz, çox gözəl təbiətimiz, müxtəlif iqlimimiz, müxtəlif təbii zonalarımız, dağlarımız, çaylarımız, meşələrimiz var. Əlbəttə, biz bundan maksimum dərəcədə istifadə etməliyik ki, həm vətəndaşlar, həm də dövlət fayda götürsün.

Bizim güclü iqtisadiyyatımız var. Təbii ki, neft-qaz sektorumuz inkişaf edir. Bu yaxınlarda tarixi hadisə baş vermişdir. Bundan sonra onilliklər, bəlkə də 100 ildən artıq bir müddətdə Azərbaycan öz enerji resurslarını dünya bazarlarına çıxaracaq və bundan biz gəlir əldə edəcəyik. Ancaq biz çalışmalıyıq ki, xidmət, qeyri-neft, sənaye sektorları və turizm inkişaf etsin. Turizm daimi gəlir mənbəyidir. Sadəcə, infrastruktur olmalıdır. Yollar, aeroport, əlbəttə ki, bütün digər infrastruktur layihələri – su, kanalizasiya, qazlaşdırma, elektrik enerjisi, hotellər və yüksək xidmət də daxil olmaqla.

Qəbələdə artıq fəaliyyət göstərən hotellərdə xidmət yaxşı səviyyədədir. Əminəm ki, burada da belə olacaq, insanlar üçün yeni iş yerləri açılacaq.

Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm və uğurlar arzulayıram.

**Q ü d r ə t  S ə m ə d o v** *(Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü):* Möhtərəm cənab Prezident, bütün Qəbələ camaatı adından Sizi salamlayır, Sizə Qəbələmizə «Xoş gəlmisiniz!» – deyirəm. Bu gün biz möhtəşəm bir hotelin açılışına toplaşmışıq. Mənim yaxşı yadımdadır. Əvvəllər bura kolkosdan, bataqlıqdan ibarət bir ərazi idi. Buradan çıxan müalicəvi mineral sulardan qətiyyən istifadə olunmurdu. Ancaq 4 il əvvəl Sizin tapşırığınızla burada möhtəşəm hotel-sağlamlıq

kompleksinin tikintisinə başlanılıb və bu gün o kompleksi bizim istifadəmizə verirsiniz. Burada şəfa tapan minlərlə insanın xeyir-duası daim Sizin üzərinizdə olacaqdır, möhtərəm Prezidentimiz.

İnkişaf edən Azərbaycanımızın ərazisində doğma Qəbələmiz də özünə layiqli bir yer tutur. Qəbələ də Sizin diqqət və qayğınız sayəsində öz tarixiliyini və keçmişini saxlamaqla bərabər, mötəbər beynəlxalq tədbirlərin keçirildiyi müasir bir məkana çevrilib. Qəbələmizdə çoxsaylı turizm kompleksləri, bu cür hotellər, müalicə müəssisələri, iri sənaye müəssisələri, iri istehsal obyektləri tikilir, təhsil, səhiyyə ocaqları istifadəyə verilir. Qəbələdə 100 kilometrlərlə asfalt yollar çəkilir, yeni yaraşıqlı evlər, yaşayış binaları inşa olunur. Qəbələmizə gələn qonaqlar öz heyranlıqlarını heç cür gizlədə bilmirlər.

Artıq neçə illərdir ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələmizdə ənənə halı almış beynəlxalq musiqi festivalları keçirilir. Fürsətdən istifadə edərək, milli musiqi mədəniyyətimizin hamisi, eyni zamanda, Qəbələ musiqi festivallarının təşkilatçısı və bu tədbirlərin həyata keçirilməsində çox böyük əmək sərf etmiş Mehriban xanım Əliyevaya da qəbələlilərin minnətdarlığını çatdırmaq istəyirəm.

## Gilan Qida şəhərciyi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Gilan Qida şəhərciyi ilə tanış olmuşdur.*

*Gilan Qida şəhərciyində müxtəlif zavodların yaradılması rəqabətədavamlı və müasir standartlara cavab verən qida sənayesinin inkişafına mühüm töhfə hesab oluna bilər. Belə layihələrin reallaşması ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar dövlətimizin başçısının verdiyi tapşırıqların icrasının uğurlu və davamlı xarakter daşıdığını nümayiş etdirir.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, Gilan Qida şəhərciyində 2 yeni emal müəssisəsi inşa olunub. Yeni müəssisə-*

lərin ümumi tikinti sahəsi 120 min kvadratmetrdir. Kartof emalı müəssisəsində 2 istehsal xətti quraşdırılıb. Burada yarımfabrikat dondurulmuş kartof və kartof çipsi istehsal olunacaq. Yarımfabrikat dondurulmuş kartof istehsalı xəttinin istehsal gücü saatda 3 ton hazır məhsul təşkil edir. Çips istehsalı xəttinin istehsal gücü isə saatda 1 ton hazır məhsul olacaq. Hər 2 istehsal xətti tam avtomatlaşdırılmış sistem üzrə çalışır. Burada xammal 6 min kvadratmetr sahəyə malik ilkin soyuducu anbara yerləşdirilir. Müəssisədə, həmçinin keyfiyyətə nəzarət laboratoriyaları var. İstehsala göndərilmədən əvvəl məhsulun fiziki-kimyəvi göstəriciləri yoxlanılır.

Dövlətimizin başçısı «Gilan Holding»ə məxsus müəssisələrdə istehsal olunan qida məhsullarının sərgisinə baxdı. Qeyd edildi ki, artıq «Gilan Holding»in digər müəssisələrində istehsal olunan məhsullar bir çox xarici ölkələrə ixrac edilir.

Prezident İlham Əliyevə məlumat verildi ki, sərinləşdirici içkilər istehsalı müəssisəsindəki 3 istehsal xəttində 9 növ qablaşdırmada 48 çeşiddə məhsul istehsalı planlaşdırılır. Müəssisədə saatda 10 min litr hazır məhsul istehsalı gücünə malik isti dolum sistemi vasitəsilə plastik qablaşdırmada meyvə lətli içkilər və soyuq çay istehsal olunacaq. Digər xətt saatda 36 min litr hazır limonad və digər qazlı sərinləşdirici içkilər, qazlı və qazsız su istehsalı üçün nəzərdə tutulub. Saatda 5 min litr hazır məhsul istehsal gücünə malik xətdə isə qazlı və qazsız su, qazlı sərinləşdirici içkilərin istehsalı planlaşdırılır. Müəssisədə qablaşdırma mərhələsindən öncə müəyyən reseptlər əsasında hazırlanmış tərkiblər laboratoriyada yoxlanılır və təsdiqdən sonra istehsala göndərilir. Burada bütün istehsal prosesi tam avtomatlaşdırılıb.

Yeni müəssisələrdə 380 nəfər daimi işlə təmin olunub.

## Daxili Qoşunların Qəbələdəki «N» saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Daxili Qoşunların Qəbələdəki «N» saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Daxili Qoşunların maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Hərbi hissədə yaradılan şərait də bunun əyani nümunəsidir. 5,5 hektar ərazidə salınan hərbi şəhərcikdə tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Burada beşmərtəbəli qərargah, əsgər yataqxanası və yeməkxanası, nəzarət-buraxılış məntəqəsi və zabit yataqxanası tikilib. Ərazidə geniş sıra meydanı yaradılıb, daxili kommunikasiya xətləri çəkilib, yaşıllaşdırma işləri görülüb. Binalar bütün zəruri mühəndis-kommunikasiya sistemləri ilə təchiz olunub. Həmçinin burada qarovul məntəqəsi, hamam və camaşırxana, qazanxana və transformator yarımstansiyası, gözətçi qüllələri tikilib istifadəyə verilib.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, şəhərciyin ərazisindəki binaların inşasında milli memarlıq elementlərindən istifadə edilib.*

*Sonra dövlətimizin başçısı hərbi hissənin qərargahında yaradılan şəraitlə tanış oldu. Qərargahın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Silahlı Qüvvələrin inkişafına göstərdikləri diqqət və qayğını, Daxili Qoşunların fəaliyyətini əks etdirən fotostendlər və dövlət atributlarının əks olunduğu lövhələr vurulub. Müxtəlif inzibati otaqların yerləşdiyi birinci mərtəbədə döyüş fəaliyyətinin gücləndirilməsi ilə bağlı təlimatlar əksini tapıb. Yeni inşa olunan qərargah da*

bütün zəruri kommunikasiya sistemləri, mebel və inventarla təmin olunub.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyev əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu. Hərbi şəhərciyin ərazisində 30 mənzilli zabit yataqxanası da yaradılıb.

Sonda dövlətimizin başçısı Daxili Qoşunların silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində istifadə etdiyi silah və texnika növlərinə baxdı.

## Mirzəbəyli–Çuxur Qəbələ–Dizaxlı–Çarxana avtomobil yolunun əsaslı təmirdən sonra açılışı mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Mirzəbəyli–Çuxur Qəbələ–Dizaxlı–Çarxana avtomobil yolunun əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.

Ölkədə yol-nəqliyyat kompleksinin yenidən qurulması işi uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən ölkəmizin şəhər və rayonlarında mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, uzunluğu 14,2 kilometr, eni 6 metr olan yol 4-cü texniki dərəcəlidir. Tikinti işləri zamanı yolun Qaraçay üzərində olan hissəsində 2 körpü inşa olunub. Bundan başqa, yol boyunca suötürücülər və avtobus dayanacaqları tikilib. Bu yolun əhəmiyyətini artıran ən mühüm amil onun 8 yaşayış məntəqəsini birləşdirməsidir. Uzun illər bu sarıdan əziyyət çəkən həmin kəndlərin əhalisi artıq müasir standartlara uyğun yoldan istifadə edəcəklər.

Qeyd olundu ki, avtomobil yolu həm rayonun nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin iqtisadiyyatın və turizmin inkişafında mühüm rola malik olacaq. Beləliklə, son illərdə ölkəmizin yol-nəqliyyat strukturunda baş verən əsaslı

*dəyişikliklər regionlarda da özünü büruzə verir. Rayon mərkəzlərinin küçə və yolları abadlaşdırılır.*

## Qəbələ Arxeoloji Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Qəbələ Arxeoloji Mərkəzinin açılışında iştirak etmişdir.*

*Uzun illərdir Azərbaycanın qədim bölgələrində aparılan və bu gün də davam etdirilən arxeoloji qazıntılar sirli tariximizin maraqlı səhifələrini açaraq dünyaya nümayiş etdirir. Arxeoloji qazıntıların aparıldığı bölgələrimizdən biri də təqribən 800 il Qafqaz Albaniyasının paytaxtı olan Qəbələdir. Bu bölgədə arxeoloji tədqiqatlar 1926-cı ildən başlayaraq müəyyən fasilələrlə, 1959-cu ildən isə ardıcıl şəkildə aparılır. Qəbələnin zəngin tarixinin üzə çıxarılmasında son illərdə SEBA – Azərbaycan – Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər mühüm yer tutur. Son illərdə azərbaycanlı alimlərin koreyalı mütəxəssislərlə birgə apardıqları arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində Qəbələ tarixinin açılmamış yeni səhifələri ortaya çıxıb. Bu məlumatlarla SEBA-nın dəstəyi ilə tikilən Qəbələ Arxeoloji Mərkəzində tanış olmaq mümkündür.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü və Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri İlyas Babayev prezident İlham Əliyevə mərkəzdə görülən işlərlə bağlı ətraflı məlumat verdi.*

*Bildirildi ki, Qəbələ Arxeoloji Mərkəzinin üçmərtəbəli binası sərgi salonu, Arxeoloji fond, bərpa laboratoriyası, konfrans zalı və arxeoloqların çalışdığı otaqlardan ibarətdir. Burada, həmçinin Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ofisi də fəaliyyət göstərəcək.*

*Prezident İlham Əliyev mərkəzin sərgi salonu ilə tanış oldu. Burada toplanan zəngin eksponatlar bir daha sübut edir ki, Qəbələnin tarixi keçmişi də təbiəti qədər zəngindir və Azərbaycan*

tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Bu yurdun adı çəkiləndə ilk öncə qədim Qafqaz Albaniyasının uzun bir dövr ərzində paytaxtı olmuş Qəbələ şəhəri və onun bu günə gəlib çatmış möhtəşəm qala divarları xatırlanır. Rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, indiki Çuxur Qəbələ kəndinin şimal-şərq hissəsində Corlu və Qara çaylarının suayırıcında yerləşən qədim Qəbələ şəhəri öz möhtəşəmliyi, mühüm siyasi, iqtisadi və ticarət mərkəzi kimi dünyanın Babil, Troya, Pompey, Karfagen və digər mühüm şəhərləri ilə müqayisə olunur. Burada aparılan çoxillik arxeoloji tədqiqatlar nəticəsində antik dövrə aid böyük binaların, qala divarlarının qalıqları, istehsal və sənətkarlıqla bağlı maddi mədəniyyət abidələri aşkara çıxarılıb.

2400 illik tarixi olan, qədim İpək yolunun üzərində yerləşən Qəbələ şəhərinin adı hələ eramızın I əsrində yaşamış Roma alimi Böyük Plininin «Təbii tarix» əsərində Kabalaka adlandırılıb. Yunan coğrafiyaşünası Ptolemey Qəbələni Xabala, ərəb tarixçisi Bəlazuri isə Xəzər kimi təqdim edib. İlk dəfə Azərbaycan alimi Abbasqulu Ağa Bakıxanov «Gülüstani-İrəm» əsərində Kabala və ya Xabalanın Qəbələ olduğunu göstərib. Beləliklə, əsrlərboyu Azərbaycan torpaqlarına göz dikən yadelli işğalçıların amansız hücumlarına mərdliklə sinə gərən Qəbələ şəhəri tarixin yaddaşına alınmaz, məğlubedilməz qala-şəhər kimi daxil olub. Qəbələ Arxeoloji Mərkəzi də şəhərin tarixi keçmişini və bu gününü öyrənmək, qoruyub saxlayaraq gələcək nəslə çatdırmaq baxımından əvəzedilməz məkandır.

Diqqətə çatdırıldı ki, artıq bir neçə ildir rayonda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji qrupu və SEBA-nın dəstəyi ilə Koreya arxeoloqları birgə qazıntı işləri həyata keçirirlər. Arxeoloji qazıntılar əsasən Qəbələnin antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılır. Qazıntılar zamanı əldə olunan 1500-ə yaxın eksponat sərgidə nümayiş etdirilir. Əldə olunan yeni eksponatlar Arxeoloji Mərkəzdə ən müasir texnologiyalara cavab verən laboratoriyalarda bərpa olunduqdan sonra nümayiş etdirilir. Əldə edilən bütün eksponatlar haqqında dövri hesabatlar və tapıntı kitabları nəşr olunub.

## AZƏRBAYCAN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının Yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün Azərbaycan ayrı-ayrı din və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın, hörmət və etimadın hökm sürdüyü nadir ölkələrdəndir. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması, milli azlıqların dil və mədəniyyətinin inkişaf etdirilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Tarixən milli və dini tolerantlıq mühitinin bərqərar olduğu Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələri mehriban dostluq və qardaşlıq şəraitində yaşayır, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində əsl vətəndaş mövqeyi nümayiş etdirirlər. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, çoxmillətli Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan yəhudi icması da ölkəmizin ictimai-siyasi həyatında və respublikada gedən böyük quruculuq işlərində yaxından iştirak edir.

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bayramdır. Yəhudi xalqının bu əziz günü münasibətilə bir daha hamınıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 sentyabr 2014-cü il*

## AŞPA SƏDRİ ANN BRASÖRÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa Şurası Parlament Assambleyasının Sədri Ann Brasörün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ROSSİYA SEQODNYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU DMİTRİ KİSELYOV İLƏ GÖRÜŞ

*23 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də «Rossiya Seqodnya» beynəlxalq informasiya agentliyinin baş direktoru Dmitri Kiselyovu qəbul etmişdir.*

*«Rossiya Seqodnya» beynəlxalq informasiya agentliyinin baş direktoru Dmitri Kiselyov rəhbərlik etdiyi qurumun fəaliyyətinə ölkəmizdə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək bu agentlik vasitəsi ilə Azərbaycanla bağlı verilən müxtəlifsəpkili informasiyaların Rusiya oxucusu üçün xüsusi maraq doğurduğunu diqqətə çatdırdı. O, Azərbaycanda mövcud olan rusdilli informasiya vasitələrinə və rusdilli təhsil müəssisələrinə yaradılan şəraiti də yüksək dəyərləndirdi.*

*Dövlətimizin başçısı son illər ölkəmizdə təhsil, mədəniyyət, kütləvi informasiya vasitələrinin inkişafı ilə bağlı müxtəlif dövlət proqramlarının uğurla həyata keçirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mətbuat və informasiya sahəsində mövcud olan əməkdaşlığın müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparıldı, bu sahədə əlaqələrin genişləndirilməsinin və intensivləşdirilməsinin zəruriliyi vurğulandı.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–Çin münasibətlərinə xüsusi əhəmiyyət verirəm. Bu mənada dostluq əlaqələrimizin gündən-günə genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daim dərinləşməsi böyük məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı anlaşma və etimada əsaslanan siyasi təmaslarımızın, hər iki tərəf üçün faydalı olan iqtisadi əlaqələrimizin, humanitar mübadilələrimizin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 sentyabr 2014-cü il*

## MOSKVA ŞƏHƏRİNİN MERİ SERGEY SOBYANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Moskva şəhərinin meri Sergey Sobyaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirdi. Ölkələrimizin həm yüksək səviyyədə, həm də müvafiq strukturlar və nazirliklər səviyyəsində fəal əməkdaşlıq etdiyini deyən prezident İlham Əliyev bu yaxınlarda keçirilən Rusiya–Azərbaycan hökumətlərarası birgə iqtisadi Komissiyanın iclasında müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd etdi. Moskva şəhəri ilə mövcud olan ənənəvi əlaqələrin önəmini vurğulayan dövlətimizin başçısı son dövrlərdə Rusiya paytaxtında həyata keçirilən geniş yenidənqurma işlərinin böyük maraq doğurduğunu bildirdi. Bakı şəhərində də sürətli inkişaf və abadlıq işlərinin həyata keçirildiyini deyən prezident İlham Əliyev paytaxtlarımız arasında təcrübə mübadiləsinin səmərəli olacağını qeyd etdi. Azərbaycan Respublikasının Prezidenti Moskva şəhəri ilə ticari-iqtisadi əlaqələrə toxunaraq Rusiya paytaxtına göndəriləcək Azərbaycan məhsullarının həcminin daha da artırılacağına əmin olduğunu dedi.*

*Prezident İlham Əliyev Moskva şəhərinin meri Sergey Sobyaninin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi və ölkəmizlə daha yaxından tanış olmaq işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirən Moskva şəhərinin meri Sergey Sobyanin dedi: «Həqiqətən, Moskva şəhəri ilə Azərbaycan arasında dostluq əlaqələri çoxəsrlik tarixə malikdir və olduqca yaxşı haldır ki, bu əlaqələr bu gün də inkişaf etməkdə davam edir». Ticarət dövriyyəsinin artmasının önəmini vurğulayan Moskva şəhərinin meri bildirdi ki, Azərbaycandan Rusiya paytaxtına göndərilən ərzaq məhsullarının həcmi 3 dəfə artıb və bu həcmin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var. Azərbaycan hökuməti ilə Moskva şəhəri arasında imzalanacaq Memorandum və əlavə sazişlərdə iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı konkret məsələlərin əks olunduğunu qeyd edən Sergey Sobyanin bu sənədləri ticari-iqtisadi əlaqələrimizin yeni səviyyəyə qalxmasının göstəricisi kimi dəyərləndirdi.*

## RUSİYA LİBERAL-DEMOKRAT PARTİYASININ SƏDRİ, DÖVLƏT ŞURASININ ÜZVÜ, DÖVLƏT DUMASININ DEPUTATI VLADİMİR JİRİNOVSKİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Rusiya Liberal-Demokrat Partiyasının sədri, Rusiya Federasiyası Dövlət Şurasının üzvü, Dövlət Dumasının deputatı Vladimir Jirinovskini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın rolu qeyd edildi, 2 ölkənin ali qanunvericilik orqanları arasında əməkdaşlığın bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, o cümlədən parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Almaniya münasibətləri dinamik inkişaf yolundadır. Dost ölkələrimiz arasındakı əməkdaşlıq həm ikitərəfli qaydada, həm də Avropa strukturları çərçivəsində müvəffəqiyyətlə davam etməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, iqtisadi, humanitar əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində bundan sonra da qarşılıqlı səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2014-cü il*

## RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏR

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitində iştirak etmək üçün sentyabrın 29-da Rusiyanın Həştərxan şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Həştərxan şəhərinin Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Rusiya Federasiyasının Həştərxan şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.*

*Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin Azərbaycan prezidenti İlham Əliyevə məlumat verdi ki, ulu öndər Heydər Əliyevin adını daşıyan park şəhər sakinləri və qonaqlar üçün ən sevimli məkandır. Burada insanların asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb.*

# HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ HƏŞTƏRXANDA İNŞA EDİLMİŞ «DOSTLUQ» UŞAQ BAĞÇASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Heydər Əliyev Fondunun təşəbbüsü ilə Rusiyanın Həştərxan şəhərində ulu öndərin adını daşıyan 11 saylı orta məktəbin nəzdində inşa edilmiş «Dostluq» uşaq bağçasının sentyabrın 29-da açılışı olmuşdur.*

*Həştərxanda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*

*Təntənəli mərasimdə çıxış edən tədbirin aparıcısı uşaq bağçasının istifadəyə verilməsini Həştərxanın həyatında əlamətdar hadisə adlandırdı.*

*Sonra Həştərxan vilayətinin qubernatoru tədbirdə çıxış etdi.*

**A l e k s a n d r J i l k i n:** Çox hörmətli İlham Heydər oğlu!

Mənim əziz azərbaycanlı dostlarım, qardaşlarım!

Hörmətli həmkarlar!

Bu gün həqiqətən, gözəl və əlamətdar bir gündür. Əvvəla, Həştərxan şəhəri qürur duyur ki, Xəzəryanı 5 dövlətin prezidentləri buraya toplaşaraq çox mühüm bir tədbir – Sammit keçirirlər. Bu tədbirdə Xəzərin sahillərində məskunlaşan insanların – 100 milyondan çox əhalinin əcdadları kimi, sülh, dostluq və bütün xalqlara ehtiram şəraitində yaşamaları üçün lazımi və düzgün qərarlar işlənib hazırlanır.

Mən qeyd etmək istəyirəm ki, məhz çox hörmətli İlham Heydər oğlunun şəxsi mövqeyi sayəsində Həştərxan şəhərində, Həştərxan vilayətində hazırda mövcud olan münasibətlər, Azərbaycan

Respublikası tərəfindən burada həyata keçirilən konkret layihələr nəinki hörmət, həmçinin heyranlıq hissi doğurur. Bu, ölkəmiz ilə Azərbaycan Respublikası arasında praktiki olaraq həyata keçirilmiş konkret planların, bütün sazişlərin və liderlərimizin razılaşmalarının nümunəsidir.

Cənab İlham Heydər oğlu, mən belə münasibətə görə həştərxanlılar adından Sizə çox minnətdaram. İnanın mənə, həştərxanlılar da Azərbaycan xalqına, şəxsən Sizə eynilə bu cür hörmət və məhəbbət bəsləyirlər. Mən Sizin qarşınızda Heydər Əliyev Fonduna, Nərimanov Rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığımı bildirmək istəyirəm. Sizdə yaxşı mütəxəssislər, rəhbər işçilər var. Onlar bütün işləri vaxtında və keyfiyyətlə görüblər. Əlbəttə, belə münasibətlərin zəruriliyini təbliğ edən bütün diasporumuza da minnətdarlığımı bildirirəm.

Bu hədiyyəyə görə çox sağ olun. Qızım mənə deyir: «Ata, unutma ki, sənin kiçik nəvən bu bağçaya gedəcək». Mən də deyirəm ki, onun bağçaya getməsi hələ tezdir. Amma əgər belə bir məqsədin varsa, deməli, gedəcək, çünki bu çox gözəl bağçadır. Çox sağ olun.

Mən uşaq bağçasının müdirinə öz adımdan multimedia dəsti hədiyyə etmək istəyirəm. Çünki bu ən mükəmməl uşaq bağçasıdır. Qoy burada uşaqlarımız da çox savadlı olsunlar. Çox sağ olun, İlham Heydər oğlu.

İcazə verin, protokoldan kənar da olsa, Xəzəryanı dövlətlərin Sammitinin keçirilməsi şərəfinə Sizin üçün hazırladığımız hədiyyəni göstərək. Bu bir camdır. Qoy bu cam həmişə Azərbaycan xalqı üçün uğur və firavanlıqla dolu olsun. Camın üzərində Azərbaycan dilində yazılıb: «Sammitin keçirilməsi şərəfinə». Çox sağ olun.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Aleksandr Aleksandroviç!
Hörmətli mer!
Əziz dostlar, hörmətli həştərxanlılar!

Demək istəyirəm ki, dost Həştərxan torpağında yenidən olmağıma şadam. Bu, Həştərxan vilayətinə mənim ilk səfərim deyil və deməliyəm ki, bu gün avtomobildə gələrkən mən Aleksandr Aleksandroviçi Həştərxan vilayətinin son illərdə qazandığı böyük uğurlar münasibətilə təbrik etdim. Şəhər həqiqətən dəyişir, daha gözəl, daha rahat olur, mənzillər, ticarət mərkəzləri, ictimai yerlər tikilir, parklar salınır. Bütün bunlar Həştərxan vilayətinin sürətli inkişafının göstəricisidir və əlbəttə, belə bir qubernatorun rəhbərliyi ilə başqa nəticələr gözləmək, yəqin ki, çətin olardı. Lakin biz dostlar, qonşular kimi, həmişə bir-birimizin uğurlarına sevinirik. Buna görə əminəm ki, Aleksandr Aleksandroviçin mənimlə bölüşdüyü planlar artıq gerçəkləşəndə Həştərxan daha da gözəl olacaq.

Xəzəryanı dövlətlərin 4 il bundan əvvəl keçirdiyimiz Bakı Sammitindən sonra indi Həştərxanda keçirilməsi də, əlbəttə, bu şəhərin inkişaf səviyyəsinin göstəricisidir. Sammit Rusiya Federasiyasının istənilən başqa şəhərində keçirilə bilərdi, lakin məhz Həştərxan seçildi və biz buna çox şadıq. Əminəm ki, Xəzəryanı dövlətlərin bu gün qəbul edəcəyi qərarlar ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdıracaq. Biz buna çalışırıq, bunu istəyirik və əlbəttə, Bakı ilə Həştərxan arasında çoxəsrlik tarixə malik olan qədim əlaqələrin bu gün necə inkişaf etməsinə sevinirik.

Biz həm də sevinirik ki, Həştərxanda ölkəmizlə bağlı yerlər, Bakıda isə «Həştərxan–Bakı» Dostluq parkı var. Keçən dəfə həmin parkı Aleksandr Aleksandroviç açdı. Bu gün biz uşaq bağçasının açılışında iştirak edirik. O da bizim dostluğumuzun rəmzi olacaq. Təsadüfi deyil ki, uşaq bağçası «Drujba» adlandırılıb. Mənim fikrimcə, bu adın rəmzi mənası var, çünki bizim nəslimiz dostlar nəslidir, biz bir ölkədə yaşamışıq, bir-birimizi tanıyırıq, bir-birimizə hörmət edirik. Gərək gənclər də bir-biri ilə ünsiyyətdə olsunlar, kiçik yaşlarından uşaq bağçasında, sonra Heydər Əliyevin adını daşıyan məktəbdə dostluq etsinlər. Beləliklə, biz xalqlarımız, ölkələrimiz arasında dostluq münasibətlərinin varisliyini təmin edərik.

Bizi birləşdirən cəhətlər çoxdur – tarix də, bugünkü siyasi proseslər də Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha sıx olmasını tələb edir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərə, regionlar arasında münasibətlərə görə şadıq və bugünkü mərasim bizi bir-birimizə bağlayan münasibətlərin səmimiliyinin və dərinliyinin daha bir göstəricisidir.

Bu əlamətdar hadisə münasibətilə həştərxanlıları, bizim hamımızı, Həştərxanın dostlarını bir daha təbrik edirəm və arzu edirəm ki, uşaqlar burada özlərini rahat hiss etsinlər, öz ölkəsinin layiqli vətəndaşları kimi böyüsünlər. Sağ olun.

* * *

*Daha sonra bağçanın açılışı oldu. Azərbaycan prezidenti İlham Əliyev və Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin bağçanın rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini, dövlətimizin başçısı İlham Əliyevin Həştərxana səfərlərini, Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu şəhərdə görülən işləri əks etdirən fotostend yaradılıb.*

*Bağçanın təməli 2013-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə qoyulub.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 140 yerlik bağçada həm Həştərxanda yaşayan azərbaycanlı, həm də yerli ailələrin uşaqları təlim-tərbiyə alacaqlar. Ümumilikdə bu məktəbəqədər müəssisədə 2–6 yaş arasında uşaqlar üçün 6 qrup nəzərdə tutulub. Bağça bütün zəruri avadanlıq və inventarlarla təchiz edilib. Uşaqlar üçün yaradılan idman və musiqi zalları, digər otaqlar ən müasir tələblər səviyyəsində qurulub.*

*Dövlətimizin başçısı balacaların ifasında rəqsə baxdı və bağça ilə tanışlıqdan sonra Həştərxanda yaşayan azərbaycanlılarla xatirə şəkli çəkdirdi.*

## XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IV SAMMİTİNDƏ İŞTİRAK

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Rusiya Federasiyasının Həştərxan şəhərində Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitində iştirak etmişdir.*

*Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevi, İran prezidenti Həsən Ruhanini, Qazaxıstan prezidenti Nursultan Nazarbayevi və Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovu qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra IV Xəzər Sammitində iştirak edən dövlət başçılarının məhdud tərkibdə görüşü oldu.*

*Geniş tərkibdə davam etdirilən görüşdə sammitə ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış edərək bildirdi ki, Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammiti ənənəvi olaraq etimad, qarşılıqlı anlaşma və işgüzar şəraitdə, konkret nəticələr əldə etmək niyyəti ilə keçirilir. Ən başlıcası odur ki, dövlət başçıları tərəfindən ilk dəfə beştərəfli əməkdaşlığın əsas prinsiplərini müəyyən edən siyasi Bəyanat razılaşdırılıb.*

*Rusiya prezidenti Xəzəryanı ölkələrin energetika, dəniz nəqliyyatı, balıqçılıq, ekologiya, Xəzərin bioloji müxtəlifliyinin qorunması və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən danışdı.*

*Sammitdə Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Vladimir Vladimiroviç!
Hörmətli prezidentlər!
Hörmətli sammit iştirakçıları!

İlk növbədə, göstərilən qonaqpərvərliyə və sammitin uğurlu təşkilinə görə Rusiya Federasiyasının Prezidentli Vladimir Vladimiroviç Putinə minnətdarlığımı bildirmək istəyirəm.

Bakıya tarixən mehriban dostluq və əməkdaşlıq münasibətləri ilə bağlı Həştərxan şəhərində yenidən olmağıma şadam.

2010-cu ildə Bakıda keçirilən III Xəzər Sammiti Xəzər dənizinin hüquqi statusuna dair başlıca məsələlərin, xüsusən milli zonanın eninin və dənizin bioloji ehtiyatlarının mühafizəsinin razılaşdırılmasına ümumi yanaşmaların işlənib hazırlanmasına dair məsələlərin həlli üzrə danışıqlar prosesinə yeni təkan verdi.

Bakı Sammitinin yekunlarına əsasən imzalanan «Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş» qaçaqmalçılığa, brakonyerliyə, qanunsuz miqrasiyaya, insan alverinə, mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində sərhəd xidmətləri və digər dövlət qurumları arasında əməkdaşlığın və qarşılıqlı fəaliyyətin mühüm mexanizmini yaratdı.

Ötən dövrdə Xəzər dənizində əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsi üzrə xeyli iş görülüb. Tərəflər «Xəzər dənizində fövqəladə halların qabaqlanması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»in razılaşdırılmasını başa çatdırıb, imzalanması üçün təklif ediblər. Xəzəryanı dövlətlərin bu sahədə əməkdaşlığının və qarşılıqlı fəaliyyətinin möhkəmlənməsi Xəzərdə daha səmərəli və təhlükəsiz fəaliyyətə xidmət edəcək.

Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası, Azərbaycan Respublikası və Rusiya Federasiyası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında ikitərəfli sazişlərin, habelə Azərbaycan, Qazaxıstan və Rusiya arasında üçtərəfli sazişin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Bu

sazişlər Xəzərin hüquqi statusunun hərtərəfli tənzimlənməsi üçün mühüm rol oynayır. Azərbaycan hesab edir ki, bu sazişlərdə təsbit olunmuş prinsiplər bütün Xəzəryanı dövlətlər arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsinə dair razılaşmalara nail olmaq üçün yaxşı əsas ola bilər.

Biz Xəzər dənizini dostluq, sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi hesab edirik. Azərbaycan Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Xəzəryanı ölkələr arasında sıx dostluq münasibətləri və çoxvektorlu əməkdaşlıq bizim regionda sabitliyin, firavanlığın və təhlükəsizliyin rəhnidir.

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti regional təhlükəsizliyə başlıca təhdiddir. Əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ və Azərbaycanın bu bölgəyə bitişik daha 7 rayonu 20 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Təəssüf ki, Ermənistan həmin qətnamələrə məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır. Bu münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü əsasında həll edilməlidir. Təəssüf ki, Ermənistandakı mövcud diktator rejimi müasir dünyanın reallıqlarını sağlam mövqedən qiymətləndirmək və beynəlxalq hüquq normalarını adekvat qəbul etmək iqtidarında deyil. Ermənistan rejimi öz cəmiyyətində Azərbaycana qarşı «mağara insanı» səviyyəsində nifrət hissi yaymaqla, azərbaycanofobiyanı dövlət siyasəti səviyyəsinə qaldırmaqla, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dinlərarası münaqişə kimi səciyyələndirməklə, bu münaqişənin uzanmasının mümkün nəticələrinə görə birbaşa məsuliyyət daşıyır.

Xəzər dənizi regionunda ticari-iqtisadi əlaqələrin dərinləşdirilməsi, enerji ehtiyatlarının mənimsənilməsi və beynəlxalq bazarlara nəql edilməsi üzrə investisiya şəraitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyalar yaradılması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi bizim üçün prioritet olaraq qalır. Xəzər dənizi nəqliyyat dəhlizlərinin inkişafı üzrə bir sıra beynəlxalq və regional layihələrdə əlaqələndirici elementdir.

Azərbaycan Xəzərdə qonşuları ilə neft-qaz sahəsində əməkdaşlığa böyük əhəmiyyət verir. İran və Rusiya şirkətləri Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının işlənilməsində sərmayədarlar kimi uğurla iştirak edirlər. Azərbaycan həm də Qazaxıstan və Türkmənistan şirkətləri üçün öz ərazisindən keçməklə neftin və neft məhsullarının tranzitini həyata keçirir. Azərbaycan, İran və Rusiya arasında üçtərəfli əməkdaşlıq çərçivəsində elektroenergetika və nəqliyyat sahəsində də yaxşı perspektivlər vardır. Bu il sentyabrın 22-də Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci mərhələsi çərçivəsində Azərbaycanda bərə terminalı istifadəyə verilib. Bu limanın yükaşırma qabiliyyəti birinci mərhələdə 10 milyon ton yük və ildə 50 min konteyner olacaq. 2 ildən sonra həyata keçirilməsi planlaşdırılan üçüncü mərhələ başa çatandan sonra limanın yükaşırma qabiliyyəti 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaq.

Həmkarlarıma bildirmək istəyirəm ki, keçən il Azərbaycanda yüksək dünya standartlarına cavab verən və bütün növlərdən olan gəmilər istehsal edə bilən yeni Gəmiqayırma zavodu istifadəyə verilib. Bu zavod bizim ölkələrə nəqliyyat və kommunikasiyalar sahəsində layihələrin həyata keçirilməsi üzrə iqtisadi məsələlərin həlli üçün yeni imkanlar yaradır. Bizim yaratdığımız müasir logistika infrastrukturu ümumi işimizə böyük töhfədir və Xəzər dənizində əməkdaşlığı daha da dərinləşdirir.

III Bakı Sammitinin protokol qərarının icrası üçün razılaşdırılmış «Xəzər dənizinin bioloji ehtiyatlarının qorunub

saxlanılması və səmərəli istifadə edilməsi haqqında Saziş»i xüsusi vurğulamaq istəyirəm.

Azərbaycan ekologiya sahəsində əməkdaşlığa çox böyük əhəmiyyət verir və Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin ümumi narahatlığına şərik çıxır. Biz daha səmərəli əməkdaşlığa ümumi səyi yüksək qiymətləndirir və Xəzər dənizinin ətraf mühitinin qorunmasına dair Çərçivə Konvensiyası üzrə işlərə öz töhfəmizi veririk.

Biz Bakı Sammitində qəbul edilmiş uzlaşdırılmış qərara sadiqliyimizi təsdiqləyərək, sahilyanı dövlətin suverenliyinin şamil edildiyi su məkanı da daxil olmaqla, 25 dəniz mili ölçüsünü əsas götürərək milli zonanın eninin müvafiq şəkildə razılaşdırılmasına tərəfdarıq.

Biz dənizin dibinin həmhüdud sahələrinin bölünməsində əsas norma kimi, hamılıqla tanınmış orta xətt prinsipini toxunulmaz hesab edir, dənizçilik, Xəzər dənizindən digər dənizlərə sərbəst gediş-gəliş və tranzit məsələlərinə böyük əhəmiyyət veririk.

Azərbaycan həm də Xəzərdəki qonşularımızla hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Hesab edirik ki, Xəzər dənizində tərəflərin silahlı qüvvələrinin iştirakı və hərbi fəaliyyəti bütün Xəzəryanı dövlətlər üçün bərabər təhlükəsizlik şərtlərinin təmin edilməsi prinsipi əsasında həyata keçirilməlidir. Bu, region dövlətləri arasında qarşılıqlı etimadın güclənməsinə xidmət edəcək. Xəzər dənizi bundan sonra da sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası olaraq qalmalıdır.

Sonda heç şübhəsiz, bizim qarşımızda duran mühüm məsələlərin qəti həlli üçün Xəzəryanı dövlətlərin mövqelərinin daha da yaxınlaşmasına xidmət edəcək bu sammitin təşkilinə görə Rusiya tərəfinə bir daha təşəkkürümü bildirirəm. Həmçinin əməkdaşlığın bütün sahələrinə, o cümlədən Xəzər dənizinin hüquqi statusuna aid məsələlərin Xəzəryanı dövlətlərin suveren hüquqlarına hörmət və qarşılıqlı faydalı tərəfdaşlıq ruhunda həllinə tərəfdar olduğumu təsdiq etmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Xəzərin bioloji resurslarından istifadə ilə yanaşı, Xəzərətrafı ərazilərdə turizmin inkişafı, dəniz gəmiçiliyinin genişləndirilməsi və bütövlükdə Xəzər dənizinin imkanlarından istifadədə sahil ölkələrinin birgə investisiya qoyuluşunun əhəmiyyətinə diqqəti çəkdi. O, xalqlarımız üçün sülh və sabitlik dənizi olan Xəzərin sahillərində yerləşən ölkələrin hazırda dünyanı təhdid edən ekstremizm və terrorizmə qarşı mübarizədə birgə səylərinin zəruriliyinə toxundu. Həsən Ruhani bu sammitdə müzakirə olunan məsələlərin və imzalanacaq sənədlərin əhəmiyyətindən də danışdı.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev Bakı Sammitindən sonrakı dövr ərzində Xəzərin statusunun müəyyən edilməsi ilə bağlı aparılan danışıqlar prosesindəki irəliləyişlərdən söhbət açdı və bunun sayəsində təhlükəsizlik sahəsində razılaşmanın imzalandığını vurğuladı. Xəzər dənizində təhlükəsizlik və əməkdaşlıq şəraitinin getdikcə gücləndiyini qeyd edən Qazaxıstan Prezidenti dövlət başçılarının bu gün imzalayacağı Birgə Bəyanatın əsas məqsədə – yaxın zamanlarda Xəzərin hüquqi statusuna dair konkret sənədin qəbul olunacağına təkan verəcəyinə əminliyini ifadə etdi.*

*Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov bu sammiti Xəzərin statusunun müəyyən edilməsində hüquqi bazanın yaradılmasına yeni töhfə verəcəyinə inamını bildirdi. O, qeyd etdi ki, Türkmənistan beştərəfli əməkdaşlığın Xəzəryanı ölkələrin inkişafına təsirini yüksək dəyərləndirir. Türkmənistanın dövlət başçısı Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı sənədin imzalanması üçün tərəflərin mövqelərinin yaxınlaşmasını müsbət hadisə kimi dəyərləndirdi.*

# XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IV SAMMİTİNDƏ BEŞTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI VƏ BƏYANATIN QƏBUL EDİLMƏSİ MƏRASİMİ

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Həştərxanda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammiti çərçivəsində sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun iştirakı ilə hökumətlərarası beştərəfli sazişlər imzalandı.*

*Xəzəryanı dövlətlərin müvafiq nazirlikləri tərəfindən «Xəzər dənizinin hidrometeorologiyası sahəsində əməkdaşlıq haqqında Saziş», «Xəzər dənizində fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş», «Xəzər dənizinin su bioloji resurslarının qorunması və onlardan rasional istifadə olunması haqqında Saziş» imzalandı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan prezidentlərinin Bəyanatını imzaladılar.*

## XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLARI

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Beştərəfli sənədlərin imzalanması mərasimindən sonra sentyabrın 29-da Xəzəryanı ölkələrin dövlət başçıları mətbuata bəyanatlarla çıxış etmişlər.*

*Rusiya prezidenti Vladimir Putin Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitinin yekunlarını və imzalanan sənədləri yüksək qiymətləndirdiyini vurğuladı. O, əksər məsələlərdə Xəzəryanı ölkələrin irəliyə doğru böyük addımlar atdıqlarını bildirdi. Rusiyanın Azərbaycan, Qazaxıstan, Türkmənistan və İranla ticarət dövriyyəsinin hazırda 33 milyard dollar olduğunu deyən prezident Vladimir Putin qarşılıqlı əmtəə dövriyyəsinin genişləndirilməsi üçün böyük potensialın mövcudluğunu vurğuladı. Rusiya dövlətinin başçısı Xəzəryanı ölkələrin investisiya qoyuluşunun genişləndirilməsi, böyük iqtisadi layihələrin reallaşdırılmasında da yaxşı imkanların olduğunu vurğuladı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Hörmətli Vladimir Vladimiroviç, ilk növbədə, sammitin təşkilinə, qonaqpərvərliyə, həm məhdud, həm də geniş tərkiblərdə məsələlərin müzakirəsi çərçivəsində yaratdığınız şəraitə görə Sizə bir daha təşəkkür etmək istərdim.

Bu gün biz həqiqətən, çox səmərəli işlədik, Xəzər dənizində qarşılıqlı fəaliyyətimizin gələcəyi ilə bağlı mühüm məsələlərə dair açıq, çox səmimi dialoq apardıq. Bizim bu gün müzakirə və həll etdiyimiz əsas məsələləri Vladimir Vladimiroviç artıq qeyd etdi. Təkrarlamaq istəmirəm. Onu demək istərdim ki, mənim fikrimcə, bizim uğurlu addımlarımızın başlıca əsası xalqlarımız arasında tarixən yaranmış sıx qarşılıqlı əlaqələrdir. Azərbaycanın bütün Xəzəryanı dövlətlərlə münasibətləri çox sıx, qarşılıqlı faydalı, dostcasına tərəfdaşlıq münasibətləridir. Xalqlarımız tarixən bir-birinə bağlıdır. Bizim qoruyub saxlaya bildiyimiz, indi isə zənginləşdirdiyimiz qarşılıqlı fəaliyyət, qarşılıqlı dəstək və mehriban qonşuluq ənənələri böyük sərvətdir. 2010-cu ildə Bakıda keçirilmiş axırıncı sammitdən sonra ötən illər işimizin xeyrinə olub. Ona görə ki, bizim bugünkü nailiyyətlərimiz, bu gün bağladığımız sazişlər çox ciddi işin, deyərdim ki, səmimi işin nəticəsidir. Əgər biz ümumi siyasi əzmkarlıq göstərməsəydik, bu nəticələrə nail olmaq yəqin ki, çətin olardı. Bu gün isə biz bəzi istiqamətlər üzrə irəliyə doğru atılmış mühüm addım hesab oluna biləcək qərarlar qəbul etdik. Bu qərarlar bizdə Xəzərdə qarşılıqlı fəaliyyətimizlə bağlı bütün məsələləri həll edəcəyimizə daha artıq inam yaradır. Qarşılıqlı fəaliyyətimizin müxtəlif mərhələlərində bu əməkdaşlığın əsas məsələlərinin tənzimlənməsinə dair konsensusa nail olmağın reallıq dərəcəsi barədə fikirlər fərqli idi. Bugünkü müzakirə və qərarlar, imzalanmış sənədlər zənnimcə, hamıya aşkar göstərir ki, siyasi iradə olduqda biz qarşılıqlı fəaliyyətimizin bütün məsələlərini həll edə bilərik.

Bizim həm ikitərəfli, həm də çoxtərəfli formatda tərəfdaşlığımız Xəzərdə təhlükəsizliyin rəhnidir. Xəzər üzrə qonşularımızın öz aralarında mehriban tərəfdaşlar olmaları da Azərbaycanda bizə çox xoşdur. Biz beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləyir, fəal qarşılıqlı əlaqə saxlayırıq. Fikrimcə, bu müsbət meyillər davam etdirilməlidir və hökmən davam etdiriləcəkdir. Ona görə ki, biz bu regionda yaşayırıq. Xəzər bizim ümumi sərvətimizdir. Biz onu qoruyuruq, onu daha yaxşı qorumalıyıq və konkret işlərimizlə, o cümlədən infrastruktur

layihələri ilə, investisiyalarla ölkələrimiz üçün yeni imkanlar yaratmalıyıq. Bizim ölkələrin üstünlüyü təkcə öz aramızda dostluq etməyimiz və bir-birimizə səmimi münasibət bəsləməyimiz deyil, həm də iqtisadi baxımdan özünü təmin edən dövlətlər olmağımızdır. Bizim ölkələrdə ciddi maliyyə problemləri yoxdur. Biz infrastruktura çox böyük investisiyalar qoya bilərik və bunu edirik.

Vladimir Vladimiroviç nəqliyyat infrastrukturunu daha da inkişaf etdirməyin zəruri olmasını qeyd etdi, mən də öz çıxışımda Azərbaycanda bu sahədə nə işlər görüldüyünü vurğuladım. Fikrimcə, bütün istiqamətlər üzrə – həm çox perspektivli olan şimal–cənub istiqamətində, həm də şərq–qərb istiqamətində fasiləsiz daşımaları tənzimləmək üçün növbəti mərhələdə bizim nəqliyyat işçilərinin fəaliyyətinin, o cümlədən yaradılmaqda olan və artıq yaradılmış limanların fəaliyyətinin əlaqələndirilməsi məsələsini nəzərdən keçirməliyik. Azərbaycan hər 2 layihədə iştirak edir və biz belə qarşılıqlı fəaliyyətdə yalnız səmərə, fayda görürük.

Xəzərdə təhlükəsizlik məsələləri, əlbəttə, xüsusi diqqət tələb edir. Lakin qeyd etməliyəm ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin və etimadın səviyyəsi nəzərə alınmaqla, hər bir Xəzəryanı ölkə eyni zamanda, həm özünün, həm də qonşusunun təhlükəsizliyini təmin edir.

Sonda demək istərdim ki, Azərbaycan bugünkü nəticələrdən, sənədlərdən, razılaşmalardan çox məmnundur. Ümid edirəm ki, növbəti sammitdə biz hələ həll olunmamış məsələləri həll edəcək və uğurla irəliyə doğru gedəcəyik.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

* * *

*İran prezidenti Həsən Ruhani sammitin uğurla keçdiyini, mühüm sənədlərin imzalanması üçün Xəzəryanı ölkələrin dövlət başçılarının qətiyyətli siyasi iradə nümayiş etdirdiklərini söylədi. O, Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmə-*

*nistanın sağlam rəqabət əsasında ticari-iqtisadi əlaqələrini möhkəmləndirmələri üçün münbit zəminin yarandığını əsaslandırdı. İran Prezidenti bu baxımdan yüksək səviyyədə məsləhətləşmələrin, danışıqların öz bəhrəsini verdiyini və bu prosesin davam etdiriləcəyini vurğuladı.*

*Qazaxıstan prezidenti Nursultan Nazarbayev Xəzərin dostluq və sıx əməkdaşlıq dənizinə çevrilməsi üçün Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitində mühüm irəliləyişə nail olunduğunu bildirdi. Nursultan Nazarbayev nəqliyyat, dəmir yolu və digər sahələrdə birgə layihələrin reallaşdırılmasının vacibliyini diqqətə çatdırdı. Qazaxıstan Prezidenti Xəzəryanı ölkələrin azad ticarət zonasının yaradılması təklifini verdi. O, Xəzərin sülh, təhlükəsizlik və dostluq dənizinə çevrilməsi üçün bundan sonra da ardıcıl iş aparılacağını qeyd etdi.*

*Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov sammitin yüksək səviyyədə təşkilinə görə Rusiya tərəfinə minnətdarlığını bildirdi. O, Xəzərdə nəqliyyat sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, burada regional logistika mərkəzinin yaradılması üçün əlverişli imkanların olduğunu diqqətə çatdırdı. Qurbanqulu Berdıməhəmmədov energetika sahəsində istər ikitərəfli, istərsə də çoxtərəfli əməkdaşlığın da böyük perspektivə malik olduğunu dedi.*

*Rusiya prezidenti Vladimir Putin həmkarlarının fikirləri ilə tam şərik olduğunu, Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitinin yüksək səviyyədə keçdiyini bir daha vurğuladı və bu istiqamətdə səylərin davam etdiriləcəyini bildirdi.*

## NƏRƏ BALIQLARININ VOLQA ÇAYINA BURAXILMASI MƏRASİMİNDƏ İŞTİRAK

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Həştərxan şəhərində sentyabrın 29-da Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitində iştirak edən Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin, İran prezidenti Həsən Ruhani, Qazaxıstan prezidenti Nursultan Nazarbayev və Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov Volqa çayı sahilində gəzmişlər.*

*Sonra prezidentlər Həştərxanda yetişdirilən nərə balıqlarının Volqa çayına buraxılması mərasimində iştirak etdilər.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Həştərxanda İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdirildiyi vurğulandı. Yüksək səviyyəli görüşlərin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi. Siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Həştərxanda Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ənənəvi dostluq münasibətlərinin hazırkı vəziyyətindən məmnunluq ifadə edildi, əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın mövcud olduğu vurğulandı. Ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının genişləndirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Həştərxanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

**Vladimir Putin:** Çox hörmətli İlham Heydər oğlu!

Çox hörmətli həmkarlar!

Mənə çox xoşdur ki, Xəzəryanı ölkələrin Sammiti çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvləri ilə görüşürəm. Rusiya ilə Azərbaycan arasında münasibətlər həmişə dostluq və etimad xarakteri daşıyıb. Biz çox şadıq ki, münasibətlərimiz bu ruhda inkişaf edir, özü də müxtəlif istiqamətlərdə, o cümlədən ən həssas sahələrdə. Dünya və Rusiya iqtisadiyyatında bəzi problemlərə baxmayaraq, iqtisadi sahədə də irəliləyiş var. Biz son vaxtlar əmtəə dövriyyəsində çox böyük olmasa da, artım müşahidə edirik – 2 faiz, hər halda, bu artımdır. Biz həmişə görüşməyə, bütün ikitərəfli məsələlərimiz barədə bir daha müzakirə və fikir mübadiləsi aparmağa şadıq.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç!

İlk növbədə, Sizi bizim ümumi qənaətimizcə, irəliyə doğru addım olan sammitin uğurla başa çatması münasibətilə təbrik etmək istəyirəm. Sammitdə olduqca vacib qərarlar qəbul edildi. Tərəflərin yaxınlaşması baxımından bu qərarlar Xəzər regionunda sonrakı əməkdaşlıq üçün əhəmiyyətli rol oynayacaq. O ki qaldı bizim ikitərəfli münasibətlərimizə, çox şadam ki, aramızda mütəmadi dialoq davam edir. Biz keçən ay və bu gün görüşdük. Bu bizim münasibətlərimizin səviyyəsinin göstəricisidir. Bu müddətdə bizim nümayəndə heyətlərinin də qarşılıqlı görüşləri

olub. Bizim aramızda bütün istiqamətlər üzrə – iqtisadi, siyasi, energetika sahələrində, humanitar məsələlərlə bağlı əməkdaşlıqda çox yaxşı dinamika davam edir. Biz bu yaxın günlərdə Humanitar Forum keçirəcəyik. Bu forum Rusiya və Azərbaycan nümayəndələrinin təşəbbüsü ilə yaranıb. Biz bütün istiqamətlər üzrə dinamika və müsbət irəliləyiş müşahidə edirik, buna çox şadıq. Fikirləşirəm ki, bundan sonra da ölkələrimizin münasibətlərində yaxşı məqamları görəcəyik. Bir daha qonaqpərvərliyə görə çox sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Həştərxanda sentyabrın 29-da Azərbaycan və Rusiya hökumətləri arasında sənəd imzalanmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin imzalanma mərasimində iştirak etmişlər.*

*«Rusiya hökuməti və Azərbaycan hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması barədə Saziş»i Rusiya tərəfindən İqtisadi İnkişaf naziri Aleksey Ulyukayev, Azərbaycan tərəfindən isə İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev imzaladılar.*

## SAMMİT İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Həştərxan*

*29 sentyabr 2014-cü il*

*Həştərxanda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından sentyabrın 29-da Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitinin iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etdi.*

* * *

*Sentyabrın 29-da prezident İlham Əliyevin Rusiya Federasiyasının Həştərxan şəhərinə işgüzar səfəri başa çatdı.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi islamın əsas bayramlarından biri kimi, insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir.

Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 oktyabr 2014-cü il*

# İTALİYA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ ENRİKO LETTA İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İtaliyanın sabiq Baş naziri, Tədqiqat və Qanunvericilik Agentliyinin baş katibi Enriko Lettanı qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyevin İtaliyaya uğurlu səfərini maraqla izlədiyini deyən Enriko Letta ölkəmizin İtaliyada həyata keçirdiyi humanitar layihələrin əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı İtaliyaya səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev səfər zamanı ölkələrimiz arasında qəbul olunan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin önəmini vurğuladı.*

*Görüşdə Bakıda keçiriləcək Beynəlxalq Humanitar Forumun əhəmiyyətindən danışıldı, ölkələrarası əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində Forumun önəmi qeyd olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜÜTEL İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Estoniya Respublikasının sabiq prezidenti Arnold Rüüteli qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bakıda keçiriləcək Beynəlxalq Humanitar Forumun yaxşı ənənə halı aldığını və tədbirə marağın ildən-ilə artdığını qeyd etdi. Prezident İlham Əliyev bu il Forumda dünyanın 60 ölkəsindən dövlət xadimlərindən və alimlərdən ibarət çoxlu nümayəndə heyətinin iştirak edəcəyini vurğulayaraq Bakı Humanitar Forumunun artıq mühüm beynəlxalq hadisəyə çevrildiyini dedi.*

*Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə minnətdarlığını bildirən Estoniyanın sabiq prezidenti Arnold Rüütel tədbirin dünyanın müxtəlif ölkələrinin və xalqlarının geniş dairəsini əhatə etməsinin önəmini vurğuladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Forumun hər il yüksək səviyyədə təşkil olunmasından məmnunluğunu ifadə edən qonaq tədbirin mühüm əhəmiyyət daşıdığını vurğuladı.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, əlaqələrimizin bundan sonra daha da inkişaf etdiriləcəyinə əminlik bildirildi. Söhbət zamanı Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən danışıldı, xalqlararası əlaqələrin və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi baxımından Forumun önəmi vurğulandı.*

## BMT-nin İNKİŞAF PROQRAMININ RƏHBƏRİ HELEN ELİZABET KLARKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də BMT-nin İnkişaf Proqramının (UNDP) rəhbəri xanım Helen Elizabet Klarkın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla inkişaf etdiyini vurğuladı.*

*Xanım Helen Elizabet Klarkın başçılıq etdiyi nümayəndə heyətinin Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının önəmini qeyd edən prezident İlham Əliyev Forumda maraqlı müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə minnətdarlığını ifadə edən BMT-nin İnkişaf Proqramının rəhbəri xanım Helen Elizabet Klark tədbirin gündəliyinin geniş sahələri əhatə etməsinin əhəmiyyətini vurğuladı. Xanım Helen Elizabet Klark təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi.*

# IV BEYNƏLXALQ HUMANİTAR FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*2 oktyabr 2014-cü il*

*Heydər Əliyev Mərkəzində oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumu işə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir.*

*Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır.*

*Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram. Bu gün Forumda 60-dan çox ölkədən 500-ə yaxın qonaq iştirak edir. Bütün qonaqlara «Xoş gəlmisiniz!» – deyirəm.

Forumun keçirilməsi çox əlamətdar hadisədir. Artıq bu, gözəl ənənəyə çevrilib. Forum dördüncü dəfədir ki, keçirilir. Bu əslində onu göstərir ki, belə müzakirələrə böyük ehtiyac var. Dünyada gedən proseslər, bəzi hallarda narahatedici məqamlar tələb edir ki, humanitar sahəyə daha da böyük diqqət göstərilsin. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi humanitar əməkdaşlığın dərinləşməsinə xidmət edəcəkdir. Biz Azərbaycanda bu sahəyə çox böyük diqqət göstəririk. Təsadüfi deyil ki, bu Forum da məhz Azərbaycanda keçirilir. Deyə bilərəm ki, hazırda dünyada humanitar məsələlərin müzakirəsi, təhlilin aparılması üçün bu Forumun müstəsna rolu vardır. Əlbəttə, buna görədir ki, Foruma maraq da durmadan artır. Bu, artıq beynəlxalq aləmdə önəmli bir formata çevrilibdir.

Biz Azərbaycan olaraq, ölkələr arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət göstərmişik. Çünki bizim tarixi keçmişimiz, mədəniyyətimiz bunu diktə edir. Əsrlərboyu Azərbaycanda çoxkonfessiyalı, çoxmillətli cəmiyyət formalaşıb, mövcuddur və müstəqillik dövründə bu müsbət meyillər daha da gücləndi. Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü, əlbəttə ki, bir neçə amil müəyyən edir – siyasi imkanlar, iqtisadi güc və eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töhfəmizi veririk.

Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlərboyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək. Təsadüfi deyil ki, Azərbaycan tərəfindən irəli sürülmüş bir neçə təşəbbüs artıq həyatda öz yerini tapıbdır və bu təşəbbüslər ətrafında yeni imkanlar yaranır. Misal üçün qeyd

etməliyəm ki, 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etdik və birgə toplantı keçirdik. Bu, tarixdə ilk dəfə baş vermişdir və Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzv olduğu üçün bu təşəbbüsü öz üzərinə götürmüşdür. 2009-cu ildə artıq Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından mədəniyyət nazirlərini dəvət etmişdik. Yəni bu təşəbbüsə «Bakı prosesi» adı verilmişdir. Bu gün «Bakı prosesi» yaşayır və inkişaf edir. Bakıda sivilizasiyalararası dialoq forumları keçirilmişdir. Bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl dünya dini liderlərinin zirvə görüşü keçirildi və Bakı Beynəlxalq Humanitar Forumunun mahiyyəti də məhz bundadır.

Əminəm ki, Forumda iştirak edən görkəmli dövlət xadimləri, ictimai xadimlər, alimlər, mütəxəssislər, ekspertlər bu günlər ərzində öz maraqlı fikirlərini bizimlə bölüşəcəklər və beləliklə, biz birgə səylərlə humanitar sahəyə öz töhfəmizi vermiş olacağıq. Biz gələcəkdə də humanitar əməkdaşlığın dərinləşməsi üçün öz səylərimizi göstərəcəyik. Əlbəttə, hesab edirəm, sirr deyil ki, bu Forum artıq hər il keçiriləcək və beləliklə, bu format yaşayacaqdır.

Onu da qeyd etməliyəm ki, humanitar əməkdaşlığa, humanitar məsələlərin həllinə həmişə böyük diqqət göstərməyimizə baxmayaraq, xalqımız və dövlətimiz humanitar fəlakətlə üzləşib. Azərbaycanın ərazi bütövlüyü pozulub. Bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilibdir. 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb və bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. Xocalı soyqırımı törədilib ki, yüzlərlə günahsız insan bu soyqırımının qurbanı olub. Xocalı soyqırımını 10-dan çox ölkə rəsmi şəkildə soyqırımı kimi tanıyıb. Bu münaqişə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul ediblər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə

qəbul edib ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və biz burada böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıb. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər və bu format, bu hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin düşən soydaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur, hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları işğal edilmiş torpaqlara 2 dəfə ezam olunub və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıb. Bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib. Bu, böyük humanitar fəlakətdir və Azərbaycan təkbaşına, öz gücü hesabına bu humanitar məsələnin həlli, köçkünlərin yerləşdirilməsi, onları işlə təmin etmək üçün böyük işlər görüb və hələ bu işlər davam edir. Çünki köçkünlərin bir hissəsi hələ ki, ağır vəziyyətdə yaşayır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaq. Bu ağır vəziyyətə baxmayaraq, Azərbaycanın inkişafı dayanıqlı olmuşdur, o cümlədən biz humanitar sahədə son illərdə böyük uğurlara imza atmışıq. Humanitar sahə bizim hökumətimiz üçün prioritet sahələrdən biridir və bu sahəyə investisiyalar qoyulur. Hesab edirəm ki, Azərbaycanda humanitar məsələlər uğurla öz həllini tapır.

Təhsilə böyük diqqət göstərilir. Son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikilib. Təhsilin keyfiyyətinin artırılması üçün islahatlar aparılır. Hesab edirəm ki, yaxın gələcəkdə bu islahatların gözəl nəticələrini görəcəyik. Azərbaycan gəncləri dövlət vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə oxumağa göndərilirlər və onlar gələcəkdə ölkəmizin inkişafında öz sözlərini deyəcəklər.

Səhiyyə sisteminin təkmilləşdirilməsi məsələsi çox aktualdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində səhiyyə sisteminin maddi-texniki bazası tamamilə yararsız vəziyyətə düşmüşdü və biz böyük investisiyalar qoymaqla müasir səhiyyə infrastrukturunu yaratmışıq. Son 10 ildə 500-dən çox səhiyyə ocağı tikilib, təmir edilib və bu gün onların bir çoxu ən yüksək standartlara cavab verir.

Bizim mədəniyyətlə bağlı təşəbbüslərimiz öz nəticəsini verir. Azərbaycanda mütəmadi qaydada beynəlxalq tədbirlər, festivallar, müsabiqələr keçirilir. Bizim tarixi abidələrimiz bərpa edilir, xüsusi proqram icra olunubdur. Azərbaycanda çoxlu qədim tarixi abidələr var. Onlar bizim milli sərvətimizdir, o cümlədən dini abidələrimiz dövlət tərəfindən bərpa edilir və yeniləri tikilir. Qeyd etməliyəm ki, dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilibdir. Bu məscid 743-cü ildə Şamaxı şəhərində tikilmiş və müsəlman aləmində ən qədim məscidlərdən biridir. Şəki rayonunun Kiş kəndində Qafqazın ən qədim kilsəsi yerləşir. O kilsə də bərpa edilib və bu bizim milli sərvətimizdir. Azərbaycanda pravoslav kilsələr, katolik kilsə, sinaqoqlar dövlətin dəstəyi ilə əsaslı şəkildə təmir edilib. Yəni bu bizim böyük sərvətimizdir və bir daha demək istəyirəm ki, multimədəniyyətli cəmiyyət, dinlərarası dialoq, xalqlar arasındakı dostluq, qardaşlıq bizim dövlətimizi gücləndirir. Çünki bu, cəmiyyətdə çox gözəl ab-hava yaradır. Bir daha demək istəyirəm ki, bu həm dövlət siyasətidir, həm də cəmiyyətin sifarişidir. Hesab edirəm ki, biz bu istiqamətdə

uğurla inkişaf edəcəyik. Onu da qeyd etməliyəm ki, bu sahədə əldə edilmiş təcrübə başqa ölkələr üçün də maraqlı ola bilər.

İqtisadi sahəyə də böyük diqqət göstəririk. Çünki güclü iqtisadiyyat olmasa, humanitar təşəbbüsləri irəli sürmək də o qədər asan olmayacaq. Ona görə çalışırdıq ki, iqtisadi təhlükəsizliyimizi təmin edək, dövlətimizi gücləndirək və ağır vəziyyətdə yaşayan soydaşlarımız üçün yeni imkanlar yaradaq. Bizim sosial siyasətimiz məqsədyönlü şəkildə aparılır. Son 10 il ərzində pensiyalar, maaşlar dəfələrlə artıb, yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşüb. Yoxsulluq cəmi 10 il ərzində 49 faizdən 5,3 faizə düşüb. Demək olar ki, yoxsulluqla mübarizə artıq başa çatmaq üzrədir. Hesab edirəm ki, yaxın bir neçə il ərzində yoxsulluq Azərbaycanda bir amil kimi tamamilə aradan götürüləcəkdir.

İşsizliklə bağlı mübarizə də ilk növbədə, humanitar xarakter daşıyır. Çünki son illər ərzində 1 milyon 200 mindən çox iş yeri yaradılmış və işsizlik də kəskin şəkildə aşağı düşmüşdür. İndi 5 faizdən azdır. Artıq Azərbaycana başqa ölkələrdən iş tapmaq üçün miqrantlar gəlir. Bunların təməlində düşünülmüş siyasət dayanır. Çünki iqtisadi inkişaf çox sürətlidir. Son 10 il ərzində Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkədir. Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir. İqtisadiyyat son 10 ildə 3 dəfədən çox artıb. Xarici dövlət borcu çox aşağı, 8 faiz səviyyəsindədir. Büdcə gəlirləri son 10 il ərzində 20 dəfədən çox artıb. Büdcə gəlirlərinin düzgün bölüşdürülməsi, sosial proqramların icrası, infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin inkişafını təmin edir.

Əlbəttə, Azərbaycan dünyada neft-qaz ölkəsi kimi tanınır. Bu bizim böyük sərvətimizdir. Ancaq biz bilirik ki, bəzi ölkələrdə bu böyük sərvət heç də uğur gətirmir, əksinə, problemlər yaradır, müharibələrə, cəmiyyətdə təbəqələşməyə yol açır. Azərbaycanda isə biz bunun tam əksini görürük. Bizim təbii sərvətlərimiz hər bir insanın həyatında öz müsbət təsirini göstərib. Çəkilən yollar, açılan xəstəxanalar, artan maaşlar, abadlaşan şəhərlər bunun bariz nümunəsidir. Azərbaycanda neft

gəlirlərindən düzgün istifadə etmək, «qara qızıl»ı insan kapitalına necə çevirmək sahəsində nadir təcrübə toplanmışdır və artıq biz buna nail olmuşuq. Gələcəkdə bizim iqtisadiyyatımız çoxşaxəli formatda inkişaf edəcək. Bu gün biz yeni texnologiyalara investisiyalar qoyuruq.

Bu gün Azərbaycan artıq kosmik sənayeyə malik olan ölkədir, kosmik ölkələrin klubuna daxil edilibdir. Biz innovasiyalara, yeni texnologiyalara, elmin inkişafına çox böyük önəm veririk. Elmin İnkişafı Fondu yaradılmışdır. İqtisadi inkişaf, sosial məsələlərin həlli, humanitar sahəyə diqqət, deyə bilərəm ki, son illərdə Azərbaycanın uğurlu inkişafını şərtləndirən əsas amillər olmuşdur. Hesab edirəm ki, biz iqtisadi sahədə öz işimizlə bölgədə gedən regional əməkdaşlığa da müsbət təsir göstəririk. Bir çox hallarda nəhəng regional layihələrin, enerji, nəqliyyat layihələrinin təşəbbüskarı Azərbaycan olmuşdur və əsas iqtisadi riskləri də öz üzərinə götürmüşdür. Deyə bilərəm ki, bizim bütün təşəbbüslərimiz, iqtisadiyyatla, enerji ilə, nəqliyyatla bağlı layihələrimiz uğurla nəticələnir. Bir dəfə də olsun uğursuzluq olmayıb və əminəm ki, olmayacaqdır.

Azərbaycan hazırda iqtisadi, siyasi cəhətdən müstəqil bir ölkədir, müstəqil xarici siyasəti var. Bu siyasət dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Bu sözləri əyani şəkildə təsdiqləmək üçün sadəcə olaraq, demək istəyirəm ki, Azərbaycan bir neçə il bundan əvvəl BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və gənc müstəqil Azərbaycan 155 ölkənin dəstəyi ilə o mötəbər təşkilata üzv olmuşdur. Yəni bu da bizim dünyadakı rolumuzu, müstəqil xarici siyasətimizi əks etdirir. Çünki dünya birliyinin böyük əksəriyyəti bizə inanır və öz səsini verməklə bizi dəstəkləyir.

Hesab edirəm ki, əgər hər bir ölkə müstəqil xarici siyasət aparsa, onda dünyada müharibələr də az olar, anlaşılmazlıq da azalar. Hər bir ölkə digər ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır – həm

beynəlxalq müstəvidə, həm dinlərarası dialoq, humanitar sahədə. Bütün bunlar bir-biri ilə bağlıdır. Burada əyləşən nümayəndələr, 60-dan çox ölkədən gələn qonaqlar müxtəlif ölkələri təmsil edirlər, amma biz bir yerdə yığışırıq, müzakirə aparırıq. Çalışırıq necə yol tapaq ki, dünyada gedən prosesləri daha çox müsbət tərəfə istiqamətləndirək. Çünki bu gün gedən proseslər çox narahatedici proseslərdir. Həm müsəlman aləmində, həm Avropada radikalizm, ayrı-seçkilik, irqçilik artır. Bu meyilləri biz görürük və bunu narahatlıqla izləyirik.

Biz burada – Bakıda bu günlər ərzində çalışacağıq ki, bu meyillərin qarşısını almaq üçün hansı işlər görülsün. Əsas məsələ bundan ibarətdir. Çünki biz sivilizasiyalararası dialoqdan söhbət açırıq. Amma eyni zamanda, bəzi bəyanatlar bizi məyus edir – multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir. Biz bu təhlükəli meyillərə qarşı öz səsimizi ucaltmalıyıq. Əlbəttə ki, bunu ilk növbədə, dövlətlər etməlidir. Amma eyni zamanda, dövlətlərin bu siyasətini böyük dərəcədə hər bir cəmiyyətin siyasi və ictimai-elmi elitası, ictimai rəy müəyyən edir. Heç bir dövlət və hökumət başçısı ictimai rəyi nəzərə almaya, ona məhəl qoymaya bilməz. Ona görə hesab edirəm ki, biz birgə səylərimizlə bu məsələləri açmalıyıq, danışmalıyıq. Narahatedici məsələlər haqqında düşünməliyik, lazım gəldikdə irad tutmalıyıq. Biz tərəfdaş kimi, dost kimi, bu məsələlərə öz fikrimizi bildirməliyik. Biz Azərbaycanda çalışırıq ki, yaşadığımız bölgədə regional əməkdaşlıq inkişaf etsin, millətlərarası münasibətlər daha da yaxşılaşsın, dinlərarası dialoq güclənsin. Bizim imkanımız var. Çünki bizim keçmişimiz, dediyim kimi, imkan verir ki, bu məsələlərə böyük diqqətlə yanaşaq. Biz bu məsələləri bilirik. Çünki həm Azərbaycan özü çoxmillətli, çoxkonfessiyalı ölkədir,

həm də keçmişdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda birgə yaşamışlar. Qeyd etdiyim kimi, biz bu gün həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi, bu missiyanı öz üzərimizə götürmüşük. Biz istəyirik ki, daha da çox əməkdaşlıq, qarşılıqlı anlaşma olsun. Biz bundan sonra da öz rolumuzu bunda görürük.

Müsəlman aləmində gedən xoşagəlməz proseslər də bizi çox narahat edir. Çünki biz müsəlman aləminin bir parçasıyıq. Bu gün müharibələr, toqquşmalar, qanlı toqquşmalar, demək olar ki, ölkələri məhv edir. Bu çox ciddi prosesdir. Biz bu prosesə təcrid edilmiş proses kimi baxa bilmərik. Müasir dünyada biz hamımız bir-birimizlə bağlıyıq. Avropa qitəsində miqrantlara qarşı münasibətin pisləşməsi, «multikulturalizm iflasa uğrayıb» kimi bəyanatların verilməsi və ayrı-seçkiliyə meyilli olan siyasi qüvvələrin daha da böyük səs toplaması, əlbəttə ki, hamımızı narahat etməlidir.

Yenə də deyirəm, bu Forumun keçirilməsi də bu məqsədi güdür. Çünki hesab edirəm ki, müasir dünyada həm coğrafi, eyni zamanda, humanitar baxımdan Azərbaycanın nadir rolu var. Biz Avropa ilə Asiya arasında, qədim İpək yolu üzərində yerləşən bir ölkəyik və biz Avropanı da yaxşı anlayırıq, müsəlman ailəsinin də bir parçasıyıq. Biz çalışırıq ki, bu sivilizasiyalararası dialoq, humanitar dialoq daha da güclü olsun, daha da güclənsin.

Əlbəttə ki, müzakirələrdə bu məsələlərə diqqət göstəriləcəkdir. Əmənəm ki, müzakirələr çox uğurlu keçəcək. Dediyim sözləri təsdiq etmək üçün qeyd etməliyəm ki, nəinki humanitar sahədə, digər sahələrdə də bir çox təşəbbüslər hesab edirəm ki, uğurlu olmuşdur.

2 il bundan əvvəl Azərbaycanda Avropanın və bəlkə də dünyanın ən mötəbər mahnı yarışı – «Eurovision» müsabiqəsi böyük uğurla keçirildi. Bütün qonaqlar çox razı qaldılar.

Gələn il I Avropa oyunları – buna qeyri-rəsmi şəkildə Avropanın Olimpiya oyunları deyirlər – Bakıda keçiriləcək. Bu da çox əlamətdar hadisədir. Çünki Avropada bu günə qədər Olimpiada səviyyəsində yarışlar keçirilməmişdir. Burada da

Azərbaycan öz namizədliyini irəli sürmüş və Avropanın olimpiya ailəsi bizə böyük etimad göstərmişdir.

2017-ci ildə isə İslam Həmrəyliyi oyunları Bakıda keçiriləcəkdir. Cəmi 2 il ərzində həm Avropa, həm islam oyunları Azərbaycanda keçiriləcək. Bu da dediyim sözlərin təsdiqidir. Bu bizim rolumuzdur və biz çalışırıq ki, xalqları birləşdirək. Onu da qeyd etmək istəyirəm ki, keçən ay bizim üçün çox önəmli və tarixi qərar qəbul edilmişdir futbol üzrə Avropa çempionatı 2020-ci ildə, o cümlədən Bakıda da keçiriləcək. Cəmi 13 şəhər – Avropanın 13 şəhəri seçilmişdir. Onlardan biri də Bakıdır. Budur bugünkü Azərbaycan! Biz Avropa ailəsinin üzvüyük, müsəlman ailəsinin üzvüyük və sübut edirik ki, bu mümkündür. Biri o birini inkar etmir və etməməlidir. Bu gün inkişafda olan ölkəmiz göstərir ki, düşünülmüş siyasət, cəmiyyətdə müsbət meyillər güclü olanda böyük uğurlara imza atmaq mümkündür.

Əziz qonaqlar, mən sizi bir daha səmimiyyətlə salamlayıram. Bilirəm ki, qonaqlar arasında ölkəmizə ilk dəfə gələnlər də var. Əminəm ki, bu Forumun keçirilməsi sizin üçün çox maraqlı olacaq. Siz öz dəyərli fikirlərinizi bölüşəcək, eyni zamanda, ölkəmizlə yaxından tanış olacaqsınız.

Forumun iştirakçılarına uğurlar arzulayıram. Sağ olun!

* * *

*Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxudu və çıxış edərək dedi:*

– Zati-aliləri, çox hörmətli cənab Prezident!

İlk növbədə, Forumun çox yüksək səviyyədə təşkilinə, bütün iştirakçılara göstərilən əsl azərbaycansayağı qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Səmimi sözümdür, Sizin çox parlaq, çox məzmunlu, çox inandırıcı nitqinizin güclü təsiri altındayam. IV Bakı Beynəlxalq Humanitar Forumunun

ünvanına Rusiya Federasiyası Prezidentinin təbriki daxil olub. İcazə verin onu oxuyum:

**«IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına və qonaqlarına!**

Hörmətli xanımlar və cənablar!

IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışı münasibətilə sizi ürəkdən salamlayıram. Cəmi bir neçə il ərzində bu Forum dünyanın 70-dən çox dövlətinin və aparıcı beynəlxalq təşkilatların nümayəndələrini birləşdirən, olduqca nüfuzlu çoxtərəfli tədbirə çevrilib. Onun iştirakçıları arasında görkəmli siyasətçilər, mədəniyyət və incəsənət xadimləri, habelə tanınmış alimlər, o cümlədən dünya şöhrətli Nobel mükafatı laureatları vardır. Budəfəki görüşün gündəliyində bizim ümumi mənəvi və intellektual irsimizin qorunub saxlanılması və artırılması ilə, elmin, təhsilin və maarifin inkişafı ilə bağlı aktual məsələlər vardır. Əminəm ki, maraqlı və məzmunlu fikir mübadiləsi aparılacaq, bu mübadilə gedişində xalqlar arasında etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, bu mühüm humanitar sahədə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə yönəlmiş yeni ideyalar və təkliflər yaranacaqdır. Forumun iştirakçılarına və qonaqlarına səmərəli ünsiyyət arzulayır, ən xoş diləklərimi bildirirəm.

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti».**

**V a l e n t i n a M a t v i y e n k o**: Hörmətli xanımlar və cənablar! Şübhə yoxdur ki, Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü və himayəsi ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumunun nüfuzu ilbəil artır. Onu qeyri-rəsmi şəkildə intellektual Davos adlandırırlar. Mənim fikrimcə, xüsusən indiki beynəlxalq şəraitdə, humanitar forumun əhəmiyyəti iri və mühüm beynəlxalq iqtisadi forumların

əhəmiyyətindən heç də az deyil. Bu, qanunauyğun nəticədir və Forumun həqiqətən humanist, birləşdirici xarakterini və onun iştirakçılarının elm, təhsil, mədəniyyət və incəsənət sahələrində sıx qarşılıqlı əlaqələri dərinləşdirməyə yekdilliklə cəhd göstərməsini əks etdirir.

Qeyd etmək lazımdır ki, hələ Antik dövrdə yaranmış humanizm bizim dövrdə də baza dəyəri olaraq qalır. Bu, insan ləyaqətini təsdiqləmək, mənəvi dəyərləri həm gündəlik həyatda, həm də siyasətdə təsbit etmək istəyidir. İnsan bütün dəyərlərin meyarıdır. Qədim yunan filosofu Protaqorun bu klassik formulu bütün dövrlərdə aktual olub və aktual olaraq qalır. İntibah dövründən başlayaraq humanizm böyük yaradıcı şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ayrılmaz keyfiyyətidir. Françesko Petrarka deyirdi: «Həqiqətən, nəcib insan dünyaya gələndə böyük qəlbli olmur, o öz əməlləri ilə özünü ucaldır».

Bununla bərabər, humanizm əqidəsi təkcə Antik dövrün, İntibah dövrünün və sonrakı dövrlərin dahilərinin əsərlərinin yekunu deyil, həm də müxtəlif mədəniyyətlərə və müxtəlif dinlərə mənsub olan sadə insanların neçə-neçə nəslinin həyat təcrübəsidir.

Bəzən bizim dövrü postmodern dövrü adlandırır və deyirlər ki, humanizm başqalaşır, o cümlədən hər bir insanın şəxsi ləyaqətinin təsdiqlənməsinə və ucaldılmasına yönəlir. Mən bu yanaşmanı təkzib etmirəm, lakin fikrimcə, bizim ümumi vəzifəmiz ondan ibarətdir ki, qloballaşma əsrində humanizmin müasir forması ardınca yarışda, necə deyərlər, çirkli su ilə birlikdə uşağı da tullamayaq və məsələn, xalqların ənənəvi dəyərlərini qurban verməyək.

Humanizmin baza xarakterli, fundamental dəyərlərini qoruyub saxlamaq və artırmaq, ona dövrümüzün çağırışlarına uyğun forma vermək lazımdır. Müasir humanizm ilk növbədə, özünün sosialyönümlü olması ilə fərqlənir. Onun məzmunu insanın əsas problemlərinin həlli, fiziki və mənəvi imkanlarının reallaşması ilə ayrılmaz surətdə bağlıdır. Belə humanizm sosial

ədalətə can atan cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirir.

Bununla bərabər, humanizm ideyalarının adi sosiumun həyatına tətbiq edilməsi heç də həmişə ardıcıl olaraq yüksələn xətt üzrə cərəyan etməyən mürəkkəb prosesdir. Tarix göstərir ki, müxtəlif dövrlərdə və müxtəlif şəraitdə formaları və miqyasları fərqli olan, humanistləşmənin əksi olan prosesin fəsadları güclənib. Buna səbəb əlverişsiz sosial şərait, böhranlı vəziyyətlər, nəinki tarixin gedişinə təsir göstərməyə, hətta onu özünə tabe etməyə çalışan bu və ya digər hakim dairələrin ambisiyalı iddiaları olub və indi də belədir. Bir qayda olaraq bu, mənəvi və əxlaqi oriyentirlərin itirilməsinə, cəmiyyətin marginallaşmasına və digər dağıdıcı proseslərə gətirib çıxarır. Hazırda planetin müxtəlif regionlarında baş verən hadisələr bunun həqiqiliyinə bizi bir daha inandırır.

Digər tərəfdən, tamamilə aşkardır ki, harada humanizm hökm sürürsə, orada həmrəylik və qarşılıqlı anlaşma, sülh və firavanlıq bərqərar olur, orada münaqişələrə və müharibələrə yer yoxdur. Bu baxımdan, Xəzəryanı dövlətlərin 3 gün bundan əvvəl Həştərxanda keçirilmiş sammiti ən təzə və inandırıcı nümunədir. Sammitdə Xəzəryanı 5 ölkənin rəhbərləri çoxillik mürəkkəb danışıqlardan sonra sülh, qarşılıqlı etimad, bir-birinin maraqlarının nəzərə alınması ideallarına güvənərək Xəzərdə əməkdaşlığın əsas məsələləri barədə razılığa gəldilər.

Sammitdə 5 sənəd imzalandı, onlardan ən mühümü dənizdə fəaliyyətin əsas prinsiplərinin, o cümlədən akvatoriyanın delimitasiyası, habelə regiona aid olmayan dövlətlərin silahlı qüvvələrinin Xəzərdə olmasına yol verilməməsi haqda əsasnamənin təsbit edildiyi siyasi Bəyanatdır. Nəticədə Xəzərin hüquqi statusu haqqında Konvensiyanın artıq gələn il imzalanmasına birbaşa yol açılır.

Sammit iştirakçılarının yekdil rəyinə görə bu həqiqətən, böyük irəliləyişdir və bu, regiondakı sabit və münaqişəsiz şərait, etimad və qarşılıqlı anlaşma səviyyəsinin yüksək olması sayəsində mümkün olub. Bütün bunlar çox çətin məsələləri

konsensus yolu ilə həll etməyə imkan verib. Deyərdim ki, bu, fəaliyyətdə olan humanizmdir, çünki əldə edilmiş razılaşma xalqların amallarına və ümidlərinə cavab verir.

Hörmətli Forum iştirakçıları, humanist dəyərlər və ideallar uzun əsrlərboyu qarşısıalınmaz qüvvə kəsb edib. Onlar xalqların həyatının ayrılmaz hissəsinə çevrilib və beynəlxalq münasibətlərə üzvi şəkildə daxil olub. Beynəlxalq məkanda onların həyata keçirilməsi vasitələri keyfiyyətcə genişlənib. BMT-nin və YUNESKO-nun xoşməramlı səfirləri, qaçqınların müdafiəsi, insan hüquqlarının təmin edilməsi üzrə və digər nüfuzlu təsisatlar – bütün bunlar bizim dövrümüzdə yaranıb və ictimai inkişafın əsas vektorlarından biri olan humanizmin inkişafının daxili məntiqindən irəli gəlib. Əlamətdar haldır ki, bütün dünyada tanınmış neçə-neçə elm, mədəniyyət, təhsil və incəsənət xadimi belə humanizmin səfirləridir.

Mən bunu əsas götürərək bugünkü Forumun başlıca vəzifəsini real humanizmin dəyərlərinin praktiki təcəssümü kimi, humanitar əməkdaşlığın yeni imkanlarının müzakirə edilməsində görürəm. Hesab edirəm ki, Forumun iştirakçıları olan görkəmli alimlər də bu sahədə müasir vəziyyətin xüsusiyyətlərini hərtərəfli müzakirə edəcəklər. Ümumiyyətlə, Forum nümayəndələrinin bu cür yüksək səviyyəsi, əlbəttə ki, onun uğurunun rəhnidir.

Rusiya–Azərbaycan əlaqələri qədim və geniş humanitar qarşılıqlı fəaliyyətin parlaq nümunəsidir. Bu əməkdaşlıq artıq bu gün möhkəm qanunverici əsasa da malikdir. Onun dinamik inkişafının əsas amili Rusiya və Azərbaycan rəhbərlərinin dialoqudur. Dövlətlərimizin prezidentləri ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə şəxsən xüsusi töhfə veriblər.

Belə ki, keçən ilin avqustunda Vladimir Vladimiroviç Putinin Bakıya səfəri zamanı Rusiya ilə Azərbaycan arasında humanitar sahədə Əməkdaşlıq Proqramı imzalanıb. Rusiya Federasiyasının Federal Məclisi ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında ənənəvi dostluq əlaqələri yaranıb. 2003-cü ildən bəri – 10 ildən çoxdur ki, birgə parlamentlərarası Komissiya fəaliyyət

göstərir. Bu Komissiya humanitar sahədə müqavilə-hüquqi bazanın inkişafında bizim parlamentlərin qarşılıqlı fəaliyyətinin ən aktual məsələlərinə daim diqqət yetirir.

Rusiya–Azərbaycan regionlararası forumları humanitar əlaqələrin dinamik inkişafına mühüm töhfə verir. Xatırladıram ki, bu il iyun ayında Qəbələ şəhərində «Regionlararası əməkdaşlıq: yeni artım imkanları» mövzusunda V Rusiya–Azərbaycan Forumu uğurla keçdi. Humanitar sahədə əməkdaşlığın perspektivli istiqamətləri həmin forumun əsas mövzularından biri oldu.

Təhsil və mədəniyyət sahəsində Rusiya–Azərbaycan əlaqələri durmadan inkişaf edir. Biz bunu çox yüksək qiymətləndiririk. Rusiyada ali təhsil almağa Azərbaycanda böyük maraq qalmaqdadır. Azərbaycanda Rusiya diplomu gənc mütəxəssis üçün həm prestij, həm də yaxşı perspektivlər deməkdir. Azərbaycanlılar təkcə büdcə xətti ilə deyil, həm də öz vəsaitləri hesabına Rusiyada təhsil almağa həvəslə gedirlər. Bu gün Rusiyanın ali məktəblərində Azərbaycandan olan 13 minə yaxın tələbə təhsil alır.

Biz son dərəcə müsbət olan bir faktı da yüksək qiymətləndiririk: Azərbaycanda rus dilində tamdəyərli orta və ali təhsil almaq üçün geniş imkanlar vardır. Lomonosov adına Moskva Dövlət Universitetinin 2008-ci ildən fəaliyyət göstərən Bakı filialı Azərbaycan Respublikasının nüfuzlu ali məktəblərindən birinə çevrilib. Hazırda filialın 5 fakültəsində 400-dən çox tələbə təhsil alır, onlara Moskva Dövlət Universitetinin aparıcı professor və müəllimləri dərs deyir. Ölkələrimiz Azərbaycanda rus dilinin və Rusiyada Azərbaycan dilinin dəstəklənməsi məqsədi ilə fəal əməkdaşlıq edirlər.

Əlamətdar haldır ki, Rusiyada «Mədəniyyət ili» elan edilmiş 2014-cü ildə Moskvada böyük Azərbaycan bəstəkarı Qara Qarayevin xatirə lövhəsinin təntənəli açılışı olub. Bu, xalqlarımız arasında möhkəm dostluğa dəlalət etməklə bərabər, həm də dünya musiqi mədəniyyətinə, bu istedadlı bəstəkarın

yaradıcılığına bələd olan və onu sevən hər kəs üçün əlamətdar hadisədir.

Əziz dostlar! Həyat göstərir ki, müasir dövrün bir sıra çağırışlarına ən yaxşı və ən konstruktiv cavab məhz humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi ola bilər.

Azərbaycanlılarda belə bir müdrik məsəl var: «Qəlbi olan insanın qayğısı da olur». Gəlin çalışaq ki, bizim ümumi qayğılarımızın mərkəzi ideyası insanı ən ali dəyər hesab etməkdən ibarət olan humanizm təliminin məğzinin həyata keçirilməsinə yönəlsin.

Bakı Forumunun bütün iştirakçılarına səmimi-qəlbdən uğurlu iş arzulamaq istəyirəm. Əminəm ki, bizim və sizin yeni ideyalarımız, təşəbbüslərimiz real işlərdə və layihələrdə öz praktiki təcəssümünü tapacaq, xalqlar arasında etimadın, qarşılıqlı anlaşmanın və mehriban qonşuluğun möhkəmlənməsinə kömək edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Helen Klark** *(BMT-nin İnkişaf Proqramının rəhbəri):* Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli birinci xanım!

Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar!

IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışında BMT-nin Baş katibi Pan Gi Munu təmsil etmək mənim üçün çox xoşdur. İlk növbədə, icazə verin, müxtəlif məsələlər üzrə geniş fikir mübadiləsi üçün əhəmiyyətli bir fürsəti təmin edən bugünkü Forumda bizi bir yerə topladığına görə zati-aliləri Azərbaycan prezidenti cənab İlham Əliyevə təşəkkürümü bildirim. Həmçinin cənab Prezidentə minnətdarlığımı bildirirəm ki, nitqində müxtəlif dinlər və xalqlar arasında dialoqun gücləndirilməsi məsələsindən ətraflı bəhs etdi. Bu çox vacibdir.

Qısa çıxışımda BMT-nin Azərbaycan ilə insan kapitalının inkişafının təşviqinə yönəlmiş birgə fəaliyyəti və bundan irəli gələn bir sıra yeni təşəbbüslər haqqında danışmaq istəyirəm. «Cənub-Cənub» əməkdaşlığı üzrə Azərbaycanın genişlənən fəaliyyətini nəzərə alaraq BMT bu respublikanın öhdəsindən

gəldiyi çətinliklər üzrə bilik və təcrübəsini digər ölkələrlə bölüşmək üçün sizinlə tərəfdaşlıq etməkdən olduqca məmnundur. Təbiət Azərbaycana zəngin sərvətlər bəxş etmişdir. Əslində bu, tarixən belə olub. Tarixdən bizə miras qalan dərs ondan ibarətdir ki, bu ehtiyatların hasilatı adambaşına düşən ümumi daxili məhsulu böyük dərəcədə artırmağa qadir olsa da, heç də mütləq şəkildə dövlət gəlirlərini və ya insan kapitalının inkişafının səviyyəsini qaldırmağa müvəffəq olmamışdır. Təbii ehtiyatı ölkə sərvətinə və daha geniş insan kapitalının inkişafına çevirmək düşünülmüş və uzaqgörən dövlət siyasəti tələb edir. Azərbaycan bu baxımdan vaxtında əhəmiyyətli qərarlar qəbul etmişdir. 1994-cü ilin sentyabrında Azərbaycan xarici neft şirkətlərinin konsorsiumu ilə «Əsrin müqaviləsi» kimi tanınan hasilatın pay bölgüsü Sazişini imzalamışdır. İlkin razılaşmalara görə, Xəzər dənizinin neft ehtiyatlarının hasilatından əldə edilən mənfəətin 80 faizi Azərbaycana çatmalı idi. İcazə verin, fürsətdən istifadə edib, sentyabrın 20-də Bakıda qeyd olunan «Əsrin müqaviləsi»nin 20-ci ildönümü münasibətilə Azərbaycanı və onun tərəfdaşlarını təbrik edim. Bu yubiley Azərbaycan qazını Avropaya çatdıracaq yeni boru kəmərinin – «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimi ilə eyni gündə qeyd olunmuşdur.

«Əsrin müqaviləsi» Azərbaycanın inkişafı üçün böyük və yeni imkanlar açıb. Digər resurslarla zəngin olan ölkələr isə Azərbaycanın təbii sərvətlərin insan kapitalının inkişafı sahəsindəki təcrübəsini öyrənməlidir. İllər öncə BMT-nin İnkişaf Proqramı «qara qızıl»ın insan kapitalına çevrilməsi konsepsiyasının formalaşdırılması üçün Azərbaycana kömək etmişdir. Bu təşəbbüs isə rəqabətədavamlı qeyri-neft sektorunun inkişaf etdirilməsinə və insanların bacarıqlarının gücləndirilməsinə yönəlmişdir. Cənab Prezidentin bir qədər əvvəl söylədiyi kimi, Azərbaycan bu illər ərzində yoxsulluq səviyyəsinin kəskin azaldılmasına, sosial xidmətlərə yeni sərmayələrin yatırılmasına, sosial müdafiə sisteminin qurulmasına və əmək haqlarının artırılmasına nail olmuşdur.

Hazırda «qara qızıl»ın insan kapitalına çevrilməsi konsepsiyası tətbiq olunduğu ilk gündəki qədər vacibdir. İnsan kapitalının inkişaf tempinin artırılması istiqamətində fəaliyyət «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının uğur qazanması üçün vacib idi. BMT-nin İnkişaf Proqramı olaraq, biz bu konsepsiyanın reallaşdırılması işində Azərbaycana dəstək verməyə sadiqik.

Gender bərabərliyi və qadınların səlahiyyətlərinin daha da artırılması kimi məqsədlərə gəldikdə, həmçinin səhiyyə və ətraf mühitlə əlaqədar bir sıra hədəflər üzrə çağırışları nəzərə alaraq, Minilliyin İnkişaf Məqsədləri hələ də Azərbaycan üçün gündəmdə qalmaqdadır. Bu məqsədlərdən yarımçıq qalmış işlərin 2015-ci ildən sonrakı qlobal inkişaf strategiyasına daxil edilməsi ehtimalını nəzərə alsaq, növbəti ilin sentyabr ayında dünya liderləri tərəfindən qəbul ediləcək Dayanıqlı İnkişaf Məqsədləri də Azərbaycan üçün faydalı olacaq.

Azərbaycan «Cənub-Cənub» və üçtərəfli əməkdaşlıq vasitəsilə digər ölkələrlə öz inkişaf təcrübələrini bölüşmək üçün çox yaxşı mövqedədir. Həqiqətən də BMT-nin İnkişaf Proqramı və Azərbaycan BMT-nin Bakı və Kabulda yerləşən İnkişaf Proqramı ofislərinin iştirakı ilə həyata keçirdiyi tərəfdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Əfqanıstandan olan həmkarlarına öz dəstəyini göstərmişdir.

Ötən il Bakı Humanitar Forumunun plenar sessiyasında Türkiyənin sabiq prezidenti cənab Süleyman Dəmirəl Azərbaycanın «qara qızıl»ın insan kapitalına çevrilməsi təşəbbüsünün digər ölkələrdə tətbiqi üçün yaxşı model olduğunu vurğulamışdı. BMT-nin İnkişaf Proqramı bu fikirlə razıdır və Azərbaycanın öz yenilikləri ilə bölüşmək üçün bir çox digər imkanlarının olduğunun şahididir. Məsələn, BMT-nin İnkişaf Proqramı dövlət xidmətlərinə çıxış üçün vahid pəncərə olan «Asan xidmət» mərkəzlərinin yaradılmasını alqışlayır. Yarandığı gündən etibarən «ASAN xidmət» mərkəzləri tərəfindən göstərilən xidmətlər nəticəsində doğum şəhadətnamələri, icazə və ictimai

xidmətlər üzrə digər sənədləri əldə etmək istəyən insanlar üçün gözləmə vaxtı və xərclər əhəmiyyətli dərəcədə azalıb. Bunun nəticəsində ictimai xidmətlərin səmərəliliyi artır və korrupsiya üçün imkanlar daralır. Bu yanaşma Azərbaycanda böyük müvəffəqiyyət qazanmışdır və ictimai xidmətləri müasirləşdirməyə çalışan digər ölkələrdə də maraq doğuracaq. BMT-nin İnkişaf Proqramı «ASAN xidmət»in uzunmüddətli strategiyasının formalaşdırılmasında bu təsisatla əməkdaşlıq edib.

Ölkənin yeni pensiya sisteminin idarə edilməsi Azərbaycanın innovativ yanaşmasının digər mötəbər nümunəsidir. BMT-nin İnkişaf Proqramı dünyanın ən müasir pensiya sistemlərindən birinə çevrilən bu təşəbbüs üzrə əməkdaşlıq etməkdən çox məmnundur. Pensiyaçıların 99 faizinə ödənişlər elektron kart vasitəsilə ödənilir və buna nail olmaq üçün ən müasir informasiya texnologiyaları sistemləri quraşdırılıb. Bu da başqa ölkələrin yararlana biləcəyi digər bir müvəffəqiyyətdir. Azərbaycan, həmçinin elektron idarəetmə, minalardan təmizləmə, neft gəlirlərinin idarə olunması və gənclər siyasəti proqramları kimi geniş sayda sahələr üzrə bölüşmək üçün nadir təcrübəyə malikdir.

İcazə verin, BMT-nin Baş katibinin gənclər üzrə elçisinin ofisi, BMT-nin İnkişaf Proqramı və YUNESKO adından bu il Bakıda Gənclər və İdman Nazirliyi və Avropa Şurası ilə birlikdə Gənclər siyasəti üzrə ilk Qlobal forumun həmtəşkilatçısı olmağımızdan məmnunluğumuzu izhar edim. Bundan əlavə, Azərbaycan Respublikasının BMT Baş katibinin gənclər üzrə elçisinin ofisinə ilk ianə etməsini yüksək dəyərləndiririk.

BMT-nin İnkişaf Proqramı inkişafa yardımı idarə etmək üçün Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) yaradılması üzrə hökumətin təşəbbüsünü alqışlayır. Biz bacarıqların yaradılmasında və inkişaf etdirilməsində AİDA ilə tərəfdaşlıq etməkdən çox məmnun olardıq. Biz Azərbaycan tərəfinin digər ölkələrə, ələlxüsus fəlakətlərin aradan

qaldırılması və YUNESKO-nun proqramları üçün edilmiş töhfələri barədə məlumatlıyıq.

Əminik ki, «Cənub-Cənub» əməkdaşlığı və üçtərəfli əməkdaşlıq həm tərəfdaş ölkələr, həmçinin də Azərbaycanın özü üçün faydalı olacaq. Bu, müxtəlif ölkələr və onların mütəxəssisləri arasında, cənab Prezidentin də dediyi kimi, əlaqələri möhkəmləndirməklə gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaradacaq. Sözügedən təşəbbüslər Azərbaycanı xüsusi sahələrdə mükəmməllik mərkəzinə çevirəcək ki, bu da ölkənin daha geniş çeşiddə mal və xidmətlərinin ixrac qabiliyyətini artıracaq.

Ölkələrdəki ofisləri birləşdirən qlobal şəbəkə və 170-dən çox ölkədə həyata keçirdiyi proqramlar vasitəsilə BMT-nin İnkişaf Proqramı «Cənub-Cənub» əməkdaşlığı və üçtərəfli əməkdaşlığı asanlaşdırmaq üçün nadir rola malikdir. Biz İKT və müasirləşdirilmiş dövlət idarəetməsi də daxil olmaqla, insan kapitalı inkişafı üçün innovativ yanaşmaların mübadiləsi sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirən Azərbaycan ilə çiyin-çiyinə çalışmaqdan məmnunuq.

Mən bu Forumda iştirak etmək üçün dəvətə görə Azərbaycan Prezidentinə və hökumətinə bir daha təşəkkür edir, baş katibin ən xoş arzularını çatdırıram. Forumun bütün iştirakçılarına müvəffəqiyyətlər arzu edirəm. Çox sağ olun.

*Sonra YUNESKO-nun baş direktoru xanım İrina Bokovanın Forum iştirakçılarına videomüraciəti təqdim edildi.*

**İrina Bokova:** «Zati-aliləri! Xanımlar və cənablar!

Mən IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının qarşısında çıxış etməkdən məmnunam. Mən Azərbaycan hökumətinə, xüsusən də Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə belə vacib təşəbbüsə görə minnətdaram. Bu Forumun məqsədi multikulturalizm, elmi mübadilələr, texnologiya sahəsi, inkişaf, insan kapitalının inkişafı məsələlərindən ibarətdir və dünyada bütün cəmiyyətləri birləşdirir. Əslində bu məqsəd YUNESKO-nun mandatına da uyğundur. YUNESKO-nun mandatı məhz sülhün və davamlı inkişafın təmin

edilməsindən ibarətdir. Bütün cəmiyyətlər bizim dəyişən dünyada böyük dəyişikliklərə uğrayır. Biz yeni, mədəni biliklərin artırılması üçün yeni siyasətin həyata keçirilməsinə çalışmalıyıq və bu sahədə apardığımız fəaliyyətləri innovasiyalara bağlamalıyıq. Biz ifadə azadlığını təmin etməli, həmçinin bu bilikləri rəqəmsal şəbəkələrlə yayaraq bütün fərdləri əhatə etməliyik ki, azad və demokratik cəmiyyətlərimiz təşəkkül tapsın. Hamımız məhz elmi biliklərin vacibliyini anlayırıq və biz bunu hamının faydası üçün yaymalıyıq. İnanıram ki, bütün bu amillər bizim humanitar siyasətimizdə fundamental dəyişikliklərə səbəb olacaq. Mədəniyyət, təhsil, elm, rabitə və informasiya texnologiyaları bütün vacib tədbirlərin mühüm hissəsinə çevrilib. Bu, insanların əsas tələbatlarına cavab vermək, onlara kömək etmək üçün vacibdir. YUNESKO öz tərəfindən hazır olduğunu bildirir ki, mandatından irəli gələrək bu vacib yanaşmaya dəstək verəcək. Mən bu ruhda sizə faydalı müzakirələr və xoş işgüzarlıq arzulayıram».

**Əbdüləziz bin Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Mərhəmətli və rəhmli Allahın adı ilə!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, zati-aliləri hörmətli birinci xanım Mehriban Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışında Sizin qarşınızda çıxış etməkdən olduqca məmnunam. Biz gözəl Bakı şəhərində toplaşmışıq. Əvvəlcə, dialoq, ahəngdarlıq və dözümlülük məkanı sayılan Bakıda dünya miqyaslı humanitar təşəbbüsü irəli sürdüyünə görə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə ən səmimi təşəkkürümü və minnətdarlığımı bildirməkdən şərəf hissi duyuram.

Prezident İlham Əliyev bu Forumu mədəniyyətlərarası dialoqa aid məsələləri ümumi şəkildə müzakirə etmək, qarşılıqlı hörmət və etimad ruhunda sivilizasiyalar alyansını formalaşdırmaq məqsədilə ziyalıların, akademik dairələrin, yüksək peşəkarların, dini liderlərin, alimlərin və bütün sahələrin mühüm simalarının

toplaşdığı qlobal tədbirə çevirib. Dünya heç vaxt görünmədiyi kimi ahəngdar münasibətlərin qurulmasına ehtiyac duyur. Bizə dünyada sülh və təhlükəsizliyin təmin olunması üçün möhkəm bünövrə lazımdır. Biz əslində bir çox proseslərin kəsişdiyi bir andayıq və sözün əsl mənasında, bunu söyləmək lazımdır ki, çox böhranlı və çətin bir şəraitdə yaşayırıq. Beynəlxalq ictimaiyyət böyük çaşqınlıq, böyük çətinliklər içərisindədir. Bu baxımdan dünyada sülhə olan bir çox hədələr və çətinliklər göz qabağındadır. Bu çağırışların aradan qaldırılması üçün biz təbii ki, öz səmimi və hərtərəfli səylərimizi göstərməliyik. Biz görürük ki, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquqlarının qorunmasına ehtiyac var. Bakı Beynəlxalq Humanitar Forumunun öz məqsəd və mexanizmləri var və bu, sülh naminə əqli bir alyans aləmidir. Bu belədir. Çünki biz terrorçuluğun bütün formalarına qarşı mübarizədən söhbət aparırıqsa, ilk növbədə ekstremist ideyaların aradan qaldırılmasına, belə meyillərin tam qarşısının alınmasına nail olmalıyıq. Lakin dünyada ədalət və sülh, ahəngdarlıq, qarşılıqlı anlaşma və fərqlilik hüququna malik olmanı etiraf etmədən buna nail ola bilmərik.

2011-ci ildə təsis olunmuş bu Forumun əsas məqsədinə gəldikdə, biz qloballaşma dövründə yeni bir humanitar gündəlik yaratmaq istəyirdik. İstəyirdik ki, bunu bütün dünyada təşviq edək. Bu, Azərbaycan Respublikasının öz öhdəliklərindən irəli gələn ən ülvi məqsədlərdən biridir. Beynəlxalq ictimaiyyət qarşısında öhdəliklər ondan ibarətdir ki, humanitar inkişafın təmin edilməsi üçün bu məram həyata keçirilməlidir. Bu baxımdan beynəlxalq konfranslar kifayət qədər çoxdur. Onlar dialoq, qarşılıqlı anlaşma, dözümlülük və insanlar arasında əməkdaşlığa aiddir. Lakin Bakıda keçirilən bu Forum əslində ən uğurlu tədbirlərdən biridir və İSESKO bu cür hazırlıq işlərində iştirak etməkdən məmnunluq duyur. Bu tədbirlərlə Bakı bütün dünyanın diqqətini özünə cəlb edib. Burada insan mədəniyyətinin uzunmüddətli adət-ənənələri, artıq təşəkkül tapmış bu cür vacibliyə malik olan belə bir layihə üçün ideal platforma qurulub. Bu məqsədlə 2011-ci ildə mən bu Forumu

insan sivilizasiyasının ən ülvi məramlarını özündə əks etdirən layihə adlandırdım. Çünki hökumətlər, regional və beynəlxalq təşkilatlar, adi insanların təsisatları səviyyəsində olan əməkdaşlıq belə bir qlobal səylərlə təşviq edilə bilər. Biz hesab edirik ki, insan alyansını qurmalıyıq. Bu, sözün əsl mənasında, insan alyansıdır və o, insanları bütün səylərini göstərərək, bütün vasitələrdən istifadə edərək əməkdaşlığın, anlaşmanın qurulmasına, dərinləşməsinə ruhlandırmalıdır ki, biz problemləri aradan qalldıra bilək.

Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət yenə də bir çox faktlara laqeyd yanaşır. Bunların arasında ayrı-seçkilik, ədavət, ekstremizm var. Təəssüflər olsun ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni qüvvələri tərəfindən işğalı və Fələstin xalqının çəkdiyi əziyyətlər davam edir. Bu 2 problemə gəldikdə, bununla bağlı bir çox təşəbbüslər irəli sürülmüşdür. Əslində BMT Təhlükəsizlik Şurasının qətnamələri var. Bu qətnamələr hələ ki, həyata keçirilməyib. Bu əslində beynəlxalq hüquqa məhəl qoyulmaması deməkdir. Mən hesab edirəm ki, işğala son qoyulmalıdır. Bu, yeganə yoldur. Mən bunu İSESKO adından bəyan edirəm və bu, həyata keçirilməlidir. Mən şübhə etmirəm ki, bu Forumun oynadığı vacib rol uğurlu olacaq və o, bəşəriyyətə xidmət etməkdə davam edəcək, islamın əsl dəyərlərini təşviq edəcək. Bu dəyərlər müasirlik modelinə çevrilərək hamımıza fayda gətirəcək. Bəli, siz deyə bilərsiniz ki, müsəlman aləmində bəzi insanlar var ki, onlar çox çaşqınlıq yaradan hərəkətləri ilə seçilirlər. Lakin onlar bizim dəyərlərimizi əlimizdən ala bilməzlər. Çünki onlar bizim ailəmizin bir hissəsi deyil və biz buradan bütün terrorçulara qarşı çıxış edirik. Terrorçuluq bəşəriyyətə, dinə qarşı cinayətdir. Bu hamımıza, bütün insanlara, bütün fərdlərə qarşı törədilən cinayətdir. Gəlin səylərimizi birləşdirək, təcavüzə, işğala və terrorçuluğa qarşı mübarizə aparaq. Çox sağ olun.

* * *

*Rəsmi açılış mərasimi başa çatdıqdan sonra Forum öz işini plenar iclasla davam etdirdi.*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKO İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Valentina Matviyenkonu yenidən Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri seçilməsi münasibətilə təbrik etdi. Dövlətimizin başçısı Bakıda keçirilən IV Beynəlxalq Humanitar Forumda Rusiya Federasiyası nümayəndə heyətinin Federal Məclisin Federasiya Şurası sədrinin başçılığı ilə iştirakını bu tədbirə verilən mühüm əhəmiyyət kimi dəyərləndirdi. Prezident İlham Əliyev Forumla bağlı təbriklərinə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə onun təşəkkürünü çatdırmağı Valentina Matviyenkodan xahiş etdi. Azərbaycan Prezidenti bir neçə gün əvvəl Həştərxanda Rusiya dövlətinin başçısı ilə görüşü zamanı 2 ölkə arasında münasibətlərin çox müsbət, dinamik inkişaf etməsinin, əməkdaşlığın bütün sahələri əhatələməsinin, iqtisadi sahədə ticarət dövriyyəsinin artmasının vurğulandığını diqqətə çatdırdı. Dövlətimizin başçısı parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsində önəmini vurğuladı.*

*Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko prezident Vladimir Putinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qonaq IV Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Valentina Matviyenko dövlətimizin başçının Forumdakı çıxışının yaratdığı yüksək təəssüratdan danışdı. Bakıda gördüklərinin nümayəndə heyəti üzvlərində dərin təəssürat yaratdığını vurğuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinə salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Rusiya dövlətinin başçısına çatdırmağı Valentina Matviyenkodan xahiş etdi.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ SAPARDURDU TOYLİYEV İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Türkmənistan Respublikası Baş nazirinin müavini Sapardurdu Toyliyevi qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu. Xəzəryanı ölkələrin dövlət başçılarının bir neçə gün əvvəl Həştərxanda keçirilən sammitinin regional əməkdaşlıq baxımından əhəmiyyəti vurğulandı. Əlaqələrin inkişafında hökumətlərarası birgə Komissiyanın rolu xüsusi qeyd edildi.*

*Söhbət zamanı iqtisadiyyat, nəqliyyat, investisiya qoyuluşu sahələrində yaxşı perspektivlərin olduğu diqqətə çatdırıldı, bu sahədə səylərin gücləndirilməsinin önəmi vurğulandı.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlersi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. IV Bakı Beynəlxalq Humanitar Forumunun xalqlar və mədəniyyətlər arasında dialoqun genişləndirilməsində rolu qeyd edildi.*

## LİTVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİTAUTAS LANDSBERGİS İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Litva Respublikasının sabiq prezidenti Vitautas Landsbergisi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Litva arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Artıq dördüncü dəfədir Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun mədəniyyətlərarası dialoqa verdiyi töhfə vurğulandı.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Görüşdə IV Bakı Beynəlxalq Humanitar Forumunun beynəlxalq əməkdaşlığı genişləndirmək baxımından xüsusi əhəmiyyətə malik olduğu vurğulandı, ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi.*

## IV BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN NAHARDA İŞTİRAK

*2 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının şərəfinə nahar verilmişdir.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri naharda iştirak etmişlər.*

## ABŞERON RAYONUNA SƏFƏR

*3 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Abşeron rayonunun Xırdalan şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət etdi və önünə gül dəstəsi qoydu.*

*Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov prezident İlham Əliyevə rayonda görülən işlər barədə məlumat verdi.*

### Xırdalan şəhərində Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında, ölkədə bütün sahələrin canlandırılmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə mühüm layihələr reallaşdırılır. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür. Bu cür mərkəzlərdən biri də Abşeron rayonunda inşa olunub. Orijinal layihə əsasında tikilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir.*

*Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasətçilərindən olan ulu öndər Heydər Əliyevin*

*Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyinin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhrandan inkişaf yoluna çıxarılması, güclü ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz Vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir.*

*Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı.*

*Məlumat verildi ki, Mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada interaktiv məlumat tablolarına geniş yer verilməsidir. Mərkəzdə ümummilli liderin xatirəsinin əbədiləşdirildiyi muzey də yaradılıb. Ekspozisiya zallarının hamısı zəruri avadanlıqlarla təchiz olunub. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada gənclər üçün müzakirə və diskussiya zalları qurulub, elektron kitabxana yaradılıb. Sərgi zalından əlavə, Mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı da var. Yaradılan bu şərait gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtlarının səmərəli təşkil edilməsinə geniş imkanlar açır.*

*Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanılıb. Qeyd edildi ki, bu Mərkəzdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili nəzərdə tutulur. 280 yerlik böyük akt zalı istifadəyə verilib ki, burada da rayonla bağlı bir çox tədbirlərin keçirilməsi üçün böyük imkanlar var. Bir sözlə,*

*ulu öndərin zəngin siyasi irsinin öyrənilməsi üçün burada hər cür şərait yaradılıb.*

*Sonra dövlətimizin başçısı Abşeron rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** İlk növbədə, sizi qarşıdan gələn Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə, Abşeron rayonunun bütün sakinlərinə, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram. Bu gözəl bayram ərəfəsində bu gün bu möhtəşəm Mərkəzi biz birlikdə açırıq. Heydər Əliyev Mərkəzi doğrudan da həm xarici görünüşü, həm də daxili dizaynı baxımından zövq oxşayır. Gözəl binadır, burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən videomateriallar, fotoşəkillər, interaktiv lövhələr var. Müasir səviyyədə tikilmiş çox gözəl bir Mərkəzdir. Mərkəzin yerləşdiyi meydan da abadlaşıb, gözəlləşib.

Mən əvvəllər də burada olmağımı xatırlayıram və görürəm ki, Abşeron rayonunda, Xırdalan şəhərində çoxlu işlər görülüb. Xırdalana şəhər statusu veriləndən sonra burada inkişaf daha da sürətli olmuşdur. İndi Xırdalan gözəl, abad şəhərdir və burada binalar tikilir, bərpa edilir, eyni zamanda, yollar salınır, sosial obyektlər inşa olunur, artıq Bayraq Meydanı yaradılıbdır. Bir sözlə, son illərdə Xırdalanın inkişafı çox sürətli olmuş və rayonda çox böyük işlər görülmüşdür. Yollar çəkilir, məktəblər, xəstəxanalar tikilir. Bir daha demək istəyirəm ki, bütün bunlar məni çox sevindirir. Çünki bizim əsas inkişaf istiqamətimiz sosial sahənin inkişafı ilə bağlıdır.

Bütün bölgələrdə, rayonlarda quruculuq işləri aparılır, şəhərlər abadlaşır və insanların yaşayış səviyyəsi yaxşılaşır. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, beynəlxalq mövqelərimiz daha da möhkəm olsun, insanlar daha da yaxşı yaşasınlar.

Bizim uğurlu inkişafımızın təməlini məhz ulu öndər Heydər Əliyev qoymuşdur. 1993-cü ildən bu günə qədər biz ancaq inkişaf yolu ilə gedirik. Ona görə ulu öndərin xatirəsini bu əziz bayram ərəfəsində biz böyük ehtiramla yad edirik. Biz Abşeron rayonunun

timsalında Azərbaycanda aparılan iqtisadi, sosial islahatları görürük. Ümumiyyətlə, ölkəmizin sürətli inkişafı hər bir yerdə özünü göstərir. Əminəm ki, gələcək illərdə də Abşeron rayonunun inkişafı sürətlə gedəcək, burada bütün məsələlər öz həllini tapacaq, sosial problemlər bundan sonra da həll olunacaq.

Abşeron artıq böyük rayondur, 400 minə yaxın əhalisi var. Xırdalan şəhəri də böyük şəhərdir, 150 min əhalisi var. Əlbəttə ki, şəhərin gələcək inkişafı da diqqət mərkəzində olmalıdır. Çünki Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır, şəhərlər böyüyür. Şəhərlərin gələcək inkişafı ilə bağlı xüsusi plan tərtib edilməlidir ki, şəhərlər bundan sonra hansı istiqamətdə inkişaf etsin.

Əlbəttə ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasətimiz dayanır. 2 həftə bundan əvvəl biz «Əsrin kontraktı»nın 20-ci ildönümünü qeyd etmişik. Əgər o vaxt «Əsrin kontraktı» imzalanmasaydı, bu gün bu uğurlardan söhbət açmaq mümkün olmazdı. Neft-qaz sektorumuzun inkişafı, gəlirlərin düzgün bölüşdürülməsi bizi bu vəziyyətə gətirib çıxarıbdır. Mötəbər beynəlxalq təşkilatların hesablamalarında Azərbaycanda bu sahədə görülən işlər yüksək qiymətləndirilir.

Dünən Bakıda IV Beynəlxalq Humanitar Forum öz işinə başlamışdır. Forumda iştirak edən qonaqlar, beynəlxalq təşkilatların nümayəndələri, dövlət xadimləri Azərbaycanda gedən inkişafı yüksək qiymətləndirmişlər. Onlar öz çıxışlarında Azərbaycanda sosial sahədə, xüsusilə yoxsulluğun azaldılmasında görülən işlərə yüksək qiymət vermiş və Azərbaycanı nümunə kimi göstərmişlər. Həqiqətən, bu belədir. Çünki son 10 il ərzində iqtisadi inkişaf templərinə görə bizim ölkəmiz qədər inkişaf edən ölkə olmamışdır. Bütün bunlar xalqın rifahı üçün edilir.

Ölkəmizin həm beynəlxalq mövqeləri möhkəmlənir, həm sosial sahədə böyük işlər görülür. Dünən işə başlamış Forum artıq dünya miqyasında nadir bir müzakirə meydanına çevrilibdir. Bunu biz etmişik. Çünki bu gün Azərbaycan bu bölgənin həm iqtisadi, həm mədəni mərkəzidir və bütün bunları biz özümüz yaratmışıq. Bütün bunlar Azərbaycan xalqının zəhməti hesabına yaradılıb. Biz bunu

qiymətləndiririk və gələcəyimiz də çox uğurlu olacaqdır. Çünki hazırda icra edilən infrastruktur layihələri, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası bizə əlavə imkanlar yaradacaq ki – bu proqram 2018-ci ilədək başa çatacaq – o vaxta qədər Azərbaycanda bir dənə də olsun icra edilməmiş infrastruktur layihəsi qalmasın.

O ki qaldı Abşeron rayonuna, burada işlər qeyd etdiyim kimi, sürətlə gedir – həm sosial sahədə, həm də abadlıqla bağlı böyük işlər görülür. Xırdalan şəhərinin siması tamamilə dəyişibdir, indi gözəl, müasir bir şəhərdir və belə də olmalıdır. Çünki bizim bütün şəhərlərimiz gözəl olmalıdır. Azərbaycan xalqı buna layiqdir, biz də öz işimizlə çalışırıq ki, hər sahədə daha da yaxşı nəticələr olsun.

Bu gün bir neçə obyektin açılışı gözlənilir. Onlar da çox önəmlidir. Xırdalan üçün yeni imkanlar açılır və əminəm ki, həm Abşeron rayonunun, həm də, ümumiyyətlə, ölkəmizin sürətli inkişafı bundan da güclü olmalıdır və olacaq.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın əldə etdiyi uğurlar bu gün ən mötəbər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və bizim təcrübəmiz indi başqa ölkələrdə də öyrənilir. Bunu biz etmişik, biz yaratmışıq.

Bu gün mənim Abşeron rayonuna səfərimin məqsədi həm sizlərlə görüşmək, həm də yeni obyektlərin açılışında iştirak etməkdir. Biz möhtəşəm Mərkəzin açılışını qeyd edirik. Əlbəttə, gələcək inkişafla bağlı əlavə tədbirlər görüləcək. Bu məqsədlər üçün həm rayon səviyyəsində xərclərdən, həm də dövlət büdcəsinin xərclərindən istifadə olunacaq.

Bir sözlə, biz çox sürətli temp götürmüşük və çalışacağıq ki, gələcək illərdə də bu tempi saxlayaq. Çünki hələ görüləsi işlər çoxdur. Sizi, Abşeron rayonunun bütün sakinlərini bir daha qarşıdan gələn gözəl Qurban bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

**Təyyibə Hüseynova** *(Saray qəsəbəsindəki 3 saylı tam orta məktəbin direktoru, Əməkdar müəllim):* Möhtərəm cənab Prezident! İcazə verin, bu xoş gündə, bu əziz gündə Sizi

Abşeron rayonunun bütün ictimaiyyəti adından ürəkdən salamlayım, Sizin Qurban bayramınızı təbrik edim. Qurban bayramı xalqımızın ən müqəddəs bayramlarındandır. Bu bayram bizim bərabərliyimizin, xeyirxahlığımızın simvoludur. O dövrün çətinliklərinə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyev bizim bütün milli-mənəvi dəyərlərimizi, bütün milli bayramlarımızı qorudu, saxladı. Hətta milli bayramlarımızın dövlət səviyyəsində qeyd olunmasını təmin etdi. Azərbaycan xalqının əsrlərdən bəri ürəyində olan arzularını həmişəki kimi yerinə yetirdi.

Möhtərəm cənab Prezident! Çox gözəl bir gündə, çox gözəl bir ovqatda biz Sizinlə birlikdə möhtəşəm bir Mərkəzin və gözəl parkın açılışına toplaşmışıq. Bu park, bu gözəl, möhtəşəm Mərkəz gənclərimizin üz tutduğu, toplaşdığı bir məkana çevriləcək. Gənclərimiz burada yaradılmış bu gözəl şəraitdən istifadə edərək öz maraqlarına uyğun məşğuliyyətlərini tapacaqlar. Burada onlar ümummilli liderimiz, dahi azərbaycanlı, böyük insan Heydər Əliyevin yaratdığı o şanlı, şərəfli Azərbaycan tarixinin səhifələrini vərəqləyəcək, Vətəni, xalqı, ailəni sevməyin əsl nümunəsi olan ulu öndərimizin həyat və fəaliyyətini öyrənəcəklər.

Möhtərəm cənab Prezident! Bugünkü Azərbaycan ümummilli liderimizin arzu etdiyi Azərbaycandır. Bu gün uzaqgörən, yaradıcı, qurucu prezidentimiz İlham Əliyevin sayəsində Azərbaycanın adı dünya kürsülərində çox ucadan səslənir. Dünya Azərbaycanla hesablaşır. Bu gün Azərbaycan dünyanın o nadir ölkələrindəndir ki, özü öz gələcəyini müəyyən edir və müstəqil siyasət yeridir. Mən dünən Sizin forumdakı nitqinizə qulaq asarkən aforizmə çevrilmiş bir sözünüzü çox sevdim. Siz söylədiniz ki, Azərbaycan həm Avropa ailəsinin, həm də müsəlman ailəsinin üzvüdür. Bunu Siz etdiniz. Bunu Siz dünyaya sübut etdiniz ki, bu standart mümkündür. Buna görə Sizə ürəkdən təşəkkür edirəm, möhtərəm Prezident!

Biz hamımız gözəl bilirik ki, Azərbaycan sürətlə inkişaf edir. Bu inkişafın ən gözəl nümunələrindən biri də Xırdalan şəhəridir. Sizin

dövlət rəhbəri kimi, Xırdalana ilk gəlişiniz 2006-cı ildə olmuşdu. Onda Xırdalan qəsəbə idi və mən deyərdim ki, yaddan çıxmış, unudulmuş qəsəbə idi. Siz həmin gəlişinizlə bugünkü Xırdalanın tərəqqisinin əsasını qoydunuz. Siz Xırdalana şəhər statusu verdiniz. Bu gün Xırdalan şəhəri göz qabağındadır, inkişaf edir, çiçəklənir, gözəlləşir. Bu gün nəinki Xırdalan şəhəri, Abşeronun elə bir kəndi, elə bir qəsəbəsi yoxdur ki, orada abadlıq-quruculuq işləri görülməsin. Bu gün rayonumuzda yeni-yeni məktəblərin, uşaq bağçalarının, səhiyyə ocaqlarının, sosial və mədəni obyektlərin tikilib xalqın istifadəsinə verilməsi bir ənənə halı alıb. Buna görə abşeronlular Sizə ürəkdən təşəkkür edirlər. Abşeronlular Sizi çox sevirlər, möhtərəm Prezident. Abşerona tez-tez gəlin. Sizin hər gəlişinizə biz öz fədakar əməyimizlə cavab verəcəyik.

Möhtərəm cənab Prezident! Biz hamımız gözəl bilirik ki, Azərbaycanın gələcəyi bundan da işıqlı, bundan da gözəl olacaqdır. Çünki Azərbaycanın inkişaf sükanı əmin əllərdədir. Çünki Azərbaycanın inkişaf sükanı Sizin əlinizdədir. Sizin yolunuz isə haqq, həqiqət yoludur. Qoy bu həqiqət yolunuz həmişə açıq olsun. Qoy bu həqiqət yolu Siz başda olmaqla, bütün xalqımızı haqqa, ədalətə, sülhə, firavanlığa qovuşdursun.

Hörmətli cənab Prezident! Uca Tanrıdan ən böyük arzumuz odur ki, Sizi və ailənizi hifz edib qorusun. Mən müqəddəs Qurban bayramı münasibətilə bir daha Sizi və ailənizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yorulmaz fəaliyyət və müvəffəqiyyət dolu bir ömür arzu edirəm.

Çox sağ olun!

## Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Son illər Abşeron rayonunda həyata keçirilən abadlıq işləri sırasında Xırdalan şəhərindəki Heydər Əliyev adına Mədəniyyət və istirahət parkının yenidən qurulması mühüm əhəmiyyət daşıyır. Bu da ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla, bölgələrimizin daha da gözəlləşməsinə xidmət edir. Xırdalan şəhərinin mərkəzində yerləşən bu Mədəniyyət və istirahət parkında yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ərazisi 12 hektar olan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.*

*Xırdalan şəhərindəki Heydər Əliyev adına parkda aparılan yenidənqurma işləri ölkədə əhalinin istirahətinin yüksək səviyyədə təşkil olunmasının davamlı və kompleks xarakter daşıdığını təsdiqləyir.*

## Bayraq Meydanı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərindəki Bayraq Meydanı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bayraq dirəyinin hündürlüyü 65 metrdir. Burada müxtəlif videogörüntülərin nümayiş etdirilməsi üçün böyük monitor da quraşdırılıb.*

*Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan, bu gün müstəqil ölkəmizin başı üzərində dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımıza dövlət səviyyəsində olan ehtiramın göstəricisidir. Təsadüfi deyil ki, indi hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Dövlət atributlarına xüsusi ehtiramla yanaşan prezident İlham Əliyev bu məsələdə hər zaman həssas münasibəti ilə seçilib. Odur ki, paytaxtla yanaşı, bölgələrimizdə də bayraq meydanları*

*salınıb. Abşeron rayonundakı Bayraq Meydanı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.*

## «Park Abşeron» əyləncə mərkəzində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində yaradılan «Park Abşeron» əyləncə mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.*

*Artıq ölkəmizin regionlarında da əhalinin istirahətinin təşkili istiqamətində mühüm layihələr həyata keçirilir. Xırdalanda yaradılan yeni «Park Abşeron» əyləncə mərkəzi də öz dizaynına, memarlıq quruluşuna görə şəhərin simasına xüsusi yaraşıq verir. İndi Xırdalan şəhərinin mənzərəsinin maraqlı elementinə çevrilən bu modern əyləncə mərkəzində yaradılan şəraitdən məqsəd ilk növbədə, insanların mənalı istirahətini təşkil etmək, onlara mənəvi zövq yaşatmaqdır. Beləliklə, Xırdalan şəhərində daha bir maraqlı ticarət və istirahət məkanı bundan sonra sakinlərin istifadəsində olacaq.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1400 kvadratmetr ərazisi olan əyləncə mərkəzində buz meydançası yaradılıb. Bu da həm uşaqlar, həm də gənclər üçün maraqlı istirahət imkanı yaradır. Bundan əlavə, mərkəzdə 3D sinema, kafe, 3D tir otağı, bouling zalı fəaliyyət göstərir. Yay kafesinin də olduğu mərkəzdə yerli əhalinin və qonaqların istirahətinin təşkili üçün bütün imkanlar var.*

## Musiqi məktəbinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində musiqi məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi və musiqi məktəbi ilə tanış oldu.*

*Son illərdə ölkədə mədəniyyətin inkişafına göstərilən diqqət və qayğı artıq öz bəhrəsini verməkdədir. Bu da ondan irəli gəlir ki,*

*mədəniyyətin inkişafına göstərilən qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Həm prezident İlham Əliyev, həm də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu məsələyə xüsusi diqqət və qayğı göstərirlər. Ölkəmizdə mədəniyyət xadimlərinə diqqət getdikcə artır, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Bundan əlavə, zəngin Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və təbliği ilə bağlı layihələr icra olunur və bu prosesin önündə Heydər Əliyev Fondu gedir. Son illərdə paytaxtla yanaşı, bölgələrdə yaradılan mədəniyyət ocaqları da bu sırada xüsusi yer tutur.*

*Yüksək zövqlə və xüsusi memarlıq üslubunda inşa edilən məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkədə mədəniyyətin inkişafı istiqamətində xidmətlərinin əks olunduğu fotolar nümayiş etdirilir. Geniş sinif otaqlarının yaradıldığı məktəbdə şagirdlərin musiqi biliklərinə yiyələnmələri üçün hər cür şərait var. Bütün siniflər musiqi alətləri ilə təchiz olunub. Müəllimlər üçün də yüksək iş şəraiti yaradılıb. Kitabxana zəruri musiqi ədəbiyyatı ilə təchiz olunub. 82 nəfərlik akt zalında müxtəlif tədbirlərin, konsert proqramlarının keçirilməsi üçün bütün imkanlar var. Bir sözlə, son illərdə ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən irimiqyaslı işlərin tərkib hissəsi olan bu musiqi məktəbi gənclərdə musiqi zövqünün formalaşmasında xüsusi rol oynayacaq.*

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Son vaxtlarda Xırdalanda tikilən sosial təyinatlı obyektlərdən biri də Şahmat məktəbidir. Bu məktəbdə də yüksək şərait yaradılıb, balacaların şahmatın sirlərinə yiyələnmələri üçün bütün tələblər nəzərə alınıb. Bütün bunlar prezident İlham Əliyevin*

*«Azərbaycanda şahmatın inkişaf etdirilməsi haqqında Sərəncam» və «2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı»na uyğun olaraq həyata keçirilib. Yaradılan şərait şahmatçılarımızın beynəlxalq yarışlarda möhtəşəm qələbələr qazanmasına, yüksək nəticələr əldə etməsinə imkan verib. Şübhəsiz ki, bu məsələdə Xırdalanda inşa olunan Şahmat məktəbinin öz yeri olacaq.*

*Məktəbdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın, o cümlədən şahmatın inkişafı ilə bağlı xidmətlərinə həsr olunan fotoguşə yaradılıb.*

*Şahmat məktəbində yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada məşq otaqları və digər əlavə otaqlar var. Otaqlardakı kompüterlər xüsusi şahmat proqramları ilə yüklənib. Şahmat məktəbi müasir maddi-texniki baza ilə təchiz edilib. Məktəbdə yarış zalı da var. Burada şahmatla peşəkar səviyyədə məşğul olmaq məqsədilə bütün zəruri əyani vəsaitlər mövcuddur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, məktəbin əsas vəzifəsi idmanın bu intellektual növünün kütləviliyini, şagirdlərin asudə vaxtlarının səmərəli təşkilini təmin etməkdir.*

## Masazır qəsəbəsində inşa olunan stadionun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 3-də Abşeron rayonunun Masazır qəsəbəsində inşa olunan stadionun açılışında iştirak etmişdir.*

*Bu gün idmançılarımızın beynəlxalq yarışlarda fəal iştirakının təmin olunması prezident İlham Əliyevin Azərbaycan idmanına verdiyi töhfələrin təməl prinsipini təşkil edir. Ölkəmizdə nəhəng idman infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılır. Bu işə Azərbaycanın bütün regionları cəlb olunub. Ölkəmizin hər yerində olimpiya idman kompleksləri, sağlamlıq mərkəzləri tikilib istifadəyə verilir. Bu idman obyektləri dünya standartlarına cavab verməklə, həm də ölkəmizdə yaradılan idman*

infrastrukturunun güclü əsaslara söykəndiyini təsdiqləyir. Bir sözlə, Azərbaycan dünya idman aləminə nəhəng mərkəzlərdən biri kimi daxil olub. Bu məsələdə prezident İlham Əliyevin göstərdiyi səylər ölkəmizin idman aləmində də yetərincə nüfuz qazanması ilə nəticələnib.

Dövlətimizin başçısına məlumat verildi ki, Masazır qəsəbəsindəki stadion beynəlxalq standartlar nəzərə alınaraq inşa olunub və tikinti işləri ən yüksək səviyyədə həyata keçirilib. 13 min tamaşaçı yeri olan bu idman qurğusunda mətbuat, məşqçi, tibb və dopinq-test otaqları var.

Bütün bunlar bir daha təsdiqləyir ki, nəinki paytaxt Bakıda, regionlarda da müasir görkəmi ilə seçilən olimpiya idman kompleksləri və digər idman qurğularının inşası həm də bölgələrdə beynəlxalq tədbirlərin keçirilməsinə şərait yaradır.

# BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ SƏFİRİ LORD RİSBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Böyük Britaniya Baş nazirinin ticarət üzrə səfiri, Lordlar Palatasının üzvü Lord Risbinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu, bu əlaqələrin genişləndiyi və yaxşı perspektivlərinin olduğu vurğulandı.*

*Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası əməkdaşlığın önəmi qeyd olundu, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında əlaqələrin, qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da inkişafı və genişlənməsi xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 oktyabr 2014-cü il*

## LİTVA RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Litva Respublikasının Milli Müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Litva Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, müdafiə nazirlikləri arasında əməkdaşlığın bu əlaqələrin genişləndirilməsindəki rolu qeyd edildi.*

*Söhbət zamanı yüksək səviyyəli görüşlərin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi baxımından önəmi vurğulandı. Litva Respublikasının Milli Müdafiə naziri Yuozas Olekasın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə xidmət edəcəyi bildirildi.*

## «FORMULA-1»in RƏHBƏRİ BERNARD EKKLSTOUN İLƏ GÖRÜŞ

*8 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də «Formula-1»in rəhbəri Bernard Ekklstounu qəbul etmişdir.*

*Görüşdə ölkəmizdə idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin önəmi qeyd olundu, Azərbaycanın mötəbər beynəlxalq idman tədbirlərinin keçirilməsi üçün artıq yaxşı təcrübəyə malik olduğu vurğulandı.*

*Söhbət zamanı 2016-cı ildə ölkəmizdə keçirilməsi nəzərdə tutulan «Formula-1» yarışının da yüksək səviyyədə təşkil olunacağına əminlik ifadə edildi. Bu tədbirin Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığının daha da genişləndirilməsi işinə xidmət edəcəyi bildirildi.*

## NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK*

*8 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 8-də Nazirlər Kabinetinin 2014-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz üçüncü rübün və ilin 9 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Üçüncü rübdə ölkəmizin inamlı inkişafı istiqamətində önəmli addımlar atılıb. Ümumiyyətlə, ilin əvvəlindən bu günə qədər Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Yadımdadır, ilin əvvəlində keçən ilin yekunlarını müzakirə edərkən qeyd etmişdim ki, 2014-cü il də Azərbaycan üçün uğurlu il olacaqdır. Artıq 9 ayın nəticələri onu göstərir ki, həqiqətən, bu il də tarixdə uğurlu il kimi qalacaq. Bu da təbiidir,

---

* Назирляр Кабинетинин 2014-ъц илин 9 айынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласынda Малиййя назири Самир Шярифов, Еколоэийа вя Тябии Sярвятляр назири Щцсейнгулу Баьыров və Эянъляр вя İдман назири Азад Рящимов чыхыш etmişlər.

çünki son illər ərzində aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəmizin dinamik inkişafını təmin etmişdir.

9 ayın iqtisadi göstəriciləri də çox müsbətdir. İqtisadiyyatımız inkişaf edir, artır. Xüsusilə qeyd etməliyəm ki, Avropada iqtisadi maliyyə böhranı davam edir, ancaq Azərbaycanda hər il iqtisadi inkişaf müşahidə olunur və bu ilin 9 ayında ümumi daxili məhsul 2,5 faiz artıb. Dünyada mövcud olan vəziyyəti nəzərə alsaq, deyə bilərik ki, bu çox müsbət göstəricidir. Ən önəmlisi ondan ibarətdir ki, bunu biz hər dəfə məmnuniyyətlə qeyd edirik – qeyri-neft sektorumuz 6 faiz artıb. Qeyri-neft sektorunun artması, əlbəttə ki, bizim siyasətimizin nəticəsidir. Çünki bizim üçün əsas məsələ qeyri-neft sektorunun inkişafıdır.

Neft-qaz sektorunda işlər uğurla gedir. Mən bu barədə bir qədər sonra öz fikirlərimi bildirəcəyəm.

Qeyri-neft sənayesi 6 faiz səviyyəsində artıb. Bu da çox müsbət göstəricidir. İnflyasiya çox aşağı səviyyədədir – cəmi 1,5 faiz. Əhalinin pul gəlirləri isə 5,4 faiz artıb. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir və beləliklə, bu bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Əminəm ki, inflyasiya ilin sonuna qədər də aşağı səviyyədə olacaq. Çalışmalıyıq ki, gələn il də bu göstərici aşağı səviyyədə olsun. Bunu xüsusilə qeyd etməliyəm, çünki büdcəmiz artır və bu il də büdcə xərcləri kifayət qədər böyükdür. Maaşlar, pensiyalar qalxır, bu 9 ayda da qalxmışdır. Buna baxmayaraq, inflyasiya aşağı səviyyədədir və bu da makroiqtisadi vəziyyətin sabit olmasını göstərir.

İnvestisiyalar böyük həcmdə qoyulur. İlin əvvəlindən 19 milyard dollar sərmayə qoyulmuşdur. Onlardan 11 milyardı daxili sərmayədir. Bu da son illərdə müşahidə olunan mənzərədir. İnvestisiyalar artır və daxili investisiyalar üstünlük təşkil edir. Düzdür, daxili investisiyaların böyük hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ də dövlət xətti ilə infrastruktur layihələrinə, o cümlədən sosial infrastruktur layihələrinin icrasına vəsait ayrılmalıdır. Ancaq Azərbaycana özəl sərmayə də qoyulur.

Azərbaycanda çox müsbət sərmayə iqlimi vardır, yerli və xarici investorlar bizim ölkəmizə inanırlar, ölkəmizin gələcəyinə inanırlar. Buna görə də Azərbaycana çox böyük həcmdə investisiyalar qoyulur.

Bu gün deyə bilərəm ki, dünyanın əksər ölkələrində xarici investisiyaları cəlb etmək üçün çox böyük işlər aparılır, rəqabət aparılır. Çünki hər bir ölkənin iqtisadi inkişafını investisiyalar müəyyən edir. Bu gün avrozonada müşahidə olunan vəziyyət onu göstərir – ekspertlər, alimlər qeyd edirlər ki, investisiyalar olmasa, bu böhrandan çıxmaq çətin olacaqdır.

Azərbaycanda isə bu sahədə vəziyyət çox müsbətdir. 9 ayda 19 milyard dollar investisiya qoyulub. İlin sonuna qədər bu rəqəm daha da artacaq və beləliklə, bizim inkişafımız daha da sürətlə gedəcək.

İnvestisiyalar müxtəlif sahələrə qoyulur: həm sənayenin, kənd təsərrüfatının, turizm sektorunun inkişafına, əlbəttə ki, həm də neft-qaz sənayesinin inkişafına. Bu da təbiidir. Çünki bizim iqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır. Məhz buna görə iqtisadi artımımız davam edir. Baxmayaraq ki, hazırda neftin qiyməti də kəskin şəkildə aşağı düşür. Ancaq ölkəmiz qeyri-neft sektoru hesabına bundan sonra da inkişaf edəcək və bu bizim inkişafımızı dayanıqlı edəcək. Yəni bizim əsas məqsədimiz neft amilindən asılılığımızı maksimum dərəcədə azaltmaq və qeyri-neft sektoru hesabına gələcəkdə Azərbaycanı inkişaf etdirməkdir.

Bizim kifayət qədər valyuta ehtiyatlarımız var. İlin əvvəlindən maliyyə resurslarımız 3 milyard 600 milyon dollar artıb. Bütövlükdə bizim 53 milyard dollardan çox valyuta ehtiyatlarımız var ki, bu da dünya miqyasında çox böyük göstəricidir. Adambaşına düşən valyuta ehtiyatlarımız isə, hesab edirəm ki, dünya miqyasında ən yüksək səviyyədədir.

Biz, əlbəttə ki, neftdən əldə edilmiş gəlirləri şəffaf saxlamaqla və ölkəmizin inkişafına, o cümlədən sosial layihələrin icrasına yönəltməklə dinamik inkişafımızı təmin edirik. Eyni zamanda, bizim rezervlərimiz artır və artacaq. Mən qarşıya belə bir vəzifə qoymuşam – çalışmalıyıq ki, maliyyə rezervlərimiz ildən-ilə artsın.

Bu da, əlbəttə ki, həm xarici investorlar üçün əlavə imkanlar yaradır, inamı artırır, eyni zamanda, dünya maliyyə bazarlarından yaxşı şərtlərlə kreditlərin alınması üçün əlavə imkanlar yaradır. Halbuki buna o qədər də böyük ehtiyac yoxdur. Sadəcə olaraq, bu bizə əlavə inam verir. Mən dəfələrlə demişəm ki, əvvəlki illərdə bizim əsas vəzifəmiz iqtisadi müstəqilliyimizi yaratmaq idi. Bunu da yaratmışıq. Biz iqtisadi cəhətdən tam müstəqilik, heç kimdən asılı deyilik və bu bizə imkan verir ki, siyasi sahədə də, o cümlədən xarici siyasətdə də müstəqil siyasət aparaq. Bizim əsas istinad nöqtəmiz, güc mənbəyimiz iqtisadi müstəqilliyimizdir.

Deyə bilərəm ki, Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə də irəliyə getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Bir sözlə, biz dünyanın ən rəqabətqabliyyətli 40 ölkəsinin sırasındayıq. Bu, tarixi nailiyyətdir və bizə əlavə inam verir. Biz onsuz da bilirik ki, düz yoldayıq. Azərbaycan inamla inkişaf edir. Ancaq mötəbər, böyük nüfuzu olan maliyyə-iqtisadi qurumların qiymətləndirməsi çox önəmlidir.

9 ayda bütün infrastruktur layihələri uğurla icra edilmişdir və bu proses davam etdirilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilib. 100 mindən çox yeni iş yeri açılıb, onlardan 80 mini daimi iş yerləridir. Proqramın əvvəlindən, 2004-cü ildən bu günə qədər 1 milyon 300 min yeni iş yeri açılıb. Bu da imkan verib ki, işsizlik kəskin şəkildə aşağı düşsün və bu gün 5 faiz səviyyəsindədir. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 25, 30 faizdir, gənclər arasında isə 50 faizə çatır. Ancaq Azərbaycanda işsizliklə bağlı problemlər öz həllini tapır və burada, əlbəttə ki, dövlət investisiyaları, gözəl sərmayə iqlimi, biznes mühitinin yaxşılaşdırılması faktorları öz rolunu oynayır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası da burada əsas rol

oynayır. Çünki bizim iqtisadiyyatımızda neft faktoru hələ kifayət qədər böyük yer tutur. Baxmayaraq ki, ümumi daxili məhsulumuzda qeyri-neft sektoru artıq 55 faizdən çoxdur, ancaq ixrac potensialımızın böyük əksəriyyəti neft-qazla bağlıdır. Onu da yaxşı bilirik ki, neft-qaz sahəsində böyük həcmdə iş yerlərinin yaradılması mümkün deyil. Ona görə bizim əsas hədəfimiz qeyri-neft sektoru idi. O sektorda iş yerlərinin açılması, əlbəttə ki, işsizliyin aşağı düşməsinə səbəb olmuşdur.

Sosial proqramlar icra edilir, 9 ayda maaşlar, pensiyalar, orta əməkhaqqı artıb. Sosial layihələr icra edilir – məktəblər, xəstəxanalar, olimpiya kompleksləri, mədəniyyət ocaqları – bu sahələrə də böyük diqqət göstərilir və bizim investisiya portfelimizdə sosial layihələrə xərclənən vəsait kifayət qədər böyükdür.

Məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün önəmli addımlar atılmışdır. Bu il də böyük vəsait ayrılmışdır ki, köçkünlər yeni evlərlə təmin olunsunlar. Bu proses gedir və gələn il də təbii ki, davam etdiriləcəkdir.

Bir sözlə, ölkəmizin hərtərəfli inkişafı imkan verir ki, biz gələcək planlarımızı da müəyyən edək. Bu planlar ictimaiyyət üçün aydındır, bəllidir. Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş proqramı, konsepsiyası – «2020 konsepsiyası» var və əlbəttə ki, bu layihələrin, infrastruktur layihələrinin icrası imkan verəcək ki, dinamik inkişaf davam etsin.

Bakı və onun qəsəbələri proqramı icra edilir. Bu proqram çərçivəsində onlarla məktəb təmir edilib, tikilib, uşaq bağçalarının sayı artır və təminat yaxşılaşır.

Bakı qəsəbələrində infrastruktur layihələri icra edilir. İlk növbədə, su-kanalizasiya layihələri, ondan sonra kənd yolları çəkilir. Yəni bu da, hesab edirəm ki, çox vaxtında qəbul edilmiş proqram idi. Həm regionların, həm də Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı dövlət proqramları paralel şəkildə icra edilir və əminəm bu bizə imkan verəcək ki, növbəti 2-3 il ərzində ölkə qarşısında duran əsas infrastruktur

layihələrini başa çatdıraq. Əlbəttə ki, bu bizim gələcək inkişafımıza müsbət təsir göstərəcək. Ona görə ki, böyük investisiya layihələri artıq arxada qalır. Bu, imkan verəcək ki, biz büdcə vəsaitini yeni istiqamətlərə yönəldək, biznesin təşviqi, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun inkişafı üçün daha da böyük həcmdə vəsait nəzərdə tutaq. Çünki hələ dövlət investisiya xərclərinin təbii ki, böyük hissəsi infrastruktur layihələrinə yönəldilibdir. Su anbarları, magistral yollar, digər layihələr, dəmir yolları, o cümlədən içməli su, kanalizasiya layihələri, Oğuz–Qəbələ–Bakı su kəməri – bu nəhəng infrastruktur layihələri böyük vəsait tələb edir. O cümlədən Gəmiqayırma zavodu, Yeni Beynəlxalq Dəniz Ticarət Limanı, yəni bütün bu layihələr artıq icra edilib, ya da onların icrasına az qalıbdır. Ona görə biz növbəti illərdə büdcə xərclərini daha çox dayanıqlı inkişafı təmin edən layihələrə yönəltməliyik.

Bax, bizim konseptual yanaşmamız bundan ibarətdir. İnfrastruktur layihələri icra edilməli idi ki, şərait yaradılsın. Biznesin inkişafı üçün aparılan islahatlar müsbət rol oynamışdır. Sahibkarlığın inkişafına həm siyasi, həm maliyyə dəstəyi göstərilmişdir və göstərilir. Beləliklə, ölkənin dinamik inkişafı təmin edilib və bu gün Azərbaycanın müsbət təcrübəsi öyrənilir. Bu yaxınlarda IV Bakı Beynəlxalq Forumunda iştirak edən BMT İnkişaf Proqramının direktorunun çıxışında da səsləndi ki, Azərbaycanda yoxsulluğun azaldılmasında əldə edilmiş təcrübə çox önəmlidir və başqa ölkələr üçün də örnək ola bilər. Yoxsulluğun azaldılması bilavasitə bizim iqtisadi siyasətimizlə və sosial siyasətlə bağlıdır. Mən bunu dəfələrlə demişəm, bu bizim siyasətimizdir ki, sadəcə olaraq, iqtisadi islahatlarla məşğul olmamalıyıq. Biz sosial sahəyə böyük diqqət göstərməliyik. Çünki köklü iqtisadi islahatlar bir çox hallarda sosial problemlərə gətirib çıxarır. Ancaq Azərbaycanda bunun əksini görürük. Biz böyük sosial layihələri icra etmişik. Vaxtilə sovet dövründən qalan əmanətləri kompensasiya şəklində MDB məkanında ən qısa müddət ərzində və ən yüksək əmsalla

insanlara qaytardıq. Maaşlar, pensiyalar durmadan artır. Bir daha demək istəyirəm ki, yanaşmamız bundan ibarətdir və bu da ölkə qarşısında yeni imkanlar açır.

Əfsuslar olsun ki, bu il də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmayıbdır. Bunun başlıca səbəbi Ermənistan tərəfinin qeyri-konstruktiv, qeyri-səmimi davranışıdır. Ermənistan çalışır ki, maksimum dərəcədə bu məsələni uzatsın və status-kvo dəyişməz olaraq qalsın. Baxmayaraq ki, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğal edilmiş torpaqların azad edilməsi deməkdir. Ancaq əfsuslar olsun ki, bu bəyanatlar havada qalır, Ermənistan buna məhəl qoymur. Bu bəyanatları səsləndirən tərəflər isə ciddi ölçü götürmürlər və belə olan halda məsələ öz həllini tapmır. Biz çalışırıq və çalışacağıq ki, bu məsələ tezliklə öz həllini tapsın. Bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Bu mövqe beynəlxalq birlik tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Bu münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bunlar məsələnin həlli üçün əsas sənədlərdir. Digər beynəlxalq təşkilatlar da müvafiq qərar və qətnamələr qəbul etmişlər. Yəni hüquqi cəhətdən bizim mövqemiz kifayət qədər möhkəmdir.

İqtisadi cəhətdən, əlbəttə ki, Ermənistanı Azərbaycanla müqayisə etmək mümkün deyil. Azərbaycan zənginləşən, güclənən müstəqil bir dövlətdir. Əlbəttə ki, güclər nisbəti bizim xeyrimizə dəyişir, dəyişəcək. Bizim aramızdakı uçurum daha da dərinləşəcək. Ermənistanın uğurlu inkişafı üçün heç bir amil yoxdur. Çünki ölkə tənəzzülə uğrayıbdır. Nə qədər ki, Ermənistanda kriminal diktatura rejimi hökm sürür, bu ölkə öz müstəqilliyini tamamilə və bir o qədər də tez itirəcəkdir. İndi də Ermənistanı müstəqil ölkə adlandırmaq mümkün deyil.

Biz isə inkişaf edirik. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bizim kifayət qədər imkanlarımız var. Ordu quruculuğu Azərbaycanda uğurla gedir və gedəcəkdir. Üçüncü rübdə təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatına da bizim hərbçilərimiz layiqli cavab vermişlər. Onlarla işğalçı məhv edilmişdir. Onlara böyük sarsıdıcı zərbə vurulmuşdur. Sadəcə olaraq, onlar çalışırdılar ki, Soçi görüşü ərəfəsində özləri üçün daha da əlverişli mövqe əldə etsinlər. Ancaq onların səyləri iflasa uğradı və nəticə etibarilə erməni əsgərləri məhv edildi. Bunun da əsas günahkarı Ermənistanın kriminal rejimidir.

Bir də demək istəyirəm ki, bizim prinsipial mövqemizə heç bir qüvvə təsir edə bilməz. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Siyasi, diplomatik, iqtisadi, hərbi amillər burada əsas rol oynayır. Mən dəfələrlə demişəm, bir də demək istəyirəm ki, demoqrafik amil də az rol oynamır. Ermənistanın rəsmi statistikasına görə, təkcə bu ilin 9 ayında ölkə əhalisi 80 min nəfər azalıbdır. Yəni 80 min erməni vətəndaşı ölkədən gedib və qayıtmayıb. Bu meyil ilin sonuna qədər davam edəcək və beləliklə, Ermənistanda 100 mindən artıq əhali azalacaqdır. Azərbaycan əhalisi isə artır və artacaq. Bu da öz növbəsində, gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacaq. Ermənistan vətəndaşlarının kütləvi şəkildə ölkədən getməsinin bir neçə səbəbi var: korrupsiya, diktatura rejimi, biznes imkanlarının məhdud olması, işsizlik, yoxsulluq. Əlbəttə ki, təmas xəttində son hadisələrdən sonra bu kütləvi köç daha da geniş vüsət almışdır. Əgər Ermənistan bir daha təxribata əl atsa, yenə də layiqli cavab alacaq və görəcək ki, bu təxribat yeni köç dalğasına təkan verəcəkdir. Bir sözlə, bir də demək istəyirəm ki, Azərbaycan ictimaiyyəti də bilsin, biz öz prinsipial mövqemizdən geri çəkilməyəcəyik. Çalışırıq, çalışacağıq ki, məsələ öz həllini tapsın və tapacaqdır.

Keçən rübdə ölkəmiz üçün tarixi hadisə baş vermişdir. «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Böyük, təntənəli mərasim

keçirilmişdir. Bu layihənin icra edilməsi, əlbəttə ki, tarixi hadisədir. Heç kəs üçün sirr deyil ki, burada əsas rolu Azərbaycan oynayıbdır. Bu bizim təşəbbüsümüz, bizim resurslarımız idi. Biz qonşu ölkələrlə, tərəfdaşlarla birgə bu layihəni icra edəcəyik. Əminəm ki, yaxın gələcəkdə «Cənub Qaz Dəhlizi» tikiləcək, istifadəyə veriləcək və ölkəmizin bundan sonra onilliklər ərzində inamlı inkişafını təmin edəcək. Bizim siyasi çəkimiz artacaq, iqtisadi sahədə yeni imkanlar yaranacaq. Kəmərin tikintisi zamanı minlərlə, on minlərlə Azərbaycan vətəndaşı işlə təmin ediləcək, yüzlərlə Azərbaycan şirkəti podratçı kimi iştirak edəcək. Yəni bu, ölkəmizə böyük gəlir və siyasi dividend gətirən bir layihədir, tarixi layihədir. Biz fəxr edirik ki, Azərbaycan bu tarixi layihənin icraçısıdır, lider dövlətdir. Bu hadisə doğrudan da tarixdə qalacaq. Keçən əsrin sonlarında «Əsrin kontraktı» imzalanmışdı. O, XX əsrin kontraktı idi. Bu layihə isə XXI əsrin layihəsidir. Əminəm ki, biz bu layihəni də uğurla icra edəcəyik.

Bu ilin 9 ayının əsas istiqamətlərini qeyd etdim. Əlbəttə ki, bu aylar ərzində çox önəmli hadisələr baş vermişdir. Onlar haqqında burada danışsam, saatlarla vaxt lazım olacaq. Sadəcə olaraq, qeyd etməliyəm ki, 9 ayın yekunları müsbətdir. İlin sonuna qədər iş davam etdiriləcək və biz bu ili də uğurla başa vuracağıq.

## YEKUN NİTQİ

İlin sonunadək nəzərdə tutulmuş bütün məsələlər axıra qədər həllini tapmalıdır. Büdcədə kifayət qədər vəsait vardır. İnfrastruktur layihələri başa çatdırılmalıdır. Bir sözlə, 2014-cü ildə də biz qarşımıza qoyduğumuz bütün məsələləri həll etməliyik və edəcəyik.

Dövlət İnvestisiya Proqramı tam şəkildə icra edilməlidir. Əminəm ki, belə də olacaq. İnfrastruktur layihələrinin icrası davam etdirilir. Bir sözlə, bu məsələlərlə bağlı heç bir narahatlıq yoxdur.

İlin sonuna qədər böyük layihə – Şəmkirçay su anbarı istifadəyə verilməlidir. Bu, son illər ərzində icra edilən ən böyük

layihələrdən biridir. Böyük investisiyalar qoyulubdur. Şəmkirçayda böyük su anbarı, elektrik stansiyası, kanallar tikilir. Bu bizə imkan verəcək ki, əkin sahələrini genişləndirək. Fermerlər üçün yeni imkanlar yaranacaqdır. İlin sonuna qədər açılışı nəzərdə tutulan bu böyük layihə, demək olar ki, hazırdır, tamamlanma işləri aparılır. Yaxın vaxtlarda açılışını qeyd edəcəyik.

Gələn ilin büdcəsi, demək olar ki, hazırdır. İndi müzakirələr aparılır, Milli Məclisə təqdim ediləcəkdir. Əsas prioritetlər bəllidir. Biz bu barədə dəfələrlə öz fikirlərimizi bildirmişik. Sosial layihələr tam icra edilməlidir. Əlbəttə, ölkəmizin inkişafını təmin edən böyük infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri nəzərdə tutulur. Məktəblərin tikintisi – son illər ərzində 3 minə yaxın məktəb binası tikilib istifadəyə verilib. Hələ ki, qəzalı, yararsız vəziyyətdə məktəblər vardır. Əlbəttə ki, sosial infrastruktur layihələri arasında bu məsələyə üstünlük veriləcək.

Demək olar ki, bəzi istisnalarla, bütün şəhərlərimizdə müasir səhiyyə ocaqları yaradılır. Ya tikilir, ya da ki, əvvəlki illərdə tikilmiş xəstəxanalar, rayon mərkəzi xəstəxanaları əsaslı şəkildə təmir edilir. 3-4 şəhər qalıb ki, orada xəstəxanalar hələ lazımi səviyyədə deyil. Yəqin ki, gələn il və 2016-cı ildə bu sahədə də işlər tam yekunlaşacaq və hər bir şəhərdə müasir avadanlıqla təchiz edilmiş gözəl tibb mərkəzləri olacaq.

Sosial infrastruktur layihələri arasında uşaq bağçalarının tikintisini xüsusilə qeyd etmək istəyirəm. Bu sahədə son illərdə böyük irəliləyiş olub. Biz bir neçə il bundan əvvəl bu məsələ ilə ciddi məşğul olmağa başlayanda məlumat verildi ki, uşaq bağçaları ilə təminat Azərbaycanda cəmi 17 faizdir. Vaxtilə tikilmiş uşaq bağçaları ya yararsız vəziyyətə düşmüşdür, ya da əfsuslar olsun ki, özəlləşdirilmişdir və onların yerində başqa obyektlər tikilmişdir.

Uşaq bağçalarının bir hissəsində məcburi köçkünlər yerləşir. Bir sözlə, bu çox ciddi problem idi, bu gün də hələ ki, ciddi problem olaraq qalır. Deyə bilərəm ki, son 2-3 il ərzində uşaq bağçaları ilə təminat 17 faizdən 42 faizə qalxmışdır. Bakıda,

bölgələrdə onlarla yeni bağça tikilir və bu proses davam etdirilməlidir. Vaxtilə bu bağçalar elə tikilmişdi ki, onların əraziləri kifayət qədər böyükdür. Ona görə orada yeni korpus da tikilə bilər. Yeni sahələr də ayrılmalıdır. Bu məsələlərlə bağlı müvafiq göstərişlər verilib.

Biz çalışmalıyıq ki, uşaq bağçaları ilə təminat 100 faiz olsun. Çünki Azərbaycanda sosial məsələlər uğurla icra edilir. İşsizlik kəskin şəkildə aşağı düşmüşdür. İndi bölgələrdə yeni açılan sənaye müəssisələrində, tikiş fabriklərində işləyənlərin, demək olar ki, mütləq əksəriyyəti qadınlardır. Ona görə uşaq bağçalarının qıtlığı böyük problemlərə gətirib çıxarır. İşsizliklə bağlı əlavə addımlar atılacaqdır və biz çalışmalıyıq ki, ümumiyyətlə, Azərbaycanda işsizlik olmasın. Əlbəttə ki, hər bir ailədə valideynlərin hər ikisi işləyir. Belə olan halda, uşaq bağçalarının tikintisinə böyük ehtiyac vardır. Bir sözlə, biz bu sahəyə dövlət büdcəsində diqqət yetirməliyik. Yerlərdə də həm özəl sektor, həm də yerli icra orqanları bu işlərlə məşğuldurlar. Hesab edirəm ki, bu işi daha da sürətləndirmək lazımdır.

Gələn ilin büdcəsində hərbi xərclərə xüsusi diqqət göstərilməlidir. Mən dəfələrlə demişəm ki, biz müharibə şəraitində yaşayırıq, müharibə bitməyib, davam edir. Sadəcə olaraq, atəşkəs rejimi yaradılmışdır. Ona görə, yeni müasir silahların, yüksək dəqiqliyə malik olan silahların alınması məsələləri öz həllini tapır və tapmalıdır. Son illərdə biz bu sahədə böyük nailiyyətlər qazanmışıq. Bizim hərbi təlimlərimizdə və hərbi paradlarda nümayiş etdirilən texnika ən yüksək standartlara cavab verir. Texniki təchizat baxımından Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və biz bu prosesi davam etdirməliyik. Müvafiq göstərişlər verilib. Müqavilələrin bəziləri bağlanıb və yenə də bağlanacaq. Biz hərbi-texniki təchizatı yüksək səviyyədə təşkil etməliyik.

Bununla bərabər, Azərbaycanda hərbi istehsal inkişaf edir. Bu ilin keçən rübündə ilk dəfə olaraq Azərbaycanda böyük beynəlxalq hərbi sərgi keçirildi. Bu da son illərdə Azərbaycanda bu sahədə görülən işlərin nəticəsidir. Bu sərgiyə böyük maraq

göstərildi. Həm Azərbaycan öz hərbi məhsullarını təqdim etdi, həm də ki, dünyanın bu sahədə aparıcı ölkələri öz müasir silah və texnikalarını nümayiş etdirdi. Demək istəyirəm ki, dövlət büdcəmizdə, əlbəttə, yerli hərbi istehsala diqqət göstərilməlidir.

Əlbəttə ki, dövlət investisiya layihələri, investisiya proqramı təsdiq ediləcək. Hesab edirəm biz bu ilin sonuna qədər bu proqramı təsdiq etməliyik ki, gələn il vaxt itirmədən investisiya layihələrini icra edək.

Onu da bilməliyik ki, bizim büdcəmizin müəyyən hissəsi Neft Fondunun transfertləri hesabına təmin edilir. Neftin qiyməti aşağı düşüb və ona görə yəqin ki, hökumət büdcədə neftin qiymətini düzgün müəyyən etməlidir. Biz artıq bu barədə danışmışıq. Bir daha danışacağıq ki, büdcənin icrası ilə bağlı heç bir problem olmasın. Ümumiyyətlə, Azərbaycanda o qədər böyük iqtisadi və maliyyə potensialı yaranmışdır ki, inanmıram, neftin qiymətinin düşməsi bizə ciddi təsir göstərsin. Ancaq hər halda, biz buna hazır olmalıyıq və planlarımızı buna uyğun şəkildə aparmalıyıq. Çünki dünya iqtisadiyyatı hələ ki, böhrandan çıxmayıb. Digər amillər var ki, neftin ucuzlaşmasına təkan verir. Biz bütün bunları nəzərə almalıyıq və investisiya proqramlarımızı buna uyğun şəkildə tutmalıyıq. Yenə də qeyd etmək istəyirəm ki, artıq müvafiq göstərişlər verilmişdir. İlk növbədə sosial məsələlər – sosial təminat, hərbi xərclər və infrastruktur layihələri tam şəkildə öz həllini tapacaq.

Əminəm ki, gələn il inflyasiyanın səviyyəsi birrəqəmli olacaq, aşağı səviyyədə olacaq. Bu, imkan verəcək ki, insanların rifah halı daim artsın. Çünki inflyasiyanın qalxması və manatın məzənnəsinin düşməsi, əlbəttə, insanların həyatına mənfi təsir göstərə bilər. Ona görə həm manatın məzənnəsi sabitdir, həm də inflyasiya çox aşağı səviyyədədir. Bu amillər bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Biz ixrac potensialımızı artırmalıyıq. Bu məsələlərlə bağlı çox böyük işlər görülübdür. Yeni imkanlar açılır. Xüsusilə kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni imkanlar yaranıbdır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Əvvəlki dövrdə

və hazırda bu sahədə görülən işlər deməyə əsas verir ki, biz buna nail olacağıq. Çünki ilk növbədə, islahatlar aparılır və kənd təsərrüfatının inkişafı üçün müasir yanaşma tətbiq edilməlidir. Biz texnika ilə təmin edirik. Həm dövlət büdcəsi, həm də Prezidentin ehtiyat fondunun hesabına müasir kənd təsərrüfatı texnikası alınıb gətirilir. Müasir elmin nəticələri Azərbaycanda tətbiq olunmalıdır.

Hesab edirəm ki, eyni zamanda, meliorasiya ilə bağlı olan layihələr – Taxtakörpü və açılışı nəzərdə tutulan Şəmkirçay su anbarları layihələrinin icrası nəticəsində on minlərlə hektar yeni torpaq sahəsi dövriyyəyə veriləcəkdir. Əlbəttə ki, biz o torpaqlarda görülən işləri bəri başdan planlaşdırmalıyıq. Çünki bu sahələrdə hansı məhsullar yetişdiriləcək, dövlət hansı addımları atacaq – əlbəttə, biz bu barədə düşünürük və bu yeni imkanlardan maksimum səmərə ilə istifadə etməliyik. Çünki on minlərlə hektar torpaq sahəsi suvarılacaq və beləliklə, havanın qeyri-sabit keçməsi və quraqlığın olması bizə az təsir göstərəcəkdir.

Azərbaycanda müasir emal müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarımız dünya bazarlarına emal edilmiş şəkildə çıxarılır. Bir daha demək istəyirəm ki, hazırda ixrac potensialımızın artırılması üçün çox gözəl imkanlar var. Biz sadəcə olaraq, gərək əlavə investisiyalarla, sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlərlə ixrac imkanlarımızı daha da artıraq. Təbii ki, biz daxili bazarımızı Azərbaycanda yetişdirilən məhsullarla təmin etməliyik. Son illər bu sahədə də böyük irəliləyiş var. Demək olar ki, biz özümüzü taxıldan başqa, artıq əsas ərzaq məhsulları ilə maksimum dərəcədə təmin edirik. Əlbəttə ki, ərzaq təhlükəsizliyimizin təmin edilməsi üçün bu çox önəmli amildir. Biz, əlbəttə ki, bizim üçün ənənəvi olan bazarlara daha da böyük həcmdə məhsulla çıxmalıyıq və yeni bazarlara da yol tapmalıyıq.

Giriş sözümdə dediyim kimi, qeyri-neft sektorunun inkişafı prioritet olaraq qalacaq. Hesab edirəm ki, bu sahədə xidmət sektoru Azərbaycanda indi xüsusi yer tutur. Turizmin inkişafı sürətlə gedir, bu ilin təcrübəsi onu göstərir. Bu il bir neçə gözəl

müasir hotel istifadəyə verilmişdir. Bölgələrdə turizm imkanları genişlənir. İndi bölgələrdə beşulduzlu hotellər açılır. Mən o açılışların hamısında şəxsən iştirak edirəm və hesab edirəm ki, burada böyük potensial var. Biz xarici turistlərin cəlb edilməsi üçün daha da fəal işləməliyik. İndi Azərbaycan haqqında məlumatlar dünya ictimaiyyətinə kifayət qədər çatdırılır. Müxtəlif təqdimatlar, sərgilər, mədəni proqramlar, xüsusilə I Avropa oyunları ilə bağlı olan tədbirlər, prezentasiyalar mütəmadi qaydada keçirilir. Biz ölkəmizin turizm imkanlarını daha da geniş şəkildə təbliğ etməliyik. Çünki bizim gözəl təbiətimiz var, istənilən turizm növü Azərbaycanda mövcuddur – gözəl sahillər, Xəzər dənizi, dağlar, meşələr, xizək turizmi. Artıq infrastruktur da var. Aeroportlar, magistral yollar və bütün bölgələrdə beşulduzlu, dördulduzlu, üçulduzlu gözəl hotellər yaradılır.

Bu il «Sənaye ili»dir və əlbəttə ki, sənaye istehsalının inkişafına xüsusi diqqət yetirilmişdir. Bir çox zavodlar, fabriklər, istehsalat sahələri açılmışdır. Mən əvvəlki müşavirələrdə də qeyd etmişdim ki, biz ərzaq təhlükəsizliyini təmin etməliyik. Özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. İndi biz eyni yanaşmanı inşaat materiallarına da tətbiq etməliyik. Hesab edirəm ki, bu sahədə çox gözəl inkişaf var. Yəni biz özümüzü sementlə artıq tam şəkildə təmin etmişik. Bu il istifadəyə verilən ən böyük yeni Sement zavodu bu problemi də aradan götürüb. Beləliklə, biz idxaldan asılılığımızı tam şəkildə aradan qaldırmışıq. Sement istehsalında da əlavə həcmlər var və ixrac imkanlarımız da artacaq. Əlbəttə ki, hər bir istehsal sahəsi üçün belə düşünülmüş yanaşma olmalıdır, var və sadəcə olaraq, biz bu işi daha da sürətlə təşkil etməliyik. Əlbəttə, biz bilirik ki, Azərbaycana hansı inşaat materialları idxal edilir və o sahəyə daha da böyük üstünlük verməliyik. Necə ki, biz vaxtilə ərzaq məhsulları ilə bağlı eyni yanaşmanı tətbiq etmişik. Baxmışıq ki, Azərbaycana hansı ərzaq məhsulları və nə qədər idxal edilir? Onların daxili istehlakda çəkisi nə qədərdir? Biz məhz o sahələrə üstünlük verdik, kreditlər ayırdıq, fermerləri, sahibkarları səfərbər etdik və dövlət dəstəyi verildi. Biz indi məhz o sahələr, o məhsullar üzrə özümüzü təmin

edirik. İnşaat materiallarına da eyni yanaşma olmalıdır. Çünki Azərbaycanda kifayət qədər xammal və artıq sənaye potensialımız da var. Həm özümüzü maksimum dərəcədə təmin etməliyik, həm də ixrac etməliyik. Burada alüminium, poladtökmə, metallurgiya sənayesinin inkişafı nəzərdə tutulur və inkişaf etdirilir. Burada da böyük potensial var. Dediyim kimi, biz artıq özümüzü sement istehsalı ilə 100 faiz təmin etmişik.

Sənaye klasterlərinin yaradılması prosesi gələcəkdə də davam etdirilməlidir. Mən texnoparklar barədə dəfələrlə danışmışam, təkrar etmək istəmirəm. Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır. Onu da nəzərə almalıyıq ki, hazırda Azərbaycan dövlətinin kifayət qədər vəsaiti var və dövlət investisiyalarını da bizim üçün strateji əhəmiyyət daşıyan sənaye sahələrinə cəlb etməliyik. Azərbaycan İnvestisiya Şirkəti, əlbəttə ki, bu işlərin böyük hissəsini öz üzərinə götürməlidir və biz xarici investorları cəlb etməklə bu işlərdə daha da yaxşı nəticələrə nail olacağıq.

Keçən ay Ələtdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin birinci hissəsi – bərə terminalı istifadəyə verilmişdir. Əminəm ki, ticarət limanı yaxın 2 il ərzində tam şəkildə istifadəyə veriləcək. Beləliklə, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı yaradılacaq. Onun illik yükaşırma imkanı 25 milyon ton yük və 1 milyon konteynerdir. Bu, Xəzərdə ən böyük liman olacaqdır və Xəzərdə yükdaşımalarının həcminin artırılması gözlənilir. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi başa çatmaq üzrədir. Liman hazırdır. Gəmiqayırma zavodu keçən ilin sentyabr ayında istifadəyə verilmişdir.

Bu yaxınlarda Həştərxanda keçirilən Xəzər Zirvəsində mən öz həmkarlarıma bu barədə məlumat verdim və dedim ki, onlar da bu imkanlardan istifadə edə bilərlər. Xaricdən gəmi almağa daha ehtiyac yoxdur. Bizim Gəmiqayırma zavodumuz istənilən gəmini istehsal edə bilər. Burada biz Xəzəryanı ölkələr arasında əlaqələndirmə işlərini daha da yüksək səviyyədə qurmalıyıq, o

cümlədən limanlar arasındakı əlaqələndirmə məsələlərinə də böyük ehtiyac var.

Hava nəqliyyatı inkişaf edir. Yeni təyyarələr alınır və keçən rübdə bir önəmli hadisə də baş vermişdir. İlk dəfə olaraq «Azərbaycan Hava Yolları – AZAL» Nyu-Yorka birbaşa uçuşları təşkil etmişdir. Bu, böyük nailiyyətdir. Bu, bir keyfiyyət nişanıdır. Çünki Amerika şəhərlərinə uçuşları təşkil etmək üçün icazə almaq prosesi kifayət qədər mürəkkəbdir. Çox böyük standartlar tələb edilir. Hazırda Bakı–Nyu-York reysi artıq həyata keçirilir. Bu da böyük nailiyyətdir. Ona görə ki, bizim vətəndaşlarımız və xarici qonaqlar birbaşa uçuşlar əldə edəcəklər. Bir daha demək istəyirəm ki, bu, artıq bizim hava yollarımızın yüksək səviyyəsini göstərir.

Gələn il məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün Dövlət Neft Fondundan vəsait nəzərdə tutulur. Biz hər il təkcə tikinti işlərinə 300 milyon manat ayırırıq və minlərlə soydaşımız bu məbləğ hesabına yeni evlərlə təmin edilir. Hər il 4 min, 5 min ailə – yəni ən azı 20 min nəfər yeni evlərə köçürülür. Əlbəttə, bu işlər davam etdiriləcəkdir.

Qeyd etdiyim kimi, sentyabrın 20-də «Cənub Qaz Dəhlizi»nin təməlini qoyduq. Onun da böyük rəmzi mənası var. Biz təməlqoyma mərasimini başqa gündə də keçirə bilərdik. Sadəcə, fikirləşdim ki, 20 il bundan əvvəl sentyabrın 20-də «Əsrin kontraktı» imzalanmışdır və bu, Azərbaycanın inkişafını müəyyən etmişdir. Əgər o vaxt ulu öndər Heydər Əliyevin qətiyyətli yanaşması olmasaydı, o müdrik addım atılmasaydı bu gün Azərbaycan necə inkişaf edəcəkdi – bu böyük sualdır – nəyin hesabına inkişaf edəcəkdi? «Əsrin kontraktı»nın imzalanması və onun uğurla icra edilməsi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi tarixi nailiyyətlərdir. Bu kontrakt bizə imkan verir ki, iqtisadi və maliyyə imkanlarımızı artıraq. Mən hesab etdim ki, XXI əsrin layihəsi də «Cənub Qaz Dəhlizi»dir və yaxşı olar ki, 20 il sonra məhz sentyabrın 20-də bu təməlqoyma mərasimini keçirək. Belə də oldu. Yüksək səviyyəli çoxsaylı qonaqların iştirakı ilə «Cənub

Qaz Dəhlizi» layihəsinin təməli qoyuldu, tikintisi başlandı. Bu, böyük və tarixi hadisədir.

Bir daha demək istəyirəm ki, bu, növbəti onilliklər ərzində, ən azı 100 il ərzində Azərbaycana böyük xeyir gətirəcək bir layihədir. Bəlkə də bu gün o faydanın tam həcmi hələ ki, bizim üçün o qədər də aydın deyil. Çünki biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlayanda da, əlbəttə, buna bir layihə kimi baxırdıq. Amma görün bu layihə nə qədər böyük dəyişikliklərə gətirib çıxarmışdır. Bizim beynəlxalq əməkdaşlığımız genişləndi, maliyyə imkanlarımız artdı.

Biz xarici ölkələrə investisiya qoymağa başlamışıq. Daxildə iqtisadi və enerji təhlükəsizliyimizi tam şəkildə təmin etmişik. Ona görə «Cənub Qaz Dəhlizi»nin inşası zamanı və inşası nəticəsində hələ bəlkə də təsəvvür edə bilmədiyimiz məsələlər də ortaya çıxacaq ki, onların hamısı Azərbaycana xeyir gətirəcək. Çünki bizim qaz resurslarımız kifayət qədər böyükdür. Bu barədə hamı bilir, məlumatlar verilmişdir. Bu layihə bizə imkan verəcək ki, öz resurslarımızı dünya bazarlarına maksimum dərəcədə çıxaraq və beləliklə, əhatə dairəmiz də artacaq. Çünki hazırda bir neçə ölkə bizim tərəfdaşımızdır. Ancaq o ölkələrin sayı arta bilər. Yəni bu layihə çox böyük imkanlar açır və Azərbaycanı çox önəmli ölkə kimi bir daha təsdiqləyir.

Mən dəfələrlə demişəm ki, bizim təşəbbüslərimiz regional əməkdaşlığın dərinləşməsinə xidmət edir. Azərbaycan bu gün bölgədə elə böyük rol oynayır ki, bizim maraqlarımızı nəzərə almadan heç bir təşəbbüs irəli sürülə bilməz. Bu layihə bizim önəmimizi daha da artıracaq və Azərbaycan güclənəcək, öz təsir imkanlarını genişləndirəcəkdir. Əlbəttə ki, bu layihənin icrası zamanı tərəfdaş ölkələrlə əlaqələndirmə işləri yüksək səviyyədə aparılmalıdır. Mən artıq öz həmkarlarımla bu barədə danışmışam. Yəqin ki, gələcək aylarda bir Əlaqələndirmə Şurası, yaxud da, işçi qrupu yaradılmalıdır ki, bu məsələlər bütün ölkələrlə – tranzit və istehlakçı ölkələrlə müzakirə edilsin. Bu layihənin icrası yüksək ekoloji standartlar əsasında təşkil edilməlidir.

Əlbəttə ki, beynəlxalq səviyyəli standartlar tətbiq ediləcək. Çünki biz ekologiya məsələlərinə çox böyük diqqət göstəririk. Çirklənmiş ərazilərin təmizlənməsi, ağacların əkilməsi, Məişət tullantıları zavodunun tikintisi, içməli su, kanalizasiya layihələrinin icrası son illərdə vəziyyəti böyük dərəcədə müsbətə doğru dəyişmişdir. Xəzər dənizinə axıdılan çirkab sularının qarşısı indi yeni kanalizasiya layihələrinin icrası nəticəsində alınır. Çirkab suları təmizləyici qurğulara istiqamətləndirilir. İndi Bibiheybət zonasında böyük ekoloji layihə icra edilmişdir. Bura vaxtilə neftlə çirklənmiş qara bir ərazi idi. İndi orada idman şəhərciyi tikilir və I Avropa oyunlarının bir hissəsi orada keçiriləcək. Ora abad bir ərazi olubdur. Hətta indi orada buruqlar da vardır və hasilat davam edir. İndi biz buruqların ətrafını da abadlaşdırırıq, abadlaşdıracağıq. Hazırda böyük ekologiya layihəsi icra edilir. Böyükşor gölünün təmizlənməsi də tarixi nailiyyətdir. Çünki onilliklərlə o gölə çirkab suları, lay suları axıdılırdı. Bu, şəhərimizin ortasında böyük bir ekoloji fəlakət idi. İndi gölün təmizlənməsi prosesi gedir. Birinci hissə gələn ilin yayına hazır olacaqdır.

Yəni ekologiya məsələlərinin həllinə daim diqqət göstərilməlidir. Çünki bu həyatdır, bizim həyatımızdır, uşaqlarımızın həyatıdır, xalqımızın gələcəyidir. Biz təbiəti qorumalıyıq və çalışmalıyıq ki, vaxtilə çirklənmiş ərazilərin hamısını təmizləyək.

Mən burada «Ağ şəhər» layihəsini də qeyd edə bilərəm. «Ağ şəhər» «Qara şəhər»in ərazisində yaradılır. Burada da çox böyük rəmzi məna var. Vaxtilə xaricdən gəlmiş iş adamları Azərbaycanda neft sənayesində işləmiş, böyük qazanc, milyardlarla vəsait əldə etmişlər. Ancaq bizim üçün nə qoyub getmişlər? «Qara şəhər»i qoyub getmişlər. Bu ekoloji fəlakəti qoyub getmişlər. O xarici neft baronlarının qazandıqları pulların hansı hissəsi ekoloji məsələlərə xərclənib? Oraya heç bir vəsait qoyulmamışdır. Sadəcə olaraq, qazanc dalınca Azərbaycana gəlmişlər, böyük pullar əldə etmişlər. Ancaq bizə nə qoyub getmişlər? «Qara şəhər»i.

İndi biz – müstəqil Azərbaycan bu ekoloji fəlakəti aradan götürürük. Bu da rəmzi xarakter daşıyır ki, «Qara şəhər» əvəzinə «Ağ şəhər» olacaq. «Ağ şəhər» nəinki Cənubi Qafqazda, yaxud da bu böyük regionda, dünya miqyasında ən gözəl şəhərsalma layihələrinin birinə çevriləcəkdir. Artıq «Ağ şəhər»in konturları görünür.

Bax, biz bu yolla başqa layihələri də icra etməliyik. Biz buraya da iş adamlarını cəlb etməliyik. Bilirəm ki, indi Azərbaycanda, Bakıda və digər yerlərdə ev tikintisinə böyük maraq var. Bu maraq bir ara bir az səngimişdi. Ancaq iqtisadiyyatımız sürətlə artdığı üçün indi bu maraq yenə də çox böyükdür. Orada da bu işləri çox düzgün şəkildə təşkil etmək olar. Əgər hansısa iş adamı, bir şirkət ev tikmək istəyirsə, orada ekoloji tədbirlər də görülməlidir. Köçürülmələr də aparılmalıdır. İndi boş yer verək ki, gəlin burada ev tikin, hesab edirəm, bu dövr artıq arxada qalıb. Kim ev tikmək istəyir şəhər, rayon icra hakimiyyətlərinə müraciət etsin. Bu qurumlar onlara ya yararsız vəziyyətdə olan keçmiş sənaye obyektlərinin, zavodların yerində, ya da ekoloji tədbirlərə ehtiyac olan ərazilərdə yer versinlər ki, orada tiksinlər.

Biz bunu Bakıda etmişik. Vaxtilə yararsız vəziyyətdə olan sənaye sahələrində görün nələr yaratmışıq. Heydər Əliyev Mərkəzi Leytenant Şmidt adına zavodun ərazisində tikilibdir. O da bir ekoloji fəlakət idi. Mən oraya gəlib baxanda dəhşətə gəldim ki, bu şəraitdə istehsalı necə təşkil etmək olar? Hər şey dağılmışdı. Amma indi bəziləri hətta unudub ki, orada Leytenant Şmidt adına zavod olub. Yaxud da ki, indi Olimpiya şəhərciyinin yaradıldığı ərazi. Metronun «Koroğlu» stansiyası ilə üzbəüz bu ərazidə Şifer kombinatı, Lampa zavodu var idi. Onlar da havanı çirkləndirirdi. İndi burada gözəl olimpiya şəhərciyi yaradılıb. Həm Bakıda, həm də bütün şəhər və rayonlarımızda bu yolla getməliyik.

İndi «Ağ şəhər» bulvarı tikilir. Yəqin ki, bir neçə aydan sonra artıq ictimaiyyət üçün açıq olacaq. Beləliklə, Bibiheybət istiqamətindən – Bayraq Meydanından o tərəfə də işlər davam etdirilir – idman şəhərciyindən ta «Ağ şəhər»ə, Neftayırma zavo-

duna qədər təqribən 16 kilometr uzunluğunda gözəl bir gəzinti zolağı – bulvar olacaqdır.

Çıxışımın sonunda I Avropa oyunlarına hazırlıqla bağlı bir-iki kəlmə demək istəyirəm. İşlər qrafik üzrə gedir. Bütün idman obyektləri təmir olunur, tikilir. Əlbəttə ki, burada nəqliyyat məsələlərinə çox böyük diqqət göstərilir. Bu işlər də uğurla gedir. Təhlükəsizlik məsələləri diqqət mərkəzindədir. Biz I Avropa oyunlarını Yay Olimpiya oyunları səviyyəsində keçirəcəyik. Əminəm ki, belə də olacaq.

Baxın, Bakıda nə qədər böyük, mötəbər idman yarışları, forumlar, Humanitar Forum, Sivilizasiyalararası Dialoq Forumu keçirilir. İndi Ümumdünya Gənclər Forumu keçiriləcəkdir. Davos Dünya İqtisadi Forumu Bakıda keçirilmişdir, yenə də keçiriləcəkdir. Yəni Bakıda iqtisadi, humanitar, idman, siyasi forumlar keçirilir. Bu, təsadüfi deyil. Bu, ölkəmizin inamlı inkişafının təzahürüdür. 2012-ci ildə «Eurovision» mahnı müsabiqəsi böyük uğurla keçirilmişdir. İndiyə qədər xatırlayırlar ki, Bakıda bəlkə də ən gözəl yarışma keçirilmişdir. Gələn il I Avropa oyunları, 2016-cı ildə Dünya Şahmat Olimpiadası Bakıda keçiriləcək. 2016-cı ildə «Formula-1» yarışı keçiriləcəkdir. Bu da dünya miqyasında, hətta futbol üzrə dünya çempionatından daha böyük maraq doğuran bir yarışdır. Bu da Bakıda keçiriləcəkdir. 2017-ci ildə İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. 2020-ci ildə futbol üzrə Avropa çempionatı keçiriləcəkdir – həm qrup, həm də dörddəbir final yarışları. Cəmi 4 şəhərdə dörddəbir final yarışı keçiriləcək – Bakı, Roma, Münhen, Sankt-Peterburq. Budur Bakının səviyyəsi və budur bizim gördüyümüz işlərin nəticəsi!

Əminəm ki, ilin sonuna qədər bütün vəzifələr uğurla icra ediləcək. 2014-cü ili uğurla başa vuracağıq, 2015-ci ili də uğurla başlayacağıq. Sağ olun.

## BELARUS RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Minsk*

*9 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarus Respublikasının paytaxtı Minskə səfərə gəlmişdir.*

*MDB-nin iştirakçısı olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*Minsk*

*10 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Belarusun paytaxtı Minsk şəhərində keçirilən MDB Dövlət Başçıları Şurasının növbəti iclasında iştirak etmişdir.*

*Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycan prezidenti İlham Əliyevi Müstəqillik sarayında qarşıladı. Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident Aleksandr Lukaşenko MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarusa gələn digər dövlət başçılarını da qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.*

*İclas iştirakçılarını salamlayan Belarus Prezidenti bu tədbirdə MDB məkanında qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi məsələlərinin müzakirə ediləcəyini dedi. Birlik daxilində ticari-iqtisadi əlaqələrin yeni impuls aldığını bildirən Aleksandr Lukaşenko vurğuladı ki, ölkələr arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq və dialoq yaradılıb.*

*Dövlətimizin başçısı iclasda çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli həmkarlar!

Əvvələn, MDB Dövlət Başçıları Şurasının növbəti iclasının keçirilməsi üçün yaradılmış gözəl şəraitə görə Aleksandr Qriqoryeviç Lukaşenkoya təşəkkür etmək istərdim. Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, iş belə gətirib ki, bu iclas dalbadal ikinci ildir Minskdə keçirilir.

Fürsətdən istifadə edib, Aleksandr Qriqoryeviçi və bütün Belarus xalqını Belarusun qazandığı nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Bu 1 il ərzində ölkənizin necə fəal inkişaf etməsi göz qabağındadır. Minsk gözəl, təmiz, müasir şəhərdir. Buna görə biz sizin dostlarınız kimi, uğurlarınıza sevinirik və əlbəttə, dost Belarus xalqına ən xoş arzularımızı bildiririk.

Bu fikrə mən də şərikəm ki, MDB-nin potensialı tükənməyib. Bu, əməkdaşlıq, qarşılıqlı fəaliyyət, regional və beynəlxalq həyatın aktual məsələlərinin müzakirəsi məkanıdır. Əlbəttə, uzun illər boyu ünsiyyət saxlayan və mühüm məsələləri birlikdə həll edən həmkarlar kimi, bizi narahat edən bütün məsələləri belə açıq, səmimi şəraitdə müzakirə etməliyik.

Azərbaycan özünün MDB-də iştirakına böyük əhəmiyyət verir. Hesab edirik ki, bizim təşkilat çərçivəsində qarşılıqlı fəaliyyət, əlaqələndirmə, bir-birimizin problemlərimizi daha yaxşı anlamaq, habelə digər mühüm məsələləri həll etmək işimizdə çox uğurlar qazanılıb. Biz həm də MDB-nin üzvü olan ölkələrin əksəriyyəti ilə ikitərəfli formatda çox fəal qarşılıqlı əlaqə saxlayırıq. Hesab edirəm ki, ikitərəfli əlaqələr bizim təşkilat çərçivəsində münasibətləri daha da möhkəmləndirir və biz bundan sonra da ikitərəfli əməkdaşlıq potensialını artırmağa çalışacağıq.

İqtisadi sahədə, investisiyalar sahəsində yaxşı təcrübəmiz var və bu gün biz narahatlıq doğuran məsələlərə, regional və beynəlxalq təhlükəsizliklə bağlı məsələlərə də diqqət yetiririk. Əlbəttə, sərhədlərimizin yaxınlığında baş verən hadisələr bizi narahat edir. Yaxın Şərqdə, Avropanın bir hissəsində vəziyyət

adekvat qiymət verilməsini tələb edir. Yəqin ki, hər bir ölkə öz əməli fəaliyyəti ilə etimad tədbirlərinin, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsinə töhfə verməyə çalışmalıdır.

Biz Azərbaycanda regional və beynəlxalq məsələlərdə öz rolumuzu belə təsəvvür edirik. Hesab edirik ki, ölkəmizin yürütdüyü siyasət risklərin azaldılmasına, vəziyyətin sabitləşdirilməsinə yönəlib. Əlbəttə, siyasi iradə kimi, iqtisadi potensial da burada mühüm rol oynayır. Azərbaycanın MDB məkanında, habelə regional və ikitərəfli əlaqələr çərçivəsində irəli sürdüyü təşəbbüslər təhlükəsizliyin, sabitliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Bu fəal əməkdaşlığı nəqliyyat sahəsində də müşahidə edirik. Bu yaxınlarda Xəzəryanı ölkələrin dövlət başçılarının Sammiti çərçivəsində biz Xəzəryanı dövlətlər arasında nəqliyyat sahəsində qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdik.

Zənnimcə, MDB məkanında çox yaxşı imkanlar var. Onların bir hissəsi artıq reallaşıb. Nəqliyyat infrastrukturuna yatırılan investisiyalar ölkələrimizi uzunmüddətli perspektivlə bir-birinə bağlayır və əməkdaşlıq, habelə əlavə mənfəət əldə edilməsi üçün yeni imkanlar yaradır. Əlbəttə, Azərbaycan enerji ehtiyatları istehsal edən ölkə kimi, öz tərəfdaşları ilə bu sahədə əməkdaşlıqda maraqlıdır.

Hesab edirəm ki, Azərbaycanın irəli sürdüyü təşəbbüslər və onun təşəbbüsü ilə başlanmış layihələr regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Bu sahədə investisiya layihələri, qüvvələrin bu istiqamətdə daha artıq əlaqələndirilməsi üçün yaxşı imkanlar var. Ona görə ki, enerji təhlükəsizliyi məsələləri hər bir ölkənin milli təhlükəsizliyi məsələləri ilə birbaşa bağlıdır. Əlbəttə, kifayət qədər enerji ehtiyatları olan ölkələrin üzərinə öz tərəfdaşlarının və qonşularının enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində daha böyük məsuliyyət düşür.

Biz humanitar əməkdaşlığa böyük əhəmiyyət veririk. Fikrimcə bu, hər halda, bizim təşkilatın həyat fəaliyyətinin əsasıdır. Bir neçə gün bundan əvvəl Bakıda ənənəvi IV Beynəlxalq

Humanitar Forum keçirildi. Həmin Forumda bizim ölkələrin nümayəndələri ilə yanaşı, 60-dan çox ölkənin təmsilçiləri iştirak edirdi. Dinlərarası dialoq, sivilizasiyaların dialoqu, multikulturalizm ilə bağlı humanitar əməkdaşlıq məsələləri çox aktualdır.

Zənnimcə, ölkələrimizin müsbət təcrübəsi göstərir ki, multikultural cəmiyyət inkişafın yeganə yoludur. Dünya ölkələrinin mütləq əksəriyyəti çoxkonfessiyalı, çoxlu millətlərin nümayəndələrinin yaşadığı ölkələrdir. Monoetnik ölkələr istisnadır. Odur ki, humanitar əməkdaşlıq, müxtəlif konfessiyaların və etnik qrupların nümayəndələri arasında qarşılıqlı anlaşma hər bir ölkə, hər bir ölkənin milli həmrəyliyi, habelə bizim əməkdaşlığımız üçün vacibdir. Çünki bizim təşkilat çərçivəsində tarixləri, mədəniyyətləri, dinləri müxtəlif olan ölkələr təmsil olunub və bizi ümumi maraqlar, ümumi əməkdaşlıq birləşdirir.

Digər tərəfdən, MDB-nin bir təşkilat kimi topladığı müsbət təcrübə bütövlükdə mədəniyyətlərarası, sivilizasiyalararası dialoqla bağlı problemlərin həlli üçün də faydalı ola bilər. Başqa sözlə, demək istərdim ki, biz bundan sonra da MDB-nin işində fəal iştirakımızı davam etdirəcəyik.

Gözəl şərait üçün Aleksandr Qriqoryeviçə bir daha təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, həll edəcəyimiz bugünkü məsələlər sıralarımızın daha sıx birləşməsinə gətirib çıxaracaq. Sağ olun.

* * *

*Tədbirdə dövlət başçıları 1941–1945-ci illərdə Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinin birgə qeyd olunması istiqamətində işlərin davam etdirildiyini, MDB çərçivəsində əməkdaşlığın və dostluq əlaqələrinin gücləndirilməsinin və bundan sonra daha da inkişaf etdirilməsinin tərəfdarı olduqlarını dedilər. Bildirildi ki, çoxtərəfli əməkdaşlığın genişləndirilməsi prioritet istiqamətlərdəndir və iclasda müzakirə olunan məsələlər Birlik*

*ölkələri arasında əlaqələrin möhkəmləndirilməsinə təkan verəcək.*

*Dövlət başçıları iclasda elm, təhsil, turizm, təhlükəsizlik sahələrində qarşılıqlı əlaqələrin gücləndirilməsi, Ukraynada vəziyyət və digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

*Sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirildi. İclasda bildirildi ki, dövlət başçıları 1941–1945-ci illərdə Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi ilə əlaqədar Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciət qəbul ediblər. Diqqətə çatdırıldı ki, iclas iştirakçıları MDB ölkələrinin elmi təşkilatları arasında əməkdaşlığın daha da genişləndirilməsi, 2016-cı ilin Birlik çərçivəsində «Təhsil ili» elan olunması, qanunsuz miqrasiya, insan alveri ilə mübarizə sahələrində əməkdaşlıq məsələlərinə dair razılığa gəliblər.*

*İclasda 2015-ci ildə MDB-yə sədrliyin Qazaxıstana keçməsi və MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn il Astanada keçirilməsi qərara alındı.*

*Sonra sənədlər imzalandı.*

*Azərbaycan prezidenti İlham Əliyev Belarus prezidenti Aleksandr Lukaşenkonun adından MDB dövlət başçılarının şərəfinə verilən işçi səhər yeməyində iştirak etdi.*

*Bununla da MDB Dövlət Başçıları Şurasının iclası işini yekunlaşdırdı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin Minskə səfəri həmin gün başa çatdı.*

# VYETNAM KOMMUNİST PARTİYASI SİYASİ BÜROSUNUN ÜZVÜ, PARTİYANIN MƏRKƏZİ KOMİTƏSİ KATİBLİYİNİN DAİMİ ÜZVÜ LE HONQ ANHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Vyetnam Kommunist Partiyası (VKP) Siyasi Bürosunun üzvü, VKP Mərkəzi Komitəsi Katibliyinin daimi üzvü Le Honq Anhın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Vyetnam Respublikasına rəsmi səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı bu səfərin yüksək səviyyədə ilk rəsmi səfər olması baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev Vyetnam Kommunist Partiyası Siyasi Bürosunun üzvü və partiyanın Mərkəzi Komitəsi Katibliyinin daimi üzvü Le Honq Anhın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin də Azərbaycan ilə Vyetnam arasında intensiv əlaqələrin davam etdirilməsi və əməkdaşlığımızın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Vyetnam Kommunist Partiyası Siyasi Bürosunun üzvü, VKP Mərkəzi Komitəsinin Katibliyinin daimi üzvü Le Honq Anh Azərbaycana ilk dəfə səfər etməsindən və prezident İlham Əliyevlə görüşündən məmnun olduğunu bildirdi. Le Honq Anh Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq əlaqələrinin yaxşı tarixə malik olduğunu vurğuladı. Qonaq Azərbaycan prezidenti İlham Əliyevin Vyetnama ilk rəsmi səfərinin ikitərəfli əlaqələrimizin inkişafına böyük təkan verdiyini dedi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən ticarət dövriyyəsinin artırılması, neft-qaz, sərmayə qoyuluşu sahələrində, mədəni, humanitar və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

# RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ SERGEY ŞOYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu yaxınlarda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə Həştərxanda və Minskdə görüşlərini məmnunluqla xatırlatdı və yüksək səviyyəli görüşlərin mütəmadi olaraq keçirildiyini bildirdi. Siyasi, iqtisadi sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın da ikitərəfli münasibətlərimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağını bildirdi və səfərin səmərəli olacağına əminliyini ifadə etdi.*

*İkitərəfli münasibətlərimizin inkişafı ilə bağlı deyilən xoş sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqu Həştərxanda və Minskdə keçirilən yüksək səviyyəli görüşlərin önəmini qeyd etdi. Sergey Şoyqu Xəzər dənizində əməkdaşlıqla bağlı qəbul olunan qərarların əhəmiyyətini vurğuladı. Xəzər dənizi hövzəsində hərbi əməkdaşlığın uğurla inkişaf etdirildiyini vurğulayan nazir bugünkü görüşün də əlaqələrimizin gələcəkdə daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

## QALA–PİRALLAHI AVTOMOBİL YOLUNUN BİRİNCİ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*14 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qala–Pirallahı avtomobil yolunun yenidənqurma işlərindən sonra birinci hissəsinin açılışında iştirak etmişdir.*

*Son illərdə paytaxtda və regionlarda çoxsaylı yolötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yenilənməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara buraxılır. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində də nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər uğurla icra olunur. Bu, Bakıda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə yönəldilib. Dövlətimizin başçısının tapşırıqlarına əsasən paytaxtın yol-nəqliyyat infrastrukturunun daha da müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər sırasına yeniləri də əlavə edilir.*

*Görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı»na uyğun olaraq yenidən qurulan yolun ümumi uzunluğu 22 kilometrə yaxındır. Artıq yolun 15 kilometrə yaxın hissəsi istismara tam hazırdır. 4 hə-*

rəkət zolağı olan yolun tikintisi yüksək səviyyədə həyata keçirilib. Mövcud yol əvvəllər ensiz olduğu üçün hərəkətin intensivliyinə əngəl yaradır və tıxaclara səbəb olurdu. İndi isə yolun hərəkət hissəsinin eni 19 metrə yaxındır. Bu da avtomobillərin rahat və maneəsiz hərəkətinə şərait yaradacaq.

Dövlət Proqramına daxil olan bu layihənin reallaşdırılmasında əsas məqsəd həm şəhərin mərkəzinə, həm də Qala və Pirallahı istiqamətinə rahat nəqliyyat əlaqəsini təmin etməkdir. Layihəyə əsasən qovşaqlar və piyada keçidləri də inşa olunub. Bundan başqa, yol boyunca yaşıllıqlar salınıb. İnşaat işləri zamanı burada bütün kommunikasiya sistemləri, o cümlədən su, istilik, qaz, rabitə və yağıntı sularını axıdan xətlər dəyişdirilib. Beləliklə, müasir tələblər səviyyəsində inşa olunan bu yolun tikintisi nəqliyyat sıxlığının aradan qaldırılması istiqamətində paytaxtda aparılan mühüm işlərin davamlı xarakter aldığını bir daha təsdiq edir. Bu cür layihələrin uğurla icra olunması sübut edir ki, ölkədə görülən sosialyönümlü tədbirlərdə başlıca məqsəd əhalinin rahatlığını təmin etməkdir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

## YENİ YARADILAN PİRALLAHI RAYONUNA SƏFƏR

*14 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qala–Pirallahı avtomobil yolunun birinci hissəsinin açılışından sonra yeni yaradılan Pirallahı rayonuna gəlmişdir.*

*Rayon icra hakimiyyətinin başçısı Vasif İmanov prezident İlham Əliyevə Pirallahıda görülən işlər və qəsəbənin baş planı ilə bağlı ətraflı məlumat verdi.*

*Yeni yaradılan Pirallahı rayonu da sürətli inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyev «Bakı şəhəri Pirallahı rayonunun yaradılmasına dair Qanun»un tətbiqi barədə sərəncam imzaladıqdan sonra bu rayonda geniş quruculuq və abadlıq işləri həyata keçirilib. Qısa müddətdə Pirallahı qəsəbəsinin bütün yaşayış məhəllələrində abadlıq işləri geniş vüsət alıb. Aparılan yenidənqurma işləri nəticəsində Pirallahı qəsəbəsinin siması sürətlə müasirləşir. İndi qəsəbədə küçə və məhəllədaxili işıqlandırma sistemlərinin yenidən qurulmasında, ictimai nəqliyyatın fasiləsiz işində, sosial təyinatlı obyektlərin – məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, mədəniyyət evlərinin təmir-tikintisi və bərpası istiqamətində xeyli işlər görülür. Pirallahı qəsəbəsinin inkişaf perspektivlərinə uyğun olaraq alternativ yolun inşası, kommunikasiya xətlərinin yerinin dəqiqləşdirilməsi, üzgüçülük, kurort komplekslərinin inşası, qəsəbədə qaçqınlar və məcburi köçkünlər üçün yaşayış kompleksinin tikintisi, helikopter meydançasının yeni əraziyə köçürülməsi, magistral yolun kənarlarında salınacaq yaşıllıqlar, abad məhəllə və digər işlərin həyata keçirilməsi nəzərdə tutulur.*

## Adanı sahilə birləşdirəcək yeni körpüdə inşaat işlərinin gedişi və Pirallahı rayonunun konseptual planı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Pirallahı adasını Abşeron yarımadası ilə birləşdirəcək yeni körpüdə görülən inşaat işləri ilə tanış olmuşdur.*

*Yeni körpüdə tikinti işlərinə 2012-ci ilin sonunda başlanılıb. Dəniz dalğalarının Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil yolunu yuyub sıradan çıxarmasının qarşısını almaq, avtomobil körpüsünün tikintisini sürətləndirmək və yolətrafı zonada ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə magistral boyu sahilbərkitmə işləri görülüb. Layihə üzrə işlərin 60 faizi artıq icra edilib.*

*Yeni körpü Qala–Pirallahı avtomobil yolunun 23-cü kilometrində yerləşir. Körpünün uzunluğu giriş-çıxış hissəsi arasında 710, eni 14, hərəkət zolağının eni isə 12 metrə yaxındır. Körpüdə də inşaat işlərinin xeyli hissəsi görülüb. Körpü istismara verildikdən sonra onun altından gəmilərin hərəkəti də nəzərdə tutulub. Görülən işlər gəmilərin körpünün altından sərbəst hərəkətinə imkan verəcək.*

*Prezident İlham Əliyev inşaat işlərinin yüksək səviyyədə aparılması üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.*

*Sonra dövlətimizin başçısı Pirallahı rayonunda yeni şəhərin konseptual planı ilə tanış oldu. İnkişaf layihəsinə uyğun olaraq yeni şəhər üçün Gürgən dəniz sahili boyu və ətraf ərazilər seçilib. Burada ən müasir və böyük yaşayış mərkəzi yaradılacaq. İlkin olaraq, yeni şəhər 120 min əhalinin yaşaması üçün nəzərdə tutulub. Burada, həmçinin inzibati binalar, çoxmərtəbəli evlər, ticarət mərkəzləri tikiləcək, istirahət guşələri yaradılacaq, şəhəri dənizlə birləşdirəcək parklar salınacaq.*

*Layihəyə görə ilkin mərhələdə 60 yaşayış binasının tikintisi nəzərdə tutulub. Binaların əksəriyyəti dördmərtəbəli terras*

*formasında olacaq. Yeni şəhərdə Universitet Kompleksi, balıqçılıq platforması tikiləcək və sənaye zonası da yaradılacaq.*

## Pirallahı qəsəbəsində geniş abadlıq-quruculuq işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Pirallahı qəsəbəsində aparılan abadlıq-quruculuq işləri ilə tanış olmuşdur.*

*Pirallahı qəsəbəsində mərkəzi prospekt boyunca yaşayış binalarının fasadlarının təmirinə başlanılıb. Binaların fasadlarının yenilənməsi, giriş qapılarının və dam örtüyünün təmiri istiqamətində işlər aparılır, şəhərsalma və tikinti normalarına cavab verməyən kiçik və yarımçıq tikililər sökülür, ərazilər təmizlənərək abadlaşdırılır. Binalar təsdiq olunmuş layihə əsasında əsaslı təmir edilir.*

*Pirallahı qəsəbəsində sakinlərin rahatlığının təmin edilməsi məqsədilə bazar, ticarət mərkəzləri və yanacaqdoldurma məntəqəsinin inşası nəzərdə tutulub. Bu işlər məşğulluq məsələsinin də müsbət həllinə xidmət edəcək.*

# FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİYAD ƏL-MALİKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Fələstin Dövlətinin Xarici İşlər naziri Riyad əl-Malikinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Fələstinin Xarici İşlər naziri Riyad əl-Maliki prezident Mahmud Abbasın salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı. O, Azərbaycanın Fələstinə verdiyi dəstəyin və göstərilən humanitar yardımın ölkəsində yüksək qiymətləndirildiyini dedi. Riyad əl-Maliki Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi dövründə, ondan əvvəl və sonra bu dəstəyi daim hiss etdiklərini məmnunluqla qeyd etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın ölkəmizə uğurlu səfərini məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında dostluq əlaqələrinin yaxşı tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı dəstəyin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev prezident Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa), ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki və Devid Salvonu (ABŞ-dan olan həmsədrin köməkçisi) qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Oyunları üzrə Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva oktyabrın 15-də Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Ölkəmizdə idmana göstərilən yüksək dövlət qayğısı nəticəsində digər sahələrdə olduğu kimi, son illər bu sahədə də sürətli inkişafa nail olunub. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. I Avropa oyunları kimi mötəbər idman tədbirinin ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bunun daha bir əyani göstəricisidir.*

*İlk Avropa oyunlarına hazırlıq işlərini dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı daim diqqət mərkəzində saxlayırlar. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müxtəlif idman yarışlarının keçirilməsi üçün nəzərdə tutulan Bakı Olimpiya stadionunda inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, işlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verirlər.*

*Dövlətimizin başçısı və xanımı Bakı Olimpiya stadionunda ayrı-ayrı inşaat sahələrini gəzdilər, görülən işlərlə yerindəcə tanış oldular. Prezident İlham Əliyevə ötən müddətdə görülən işlər barədə ətraflı məlumat verildi.*

## TACİKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*15 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Tacikistan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Tacikistanın dövlət bayraqlarının dalğalandığı Düşənbə Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Tacikistanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Tacikistan Respublikasına rəsmi səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 16-da Düşənbədə Millət sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycanın və Tacikistanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan Prezidenti Tacikistan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri prezident Emoməli Rəhmona, Tacikistan Respublikasının dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olmuşdur.*

**E m o m ə l i  R ə h m o n:** Hörmətli İlham Heydər oğlu!

İlk növbədə demək istəyirəm ki, biz Sizin Tacikistana səfərinizdən məmnunuq. Tacikistana xoş gəlmisiniz! Tacikistanı və Azərbaycanı qədim tarix, mədəni əlaqələr birləşdirir. Əminəm ki, Sizin səfəriniz xalqlarımız arasında münasibətlərin inkişafına yeni təkan verəcək. Əlbəttə, bu səfər zamanı ikitərəfli münasibətlərin mühüm istiqamətləri daha dərindən müzakirə olunacaq və çoxtərəfli əməkdaşlığın proqramı müəyyənləşdiriləcək.

Ölkələrimiz arasında münasibətlər çox yaxşı inkişaf edir. İkitərəfli əmtəə dövriyyəsinin həcmi artmaqdadır. Görüş əsnasında münasibətlərimizin gələcək inkişafını da bir daha müzakirə edəcəyik.

Bir daha Sizi burada görməkdən məmnunluğumu ifadə edirəm və Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

**İ l h a m  Ə l i y e v:** Hörmətli Emoməli Şərifoviç, təşəkkür edirəm! İlk növbədə, Sizin gözəl ölkənizə səfər etmək dəvətinə görə minnətdaram. Şadam ki, yenidən buradayam və gözəl dəyişiklikləri görürəm. Mən qısa müddət ərzində hələ başqa yenilikləri də görə biləcəyəm. Bütün bunlar Sizin ölkənizin fəal

inkişafının nəticəsidir. Biz dost kimi, buna sevinirik və əlbəttə ki, ikitərəfli əməkdaşlığın potensialının gücləndirilməsinə ümid edirik.

Bizim aramızda möhkəm münasibətlər mövcuddur. Biz dostuq, tərəfdaşıq. Əlbəttə ki, bu səfər dostluq, tərəfdaşlıq səfəridir. Həmçinin ümid edirik ki, bu səfər iqtisadi əlaqələrin fəal inkişafına təkan verəcək. Ona görə ki, əmtəə dövriyyəsinin bizim istədiyimiz səviyyədə olmadığı fikri ilə razıyıq. Məhz nümayəndə heyətimin tərkibində bir sıra işgüzar dairələrin nümayəndələri, çoxlu nazirlər var. Buna görə düşünürəm ki, yaxşı nəticələr olacaq.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*
*Dövlət başçıları görüşdə çıxış etdilər.*

### Tacikistan prezidenti Emoməli Rəhmonun çıxışı

Əziz qonaqlar! Bu gün sizin hamınızı bu zalda görmək bizə xüsusi sevinc bəxş edir. Əminəm ki, indiki görüş Azərbaycan Respublikası və Tacikistan Respublikası xalqlarının rifahı naminə ölkələrimizin zəngin potensialının daha tam və səmərəli şəkildə reallaşması istiqamətində qarşılıqlı səylərin parlaq nümunəsi kimi, dövlətlərimizin münasibətlərinin salnaməsinə yeni səhifə yazacaq. Ölkələrimiz regional və qarşılıqlı faydalı münasibətlərin genişləndirilməsi və möhkəmləndirilməsinin qəti tərəfdarıdırlar. Onlar istər ikitərəfli formatda, istərsə də üzv olduqları regional və beynəlxalq təşkilatlar çərçivəsində dostluq münasibətlərini dəstəkləyirlər. Bugünkü Azərbaycan beynəlxalq münasibətlərin mühüm subyektidir, Qafqaz regionunun iqtisadi, siyasi və mədəni mərkəzidir. Bunu Azərbaycanın, demək olar ki, dünyanın 150 ölkəsi ilə ticarət əməliyyatı aparması və Avropanın bir sıra ölkələrində biznesə sərmayə yatırması təsdiq edir. Bundan əlavə, TRASEKA hökumətlərarası Komissiyanın daimi katibliyinin fəaliyyəti, Bakıda Dubay Ticarət-Sənaye Palatasının MDB ölkələri üzrə nümayəndəliyinin açılması, eləcə də gələn il

ölkənizdə Ekobankın illik iclasının keçirilməsi beynəlxalq və regional əməkdaşlıq sistemində Azərbaycanın bir daha önəmli mövqeyinin göstəricisidir.

Biz əsl dost kimi, şübhəsiz ki, qardaş ölkənin bu nailiyyətlərinə sevinirik.

Fürsətdən istifadə edərək bəyan edirəm ki, Tacikistan Azərbaycanın nüfuzunun möhkəmləndirilməsinə, sülhün bərqərar olmasına, sabitlik və regional əməkdaşlığa hədəflənmiş təşəbbüsləri daim dəstəkləyəcək.

Əziz qonaqlar. Bir daha xoş gəlmisiniz! Hörmətli İlham Heydər oğlu! Mən böyük məmnunluqla qarşılıqlı münasibətlərimizin vəziyyəti və perspektivləri ilə bağlı fikirlərinizi bölüşməyi xahiş edərdim. Buyurun.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun, hörmətli Emoməli Şərifoviç, əziz dostlar! İlk növbədə, Tacikistana yenidən rəsmi səfər etmək dəvətinə görə Sizə təşəkkürümü bildirmək istərdim. Dost, qardaş Tacikistan torpağında olmağıma çox şadam. Mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərlik münasibətlərimizin yüksək səviyyəsinə dəlalət edir. İlk növbədə, Sizi və bütün tacik xalqını müstəqilliyin möhkəmləndirilməsi və Tacikistanın sosial-iqtisadi inkişafı işində böyük nailiyyətləri münasibətilə təbrik etmək istəyirəm. Həmin uğurlar illik sürətli iqtisadi artım rəqəmlərində özünü göstərir. Bu uğurları elə ilk baxışdan Düşənbənin necə yeniləşdiyini və gözəlləşdiyini görəndə də hiss etmək olar. Qurub-yaratmaq, inkişaf, beynəlxalq və regional siyasətdə fəal iştirak ölkənizi səciyyələndirir. Biz dost kimi, sizin uğurlarınıza sevinirik.

Əlbəttə ki, rəsmi səfərin imkanlarından istifadə edərək, gələcək əməkdaşlığın yollarını müəyyənləşdirmək istəyirik. Bu gün təkbətək görüşdə qeyd etdiyimiz kimi, biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əməkdaşlıq edirik. Biz bütün məsələlərdə bir-birimizi dəstəkləməliyik. Çünki fikir mübadiləsi

zamanı qeyd etdiyimiz kimi, bizim çox mürəkkəb, xüsusilə müstəqilliklə bağlı mürəkkəb tariximiz var. Müstəqillik böyük çətinliklərlə əldə edilib. Bəlkə də ən çətin vəziyyətə Tacikistan və Azərbaycan düşmüşdü. Çünki məhz bizim ölkələrimizdə vətəndaş müharibəsi olmuşdu. Sizdə bu müharibə daha uzun müddət çəkdi və daha böyük qurbanlar oldu. Bizdə isə bu müharibə nisbətən az çəkdi, lakin xeyli tələfat oldu. Mahiyyətcə bu sarsıntılar ölkələrimizə inkişaf etməyə imkan vermirdi. Sizin rəhbərliyinizlə Tacikistanda sabitliyin bərqərar edilməsi davamlı inkişaf üçün başlıca amil oldu. Bu gün ölkənizə sərmayələr yatırılır, Tacikistan beynəlxalq və regional təhlükəsizlik sistemində layiqli yer tutur, regionda vacib rol oynayır. Əlbəttə ki, Tacikistan inkişaf etdikcə bu rol daha da artacaq.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra oktyabrın 16-da Azərbaycan–Tacikistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Prezidentinin və Tacikistan Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni prezident İlham Əliyev və prezident Emoməli Rəhmon imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Tacikistanın Xarici İşlər naziri Sirociddin Aslov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Tacikistanın Xarici İşlər naziri Sirociddin Aslov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev və Tacikistanın Səhiyyə və Sosial Müdafiə naziri Salimzoda Nusratullo imzaladılar.*

*«Azərbaycan Milli Elmlər Akademiyası və Tacikistan Respublikası Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə və Tacikistan Elmlər Akademiyasının prezidenti Farxod Rahimi imzaladılar.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra okyabrın 16-da Tacikistan prezidenti Emoməli Rəhmon və Azərbaycan prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Tacikistan prezidenti Emoməli Rəhmonun bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Bu gün biz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin ölkəmizə rəsmi səfəri çərçivəsində onunla məzmunlu və konstruktiv görüş keçirdik. Biz görüşdə ikitərəfli, regional və beynəlxalq xarakterli bir çox məsələləri müzakirə etdik. Mən qarşılıqlı əlaqələrimizin indiki vəziyyətindən məmnun olduğumuzu bildirdim. Qeyd edildi ki, Tacikistan Azərbaycan Respublikası ilə əməkdaşlıq məsələlərinə böyük diqqət yetirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə toxunduq, qarşılıqlı faydalı əməkdaşlığı tənzimləyə və inkişaf etdirə biləcəyimiz prioritet sahələri qeyd etdik. Biz bu kontekstdə Tacikistanda hidroenergetika və neft-qaz sahəsinə aid qurğuların tikilməsində, mineral ehtiyatların mənimsə-nilməsində Azərbaycanın işgüzar dairələrinin investisiya

fəaliyyətinin gücləndiriləcəyinə və iki dövlətin bank sistemləri arasında əməkdaşlığına ümid etdiyimizi bildiririk.

Vurğulandı ki, ölkələrimiz arasında qarşılıqlı ticarətin inkişafına əngəl törədən amillərdən biri nəqliyyat-kommunikasiya imkanlarının məhdud olmasıdır. Ölkələrimizin coğrafi mövqeləri nəzərə alınmaqla təbii ki, bu cür ticarət zəruri infrastruktur yaradılmasını tələb edir. Bu baxımdan biz hökumətlərarası Komissiyanın daimi Katibliyi Bakıda yerləşən TRASEKA layihəsi çərçivəsində böyük İpək yolunun bərpa olunmasında maraqlıyıq. Biz həm də Tacikistan ilə Azərbaycan arasında birbaşa aviareys açılmasında maraqlıyıq.

İkitərəfli mədəni və humanitar əlaqələrimizi yüksək qiymətləndirərək bu sahələrdə qarşılıqlı fəaliyyəti genişləndirmək barədə razılığa gəldik. Əcdadlarımızın böyük mədəni irsini daha geniş təbliğ etməyə yönələn yeni təkliflər səsləndi. Məsələn, mən gələn il hər iki ölkədə Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin əsərlərinə həsr edilmiş bir sıra tədbirlərin keçirilməsini təklif etdim. Biz həmçinin regional və beynəlxalq xarakterli məsələləri, o cümlədən Əfqanıstanda vəziyyəti müzakirə etdik.

Dağlıq Qarabağ münaqişəsi bizim müzakirələrin gedişində mühüm mövzulardan biri oldu. Mən bu problemlə əlaqədar bizim nöqteyi-nəzərimizi ifadə edərək bildirdim ki, Tacikistan müharibənin bütün dəhşətlərini görmüş bir ölkə kimi, münaqişənin dinc yolla, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll edilməsindən ibarət prinsipial mövqenin tərəfdarıdır. Eyni zamanda, biz çoxtərəfli formatda gələcək əməkdaşlıq məsələlərinə də diqqət yetirdik. Qeyd etdik ki, beynəlxalq və regional xarakterli bir çox məsələlər üzrə ölkələrimizin mövqeləri üst-üstə düşür və ya yaxındır. Tacikistanın və Azərbaycanın həmin məsələlərə konseptual yanaşmaları BMT, ATƏT, MDB, İƏT və EKO çərçivəsində Tacikistan–Azərbaycan münasibətlərinin dinamik və ardıcıl inkişafına şərait yaradır.

Görüşün yekunları ilə əlaqədar bəyan etmək istəyirəm ki, biz Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcəyinə nikbinliklə baxırıq, bu mü-

nasibətlərin daha da genişlənməsi və dərinləşməsi üçün əlimizdən gələni etmək əzmindəyik. İndi isə mən böyük məmnuniyyətlə əziz qonağımız – Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevdən öz fikirlərini söyləməsini xahiş etmək istəyirəm. Buyurun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, hörmətli Emoməli Şərifoviç!

İlk növbədə, məni qardaş Tacikistana rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Tacikistan torpağına ayaq basdığımız ilk andan mənə və nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərliyə görə də təşəkkür edirəm.

Bu mənim Tacikistana ikinci rəsmi səfərimdir. Emoməli Şərifoviç də Azərbaycanda iki dəfə rəsmi səfərdə olub. Bu fakt özlüyündə bizim münasibətlərimizin yüksək səviyyəsinə dəlalət edir. Çünki bizim aramızda çox fəal siyasi dialoq var. Biz müxtəlif beynəlxalq tədbirlər – sammitlər, konfranslar çərçivəsində də müntəzəm görüşürük, regional təhlükəsizlik, dünya siyasəti və ikitərəfli münasibətlərimizlə bağlı aktual məsələlərə dair müntəzəm fikir mübadiləsi aparmaq imkanımız var.

Emoməli Şərifoviçin artıq qeyd etdiyi kimi, bizim gündəliyimiz çox genişdir. Bu gün biz qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini müzakirə etdik. Siyasi münasibətlərimizin çox fəal olması bütün başqa sahələrdə də əlaqələrin fəal inkişafını nəzərdə tutur. Biz bir sıra beynəlxalq təşkilatlarda birgə iştirak edir və bir-birimizi dəstəkləyirik. Fürsətdən istifadə edib, Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilərkən ölkəmizin namizədliyini dəstəklədiyinə görə Tacikistan Prezidentinə bir daha şəxsən təşəkkürümü bildirmək istərdim. Bu dəstək çox vacib idi və biz 2 il ərzində bu yüksək beynəlxalq orqanda həm özümüzü, həm də bütün dostlarımızı, tərəfdaşlarımızı təmsil etdik.

Bu gün imzalanan siyasi Bəyannamə bizim gələcək münasibətlərimizin bütün spektrini müəyyənləşdirir. Çox böyük əhəmiyyət kəsb edən bu siyasi sənəddə bizim prioritetlər, birgə gələcəyimiz barədə təsəvvürlərimiz əks olunub. Mən həm də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində prinsipial mövqeyinə görə Tacikistana təşəkkürümü bildirmək istərdim. Bizim indicə imzaladığımız Bəyannamədə qeyd edildiyi kimi, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməklə tənzimlənməlidir. Bu qətnamələrin qəbul edildiyi andan 20 ildən çox vaxt keçib, lakin təəssüf ki, onlar yerinə yetirilmir. Qətnamələrdə aydın deyilib ki, erməni işğalçı qüvvələri Azərbaycan ərazisindən çıxarılmalıdır. Münaqişənin beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq surətdə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi bizim regionda sülhün təmin edilməsi üçün yeganə mümkün yoldur.

Bu gün biz iqtisadi sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələləri müzakirə etdik. Əlbəttə, əmtəə dövriyyəsinin həcmi bizi qane edə bilməz, lakin hökumətlərarası birgə İqtisadi Komissiyanın dünən keçirilmiş iclası və onun nəticələri barədə bizə məruzə edilənlər nikbin olmağa əsas verir ki, biz əmtəə dövriyyəsini qısa müddətdə artıra biləcəyik. Bu istiqamətdə konkret addımlar atılır. Nəqliyyat sahəsində, xüsusən Azərbaycanın və regionun investisiya və nəqliyyat infrastrukturu nəzərə alınmaqla, gözəl imkanlar var. İlk növbədə, Azərbaycanda, Xəzər regionunda ən iri liman olacaq Yeni Bakı Beynəlxalq Dəniz Limanının açılması, habelə yaxın vaxtda başa çatdırmağı planlaşdırdığımız Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi yeni imkanlar yaradır. Bu, Asiyadan Avropaya və əks istiqamətdə malların tranziti üçün ən qısa, ən səmərəli və ucuz yoldur.

Bu gün biz əməkdaşlığımızın humanitar aspektləri barədə çox danışdıq. Burada yaxşı təcrübə var. Biz həm tarix, həm də mədəniyyət baxımından bir-birimizə yaxın xalqlarıq, eyni sivilizasiyanın nümayəndələriyik. Əlbəttə, bunlar bizi yaxın-

laşdırır. Buna görə biz gələcəkdə də mədəni proqramlarla bağlı müxtəlif tədbirlər keçirəcəyik. Tacikistanda «Azərbaycan Mədəniyyəti günləri», Azərbaycanda «Tacikistan Mədəniyyəti günləri» böyük uğurla keçdi və xalqlarımız bizim bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha gördülər.

Bu gün biz regional təhlükəsizlik, terrorizmlə mübarizə məsələlərini də müzakirə etdik. Bizdən o qədər də uzaq olmayan regionda vəziyyət, əlbəttə, bizi narahat edir. Regionda təhlükəsizliyi təmin etmək üçün biz mütərəqqi qüvvələrin səylərini birləşdirməliyik. Tacikistanda və Azərbaycanda çox müsbət inkişaf dinamikası var, sabitlik təmin olunub, iqtisadi, sosial məsələlər həll edilir. Buna görə bizim ölkələrdə təhlükəsizliyə daxili təhdidlər yoxdur. Bizi narahat edən bütün amillər sərhədlərimizdən kənardadır. Buna görə sərhədlərimizin möhkəmləndirilməsi, habelə regional təhlükəsizliyə töhfəmiz fəal müzakirə etdiyimiz məsələlərdir.

Onu da bildirmək istərdim ki, Emoməli Şərifoviçin rəhbərliyi ilə Tacikistanda həyata keçirilən dəyişiklikləri Azərbaycanda böyük maraqla izləyirlər. Siz davamlı iqtisadi artımı, bir sıra sosial məsələlərin həllini təmin edirsiniz. Tacikistan regionda, dünyada böyük nüfuz sahibidir. Siz öz regionunuzda qarşılıqlı iqtisadi fəaliyyət, regional təhlükəsizlik baxımından çox mühüm rol oynayırsınız və əlbəttə, Düşənbədəki dəyişiklikləri buraya gələn adi insanlar da görürlər. Mən burada bir neçə il əvvəl olmuşam, indi görürəm ki, böyük dəyişikliklər baş verib, yeni gözəl binalar tikilib, ictimai yerlər abadlaşdırılıb, parklar salınıb. Bütün bunlar insanlar üçün, onların rahatlığı, firavanlığı üçün edilir. Müstəqilliyin ilk illərində həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibələrinin getdiyi dövrdə çox çətinliklərlə üzləşən xalqlarımız yaxşı yaşamağa layiqdirlər. Mənim fikrimcə, həm Tacikistan xalqı, həm də Azərbaycan xalqı müstəqilliyin üstünlüklərini görür. Axı biz yalnız müstəqillik dövründə belə böyük uğurlara nail ola bilmişik. Biz sizin dostlarınız, qardaşlarınız kimi, uğurlarınıza sevinirik. Əminik ki,

Tacikistanın dinamik inkişafı davam edəcək və bu sizin xalqın, bütün regionun xeyrinə olacaq.

Emoməli Şərifoviç, qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib, Sizin üçün münasib olan istənilən vaxtda Sizi Azərbaycana dəvət etmək istəyirəm.

Sağ olun.

## İSMOİL SOMONİ ABİDƏSİNİ ZİYARƏT

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Düşənbənin «Dusti» meydanındakı «Tacikistanın milli həmrəyliyi və dirçəlişi» xatirə kompleksində İsmoil Somoni abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısının şərəfinə burada Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

## TACİKİSTAN MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə oktyabrın 16-da Düşənbədə Tacikistan Milli Universitetinin Fəxri doktoru diplomunun təntənəli təqdim edilməsi mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyevi universitetin tələbələri duz-çörəklə qarşıladılar.*

*Əvvəlcə dövlətimizin başçısı universitetin bitkilərin öyrənilməsi üzrə Elmi-tədqiqat Mərkəzinin fəaliyyətini əks etdirən sərgi ilə tanış oldu. Bildirildi ki, bu mərkəzdə bitkilərdən təbabətdə istifadə olunan müxtəlif müalicəvi vasitələr hazırlanır.*

*Prezident İlham Əliyevə ali təhsil ocağının Kitab fondunda saxlanılan qədim əlyazmalar haqqında da məlumat verildi. Burada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin «Xəmsə»sinə daxil olan bir neçə əsərin orta əsrlərə aid əlyazmaları da var.*

*Sərgidə, həmçinin ümummilli lider Heydər Əliyev, Azərbaycan və Tacikistan prezidentləri İlham Əliyev və Emoməli Rəhmon haqqında kitablar nümayiş olunur.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev haqqında tacik dilində çap olunmuş kitabı imzaladı.*

*Sonra Fəxri doktor diplomunun təqdimat mərasimi oldu.*

* * *

**M a h m a i s u f İ m o m o v** *(Tacikistan Milli Universitetinin rektoru)*: Çox hörmətli cənab prezident İlham Heydər oğlu Əliyev!

Hörmətli qonaqlar, əziz həmkarlar və dostlar!

İcazə verin, Tacikistan Milli Universitetinin professor-müəllim heyəti və tələbələri adından Sizi universitetimizin divarları arasında salamlayaq. Tacikistanın Milli Universitetinə xoş gəlmisiniz!

*Rektor bildirdi ki, xalqlarımız əsrlərin dərinliyindən gələn qarşılıqlı münasibətlər ənənələrinə malikdirlər.*

*Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığından danışan rektor bir çox nəsillərin nümayəndələrinin bu yaradıcılıqdan bəhrələndiyini söylədi. Tacikistanlı alimlərin Azərbaycanın böyük oğullarının əsərlərinin öyrənilməsi istiqamətində xeyli iş gördüklərini vurğuladı.*

Çox hörmətli İlham Heydər oğlu! Biz Sizi multikulturalizmin fəal tərəfdarı kimi tanıyırıq. Sizin rəhbərliyinizlə Azərbaycan, xüsusilə onun paytaxtı Bakı mühüm elmi və mədəni mərkəzə çevrilir. Bakı Beynəlxalq Humanitar Forumu ənənəvi hal alır. Mədəniyyətlərarası dialoqun çətinliyi şəraitində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ideyanız, cənab Prezident, xüsusilə aktualdır. Tacikistanın elmi və universitet ictimaiyyəti, o cümlədən Tacikistan Milli Universitetinin alimləri və müəllimləri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasını alqışlayırlar. Əminəm ki, müasir dünyanın problemlərinin həlli istiqamətində bizim alimlərimiz azərbaycanlı həmkarları ilə fəal əməkdaşlıq edəcəklər.

Tacikistan Milli Universiteti Azərbaycanın təhsil və elmi müəssisələri ilə humanitar əməkdaşlığı inkişaf etdirmək əzmindədir. Bizim universitetlə Bakı Dövlət Universiteti arasında xüsusi münasibət yaranıb. Universitet Azərbaycan mədəniyyətinin yayılması işinə öz töhfəsini verir, qardaş xalqlarımızın yaxınlaşmasında fəal addımlar atır. Sizin səfəriniz ərəfəsində –

oktyabrın 14-də universitetimizdə Elmira Axundovanın tacik dilinə tərcümə olunmuş 6 cildlik «Heydər Əliyev: şəxsiyyət və zaman» əsərinin və Nikolay Zinkeviçin Azərbaycan xalqının böyük oğlu, dünya miqyaslı siyasi xadim Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş «Həyatın ziqzaqları» kitabının təqdimatı keçirilib.

Çox hörmətli İlham Heydər oğlu! Elmin, təhsilin və mədəniyyətin, beynəlxalq əməkdaşlığın, Tacikistan və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsinə, inkişafına verdiyiniz mühüm töhfələri nəzərə alaraq, Tacikistan Milli Universitetinin Elmi Şurası 2014-cü il oktyabrın 14-də Sizə Tacikistan Milli Universitetinin Fəxri doktoru adı verilməsini qərara alıb. İcazə verin, Tacikistan Milli Universitetinin Fəxri doktoru diplomunun və Universitetin Elmi Şurasının Fəxri üzvü mantiyasının təqdim edilməsi ilə bağlı təntənəli mərasimi açıq elan edim.

*Hər iki ölkənin Dövlət himni səsləndirildi.*

Hörmətli qonaqlar. İcazə verin, Tacikistan Milli Universiteti Elmi Şurasının qərarını səsləndirim. Tacikistan Milli Universiteti Elmi Şurasının qərarı: «Universitetin Elmi Şurası universitetin rektorunun təqdimatını dinləyərək qərara alıb ki, Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru İlham Heydər oğlu Əliyevə diplom və mantiya təqdim edilməklə, Tacikistan Milli Universitetinin Fəxri doktoru adı verilsin».

Cənab İlham Heydər oğlu Əliyevə Tacikistan Milli Universitetinin Fəxri doktoru diplomu və universitetin Elmi Şurasının Fəxri üzvü mantiyası gətirilsin.

*Fəxri doktor diplomu və mantiyası Azərbaycan Respublikasının Prezidentinə təqdim olundu.*

Artıq İlham Heydər oğlu Əliyev Tacikistan Milli Universitetinin Fəxri doktoru və universitetimizin Elmi Şurasının Fəxri üzvüdür. Təbii ki, söz Fəxri doktorumuz, Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru İlham Heydər oğlu Əliyevə verilir. Buyurun.

*Dövlətimizin başçısı universitetin professor-müəllim heyəti və tələbələri qarşısında nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz dostlar!

İlk növbədə, Tacikistan Milli Universitetinə mənə bu universitetin Fəxri doktoru adı verilməsinə görə dərin təşəkkürümü bildirmək istərdim. Bu mənim üçün böyük şərəfdir və bunu təkcə mənim xidmətlərimə deyil, həm də ölkəmizə – Azərbaycana hörmət əlaməti hesab edirəm.

Yenidən qardaş Tacikistan torpağında olmağıma şadam. Bu sizin ölkənizə mənim ikinci rəsmi səfərimdir. Dostum, qardaşım Emoməli Şərifoviç də Azərbaycanda iki dəfə rəsmi səfərdə olub. Bu özlüyündə ölkələrimiz arasında münasibətlərin səviyyəsinin göstəricisidir.

Ölkələrimizi qədim tarixi əlaqələr bağlayır, xalqlarımız həmişə dost olub, bir-birini dəstəkləyib. Biz görkəmli əcdadlarımızla fəxr edirik. Tacikistanda Nizami Gəncəvinin yaradıcılığına böyük hörmətlə, diqqətlə yanaşılmasını biz Azərbaycanda çox yüksək qiymətləndiririk. Bu gün mənə böyük əcdadımızın qədim kitablarını nümayiş etdirdilər və mən bu imkandan istifadə etdim. İndi təsdiqləmək istəyirəm ki, Tacikistan Milli Universitetinin nümayəndə heyətini Azərbaycana, məhz Gəncə şəhərinə – böyük Nizaminin vətəninə gəlməyə, onun yaşadığı, yaratdığı və öz ölməz əsərlərini qələmə aldığı yerlərdə olmağa dəvət edirəm. Belə misallar çoxdur.

Bizi mədəniyyətimizin ümumiliyi, müştərək sivilizasiya, ortaq tarix birləşdirir. Sevindirici haldır ki, müstəqillik dövründə biz əməkdaşlığımızın bütün bu müsbət elementlərini nəinki qoruyub saxlamış, həm də əməkdaşlıq potensialını artırmışıq. Lakin bu gün həm geniş tərkibdə, həm də Tacikistan Prezidenti ilə təkbətək görüş və danışıqlar çərçivəsində biz qarşılıqlı maraq doğuran, münasibətlərimizin gələcək inkişafını təyin edəcək məsələlərin çox geniş dairəsi barədə fikir

mübadiləsi apardıq. Biz əməkdaşlığımızın potensialına eyni cür baxırıq və ölkələrimiz əlindən gələni etməlidir ki, əməkdaşlığımız daha da möhkəmlənsin, bir-birimizi dəstəkləyək, biznes qurumları səviyyəsində əlaqələr yaradaq, ölkələrimizdə həyata keçirilə biləcək layihələrə fəal qoşulaq. Başqa sözlə desək, uzun illər öncədən tamdəyərli əməkdaşlığı təmin edək. Bunun üçün baza var. Bu, xalqlarımızın qarşılıqlı rəğbəti, bizim ümumi tariximizi, tarixi keçmişimizi və bu gün əməkdaşlığı genişləndirmək, ölkələrimizi inkişaf etdirmək arzusudur.

Bu gün Tacikistan Prezidenti ilə söhbətdə mən onu və onun timsalında bütün Tacikistan xalqını ölkənizin müstəqillik illərində, xüsusən son dövrlərdə qazandığı uğurlar münasibətilə təbrik etdim. Mən bunu şəxsən söyləyə bilərəm, çünki 7 il bundan əvvəl Tacikistanda olmuşam və bu gün Düşənbədə həyata keçirilən dəyişikliklər, inkişaf, yeni binaların tikilməsi, Düşənbənin daha da gözəlləşməsi, istirahət zonalarının yaradılması, ictimai yerlərin abadlaşdırılması göz qabağındadır.

Sizin iqtisadi inkişaf dinamikanız çox yaxşıdır. Təbii ki, bunun əsasını cəmiyyətdə ictimai-siyasi həmrəylik, həm Tacikistanda, həm də Azərbaycanda xalqlarımızın çox yüksək qiymətləndirdiyi sabitlik təşkil edir. Çünki təəssüf ki, müstəqilliyin ilk illəri həm sizin, həm də bizim ölkədə çox mürəkkəb dövr idi, böyük məhrumiyyətlər vardı. Vətəndaş müharibəsi müharibələrin ən pisidir. Təəssüf ki, xalqlarımız bu ağır hal ilə üzləşdilər. Ona görə də bu gün Tacikistanın uğurlu inkişafı, əlbəttə, ilk növbədə ictimai-siyasi sabitlik və nəzərdə tutduqlarınızın hamısını reallaşdıracağınıza əminlik sayəsində mümkün olur. Biz dinamikanı bunda görürük. Çünki bu gün dünyada, Yer kürəsinin müxtəlif regionlarında bir-birinə tamam zidd olan proseslər gedir. İqtisadi və maliyyə böhranı davam edir. Bir sıra ölkələr hələ də böhrandan çıxmayıb. Bizim sərhədlərimizin yaxınlığında müharibələr alovlanır, sabitliyin pozulmasının, terrorizmin, radikalizmin yeni ocaqları yaranır. Belə şəraitdə əlverişli vəziyyət, yaxşı investisiya ab-havası

yaradılması, sosial məsələlərin uğurlu həlli, əlbəttə, ən yüksək qiymətə layiqdir.

Qardaş Tacikistan xalqını bu uğurlar münasibətilə bir daha təbrik etmək istəyirəm. Biz Azərbaycanda buna sevinirik və artıq qeyd etdiyim kimi, əməkdaşlıq üçün yeni layihələr hazırlamağa çalışırıq.

Siyasi sahədə bizim münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda da bir-birimizi dəstəkləyirik. Biz bir sıra beynəlxalq və regional təşkilatların üzvləriyik, hər yerdə – həm BMT-də, həm ATƏT-də, həm İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda bir-birimizi dəstəkləyir, bir-birimizin təşəbbüslərinə səs veririk. Beləliklə, münasibətlərimizi daha da möhkəmləndiririk.

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyimizi irəli sürəndə Tacikistan Azərbaycanı fəal dəstəklədi və biz 155 ölkənin səsi ilə bu yüksək yeri tutduq. Bizi dəstəkləyən bütün ölkələrə minnətdarıq. Biz bəyan etmişdik ki, həm özümüzü, həm də bütün dostlarımızı təmsil edəcəyik. Belə də oldu. Azərbaycan 2 il ərzində BMT Təhlükəsizlik Şurasının üzvü oldu, dünyanın bu ən mühüm qurumuna 2 dəfə başçılıq etdi.

Biz başqa beynəlxalq təşkilatlarda da fəal işləyirik. Hazırda Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinin sədridir. Bu da bizim üzərimizə böyük məsuliyyət qoyur. Biz həm İslam Əməkdaşlıq Təşkilatının və həm də Avropa Şurasının üzvü olan azsaylı ölkələrdən biriyik. Beləliklə, ümumilikdə 100-dən artıq ölkəni birləşdirən bu iki təşkilatda fəal iştirak edir və öz milli maraqlarımızı fəal qoruyuruq. Zənnimcə, bizi yaxınlaşdıran daha bir amil ondan ibarətdir ki, öz siyasətimizi milli maraqlarımıza əsaslanaraq yürüdürük. Biz müstəqil dövlətlərimizi xalqlarımızın milli mədəni dəyərləri əsasında qururuq. Bu hər bir ölkə və gələcək üçün təməldir.

Əlbəttə, əminəm ki, bizdə olduğu kimi, Tacikistanda da gənc nəsil vətənpərvərlik, Vətəninə sevgi ruhunda, milli ruhda böyüyür. Bu xüsusən indiki vaxtda, qloballaşma ilə əlaqədar

prosesl…ôrl…ô baƒülƒ± m√º…ôyy…ôn t…ôhl√ºk…ôl…ôr olduƒüu vaxtda √ßox vacibdir. Prosesl…ôr …ôsas…ôn g…ônc n…ôsli …ôhat…ô edir. Buna g√∂r…ô bizim g…ôncl…ôr √∂z √∂lk…ôsin…ô, √∂z xalqƒ±na baƒülƒ± olmalƒ±, V…ôt…ôni sevm…ôli v…ô milli ruhda t…ôrbiy…ô olunmalƒ±dƒ±r. ∆èlb…ôtt…ô, biz b√ºt√ºn d√ºnya √º√ß√ºn a√ßƒ±ƒüƒ±q, biz b√ºt√ºn d√ºnya il…ô …ôm…ôkda≈ülƒ±q edirik.

Rektorun artƒ±q qeyd etdiyi kimi, Az…ôrbaycan sivilizasiyalarƒ±n dialoqu, m…ôd…ôniyy…ôtl…ôrarasƒ± dialoq sah…ôsind…ô √ßox i≈ü g√∂r√ºr v…ô artƒ±q m√ºnt…ôz…ôm olaraq d√∂rd√ºnc√º d…ôf…ô ke√ßiril…ôn Bakƒ± Humanitar Forumu …ôsas…ôn multikulturalizm il…ô baƒülƒ± m…ôs…ôl…ôl…ôr…ô h…ôsr edilib. Odur ki, burada bizim √ßox yax≈üƒ± t…ôcr√ºb…ômiz var. T…ôbii ki, bizim d√∂vl…ôtimizin …ôsasƒ± v…ô g…ôl…ôc…ôk uƒüurlarƒ±mƒ±zƒ±n r…ôhni xalqƒ±mƒ±zƒ±n …ôn…ôn…ôvi d…ôy…ôrl…ôrin…ô arxalanmaƒüƒ±mƒ±zdƒ±r. Biz bu d…ôy…ôrl…ôri qoruyub saxlamalƒ±, m√∂hk…ôml…ôtm…ôliyik, yeni, g…ônc n…ôsil d…ô bu ruhda t…ôrbiy…ô olunmalƒ±dƒ±r.

Az…ôrbaycanƒ±n xarici siyas…ôtind…ôn danƒ±≈üark…ôn qeyd etm…ôk ist…ôrdim ki, biz √ßox f…ôal xarici siyas…ôt y√ºr√ºd√ºr√ºk. Biz yalnƒ±z √∂z milli maraqlarƒ±mƒ±za …ôsaslanaraq m√ºst…ôqil xarici siyas…ôt y√ºr√ºd√ºr√ºk v…ô beyn…ôlxalq t…ô≈ükilatlarda milli maraqlarƒ±mƒ±zƒ± m√ºdafi…ô edirik. Bu g√ºn bunun √º√ß√ºn kifay…ôt q…ôd…ôr imkanƒ±mƒ±z var. Biz h…ôm d…ô √ßalƒ±≈üƒ±rƒ±q ki, beyn…ôlxalq t…ô≈ükilatlar √∂z n√ºfuzlarƒ±nƒ± itirm…ôsin. Bu is…ô …ôg…ôr h…ômin t…ô≈ükilatlarƒ±n q…ôbul etdikl…ôri q…ôrarlar yerin…ô yetirilmirs…ô, yaxud bir halda yerin…ô yetirilib, ba≈üqa halda yerin…ô yetirilmirs…ô, ba≈ü ver…ô bil…ôr. Biz bununla √ºzl…ô≈ümi≈üik v…ô √∂z√ºm√ºz…ô m√ºnasib…ôtd…ô …ôdal…ôtsizliyi m√º≈üahid…ô edirik. Biz g√∂r√ºr√ºk ki, BMT T…ôhl√ºk…ôsizlik ≈ûurasƒ±nƒ±n q…ôrarlarƒ± b…ôzi hallarda 1 g√ºn …ôrzind…ô yerin…ô yetirilir, amma bizim ba≈ülƒ±ca problemimizin ‚Äì Erm…ônistan‚ÄìAz…ôrbaycan m√ºnaqi≈ü…ôsinin t…ônziml…ônm…ôsi il…ô baƒülƒ± bel…ô q…ôrarlar 20 ild…ôn √ßoxdur ki, kaƒüƒ±z √ºz…ôrind…ô qalƒ±r. BMT T…ôhl√ºk…ôsizlik ≈ûurasƒ±nƒ±n erm…ôni i≈üƒüal√ßƒ± q√ºvv…ôl…ôrinin Az…ôrbaycan …ôrazil…ôrind…ôn d…ôrhal v…ô qeyd-≈ü…ôrtsiz √ßƒ±xarƒ±lmasƒ±nƒ± t…ôl…ôb ed…ôn 4 q…ôtnam…ôsi 20 ild…ôn √ßoxdur q…ôbul edilib. Lakin h…ômin q…ôtnam…ôl…ôr yerin…ô yetirilmir v…ô i≈üƒüal√ßƒ± √∂lk…ônin bu q…ôtnam…ôl…ôri icra etm…ôsi √º√ß√ºn ona lazƒ±mi t…ôzyiq g√∂st…ôrilmir. Bu …ôdal…ôtsizlikdir. Bu, ikili standartlarƒ±n t…ôzah√ºr√ºd√ºr. T…ô…ôss√ºf ki, bel…ô hallarla getdikc…ô daha tez-tez √ºzl…ô≈üirik. B…ôz…ôn el…ô

təsəvvür yaranır ki, ikili standartlar artıq beynəlxalq münasibətlərin normasıdır. Lakin belə olmamalıdır. Ona görə ki, müasir dünya quruluşunun, dünya nizamının əsasını təşkil edən fundamental prinsiplər mövcuddur. Bu, ölkələrin ərazi bütövlüyünə hörmət, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsidir. Əgər bu qərarlar yerinə yetirilmirsə, deməli, həmin qərarları həyata keçirə bilməyən təşkilatlar nüfuzdan düşür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bizim ərazilərimizin 20 faizi – Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və digər rayonlar işğal altındadır. Bu hadisə keçən əsrin 90-cı illərinin əvvəllərində baş verib. İşğal nəticəsində bizdə 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bizə qarşı etnik təmizləmə aparılıb. ATƏT monitorinq məqsədilə 2 dəfə öz nümayəndə heyətlərini işğal edilmiş ərazilərə göndərib və hər 2 dəfə onların məruzələrində yazılıb ki, hər şey – bütün şəhərlər, bütün kəndlər, bizim bütün tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz qarət edilib, məscidlərimiz təhqir edilib. Bunları hansısa yadplanetlilər deyil, bizimlə qonşuluqda, bizim torpağımızda yaşamış, bizim çörəyimizi yemiş, Azərbaycanın bütün imtiyazlarından istifadə etmiş, lakin müəyyən anda, belə demək mümkündürsə, bizə arxadan atəş açmış adamlar ediblər.

Münaqişənin tənzimlənməsi təkcə xarici siyasətimizin deyil, bütövlükdə siyasətimizin başlıca məsələsidir. Biz münaqişənin beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində və bu gün Tacikistan Prezidenti ilə imzaladığımız Birgə Bəyannamədə əks olunduğu kimi, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalı olduğunu görən bütün ölkələrə minnətdarıq. Bu mövqedir, qardaşlıq, dostluq mövqeyidir. Eyni zamanda, beynəlxalq hüquqa əsaslanan mövqedir.

İşğalın ağır nəticələrinə baxmayaraq, biz ölkəmizi inkişaf etdirmək üçün özümüzdə güc tapdıq. Son illərdə Azərbaycan fəal inkişaf edib. İqtisadi sahədə həyata keçirilmiş çox səmərəli

islahatlar birinci mərhələdə xarici kapitalı cəlb etməyə, yaxşı investisiya şəraiti, habelə biznes fəaliyyəti üçün əlverişli mühit yaratmağa imkan verdi. Dünən Tacikistan–Azərbaycan biznes-forumu keçirildi. Həmin forumda əmtəə dövriyyəsinin artırılması və bir sıra iqtisadi məsələlərin həlli üçün konkret addımlar nəzərdə tutulub. Biz Azərbaycanda iqtisadi inkişafın əsas istiqamətləri – islahatlar, biznes mühitinin, investisiya şəraitinin yaxşılaşdırılması, habelə enerji, nəqliyyat və ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün fəal iş aparmışıq və aparırıq. Hesab edirik ki, bunlar sərhədlərimizin sırf təhlükəsizliyi məsələləri ilə yanaşı, həm də ölkənin milli təhlükəsizliyini formalaşdıran əsas elementlərdir.

Biz neft və qaz ehtiyatlarının işlənilməsinə xarici sərmayələr cəlb etməklə, enerji təhlükəsizliyi məsələsini tam həll etməyi qərara almışıq. Bu gün biz artıq mövcud olan və tikilməsi planlaşdırılan neft-qaz kəmərləri vasitəsilə təbii ehtiyatların nəqlini tamamilə şaxələndirmişik. Azərbaycanda hasil edilən nefti və qazı bütün istiqamətlər üzrə nəql edən 7 kəmər var. Odur ki, biz öz ehtiyatlarımızın nəqlinin şaxələndirilməsini təmin etmişik. Eyni zamanda, neft və qaz hasilatının artırılması üzərində işləyirik.

Keçən ay icrasına başlanılmış layihə artıq XXI əsrin layihəsi adı alıb. Bu, dünyada ən iri qaz yatağı olan «Şahdəniz» yatağının işlənilməsi, bu gün Azərbaycan qazından istifadə etmək imkanı olmayan bir sıra ölkələrə həmin qazı çatdıracaq «Cənub Qaz Dəhlizi»nin tikilməsi layihəsidir.

Beləliklə, Azərbaycanın enerji təhlükəsizliyi təmin olunub. Biz qonşularımızın da enerji təhlükəsizliyini təmin edirik. Fikrimizcə, təbii ehtiyatlara malik olan ölkələr bu cür ehtiyatlara malik olmayan bütün ölkələrə güzəştli qiymətlərlə, lazım olan vaxtda kömək etməlidir. Çünki biz adada yaşamırıq, bir-birimizin əhatəsində yaşayırıq. Buna görə qonşularla yaxşı münasibətlər olmalıdır. Biz buna çalışırıq və gücümüz daxilində kömək edirik. Əgər bizə kömək lazım olsa, biz də qonşularımızdan kömək gözləyirik və adekvat münasibət

görürük. Buna görə gələcəkdə enerji təhlükəsizliyi ölkələrin inkişafının, iqtisadi inkişafın daha mühüm amili olacaq və siyasi təhlükəsizliyi təmin edəcəkdir.

Biz ərzaq təhlükəsizliyi ilə bağlı məsələləri də fəal həll edirik. Məqsədimiz Azərbaycanı, öz əhalimizi əsas ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Ona görə ki, ərazimiz o qədər böyük olmasa da, biz praktiki olaraq bütün kənd təsərrüfatı bitkilərini yetişdiririk. Buna görə istehsalın artırılması və özünütəminetmə bizim əsas məqsədlərimizdən biridir. Biz artıq buna yaxınıq və kənd təsərrüfatı məhsullarının, inşaat materiallarının və digər malların artıq ixracatçısına çevrilmişik.

Şübhəsiz, nəqliyyat təhlükəsizliyi də yüksək səviyyədə təmin edilməlidir. Bizim coğrafi mövqemiz əlverişlidir. Allah bizə gözəl torpaq, yaxşı iqlim, mənzərəli təbiət bəxş edib və yerləşdiyimiz məkan birbaşa Avropa ilə Asiyanın arasındadır. Tarixi İpək yolu bizim ərazimizdən keçib. Biz bu tarixi İpək yolunu müasir infrastrukturla bərpa edirik. Bu gün biz ölkəmizin nəqliyyat təhlükəsizliyini təmin edəcək, Azərbaycanı şimal və cənub qonşularımız üçün tranzit ölkəyə çevirəcək Şimal–Cənub layihəsində fəal iştirak edir, həmçinin Şərq–Qərb layihəsinə, böyük İpək yoluna fəal sərmayə yatırırıq.

Keçən ay biz Xəzər dənizində ən iri – yükaşırma qabiliyyəti 25 milyon ton olan limanın birinci xəttini istifadəyə verdik. Birinci xətt istifadəyə verilib, 2 ildən sonra limanın tikintisi tamamilə başa çatdırılacaq. Yaxın illərdə Azərbaycanı, Gürcüstanı və Türkiyəni birləşdirəcək, beləliklə, Asiya ilə Avropanı əlaqələndirəcək dəmir yolunun tikintisi başa çatacaq. Bu gün biz Prezidentlə Tacikistanın da bu yola qoşulması məsələsini müzakirə etdik. Bu, Asiyadan Avropaya, Avropadan Asiyaya ən qısa yol olacaq. Biz bu infrastruktura fəal sərmayə qoyuruq ki, tranzit hesabına əlavə maliyyə daxilolmaları təmin edilsin. Bundan əlavə, əlbəttə, həmin dəmir yolu istifadəyə veriləndən sonra ölkəmizin əhəmiyyəti xeyli artacaq. Çünki ölkəmizin ərazisindən çox böyük həcmdə yük axınları keçəcək.

Bir sözlə, yeni İpək yolu əslində gerçəkləşir, biz bütün qonşularımızı – həm yaxın, həm də uzaq qonşularımızı, dostlarımızı, Tacikistan tərəfini də bu layihələrdə fəal iştirak etməyə çağırırıq. Bu gün biz Düşənbə ilə Bakı arasında birbaşa aviareysin bərpa olunması məsələsini də müzakirə etdik. Bu, ölkələrimizin daha da yaxınlaşması üçün çox yaxşı səmərə verəcək, Bakıdan keçməklə Avropaya, artıq indi Amerikaya səfərlər asanlaşacaq. Biz Azərbaycandan Amerikaya birbaşa reys açmışıq. Beləliklə, enerji, nəqliyyat və ərzaq təhlükəsizliyi fəaliyyətimizin əsas istiqamətləridir.

Əlbəttə, bununla yanaşı, biznesin inkişafına çox böyük diqqət yetiririk, güzəştli kreditlər, subsidiyalar və fermerlər üçün güzəştlər vasitəsilə sahibkarlığın inkişafını stimullaşdırırıq, iqtisadiyyatımızın qeyri-neft sektorunda istehsalın artırılmasına nail oluruq. Bu, başlıca məqsəd idi. Neftdən və qazdan asılılığı azaltmaq üçün bizə yeni iş yerləri yaratmaq lazımdır. Həm Tacikistanda, həm də Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır. Yəni ölkələrimizin əhalisi artır. Bu bizi çox sevindirir. Bu, ölkələrimizin potensialını gücləndirir. Lakin eyni zamanda, bu, qarşımızda yeni vəzifələr qoyur. Çünki biz iqtisadiyyatın səviyyəsini yüksəltməli və onu əhalinin artımına uyğunlaşdırmalıyıq. Bizim ölkədə vətəndaşların sayı hər il 100 min nəfər artır. Təbii ki, bu, daimi iş aparılmasını tələb edir. Biz əldə edilmiş nailiyyətlərlə arxayınlaşmamalıyıq. Biz daim sərmayə qoymalı, yeni iş yerləri, yeni istehsalatlar yaratmalı, davamlı inkişafı təmin etmək üçün yeni ixrac bazarları axtarmalıyıq.

Bu gün biz buna nail olmuşuq. Dünyada ən nüfuzlu iqtisadi institutun – Davos İqtisadi Forumunun qiymətləndirməsinə görə Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 38-ci yerdədir. Biz dünyanın rəqabətə ən davamlı nəinki ilk 50, hətta ilk 40 ölkəsi sırasındayıq. Biz işsizliyi, yoxsulluğu azaltmışıq, bir sıra sosial məsələləri həll etmişik. Lakin buna baxmayaraq, artıq dediyim kimi, biz dayana bilmərik. Biz daim fəal işləməliyik ki, ölkəmizi daha da möhkəmləndirək, müsbət demoqrafik potensialdan maksimum istifadə edək.

Bilirik ki, çox ölkələr əhalinin sayının azalması ilə bağlı problemlərlə üzləşir. Bu, təbii prosesdir. Çünki doğum göstəricisi azalır. Həmçinin bəzi ölkələr, o cümlədən bizim qonşuluğumuzdakı ölkələr miqrasiya ilə bağlı problemlərlə üzləşir. Yəni əhali ölkəni daim tərk edir və bu, əlbəttə, böyük problemlər yaradır, gələcəkdə də yaradacaqdır. Bizim ölkələr məhz bu mənada müsbət dinamikaya malikdirlər və bu, ölkələrimizi yalnız möhkəmləndirəcək və xalqlarımız üçün yeni imkanlar yaradacaqdır.

Əlbəttə, mən Azərbaycan haqqında çox danışa bilərəm, çünki bizim son illərdə gördüyümüz işləri bir qısa mühazirədə əhatə etmək çətindir. Bu gün ali məktəbdə olduğumdan, sonda onu da demək istərdim ki, biz təhsil sahəsində də çox iş görürük. Ona görə ki, bu, gələcək inkişafın əsasıdır.

Mən Azərbaycanda rəsmi tədbirlərdə dəfələrlə demişəm və indi də demək istəyirəm ki, ölkənin uğurunu müəyyən edən enerji ehtiyatları deyil, onun intellektual potensialıdır. Ölkəni tərəqqiyə doğru aparan kadrların, mütəxəssislərin hazırlanması, təhsilin, elmin inkişafıdır. Sadəcə, haqlı olaraq inkişaf etmiş dövlətlərə nəzər salmaq kifayətdir. Bir qayda olaraq, həmin ölkələrdə neft və qaz yoxdur, orada elmi potensial var. Elmə sərmayə qoyulması enerji ehtiyatlarından daha artıq səmərə verir. Ona görə ki, hər bir elmi kəşf sonradan praktikada əksini tapır, sənayedə tətbiq edilir, yeni iş yerləri, yeni texnologiyalar, yüksək izafi dəyərə malik olan yeni məhsullar yaradır. Bu, bəşəriyyəti irəliyə aparır. Biz də bu ölkələr sırasında olmalıyıq.

Əlbəttə, real danışsaq, bu gün Azərbaycanın dünya elminin inkişafını müəyyən edəcəyini gözləmək çətindir. Lakin bizim elə hazırlıqlı mütəxəssislər təbəqəmiz olmalıdır ki, biz dünyada ən qabaqcıl texnologiyaları ləngimədən özümüzdə tətbiq edə bilək. Ona görə bu sahəyə – təhsil və elm sahəsinə investisiyalar bizim üçün prioritet məsələlərdən biridir.

Biz bu sahəyə çox sərmayə qoymuşuq. Son 10 ildə Azərbaycanda 3 minə yaxın məktəb binası tikilib və ya təmir edilib. Bizdə cəmi 4500 məktəb var, yəni məktəblərin çox hissəsi

yenidən tikilib. Bu proses davam edir. Lakin tikinti ilə yanaşı, keyfiyyət də lazımdır. Mənim fikrimcə, burada bizim təhsil müəssisələri arasında əlaqələri nizamlamaq və daim bilik mübadiləsini təmin etmək, tələbələri təhsil almağa göndərmək lazımdır. Ümumiyyətlə, gənclər daha çox ünsiyyətdə olmalıdırlar ki, bizim malik olduğumuz və qiymətləndirdiyimiz əlaqələr itirilməsin, çünki bizim nəsil Tacikistanın və Azərbaycanın bir ölkə tərkibində olduğu dövrdə doğulub və böyüyüb.

Sizin nəsliniz xoşbəxt nəsildir. Çünki siz müstəqil dövlətdə dünyaya göz açıb yaşayırsınız. Bu, böyük xoşbəxtlikdir. Çoxları bəlkə də dərk etmir ki, bu necə böyük xoşbəxtlikdir. Bunu dərk etmək üçün bizim təcrübəmiz lazımdır, bizim yaşadığımız ölkədə öz dövlətçiliyimiz yox idi. Bizim beynəlxalq təşkilatlarda yerimiz yox idi. BMT-də bizim bayrağımız yox idi və biz fikirləşirdik, nə üçün bizim öz dövlətimiz yoxdur? Ən böyük ədalət ondan ibarətdir ki, bu gün bizim öz dövlətlərimiz var və bu, məhz gənclərin, o cümlədən bizim də böyük xoşbəxtliyimizdir.

Lakin bir məsələ var ki, gənc nəsil öz aralarında – mən bizim ölkələrimizi nəzərdə tuturam – bizim nəsil kimi ünsiyyət saxlamır. Buna görə tələbə təşkilatları və universitetlər, institutlar arasında birbaşa əlaqələri – sadəcə, səfərləri, ünsiyyəti, təcrübə mübadiləsini, təhsili tənzimləmək lazımdır. Ölkələrimizi bir-birinə daha çox yaxınlaşdırmaq üçün nə mümkündürsə etmək lazımdır.

Mən sizin gözəl ölkənizə bu niyyətlərlə gəlmişəm və həmkarımla bu istiqamətdə fəal işləyirik. Ümidvaram ki, bizim təşəbbüsümüz gənclərə də sirayət edəcək və siz də əlaqələrimizin möhkəmlənməsi naminə azərbaycanlı yaşıdlarınızla işləyəcəksiniz.

Mənə verdiyiniz yüksək ada görə bir daha təşəkkür edirəm. Bütün Tacikistan xalqına sülh və firavanlıq diləyirəm. Sağ olun.

* * *

Universitetin rektoru Mahmaisuf İmomov dərin məzmunlu nitqinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı universitetin Xatirə kitabına ürək sözlərini yazdı.

# TACİKİSTAN RESPUBLİKASI PARLAMENTİNİN AŞAĞI PALATASININ SƏDRİ ŞÜKÜRCON ZUXUROV İLƏ GÖRÜŞ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistan parlamentinin aşağı palatasının sədri Şükürcon Zuxurovla görüşmüşdür.*

*Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi, ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində parlamentlərin rolunun əhəmiyyəti vurğulandı. Bildirildi ki, dərin tarixi və mədəni əlaqələrə malik olan Azərbaycan ilə Tacikistan dost və tərəfdaş ölkələrdir. Vurğulandı ki, ölkələrimizin daha da yaxınlaşmasında ümummilli lider Heydər Əliyevin böyük xidmətləri olub. Səfər çərçivəsində Azərbaycan və Tacikistan prezidentlərinin imzaladıqları Birgə Bəyannamənin əməkdaşlığın daha da dərinləşdirilməsinə böyük töhfə verəcəyi ifadə edildi.*

## TACİKİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KOXİR RASULZODA İLƏ GÖRÜŞ

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistanın Baş naziri Koxir Rasulzoda ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin perspektivləri haqqında fikir mübadiləsi aparıldı. Azərbaycan prezidenti İlham Əliyevin bu səfərinin əlaqələrimizin daha da dərinləşdirilməsində böyük rol oynayacağı qeyd olundu. Səfər çərçivəsində imzalanan sənədlərin ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsinə töhfə verəcəyi vurğulandı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Düşənbə*

*16 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tərəfindən onun şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Tacikistan prezidenti Emoməli Rəhmonun çıxışı

Əziz dostlar!

Xanımlar və cənablar!

Mənim dostum, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevi və qardaş Azərbaycanın nüfuzlu nümayəndə heyətini bir daha salamlamaqdan çox məmnunam.

Hörmətli İlham Heydər oğlunun səfəri çərçivəsində biz məzmunlu və konstruktiv söhbət etdik. Bu söhbətin gedişində qarşılıqlı əlaqələrimizi daha yüksək səviyyəyə çatdırmaq yollarını araşdırdıq. Azərbaycan Respublikası bizim dövlətimizin beynəlxalq əlaqələrinin strukturunda mühüm yer tutur. Ölkələrimizin beynəlxalq və regional xarakterli bir sıra məsələlərə dair mövqelərinin üst-üstə düşməsi, beynəlxalq və regional təşkilatlarda həm Azərbaycanın, həm də Tacikistanın konseptual yanaşmaları Tacikistan–Azərbaycan

münasibətlərinin daha dinamik və ardıcıl inkişafına şərait yaradır.

Tacikistan–Azərbaycan münasibətlərinin ən yeni tarixi ölkələrimizin seçdiyi, xoş niyyətlərə və faydalı tərəfdaşlıq prinsiplərinə əsaslanan uzunmüddətli və səmərəli qarşılıqlı fəaliyyət xəttinin düzgün olmasını sübut edib. Bu gün biz bir sıra mühüm sənədlər imzalamaqla, mövcud müqavilə-hüquq bazasını möhkəmlətdik və beləliklə, daha sıx əməkdaşlıq əzmində və qətiyyətində olduğumuzu bir daha ifadə etdik. Mən həmçinin ümidvar olduğumu bildirmək istəyirəm ki, biz öz mədəni-tarixi köklərimizə söykənməklə, birgə səylərimizlə dost xalqlarımızın rifahı naminə nəzərdə tutulan hədəflərə, qarşılıqlı faydalı əməkdaşlığa nail ola biləcəyik.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Emoməli Şərifoviç!

Hörmətli dostlar!

Mənim rəsmi səfərim sona yaxınlaşır. Hörmətli Emoməli Şərifoviç, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Sizin gözəl torpağınıza qədəm qoyduğumuz ilk andan biz özümüzü evimizdə olduğu kimi hiss edirik. Bu gün çox zəngin və məhsuldar oldu. Siz qeyd etdiyiniz kimi, biz Sizinlə birlikdə münasibətlərimizin geniş gündəliyini müzakirə etdik. Ətrafımızda baş verən hadisələri çox obyektiv təhlil etdik, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair olduqca səmimi fikir mübadiləsi apardıq. İşimizin başlıca nəticəsi ondan ibarətdir ki, biz münasibətlərimizin konkret inkişaf yollarını müəyyən etdik. Bizim çox gözəl siyasi münasibətlərimiz var, beynəlxalq qurumlarda fəal əməkdaşlıq edirik, bütün prinsipial məsələlərdə bir-birimizi dəstəkləyirik. Bununla bərabər, əlbəttə, iqtisadi sahədə də işləri fəallaşdırmalıyıq və hökumətlərarası Komissiyanın işi çərçivəsində qəbul edilmiş qərarlar tezliklə öz müsbət nəticəsini verəcək.

Bizim əməkdaşlığımız xalqlarımızın ümumi tarixinə, çoxəsrlik dostluğuna söykənir. Bu gün bizim ölkələrimiz iki müstəqil dövlətdir, beynəlxalq birliyin fəal üzvləridir, öz müstəqil siyasəti, xarici siyasəti olan, regional təhlükəsizliyin möhkəmləndirilməsi üçün fəal iş aparan ölkələrdir. Düşünürəm ki, Mərkəzi Asiya, Xəzər, Qafqaz regionları arasında əməkdaşlıq da çox cəhətdən bizim ölkələrin qarşılıqlı fəaliyyətindən, səylərimizin sıx əlaqələndirilməsindən asılı olacaq. Çünki bizim hamımızın bir məqsədi var – insanlarımızın, vətəndaşlarımızın həyatını daha da yaxşılaşdırmaq, ölkələrimizin müstəqilliyini, beynəlxalq mövqelərini möhkəmləndirmək.

Biz beynəlxalq həyatın mühüm məsələlərini çox səmimi şəraitdə müzakirə etdik, baxışlarımız üst-üstə düşür. Biz konstruktiv əməkdaşlığa istiqamətlənmişik. Biz əməkdaşlıq, dialoq, qarşılıqlı kömək yolu ilə daha çox nailiyyətlər qazana bilərik. İkitərəfli münasibətlərimizdə həll edilməmiş heç bir məsələ yoxdur. Əksinə, yeni layihələrə qoşulmaq, müxtəlif sahələrdə səylərimizi, potensialımızı birləşdirmək istəyi var.

Humanitar əməkdaşlıq bizim münasibətlərin əsasını təşkil edir. Mən bu gün Tacikistan Milli Universitetində tələbələrə, professor-müəllim heyətinə müraciət edəndə də humanitar əməkdaşlığın vacib olmasından danışdım. Bizim bu istiqamətdə böyük potensialımız var. Eyni zamanda, biz çalışırıq ki, ölkələrimizin gənc nəsli də bizim kimi möhkəm dostluq etsin.

Əminəm ki, nümayəndə heyətinin üzvləri və nazirlər də prezidentlərdən, bizim bir-birimizə münasibətimizdən, bir-birimizə hörmətimiz və dostluğumuzdan nümunə götürəcəklər. Emoməli Şərifoviç ilə bütün beynəlxalq tədbirlərdə görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu il bir neçə dəfə görüşmüşük. Hər dəfə görüşəndə həmişə bir-birimizə qardaş kimi müraciət edirik. Bu isə münasibətlərimizə, həmçinin öz iş yerində – istər hökumətdə, istər parlamentdə, istərsə də ictimai strukturlarda mühüm məsələləri həll edənlərin hamısına çox yaxşı impuls verir.

Mən səfərin nəticələrindən çox məmnunam. İmzalanmış Bəyannamə münasibətlərimizin gələcək inkişafını müəyyən

edəcək çox mühüm siyasi sənəddir. Başqa sənədlər də çox vacibdir. Biz gələcəyə nikbin baxırıq.

Hörmətli prezident Emoməli Şərifoviç, fürsətdən istifadə edərək, Sizin üçün münasib olan istənilən vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istərdim.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına rəsmi səfəri oktyabrın 16-da başa çatmışdır.*

*Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Tacikistan dövlətinin başçısı Emoməli Rəhmon yola saldı.*

## «BAKI–TBİLİSİ–QARS DƏMİR YOLU XƏTTİ– İPƏK YOLU DƏHLİZİNİN İNKİŞAFINDA YENİ İMKANLAR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakı şəhərində salamlayır və «Bakı–Tbilisi–Qars dəmir yolu xətti – İpək yolu dəhlizinin inkişafında yeni imkanlar» Beynəlxalq Konfransının öz işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik Azərbaycan nəqliyyat xidmətlərini inkişaf etdirir, müasir infrastrukturlar qurur, daşımaların idarə olunması mexanizmini təkmilləşdirir və beynəlxalq nəqliyyat sisteminə inteqrasiyanı genişləndirir.

Yaxınlarda Bakı–Tbilisi–Qars dəmir yolu xətti istifadəyə veriləcəkdir. İqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam uyğun olan bu dəmir yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması deməkdir. Həmin xətt öz növbəsində multimodal nəqliyyat imkanlarını genişləndirəcək, eləcə də sərnişin və yükdaşımalarının həcminin artmasını təmin edəcəkdir.

Beynəlxalq standartlar səviyyəsində Yeni Bakı Beynəlxalq Dəniz Limanı Kompleksinin bərə terminalı bu günlərdə artıq fəaliyyətə başlamışdır. Növbəti ildə liman istismara tam hazır olacaq və onun yükaşırma qabiliyyəti mərhələlərlə il ərzində 25 milyon tona və 1 milyon konteynerə çatdırılacaqdır.

Belə infrastrukturların qurulması böyük İpək yolu marşrutu üzrə Asiya ilə Avropa arasında ticarət və tranzit daşımalarının inkişafına, eləcə də Xəzər regionunun nəqliyyat və tranzit potensialının daha səmərəli istifadəsinə töhfədir.

Müxtəlif ölkələrin və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə keçirilən konfransınız nəqliyyata dair aktual məsələlərin ətraflı müzakirəsi, habelə işgüzar əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi üçün geniş imkan yaradır.

Ümidvaram ki, konfransda aparılacaq müzakirələr Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafına, beynəlxalq və regional səviyyədə yeni təşəbbüslərin irəli sürülməsi və gerçəkləşdirilməsinə təşviq edəcəkdir.

Hamınıza cansağlığı və ölkələrinizin əmin-amanlığı, rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2014-cü il*

## DAŞKƏSƏN RAYONUNA SƏFƏR

*17 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Daşkəsən rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ümummilli lider Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.*

*Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Azərbaycan Prezidentinə burada görülən abadlıq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişlər.*

*Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə respublikamızda çox mühüm tədbirlər görülür. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür. İndi bu cür mərkəzlər paytaxtla yanaşı, bölgələrdə də inşa olunur. Bu mərkəzlərdən biri də Daşkəsən rayonunda tikilib.*

*Bu Mərkəz Daşkəsənin görkəminə xüsusi gözəllik verir. Mərkəzdəki foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən yüksəliş mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun*

*artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.*

*Mərkəzin birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Buradakı ekspozisiya zalında ulu öndərin həyat və fəaliyyəti ilə bağlı sənədlər böyük maraq doğurur. Fotostendlərdə ümummilli liderin uşaqlıq, yeniyetməlik, tələbəlik, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövr, hakimiyyətdə olduğu illərdə bölgələrə etdiyi səfərlər əks olunub. Bu fotolardan da görünür ki, ümummilli lider hər zaman əhalinin rifahını diqqət mərkəzində saxlayıb. Onun regionlara səfərlərinin də əsas məqsədi ölkəmizdəki inkişafı hər bir soydaşımızın həyatına daxil etmək idi. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixinin intensiv inkişaf mərhələsi olub. Respublikamızda mükəmməl idarəçilik məktəbini yaradan Heydər Əliyevin görkəmli ictimai-siyasi xadim kimi tanınmasında onun Azərbaycana, ölkəmizin timsalında regiona, nəticə etibarilə dünyaya sülh, sabitlik, davamlı inkişaf və harmoniya gətirməklə gördüyü böyük işlər mühüm rol oynayıb.*

*Məlumat verildi ki, Mərkəzdə gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönələn kurslar təşkil ediləcək. Bunun üçün internet sinfi, elektron kitabxana və kompüter mərkəzi qurulub. Məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər də mövcuddur. Burada, həmçinin rəsm studiyası və xalçaçılıq kursları da fəaliyyət göstərəcək.*

**Daşkəsən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Daşkəsən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olmuşlar.*

*Son illərdə Azərbaycanın bütün bölgələri sürətli inkişaf dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yaxşılaşır. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılır. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada son illərdə Daşkəsən rayonunda görülən işlər də diqqəti cəlb edir.*

*Rayonda icra hakimiyyəti üçün yeni tikilən inzibati binada yaradılan şərait bir məqamı təsdiqləyir ki, ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi daim diqqət mərkəzindədir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan həmin bina Daşkəsənin görkəminə də xüsusi gözəllik verir. 3 mərtəbədən ibarət bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binadakı otaqların hamısı müasir tələblər səviyyəsində qurulub.*

*Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Fotoguşələrdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Daşkəsən rayonunda müxtəlif tədbirlərdə iştiraklarını əks etdirən şəkillər də böyük maraq doğurur.*

*Dövlətimizin başçısı otaqlarda yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, otaqların hamısı müasir tələblər səviyyəsində qurulub, burada bütün texniki imkanlar yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan yaradır.*

*Akt zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Binada kitabxana, iclas və konfrans zalları var. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun bütün icra nümayəndəlikləri şəbəkəyə qoşulub. İcra hakimiyyətinin binası eyni zamanda, şəhərin simasına yeni görkəm verir. Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb.*

*Prezident İlham Əliyev əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Yeni Avtovağzal Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Daşkəsəndə yeni Avtovağzal Kompleksinin açılışında iştirak etmişlər.*

*Azərbaycan Prezidentinin yürütdüyü siyasətin mühüm hədəflərindən biri də ölkəmizin hər yerində yol-nəqliyyat sisteminin müasirləşdirilməsidir. Bu sırada yeni yaradılan avtovağzalların da xüsusi rolu var. Yeni və müasir səviyyədə inşa edilən bu nəqliyyat obyektlərinin sırasına daha biri əlavə olunub. Daşkəsəndə tikilən yeni avtovağzal ən müasir tələblər səviyyəsindədir.*

*Prezident İlham Əliyev avtovağzalın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müasir memarlıq üslubunda inşa olunan avtovağzalın tikinti sahəsi 500 kvadratmetrdir. Ərazisi 1 hektara yaxın olan Avtovağzal Kompleksinin tikintisinə 2013-cü ilin martında başlanılıb və bu ilin oktyabrında başa çatdırılıb.*

*Qeyd olundu ki, binada sərnişinlərin istirahəti üçün lazımi şərait yaradılıb. Burada ulu öndər Heydər Əliyevin və prezident*

*İlham Əliyevin ölkəmizdə nəqliyyat sisteminin inkişafı naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb.*

*Avtovağzalın gözləmə salonunda hər cür imkanlar mövcuddur. Burada ana və uşaq otağı da var. Kompleksdə sərnişinlərin əşyalarının saxlanması üçün kameralar yaradılıb. Dispetçer otağı da yüksək səviyyədə xidmət üçün müvafiq şəraitə malikdir.*

*Daşkəsəndə son illər görülən işlər buraya turistlərin axınını sürətləndirib. Yeni avtovağzalın inşası isə rayona gələn turistlərin də rahatlığını təmin edəcək.*

*Dövlətimizin başçısı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak etmişlər.*

*Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalıb. 2005–2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət Proqramı bu proseslərdə çox mühüm rol oynayıb. Hazırda həyata keçirilən «Azərbaycan Gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır.*

*Ölkəmizdə artıq gənclər siyasəti ilə bağlı müxtəlif beynəlxalq tədbirlər də keçirilir. Oktyabrın 28–30-da Bakıda keçiriləcək Gənclər Siyasəti üzrə I Qlobal Forum bunun əyani sübutudur. Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi çərçivəsində baş tutacaq tədbirdə dünyanın 160 ölkəsindən parlament nümayəndələrinin, gənclər siyasətinə məsul şəxslərin, gənclər təşkilatları rəhbərlərinin və digər rəsmilərin iştirakı gözlənilir. Forumun 5 əsas tərəfdaşı Avropa Şurası, YUNESKO, BMT-nin İnkişaf Proqramı, BMT-nin gənclər siyasəti üzrə elçisi və Azərbaycan hökumətidir. Qeyd edək ki, BMT-nin Baş katibi Pan Gi Mun ikinci dəfə bu vəzifəyə seçilərkən təqdim*

*etdiyi 5 əsas istiqamətdən birinin gənclər siyasəti olduğunu vurğulamışdı.*

*Azərbaycan gənclər siyasətini dəstəkləyən və müxtəlif layihələri təqdim edən ölkələrdən biri olub. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin mədəni-tarixi keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və gənclər mərkəzləri, o cümlədən Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin yaradılması da bu məqsədə xidmət edir.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ərazisi 2250 kvadratmetr olan mərkəz respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinin müxtəlif məqamlarını, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Binanın birinci mərtəbəsində stolüstü oyunlar zalı və kafe bütün lazımi avadanlıqlarla təchiz olunub. Videostudiyada ən son texnologiyalar quraşdırılıb. Burada gənclərin müxtəlif növ verilişlər hazırlamaq imkanı olacaq.*

*Bildirildi ki, mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, binanın ikinci mərtəbəsində mehmanxana fəaliyyət göstərəcək. Burada həm təlim keçən gənclərin, həm də idmançıların rahat istirahəti*

*üçün hər cür şərait yaradılıb. Mərkəzdə kompüter və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır.*

*Konfrans zalı müasir üslubda yaradılıb. Burada müxtəlif mövzularda «dəyirmi masa»lar keçirmək mümkün olacaq. Yaradıcılıq mərkəzində gənclər həm sənət öyrənəcəklər, həm də onların əl işləri sərgilənəcək.*

*Prezident İlham Əliyev açıq havada quraşdırılan idman qurğuları ilə də tanış oldu. Burada futbol, basketbol və voleybol meydançaları var.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə 6 kottec inşa olunub. Burada da istirahət üçün hər cür şərait yaradılıb.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*17 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Naftalan şəhərinə səfərə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.*

### «Qarabağ SPA and Resort» hotel kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Naftalanda «Qarabağ SPA and Resort» hotel kompleksinin açılışında iştirak etmişlər.*

*Avropa ilə Asiya arasında körpü olan respublikamızda idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkədə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna möhkəm zəmin yaradır.*

*Son illərdə Azərbaycana böyük turist axını müşahidə olunmaqdadır. Məhz bu baxımdan respublikamızda hotel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər görülür. Bu hotellərdə qonaqlara yüksək səviyyəli xidmətlər göstərilir. Digər tərəfdən, dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərin tez-tez keçirildiyi məkana çevrilib.*

*Bununla bərabər, ölkəmizdə qeyri-neft sektorunun inkişafı da başlıca prioritetlərdəndir.*

*Naftalanda inşası yenicə başa çatan «Qarabağ SPA and Resort» hotel kompleksi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Son illərdə bölgələrdə istifadəyə verilən müasir mehmanxana kompleksləri arasında özəlliyi ilə seçilən bu müalicə və istirahət məkanında yaradılan yüksək şərait bir daha təsdiqləyir ki, bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayının artmasına zəmin yaradır. Bu kompleks təkcə Naftalanın deyil, bütün bölgənin əhəmiyyətli turizm obyektidir.*

*Prezident İlham Əliyev hotel kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, burada tikinti işlərinə 2012-ci ildən başlanılıb. Görülən işlər nəticəsində orijinal memarlıq üslubunda gözəl istirahət məkanı yaradılıb. Sahəsi 13 hektardan çox olan kompleksin əhəmiyyətini artıran mühüm cəhətlərdən biri onun yerləşdiyi ərazidə çoxsaylı istirahət məkanlarının olmasıdır. Burada balacalardan tutmuş, böyüklərə qədər hamının maraq dairəsi nəzərə alınıb, onlar üçün guşələr yaradılıb. Tennis kortu, basketbol meydançası, qolf sahəsi istirahətə gələnlərə unudulmaz anlar bağışlayacaq. Helikopter meydançasının da olduğu kompleksdə 8 kilometr uzunluğunda gəzinti yolları, geniş yaşıllıq zolaqları salınıb.*

*Diqqətə çatdırıldı ki, hotelin beşmərtəbəli binasında turistlərə ən yüksək səviyyədə xidmət göstəriləcək. Müxtəlif korpusları özündə birləşdirən kompleksdə yaradılan ideal şərait bir daha ölkəmizdə turizm sektorunun inkişafına dövlət səviyyəsində göstərilən diqqəti nümayiş etdirir. SPA terapiya üsullarına geniş yer verilən hoteldə müxtəlif restoranlar və kafelər burada istirahətə gələnlərin istək və arzularının yerinə yetirilməsinə imkan verir.*

*Bildirildi ki, 264 yerlik hoteldə bütün zəruri avadanlıqlarla təchiz olunmuş 132 otaq var. Digər mühüm cəhət burada*

*çalışanların böyük əksəriyyətinin yerli işçilər olmasıdır. Onların ixtisaslarının artırılması ilə bağlı müvafiq işlər gedir və bu, gələcəkdə də davam etdiriləcək.*

*Dövlətimizin başçısı hotelin əməkdaşlarını və şəhər ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Sizi «Qarabağ» hotelinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl hoteldir, böyük zövqlə tikilib. Həm xarici görünüşü, həm daxili tərtibatı ən müasir standartlara cavab verir. Əminəm ki, qonaqlar burada yaxşı istirahət edəcək, yaxşı müalicə alacaqlar. Müalicə üçün də bütün imkanlar var. Mən indi hotellə tanış oldum, burada ən müasir avadanlıq quraşdırılıb və bütün lazımi şərait yaradılıb. Ərazisi də abadlaşdırılıb, yəni gəzinti üçün gözəl imkanlar var.

Bu hotel ölkəmizdə turizmin inkişafı üçün öz rolunu oynayacaq. Çox şadam ki, Naftalanda hotellərin sayı artır. Bu vaxta qədər Naftalanda tikilən bütün yeni hotellərin açılışlarında şəxsən iştirak etmişəm – «Çinar» hoteli, «Qaşaltı» – indi onun adı «Rixos» olmuşdur, indi də «Qarabağ» hoteli. Adı da, özü də gözəldir və bu əslində Naftalanı dünyaya beynəlxalq turizm mərkəzi kimi geniş şəkildə təqdim edəcək.

Naftalanın çox böyük tarixi şöhrəti var. Biz bu şöhrəti indi bərpa edirik. Sovetlər vaxtında 80 minə qədər turist gəlirdi. Biz son illərdə bu praktikanı bərpa edirik. Bu il 15 minə qədər turistin gəlişi gözlənilir. Hələ ki, biz sovet səviyyəsinə çatmamışıq, ancaq əminəm ki, çatacağıq.

Siz yəqin bilirsiniz ki, bir neçə il bundan əvvəl «Çinar» hotelinin yenidən qurulub istifadəyə verilməsi ilə Naftalanda hotel biznesi sürətlə inkişaf etməyə başlamışdır. O vaxta qədər Naftalanın inkişafı o qədər də sürətlə getmirdi. Erməni işğalından əziyyət çəkən soydaşlarımız keçmiş sanatoriyalarda, pansionatlarda məskunlaşmışdılar. Biz ilk növbədə, onların problemlərini həll etməyə başladıq və buna nail olduq. Onlar indi gözəl evlərə köçürülüblər və məcburi köçkünlər üçün çox gözəl şərait yaradılıb. Köhnə, sovet vaxtından qalan sanatoriyaların yerlərində, bax, belə gözəl hotellər tikilir.

Vaxtilə burada «Qarabağ» sanatoriyası yerləşirdi. Tamamilə yararsız vəziyyətdə idi, söküldü və yerində yenə də «Qarabağ» adını saxlamaq şərti ilə gözəl, ən yüksək dünya səviyyəsinə uyğun hotel tikildi. Beləliklə, hazırda Naftalanda beşulduzlu 3 hotel fəaliyyət göstərir. Əminəm ki, gələcəkdə bu hotellərin sayı daha da artacaq. Əgər sovet dövründə Naftalana daha çox sovet məkanından gəlirdilərsə, indi biz istəyirik ki, həm postsovet məkanından, həm də başqa xarici ölkələrdən turistlər gəlsinlər. Çünki indi bütün imkanlar var. Gəncə Beynəlxalq Aeroportu tikilib, yaxşı yollar salınıb. Naftalan şəhəri gözəlləşir, abadlaşır, bütün binalar bərpa edilir, ictimai yerlər, parklar yaradılır. Yəni Naftalan əslində dünya miqyasında bir turizm mərkəzinə çevrilir.

Yəqin bilirsiniz ki, dünyada, xüsusilə dünyanın qabaqcıl ölkələrində tibbi turizm də inkişafdadır. Hesab edirəm ki, Azərbaycan da bu sahədə öz sözünü deməlidir. Azərbaycanda tibbi-müalicəvi turizmin inkişafına məhz Naftalanda start verilmişdir. Əminəm ki, bu proseslər, bu meyillər uğurla davam edəcək. Çünki Azərbaycanda belə müalicəvi yerlər kifayət qədər çoxdur. Onlardan biri də Qalaaltıdır. Orada da insan orqanizmi üçün çox xeyirli su mənbəyi vardır. İndi orada da hotel tikilir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Naxçıvanda duz mağaralarında, digər yerlərdə müalicəvi xidmətlər göstərilir. Biz öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edirik ki, gözəl şərait yaradaq.

Naftalana gələnlərin arasında Azərbaycan vətəndaşları üstünlük təşkil edir. Bu əslində daxili turizmin inkişafıdır və getdikcə daha da çox Azərbaycan vətəndaşları gələcək. Çünki xalqımızın rifah halı, maddi vəziyyəti yaxşılaşır, işsizlik, demək olar ki, aradan götürülübdür. Beləliklə, həm ölkə daxilindən, həm xaricdən buraya gələnlərin sayı çoxalacaq. Hazırda «Çinar» və «Rixos» hotellərində, demək olar ki, otaqların orta hesabla 70 faizi artıq dolubdur. Əminəm ki, burada da elə olacaq.

Biz Naftalanın infrastruktur layihələrinin icrasını da paralel olaraq həll edirik. Mən keçən il burada olmuşam. Biz içməli su layihəsinin açılışını qeyd etdik. Digər layihələr icra edilir. Bir

sözlə, gözəl təbiəti olan, dağların əhatəsində yerləşən Naftalan müasir şəhərə çevrilib. Buraya ilk gəlişimdə, əlbəttə ki, mənzərə tam başqa idi. Onu indiki mənzərə ilə müqayisə etmək mümkün deyil. Hər yerdə belə olmalıdır. Bu səviyyə Azərbaycan standartlarıdır, biz buna belə deyirik və biz bu standartları ölkəmizin hər bir bölgəsində tətbiq etməyə çalışırıq.

Bütövlükdə Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Bakıda dünyanın ən aparıcı hotellər şəbəkəsi fəaliyyət göstərir. Son 2-3 il ərzində Bakıda 6-dan çox beşulduzlu hotel tikilib. Onlar xarici görünüşü ilə şəhərimizi gözəlləşdirir, eyni zamanda, dünyanın aparıcı hotel markaları Bakıdadır. Bu da ölkəmizin ümumi inkişafını göstərir.

«Four Seasons», «Fairmont», «Hilton», «Mariott», «Kempinski», «Jumeirah», «Sheraton», «Hyatt», «Radisson» – yəni bunlar aparıcı hotel şəbəkələridir ki, Bakıda fəaliyyət göstərir. Nəyə görə? Çünki investorların ölkəmizin gələcəyinə böyük inamı var. Ona görə ki, Azərbaycan inkişaf edir, gözəl işlər görülür, təhlükəsizlik tam şəkildə təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Böyük imkanlar var. Biznes imkanları genişlənir, tarixi yerlərimiz kifayət qədər çoxdur, gələnlər bizim zəngin mədəniyyətimizlə tanış olurlar. Ona görə aparıcı hotel brendləri Bakıdadır və bu proses gedir. Hazırda Bakıda 2 gözəl yeni hotel tikilir. Birinin adı «İnturist» olacaq. Çünki əfsuslar olsun ki, bir neçə il bundan əvvəl Bakının simvollarından biri olan «İnturist» hoteli sökülmüşdür. Ancaq oradan çox da uzaq olmayan bir yerdə eyni memarlıq üslubunda yeni hotel tikilir, adı da «İnturist» olacaq. Biz köhnə «İnturist»i yenidən qururuq. Hazırda «Ağ şəhər» bulvarında otaqlarının sayına görə bəlkə də Azərbaycanda ən böyük hotel tikilir. İndi ictimaiyyət üçün o yerlər bağlıdır, çünki işlər gedir. Ancaq təqribən bir neçə aydan sonra «Ağ şəhər» bulvarı açılacaq, yeni hotellər fəaliyyətə başlayacaq. Bir daha demək istəyirəm ki, bu, ölkəmizin ümumi inkişafının göstəricisidir və nəinki Bakıda, Naftalanda, başqa şəhərlərdə belə, gözəl əsərlər yaradılır. Siz – burada işləyənlər, əlbəttə, ən yüksək xidmət göstərəcəksiniz. Buna əminəm, buraya gələn qonaqlar hər şeydən razı qalacaqlar.

Sizi bir daha təbrik edirəm. Sağ olun.

* * *

*Dövlətimizin başçısı və xanımı elektromobillə hotelin ərazisini gəzdilər.*

## «Naftalan Hotel by Rixos» hotelinin yeni korpusunda yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də «Naftalan Hotel by Rixos» hotelinin yeni korpusunda yaradılan şəraitlə tanış olmuşlar.*

*Məlumat verildi ki, bu hotelin təməli 2008-ci ildə qoyulub. 8 hektardan çox ərazisi olan hotel 200 yerlikdir. Ötən ilin aprelinədək «Qaşaltı» sanatoriyası adı altında fəaliyyət göstərən hoteldə keçən il yenidənqurma işləri aparılıb. Klassik və avanqard arxitektura elementlərinin sintezi əsasında yaradılan yeni korpusun interyerinin tərtibatında orijinal mebel və aksessuarlardan istifadə olunub.*

*Sağlamlıq Mərkəzi Korpusunda Naftalan terapiyası ilə yanaşı, SPA terapiya, fizioterapiya və reabilitasiya, o cümlədən fitnes bölmələri fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim ediləcək. Hoteldə su prosedurları korpusu da yaradılıb ki, o da özündə üzgüçülük hovuzunu, yod-brom vannasını, sualtı idman hərəkətləri hovuzunu, sauna və digər bölmələri birləşdirir. Yaxın gələcəkdə sanatoriyanın imkanları nəzərə alınaraq burada müasir rentgen, ultrasəs müayinəsi, stomatologiya, urologiya, kardiologiya, laboratoriya, hərəkət orqanları və dəri xəstəlikləri şöbələri fəaliyyət göstərəcək.*

*Müxtəlif əyləncə bölmələrinin də olduğu hoteldə trenajor zalı, günəş vannası terrası və fəvvarələr kompleksi var. Hoteldə hazırda dünya şöhrətli «Rixos» qrupunun nəzarəti altında 182*

nəfər çalışır. Heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir.

Dövlətimizin başçısı hotelin nömrələrində yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, hotelin 92 otaqlı yataq korpusuna daha 71 otaq əlavə edilib. Burada müxtəlif kateqoriyadan olan 163 nömrə müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. «Naftalan Hotel by Rixos» hotelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir.

## GORANBOY RAYONUNA SƏFƏR

*18 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Goranboy rayonuna səfərə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Goranboy rayonunun mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

*Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev son vaxtlar rayonda görülən işlər və ulu öndərin yeni ucaldılan abidəsinin ətrafında aparılan geniş abadlıq tədbirləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri nəticəsində burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqlarının salındığı parkda orijinal memarlıq quruluşuna malik Heydər Əliyev Mərkəzi inşa edilib.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Goranboyda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişlər.*

*Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə paytaxtla yanaşı, respublikanın bütün bölgələrində də silsilə tədbirlər həyata keçirilir. Goranboyda yeni inşa olunan Heydər Əliyev Mərkəzi də bu tədbirlərin ardıcıl xarakter aldığını bir daha göstərir. Bu, ilk növbədə Goranboy sakinlərinin əbədiyaşar lider, dahi rəhbərin xatirəsinə olan ehtiramını nümayiş etdirir. Yeni Mərkəzin yaradılması həm də ulu öndərin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır. Mərkəzdəki fotolar və digər eksponatlar sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu*

öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Elə mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan və indi də uğurla davam etdirilən inkişaf konsepsiyasının hərtərəfli öyrənilməsinə real zəmin yaradır. Bu bir daha göstərir ki, Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçib. Bunun sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Ümummilli lider Heydər Əliyev öz titanik fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazıb. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil olub. Onun Azərbaycana rəhbərlik etdiyi illər milli intibah dövrü kimi əbədiləşib.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı. 4300 kvadratmetr ərazisi olan Mərkəzdə ümummilli liderin xatirəsinin əbədiləşdirildiyi muzey yaradılıb. Bu muzeyin ekspozisiya zalının zənginliyi bir daha təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Ulu öndər Heydər Əliyev özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr edib. Ona görə də haqlı olaraq müstəqil Azərbaycan dövlətini Heydər Əliyevin şah əsəri adlandırırlar.

Bildirildi ki, Mərkəzdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlər təşkil olunacaq. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada diskussiya zalları qurulub. Böyük akt zalı 134 yerlikdir və burada bir çox tədbirlərin keçirilməsi üçün hər cür imkan var. Həmçinin Mərkəzdə elektron kitabxana və linqafon otağı, internet-kafe, rəssamlıq və atıcılıq

*otaqları, fotostudiya, xalçaçılıq və tikiş bölmələri yaradılıb. Bir sözlə, ulu öndərin zəngin siyasi irsinin öyrənilməsi üçün Mərkəzdə hər cür şərait var.*

**«Goranboy» paylayıcı elektrik məntəqəsinin açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də «Goranboy» paylayıcı elektrik məntəqəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının enerji müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkə əhalisinin və iqtisadiyyatının elektrik enerjisinə olan tələbatının tam ödənilməsi, respublikada elektrik enerjisinin ixrac potensialının yaradılması sahəsində energetiklər qarşısında qoyduğu vəzifələrin icrası uğurla davam etdirilir. Əvvəllər ölkədə mövcud olan enerji problemləri dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən, müvafiq dövlət proqramları çərçivəsində bölgələrdə yeni elektrik stansiyalarının və yarımstansiyaların inşası nəticəsində tamamilə aradan qaldırılır. Bu da yeni generasiya güclərinin əldə olunmasına yol açır. Regionlarda bir-birinin ardınca istifadəyə verilən yarımstansiyalar və paylayıcı qurğular əhalinin elektrik enerjisi ilə davamlı təminatında həlledici rol oynayır. Bu mənada 330 kilovoltluq yeni «Goranboy» paylayıcı elektrik məntəqəsi bölgə üçün mühüm əhəmiyyət kəsb edəcək.*

*Azərbaycan Prezidenti paylayıcı məntəqəni işə saldı.*

*«Azərenerji» ASC-nin sədri Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, bu layihə üzrə «Goranboy» paylayıcı elektrik məntəqəsi ilə 330 kilovoltluq «İmişli» yarımstansiyası arasında çəkilmiş 330 kilovoltluq hava xəttinin ümumi uzunluğu 165 kilometrdən çoxdur. Layihə çərçivəsində 330 kilovoltluq «Goranboy» paylayıcı elektrik məntəqəsi tikilərək şəbəkəyə qoşulub və o, respublikada bu gərginlikdə ilk paylayıcı məntəqədir. «Goranboy» paylayıcı elektrik məntəqəsi ilə «İmişli» yarımstansiyası arasında hava xəttinin çəkilişi ilə yanaşı, 330 kilovoltluq 6-cı «Mingəçevir» və 5-ci «Mingəçevir»*

*hava xətləri giriş-çıxışla paylayıcı məntəqəyə birləşdirilib. Burada müasir elektrik avadanlıqları quraşdırılıb.*

*Qeyd edək ki, bu infrastruktur layihəsi dövlətimizin başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş Azərbaycanda yanacaq-enerji kompleksinin inkişafı üzrə 2005–2015-ci illəri əhatə edən Dövlət Proqramı çərçivəsində həyata keçirilib. Görülən işlərin əhəmiyyətindən danışarkən vurğulamalıyıq ki, bu infrastruktur layihəsinin həyata keçirilməsi «Azərbaycan» İstilik Elektrik Stansiyası, «Goranboy» paylayıcı elektrik məntəqəsi, «İmişli» yarımstansiyası, «Şirvan» Elektrik Stansiyası, «Abşeron» yarımstansiyası arasında enerji sistemində ikinci 330 kilovoltluq enerji dövrəsinin yaradılmasına və qonşu İran İslam Respublikası ilə enerji mübadiləsinin həcminin artırılmasına imkan verəcək. Müvafiq sxem dəyişikliyi etmək və avtotransformator quraşdırmaqla, paylayıcı məntəqəni yarımstansiyaya çevirmək mümkündür. Gələcəkdə belə sxem dəyişikliyinin aparılması, işğaldan azad olunacaq ərazilərin elektrik enerjisi ilə təchizatının bu paylayıcı məntəqənin yarımstansiyasından həyata keçirilməsi nəzərdə tutulub. «Goranboy» paylayıcı elektrik məntəqəsinin ərazisi 15 hektardır. Burada 18 nəfər daimi işlə təmin olunacaq. Paylayıcı məntəqənin ərazisində abadlıq işləri də aparılıb, geniş yaşıllıq salınıb.*

## Goranboy–Yuxarı Ağcakənd avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Goranboy–Yuxarı Ağcakənd avtomobil yolunun açılışında iştirak etmişlər.*

*Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayırıcılarının tikilməsi, magistral yolların salınması sosialyönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir. İndi ölkədə həyata keçirilən nəhəng infrastruktur layihələri Azərbaycanın potensialının tam üzə çıxarılmasına hərtərəfli zəmin yaradır. Dövlətimizin başçısının tapşırıqlarına əsasən regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Hazırda respub-*

likamızda kənd yollarının inşası və yenidən qurulması vüsət alıb. Azərbaycan Prezidentinin bildirdiyi kimi, ölkəmizdə beynəlxalq və respublika səviyyəli yolların salınması ilə bağlı silsilə layihələr reallaşdırıldığından indi kənd yollarının çəkilişi ön plandadır. Bu məqsədlə dövlət büdcəsindən və Prezidentin ehtiyat fondundan vəsaitlər ayrılır.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidentinin 2013-cü il 30 iyul tarixli Sərəncamı ilə 35 min nəfər əhalinin yaşadığı 18 yaşayış məntəqəsini birləşdirən Goranboy–Yuxarı Ağcakənd avtomobil yolunun tikintisi məqsədi ilə ötən il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Goranboy Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon, bu il isə 7,2 milyon manat vəsait ayrılıb.

Hazırda avtomobil yolunun 24 kilometrlik hissəsinin inşası başa çatdırılıb. Layihə çərçivəsində yol üzərində 15 su keçidi tikilib, 4-ü bərpa olunub. Yolun kənarında 550-yə yaxın siqnal dirəkləri yerləşdirilib. Üçüncü texniki dərəcəli yolda əhalinin və avtomobillərin rahat hərəkəti təmin olunub, kəndlərarası əlaqə asanlaşıb.

## ŞƏHƏRİN SU TƏCHİZATININ YENİDƏN QURULMASI VƏ KANALİZASİYA SİSTEMİNİN YARADILMASI LAYİHƏSİNİN İCRASININ BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR TƏŞKİL OLUNAN MƏRASİMDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Goranboy şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihəsinin icrasının başa çatması ilə əlaqədar təşkil olunan mərasimdə iştirak etmişlər.*

*Davamlı iqtisadi inkişaf mərhələsində olan Goranboyda reallaşdırılan sosial layihələr əhalinin rahatlığına, onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilib. Bu sırada rayonda icrası başa çatdırılan Goranboy şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihəsi xüsusi yer tutur. 2011-ci ildə tikintisinə başlanılan hidrokompleksin sifarişçisi Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlikdir.*

*Layihəyə əsasən, Goranboy şəhəri və rayonun 18 yaşayış məntəqəsinin, Naftalan şəhəri və kurort şəbəkəsi də daxil olmaqla, Qaşaltı və Qasımbəyli kəndlərinin içməli su tələbatını ödəmək üçün saniyədə 114 litr içməli su veriləcək. Nəticədə Goranboy rayonunun və Naftalan şəhərinin 47430 nəfər sakini fasiləsiz içməli su ilə təmin ediləcək. Potensial layihə gücü saniyədə 200 litr su ötürə bilən bu qurğu 2031-ci ilədək Goranboyun əhalisinin 75 faizini, Naftalan əhalisinin isə 100 faizini təmin etməyə hesablanıb. Laboratoriya analizləri suyun keyfiyyətinin yüksək olduğunu təsdiqləyib.*

*Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin direktoru Əli Məmmədov bildirdi ki, «Azəraqrartikinti» ASC tərəfindən icra olunan layihə çərçivəsində birinci mərhələdə Ballıqaya su mənbəyinin və əsas nəqledici magistral içməli su xəttinin tikintisi başa çatdırılıb. Bu mərhələdə Baş Suqəbuledici-ötürücü Qurğular Kompleksi inşa olunub, uzunluğu 36 kilometrdən çox olan magistral su xətti çəkilib. Bundan əlavə, infiltrasiya-drenaj qurğuları sahəsi yaradılıb, perforasiya olunmuş 13 suyığıcı boru quraşdırılıb. Magistral su xətti boyunca təzyiqazaldan 11 hovuz tikilib. İkinci mərhələdə şəhərin su anbarları sahəsi yaradılıb və hər birinin həcmi 1000 kubmetr olan 3 anbar tikilib, inzibati binalar və istehsalat bazası yaradılıb. Bu mərhələdə müxtəliftəyinatlı su və kanalizasiya xətlərinin çəkilməsinə xüsusi diqqət yetirilib, bütün abonentlər su sayğacları ilə təmin olunub. Üçüncü mərhələdə isə məhsuldarlığı gündə 5 min kubmetr olan çirkab və sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması həyata keçirilib. Qurğuların mükəmməl istismarını təmin etmək üçün avtomatlaşdırılmış idarəetmə sistemi quraşdırılıb.*

*Dövlətimizin başçısı Goranboy şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı və rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m  Ə l i y e v:** İlk növbədə, sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, gözəl, tarixi bir gündür. Azərbaycanda Müstəqillik Günü iki dəfə qeyd olunur. Biri Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 28 May Respublika Günüdür. İkincisi də 18 oktyabr – Müstəqilliyimizin Bərpası Günüdür. Hər iki tarix bizim üçün çox əzizdir. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaranırdı. Eyni zamanda, Azərbaycan uzun fasilədən sonra yenidən müstəqil ölkə kimi yaşamağa başlamışdır. Bu da çox mühüm tarixi hadisədir. Əminəm, Azərbaycan xalqı müstəqillik dövründə görür ki, müstəqilliyin üstünlükləri nədən ibarətdir. Ancaq müstəqillik dövründə Azərbaycan sürətlə inkişaf

etməyə başlamışdır. Ancaq taleyimiz öz əlimizdə olan zaman biz böyük nailiyyətlərə çata bilmişik və bu gün burada qeyd etdiyimiz hadisə bunun əyani sübutudur.

Goranboy rayonunda, bizim bütün başqa şəhər və rayonlarımızda içməli su həmişə böyük problem olub. Əsrlər- boyu böyük problem olub. Ancaq müstəqillik dövründə biz bu problemi aradan qaldırırıq. İndi Goranboy şəhərinə və bir neçə kəndə Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Bu, gözəl tarixi hadisədir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Su insanın həyatı, sağlamlığı üçün əsas amildir. Təmiz içməli su insanın sağlamlığı üçün həddindən artıq önəmlidir və əminəm ki, bizim bütün vətəndaşlarımız təmiz içməli su ilə təmin olunacaqlar. Hazırda ölkə üzrə bütün şəhərlərdə bu layihələr icra edilir. Artıq bir çox yerlərdə icra edilibdir. Keçən il Naftalanda içməli su layihəsinin açılışını qeyd etdik və bu işlər ardıcıllıqla aparılır. Qarşıya vəzifə qoyulubdur ki, növbəti 3-4 il ərzində Azərbaycanda bütün şəhərlərdə içməli su və kanalizasiya layihələri 100 faiz icra edilsin. Beləliklə, biz bu böyük sosial proqramı icra etmiş olacağıq.

Bu doğrudan da sosial layihədir. Çünki bu layihələrin icrasına dövlət büdcəsindən böyük vəsait ayrılır və bu vəsait sırf sosial xarakter daşıyır. Burada kommersiya tərəfindən söhbət açmaq yersizdir. Çünki su tariflərindən yığılan vəsait heç vaxt buraya qoyulan investisiyaların kompensasiyasını təmin etməyəcək. Ona görə Azərbaycan dövləti öz sosial siyasətinə sadiq olaraq bu layihələri icra edir və bu doğrudan da böyük tarixi nailiyyətdir. Çünki həm Bakıda, həm bizim bütün şəhər və rayonlarımızda içməli su daim böyük problem idi. Bakıda da bu problem həll olunub. Ancaq deyə bilərəm ki, Goranboy şəhərində bu, indi 100 faiz həll olunub. Bakıda hələ ki, əhalinin 78 faizi 24 saat ərzində içməli su alır. Bu səviyyə əvvəlki illərdə təqribən 40–50 faiz idi. Son illər ərzində Oğuz–Qəbələ–Bakı layihəsinin, digər layihələrin icrası, şəbəkənin yeniləşdirilməsi nəticəsində biz Bakını da içməli su ilə təmin edirik. Ancaq hələ ki, Bakıda görüləsi işlər çoxdur. Goranboyda isə artıq bu işlər başa çatıb.

Bu layihələrlə yanaşı, bütün ölkə üzrə digər sosial infrastruktur layihələri icra edilir. Misal üçün, biz Goranboy–Yuxarı Ağcakənd avtomobil yolunun açılışını qeyd etdik. Bu da böyük layihədir, bir neçə kəndi birləşdirir. Minlərlə insan bu yoldan istifadə edəcək. Məcburi köçkünlərin evlərlə təmin olunması sosial layihəsi – əvvəllər dəfələrlə burada olarkən biz məcburi köçkünlər üçün evlərin açılışını qeyd etmişik. Digər layihələr də icra edilir, iqtisadiyyat artır. Əlbəttə ki, güclü iqtisadiyyatımız olmasa, sosial layihələri icra etmək də mümkün olmayacaq. Niyyət ola bilər, ancaq imkan olmayacaq. Ona görə iqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə təmin etmişik. Əminəm ki, növbəti illərdə bütün şəhər və rayonlarımızda işlər daha da sürətlə gedəcək. Çünki artıq çox möhkəm baza var. İnfrastruktur layihələrinin böyük əksəriyyəti icra edilir. Növbəti illərdə biz sənayenin, kənd təsərrüfatının inkişafı ilə daha çox məşğul olacağıq.

Bu il «Sənaye ili»dir. Əlbəttə, sənaye potensialımızın inkişafı işsizliyin də aşağı səviyyədə saxlanılmasına xidmət göstərəcək. Bu gün Azərbaycanda işsizlik çox aşağı səviyyədədir, ancaq, ümumiyyətlə, olmamalıdır. Azərbaycanda əhali artır. Belə olan halda iqtisadiyyat da, iş yerlərinin yaradılması da buna uyğun şəkildə artmalıdır. Çünki biz ölkəmizin dayanıqlı inkişafını təmin edirik.

Təbii resurslarımız var və biz onlardan da səmərəli şəkildə istifadə edirik. Keçən ay «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Bu da bundan sonra onilliklər ərzində bizim üçün həm maliyyə-gəlir mənbəyi olacaq, eyni zamanda, bizim dünya miqyasında mövqelərimizi daha da möhkəmlədəcək. Kənd təsərrüfatı, regionların inkişafı, belə gözəl infrastruktur layihələrinin icrası bugünkü Azərbaycanın reallıqlarıdır. Bunu biz yaratmışıq, Azərbaycan xalqı öz zəhməti, istedadı hesabına yaradıb, bunu bizim siyasətimiz mümkün etmişdir. Çünki bu gün dünya

miqyasında iqtisadi inkişaf baxımından Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə yoxdur.

Hər tərəf od tutub yanır. Bizim ətrafımızda münaqişələr, qanlı toqquşmalar, müharibələr baş verir. Azərbaycan sabitlik, əmin-amanlıq və inkişaf adasıdır. Biz ölkəmizi, vətəndaşlarımızı bütün bəlalardan, mümkün olan bütün təhlükələrdən, risklərdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır, buna layiqdir. Azərbaycan dövləti bunu təmin edəcək. Bax, bugünkü layihə bunu bir daha göstərir.

Bir daha demək istəyirəm ki, bu layihənin məhz Müstəqillik Günündə açılışı rəmzi xarakter daşıyır. Çünki bir daha qeyd etmək istəyirəm ki, xalqımız üçün lazım olan bu layihələri məhz müstəqillik dövründə icra edirik. Bu gün bizim taleyimiz öz əlimizdədir. Azərbaycan inamla inkişaf edir. Azərbaycan etibarlı əllərdədir. Əminəm ki, biz bu gözəl dinamikanı gələcək illərdə də saxlayacağıq. Sizi gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

* * *

*Rayon ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ölkəmizin, o cümlədən Goranboy rayonunun inkişafına göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını çatdırdılar.*

**S a k i n:** Möhtərəm cənab Prezident, Azərbaycan xalqına, o cümlədən goranboylulara göstərdiyiniz bu böyük diqqət və qayğı üçün Sizə təşəkkür edir, bütün rayon ictimaiyyəti adından, ağsaqqallar adından minnətdarlığımızı bildiririk. Sizə, ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, səadət arzulayırıq. Çətin, şərəfli, məsuliyyətli işinizdə Sizə uğurlar diləyirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Ömrünüz su qədər uzun olsun! Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*18 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərinə səfərə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ərazidə aparılan yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

### İmamzadə kompleksində aparılan təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərindəki İmamzadə kompleksində aparılan təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə nümayəndəsi dövlətimizin başçısına müqəddəs Qurani-Kərimi hədiyyə etdi.*

*Dövlətimizin başçısı və xanımı kompleksin eskiz layihələrinə baxdılar.*

*Məlumat verildi ki, VIII əsrə aid tarixi memarlıq abidəsi – xalq arasında Göy günbəz, Göy məscid, yaxud Göy İmam kimi tanınan İmamzadə kompleksi Gəncə şəhərinin və bütövlükdə ölkənin ən maraqlı memarlıq abidələrindən biridir. Türbə bu kompleksin ən qiymətli abidəsidir. Burada beşinci imam Məhəmməd Bağırın oğlu İbrahim dəfn olunub. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Orta əsr Azərbaycan memarlığının dəyərli nü-*

munələrindən olan İmamzadə piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. İmamzadə əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahına çevrilib. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin islam aləmindəki yerini və nüfuzunu da göstərir. Prezident İlham Əliyev bu abidə-ziyarətgahın da təmiri və bərpası ilə bağlı xüsusi sərəncam imzalayıb. Sərəncama əsasən 2010-cu ildən kompleksin əsaslı şəkildə yenidən qurulması davam etdirilir, onun bərpası və təmiri üçün dövlətimizin başçısı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Prezidentin ehtiyat fondundan 9 milyon manat, bu ilin mayında isə daha 3 milyon manat vəsait ayrılıb. Dövlətimizin başçısı burada görülən işlərlə şəxsən iki dəfə tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

Prezident İlham Əliyevə və xanımına məlumat verildi ki, kompleksin ərazisinin 10 min kvadratmetrinə asfalt örtüyü salınıb, səkilərə bəzək daşları döşənib, müasir işıqlandırma sistemi quraşdırılıb, mükəmməl infrastruktur yaradılır. Burada 42 metr hündürlüyündə 2 minarə, namazgah və ziyarət zalı tikilib. Ərazidə 500 avtomobil üçün 2 dayanacaq inşa edilib. 2 zaldan ibarət namazgahda nəfis xəttatlıq işləri görülüb və kaşı materialla örtülüb. Layihəni icra edən «Gəncəkörpütikinti-2» Səhmdar Cəmiyyəti ziyarətgahda təmir-bərpa və tikinti işlərini apararkən qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirib.

Dövlətimizin başçısı və xanımı beşinci imam Məhəmməd Bağırın oğlu İbrahimin məzarının yerləşdiyi türbədə oldular. Burada dua oxundu. Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim bağışlandı.

Bildirildi ki, 200 kvadratmetr ərazini əhatə edən qurbangahda da işlər tamamlanır. Ziyarətgahın üçmərtəbəli əsas binasında təmir işləri başa çatır. Birinci mərtəbəsi dəstəmazgah, ikinci mərtəbəsi inzibati otaqlar, üçüncü mərtəbəsi isə mehmanxanadan ibarət olan binada zəvvarlar üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısına və xanımına ziyarətgahın digər sahələrində, həmçinin 1000 nəfərlik zaldan və mətbəxdən ibarət

*ehsanxanada hazırda davam etdirilən işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyev kompleksdə təmir-bərpa işlərinin uğurla yekunlaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 2 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gəncə şəhərində inşa olunan 2 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişlər.*

*Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması və yenilərinin tikilməsi ilə bağlı həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Bu prosesdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm rol oynayır. Fondun təhsillə bağlı layihələrində məktəbəqədər müəssisələrin yenidən qurulmasına, yenilərinin tikilməsinə, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Son illərdə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə paytaxtın bir çox uşaq bağçalarında əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni uşaq bağçalarının tikilməsi ilə bağlı regionlarda da xeyli iş görülüb. Bununla da məktəbəqədər təhsilin inkişafına nail olmaq istiqamətində bir sıra uğurlar əldə edilib. Bu layihələrdə əsas məqsəd son illərədək bir çox problemləri mövcud olan məktəbəqədər təhsildəki bütün çatışmazlıqların aradan qaldırılması idi. Birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində artıq bu məqsədə nail olunub. Eyni zamanda, Heydər Əliyev Fondu bu sahədə hələ də mövcud olan problemlərin aradan qaldırılması üçün yeni bir layihəyə start verib. «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» Proqramı ictimaiyyətə təqdim edilib.*

*Prezident İlham Əliyev 2 saylı Körpələr evi-uşaq bağçası binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı və xanımı Körpələr evi-uşaq bağçası ilə yaxından tanış oldular. Məlumat verildi ki, ikimərtəbəli binada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Burada müasir təlim-tərbiyə qaydalarına riayət olunmaqla, 7 qrup yaradılıb və uşaqların istirahəti üçün geniş imkanlar var. Bu qruplarda təlim-tərbiyə işləri Azərbaycan və rus dillərində aparılır. Uşaqların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə müasir sinif otaqları yaradılıb. Uşaqların qidalanmasına xüsusi diqqət yetirilir. Bağçanın ərazisi abadlaşdırılıb, yaşıllıq zolaqları salınıb. Burada da uşaqların mənalı istirahəti üçün hər cür şərait vardır.*

## 4 saylı tam orta məktəbin yeni korpusunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərində 4 saylı tam orta məktəbin yeni korpusunun açılışında iştirak etmişlər.*

*Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Dövlətimizin başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsində son illərdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib.*

*Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib. Bölgələrdə yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də Gəncə şəhərindəki 4 saylı tam orta məktəbdir. Təhsil ocağının yeni*

*korpusunda təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb.*

*Prezident İlham Əliyev yeni korpusun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına və xanımına məktəbdə görülən işlərlə bağlı məlumat verildi. Məktəb 1936-cı ildən fəaliyyət göstərir. 2012-ci ildə məktəbin 930 şagird yerlik binası əsaslı təmir edilib. Bu təhsil ocağının 960 şagird yerlik yeni korpusu prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq cari ildə inşa edilib. Burada 48 sinif, 4 kabinet-laboratoriya, 3 informasiya-kompüter otağı, müəllim və şagirdlər üçün bufet, tibb otağı fəaliyyət göstərir. İdman zalında mini-futbol, basketbol, voleybol yarışları keçirmək mümkündür. Bu təhsil ocağında müasir havalandırma və işıqlandırma sistemləri qurulub, həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Bildirildi ki, yeni tədris ilində məktəbdə 2150-dən çox şagird təhsil alacaq.*

**«Stadler» vaqon istehsalı zavodunun təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərində «Stadler» vaqon istehsalı zavodunun təməlqoyma mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı zavodun sxemi, burada istehsal ediləcək vaqonların eskiz layihələri ilə tanış oldular.*

*«Stadler Rail Group» şirkətinin prezidenti Piter Şpuler dövlətimizin başçısı İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, İsveçrənin «Stadler Rail Group» şirkəti ilə Azərbaycanın «Railway İnternational Distribution» Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Gəncədə vaqon istehsalı üzrə birgə müəssisənin yaradılması haqqında müqavilə imzalanıb. Müqavilənin şərtlərinə əsasən Gəncə şəhərində ilkin olaraq ildə 60 vaqon istehsal gücünə malik zavod inşa ediləcək. Bu zavod İsveçrə istehsalı olan ən son texnoloji avadanlıqlarla təchiz olunacaq.*

*«Stadler Rail Group» şirkətin 1942-ci ildən İsveçrə, Almaniya, Polşa, Avstriya, İtaliya, ABŞ və digər ölkələrdə zavodları fəaliyyət göstərir. Şirkətin istehsal etdiyi məhsullardan dünyanın 13 ölkəsində istifadə olunur.*

*«Stadler Rail Group» şirkəti ilə Azərbaycanın «Railway İnternational Distribution» MMC arasında bağlanılan bu müqavilə son illər ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, yeni növ texnikaların alınması prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasi və iqtisadi xəttin bəhrəsidir. Son illərdə Azərbaycanın nəqliyyat infrastrukturu dinamik inkişaf edərək, bu gün ölkəmizin regionda bu sahədə şəksiz liderliyini təmin etməyə imkan verib. Azərbaycan hazırda Qərb ilə Şərq arasında ən mühüm nəqliyyat dəhlizi rolunu oynamaqdadır.*

*Dövlətimizin başçısı «Stadler Rail Group» şirkətinin fəaliyyətindən bəhs edən videoçarxa baxdı.*

*Sonra prezident İlham Əliyev zavodun təməlini qoydu.*

*Bildirildi ki, zavodun 2016-cı ildə fəaliyyətə başlaması planlaşdırılır. 20 hektar ərazisi olan zavodun tikintisində və fəaliyyətində ekoloji standartlara cavab verən ən müasir texnologiya tətbiq ediləcək. Bu zavodda istehsal olunacaq vaqonların Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və İrana satılması da nəzərdə tutulub.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Stadler Rail Group» şirkətinin istehsalı olan vaqonlara baxdılar.*

*Dövlətimizin başçısı zavodun tikinti işlərinin yüksək səviyyədə aparılması üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*Məlumat verildi ki, Gəncə Dövlət Dram Teatrının yeni binası Gəncə çayının sağ sahilində, Əhməd Cəmil və Mirzə Abbas Ab-*

*baszadə küçələrinin kəsişməsində, Məhsəti Gəncəvi Mərkəzinin qarşısında tikiləcək. Prezident İlham Əliyev bu ilin yanvarında Gəncə şəhərinə səfəri zamanı bir sıra mədəniyyət ocaqlarının açılışını etməklə yanaşı, Gəncə Dövlət Dram Teatrı binasının tikintisi üçün də göstəriş vermişdi.*

*Dövlətimizin başçısının sərəncamı ilə teatrın yeni binasının tikintisinə ilkin mərhələdə 3 milyon manat vəsait, inşası üçün isə 1 hektar torpaq sahəsi ayrılıb. Ümumi sahəsi 13 min kvadratmetr olacaq Gəncə Dövlət Dram Teatrının binası müasir standartlara cavab verəcək. Binanın tamaşaçı zalı 520 nəfər üçün nəzərdə tutulub. Burada 150 yerlik yeraltı avtomobil dayanacağı, restoran, çayxana, kafe və digər iaşə obyektləri fəaliyyət göstərəcək.*

*Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlini qoydu.*

*Dövlətimizin başçısına ətrafda aparılan abadlıq-quruculuq işləri barədə də məlumat verildi.*

## Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Prezident İlham Əliyev 2012-ci il yanvarın 21-də Gəncədə olarkən filarmoniya binasının təməlini qoymuşdu. Hazırda binanın tikintisi davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı binanın tərtibat işlərində istifadə olunacaq materiallara baxdılar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada 1200 tamaşaçı yeri olan konsert zalı, açıq havada yay kinoteatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi yaradılacaq. Binada iaşə obyektləri, həmçinin yeraltı qaraj və yardımçı xidməti otaqlar fəaliyyət göstərəcək. Binanın fasadında Azərbaycan musiqi korifeylərinin heykəlləri qoyulacaq. Bina 6 mərtəbəlidir,*

*qüllə ilə birlikdə hündürlüyü 26 metrdir. Obyektdə tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir.*

*Azərbaycan prezidenti İlham Əliyev tikinti işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## Cavad xan küçəsinin sakinləri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncədə Cavad xan küçəsində olmuşlar.*

*Dövlətimizin başçısı və xanımı burada sakinlərlə görüşüb söhbət etdilər.*

**İlham Əliyev:** Salam, necəsiniz?

**Sakin:** Çox sağ olun, cənab Prezident. Oğlum bayaqdan Sizi görmək istəyir. Xüsusi istedadlı uşaqlar sinfində oxuyur. Sizə bir neçə dəfə internetlə məktub da göndərib.

**İlham Əliyev:** Neçə yaşı var?

**Sakin:** Beşinci sinifdə oxuyur.

**İlham Əliyev:** Adın nədir?

**Uşaq:** Adım Ümiddir. Müəlliməm bizə danışmışdı ki, bir dəfə bir uşaq Kraliça Elizabetə məktub yazaraq onu öz ad gününə dəvət edir. Kraliça da onun ad gününə gəlir.

**Mehriban Əliyeva:** Sən də bizi çağır, gələk sənin ad gününə.

**İlham Əliyev:** Əlbəttə, biz də gələrik. Sənin ad günün nə vaxtdır?

**Ümid:** 19 mart.

**İlham Əliyev:** Novruz bayramı ərəfəsində. Çox yaxşı. Sağ olun.

**Mehriban Əliyeva:** Uğurlar sizə.

**Sakinlər:** Xoş gəlib, səfa gətirmisiniz! Allah Sizi qorusun. Həmişə Siz gələsiniz!

**İlham Əliyev:** Çox sağ olun.

**Elmar Vəliyev:** *(Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı):* Mehriban xanım, bu, Zinger qardaşlarının binası olub.

Binanın fasadında «Zinger» tikiş maşınının emblemi də durur. İndi yaşayış binasıdır.

**İ l h a m Ə l i y e v:** Bayramınız mübarək olsun! Bu gün Müstəqillik Günüdür. Sizi ürəkdən təbrik edirəm. Gəncə gözəlləşir, abadlaşır. Hər dəfə burada olanda görürəm ki, Gəncə daha gözəl şəhərə çevrilib.

**S a k i n:** Möhtərəm cənab Prezident, Gəncəyə xoş gəlmisiniz! Gəncəlilər Sizi çox sevirlər. Bu gün Gəncədə olan obyektlərə baxdınız. Gəncə həmişə şeir, musiqi Vətəni sayılıb. Ancaq yaxşı dram teatrımız, filarmoniyamız yox idi.

**İ l h a m Ə l i y e v:** İndi olacaq.

**S a k i n:** Bəli, Sizə minnətdarıq, təşəkkürümüzü bildiririk. Allah Sizi qorusun. Mehriban xanıma da minnətdarıq. Sizin də bayramınız mübarək olsun.

*Sonra dövlətimizin başçısı və xanımı Cavad xan küçəsindəki türk restoranına baş çəkdilər.*

**İ ş ç i l ə r:** Xoş gəlmisiniz! Buyurun qonağımız olun. Biz əsasən türk yeməkləri bişiririk.

**İ l h a m Ə l i y e v:** Siz özünüz haralısınız?

**İ ş ç i:** Qaziantepdənəm. Restoranımıza gəldiyiniz üçün Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Sizə uğurlar arzulayıram, sağ olun.

* * *

*Dövlətimizin başçısı və xanımı gəzinti zamanı sakinlərlə xatirə şəkilləri çəkdirdilər.*

## Heydər Əliyev parkı ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərindəki Heydər Əliyev parkında olmuşlar.*

*Məlumat verildi ki, orijinal layihə əsasında salınan, möhtəşəmliyi və əzəməti ilə seçilən parkın girəcəyindəki «Zəfər tağı»nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev parkının*

*mənzərəsini seyr etmək mümkündür. Göz oxşayan xiyabanda geniş yaşıllaşdırma işləri həyata keçirilib və istirahət üçün hər cür şərait yaradılıb. Parkda yaradılan süni göl və orijinal şəlalə bu məkana xüsusi gözəllik verir. Bundan başqa, park kompleksində müxtəlif iaşə obyektləri, əyləncə mərkəzləri, istirahət guşələri var.*

*Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə burada Gəncənin rəmzi sayılan çinar ağacları əkib. İndi həmin ağaclar parka xüsusi gözəllik verir.*

*Dövlətimizin başçısı və xanımı elektromobillə parkın ərazisini gəzdilər.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN NAZİRLƏRİNİN «İNKİŞAFDA QADINLARIN ROLU» MÖVZUSUNDA V KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi konfransınızın açılışı münasibətilə təbrik edir, hamınıza uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatı ilə qarşılıqlı faydalı münasibətlər quraraq bu gün ən müxtəlif sahələrdə birgə səmərəli fəaliyyət göstərir. Aktual mövzuya həsr olunmuş konfransınız son illər respublikamızda təşkil edilən mötəbər beynəlxalq tədbirlər sırasında xüsusi yer tutur.

1995-ci ildə Pekində keçirilən qadınların Ümumdünya Konfransı bütün ölkələr qarşısında qlobal, regional və lokal səviyyələrdə əsas fəaliyyət proqramlarını müəyyən etdi. İslam Əməkdaşlıq Təşkilatının qadın məsələləri üzrə nazirlərinin əvvəlki İstanbul, Qahirə, Tehran və Cakarta konfransları, eləcə də iştirakçısı olduğunuz Bakı konfransı cəmiyyətlərin inkişafında qadınların rolunun gücləndirilməsinə mühüm töhfədir.

Qadın hüquqlarına xüsusi diqqət yetirən islam dini qadın şəxsiyyətini layiqli mövqeyə yüksəldib. Azərbaycan qadınları insan haqlarının vacib amillərindən sayılan seçki hüququnu bir sıra Avropa ölkələrindən daha əvvəl əldə etməklə təhsildə, səhiyyədə, mədəniyyətdə və elmdə böyük uğurlar qazanaraq dövlət quruculuğu proseslərinin əsas qüvvələrindən birinə çevriliblər.

Bununla yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində humanitar fəlakətlə üzləşən ölkəmizdə qadınlarımızın pozulmuş hüquqları indiyədək bərpa olunmayıb.

Bir sıra mötəbər qurumların, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının respublikamızın ərazi bütövlüyünün bərpasını dəstəkləyən qərarlarına baxmayaraq, qaçqın və məcburi köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtması istiqamətində göstərilən səylər hələ də nəticəsiz qalmaqdadır.

Əminəm ki, konfransınız qadınların inkişafda rolunun artırılmasına dair geniş və səmərəli müzakirələr aparacaq, gələcək illərdə beynəlxalq və milli səviyyələrdə tədbirlərin həyata keçirilməsi prosesində mühüm mərhələ olacaqdır.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2014-cü il*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İŞTİRAKÇI ÖLKƏLƏRİN DƏMİR YOLU NƏQLİYYAT ŞURASININ NÖVBƏTİ İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli iştirakçılar!

Sizi Bakı şəhərində Dəmir Yolu Nəqliyyat Şurasının növbəti iclasının öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə cansağlığı və yeni-yeni nailiyyətlər arzu edirəm.

Beynəlxalq nəqliyyat təşkilatları sırasında Avropa və Asiya ölkələrini birləşdirən Dəmir Yolu Nəqliyyat Şurasının özünəməxsus yeri vardır. Şuranın fəaliyyəti sayəsində ölkələrimizin dəmir yolları arasında sıx əməkdaşlıq əlaqələri qurulmuş, yük və sərnişin daşımalarının fasiləsiz təmin edilməsinə, infrastrukturun və hərəkət tərkiblərinin yenilənməsinə, razılaşdırılmış beynəlxalq tarif siyasətinin həyata keçirilməsinə və hüquqi bazanın təkmilləşdirilməsinə nail olunmuşdur.

Azərbaycan Respublikasında nəqliyyat sektoru iqtisadiyyatın inkişafında mühüm mövqeyə malikdir. Bu gün yol-nəqliyyat kompleksinin bütün sahələri sürətlə modernləşdirilir, yalnız ölkə miqyasında deyil, eləcə də region üçün əhəmiyyətli layihələr həyata keçirilir.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin inşası, qəbul olunmuş Dövlət Proqramı çərçivəsində Azərbaycan dəmir yollarının infrastrukturunun yenidən qurulması, həmçinin digər tədbirlər Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə daha böyük həcmdə daşımaların yerinə yetirilməsinə şərait yaradır.

Ümidvaram ki, iclas zamanı dəmir yolu nəqliyyatının aktual məsələləri ilə bağlı aparacağınız geniş müzakirələr gələcək qarşılıqlı fəaliyyətinizin səmərəliliyinin yüksəldilməsinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2014-cü il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstanı möhkəm dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Macarıstan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 oktyabr 2014-cü il*

## ALBANİYA PARLAMENTİNİN SƏDRİ İLİR METANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Albaniya parlamentinin Sədri İlir Metanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Parlamentin Sədri İlir Meta Azərbaycan ilə əlaqələrin, o cümlədən TAP layihəsinin həyata keçirilməsinin Albaniya üçün çox əhəmiyyətli olduğunu bildirdi, bu layihənin reallaşması nəticəsində ölkəsinin rolunun artacağını və inkişafı üçün geniş imkanlar yaranacağını vurğuladı. İlir Meta Azərbaycanın Albaniyaya investisiya qoymasının iqtisadi əlaqələrimizin genişlənməsi işinə öz töhfəsini verdiyini qeyd etdi, Albaniyanın Azərbaycan ilə siyasi, iqtisadi əlaqələri daha da genişləndirmək əzmində olduğunu bildirdi. O həmçinin səfəri çərçivəsində Tirana Universiteti ilə Bakı Dövlət Universiteti arasında Əməkdaşlıq Memorandumunun imzalanması mərasimində iştirak edəcəyini məmnunluqla vurğuladı. Albaniya parlamentinin Sədri Azərbaycanı ölkəsi üçün çox önəmli və etibarlı tərəfdaş kimi dəyərləndirərək ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.*

*Azərbaycanın Albaniya ilə ikitərəfli münasibətlərə önəm verdiyini vurğulayan dövlətimizin başçısı əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanın Avropada, Asiyada, həmçinin Balkan regionunda fəal şəkildə investisiyalar qoyduğunu qeyd edərək, ölkəmizin Albaniya iqtisadiyyatının müxtəlif sektorlarına, o cümlədən enerji, inşaat sektorlarına sərmayə yatırması üçün əlavə imkanların nəzərdən keçirilməsinin mümkün olduğunu qeyd etdi, ölkələrimiz və xalqlarımız arasında yaxın əlaqələri nəzərə alaraq əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı*

*potensialın mövcudluğunu bildirdi. TAP layihəsinin əhəmiyyətindən danışan prezident İlham Əliyev bu layihənin bütün iştirakçı ölkələr üçün faydalı olacağını qeyd edərək, layihənin həm tranzit, həm də istehlakçı ölkələrin iqtisadi inkişafı işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu söylədi.*

*Görüşdə parlamentlərarası əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA PARLAMENTİNİN VİTSE-SPİKERİ KARLHAYNTS KOPF İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Avstriya parlamentinin vitse-spikeri Karlhaynts Kopfu qəbul etmişdir.*

*Görüşdə ikitərəfli əməkdaşlığımızın səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişafı üçün yaxşı imkanların olduğu qeyd edildi, bu baxımdan hər iki ölkə şirkətlərinin iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün perspektivlərin müəyyən edilməsinin önəmi bildirildi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBER İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN «ROSNEFT» DÖVLƏT ŞİRKƏTİNİN PREZİDENTİ İQOR SEÇİN İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Rusiya Federasiyasının «Rosneft» Dövlət Neft Şirkətinin prezidenti İqor Seçini qəbul etmişdir.*

*Görüşdə «Rosneft» və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən həm Azərbaycanda, həm də Rusiyada həyata keçirilən birgə layihələr barədə məlumat verildi, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

«Total» şirkətinin Direktorlar Şurasının sədri və prezidenti Kristof dö Marjerinin təyyarə qəzasında həlak olması xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *21 oktyabr 2014-cü il*

## KRİSTOF DÖ MARJERİNİN AİLƏSİNƏ

«Total» şirkətinin Direktorlar Şurasının sədri və prezidenti Kristof dö Marjerinin təyyarə qəzasında həlak olması xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir və səbir diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 oktyabr 2014-cü il*

## LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LİNAS LİNKEVİÇİUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Litva Respublikasının Xarici İşlər naziri Linas Linkeviçiusun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Litva münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, təhsil və digər sahələrdə əməkdaşlıq imkanlarını genişləndirmək ətrafında fikir mübadiləsi aparıldı.*

## ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ VİTSE-PREZİDENTİ MİXAİL ŞMAKOV VƏ BAŞ KATİBİ VLADİMİR ŞERBAKOV İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Ümumhəmkarlar İttifaqları Konfederasiyasının prezidenti, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti Mixail Şmakovu və Ümumhəmkarlar İttifaqları Konfederasiyasının baş katibi Vladimir Şerbakovu qəbul etmişdir.*

*Görüşdə Ümumhəmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin Bakıda keçirilən növbəti iclasının beynəlxalq əməkdaşlıq baxımından önəmi vurğulandı. Azərbaycan ilə Ümumhəmkarlar İttifaqları Konfederasiyası və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olundu. Bu yaxınlarda Həştərxanda Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitinin keçirilməsinin bu ölkələr arasında əlaqələrin inkişafı işinə xidmət etdiyi bildirildi.*

*Qubernator Aleksandr Jilkin Heydər Əliyev Fondu tərəfindən Həştərxanda həyata keçirilən layihələri yüksək qiymətləndirdi və bu layihələrin vilayətin əhalisi tərəfindən böyük rəğbətlə qarşılandığını qeyd etdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDAKI SƏFİRİ MÜBARƏK BİN FƏHD ƏL-TANİ İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Qətər Dövlətinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Mübarək bin Fəhd Əl-Tanini fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi, əlaqələrimizin bundan sonra da dərinləşəcəyinə əminlik ifadə olundu.*

# BİLƏCƏRİ QƏSƏBƏSİNDƏ STEND ATICILIĞI İDMAN KOMPLEKSİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*22 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva oktyabrın 22-də Bakının Biləcəri qəsəbəsində Stend Atıcılığı İdman Kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanda bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlər nəticəsində ölkəmiz bu gün beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirildiyi əlverişli məkandır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq ölkəmizdə idman dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.*

*2015-ci ildə Azərbaycan daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək. I Avropa oyunları ilk dəfə olaraq Bakıda keçiriləcək. Avropa Olimpiya Komitəsinin bununla bağlı qərarı beynəlxalq idman ictimaiyyətinin ölkəmizin olimpiya hərəkatında oynadığı rola, idmanın inkişafına göstərdiyi yüksək dəstəyə verilən önəmin ifadəsidir. Bakının 2015-ci il Avropa oyunlarının keçirilməsi üçün böyük potensiala malik olmasını beynəlxalq idman təşkilatları da təsdiqləyib. Güclü idman infrastrukturu olan Azərbaycan eyni zamanda, beynəlxalq yarışları keçirmək təcrübəsinə də malikdir. I Avropa oyunlarına az vaxt qalmasına baxmayaraq, ölkəmizdə bu mötəbər tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Ölkədə və paytaxtda idman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Stend Atıcılığı İdman Kompleksində də işlər sürətlə və yüksək keyfiyyətlə davam etdirilir.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların*

keçirilməsi üçün nəzərdə tutulan bu kompleksin ərazisi genişləndirilərək 19,6 hektara çatdırılıb. Hazırda bu kompleksin baş planına əsasən ərazidə Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verən bina və qurğuların inşası sürətlə davam etdirilir.

Dövlətimizin başçısı və xanımı kompleksin stend atıcılığı sahəsi ilə tanış oldular. Bildirildi ki, burada idmanın dairəvi və səngər stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün hər cür şərait yaradılacaq. Kompleksdə biri həm Olimpiya oyunları, həm də dünya kuboku final yarışlarının keçirilməsi üçün nəzərdə tutulmaqla, 5 atıcılıq meydançası tikilir. Atıcılıq meydançalarının hər biri üçün baxış oturacaqları və 500 tamaşaçı yerlik tribuna inşa olunur. Bundan başqa, ərazidə sosial obyektlərin yaradılmasına da xüsusi diqqət göstərilir. Bu məqsədlə dördmərtəbəli mehmanxananın tikintisi aparılır ki, burada ikinəfərlik 20 otaq, 2 VİP otaq olacaq. Binada konfrans zalı, iclas otağı, tibb və məşqçilər üçün otaqlar və restoran yerləşəcək. Layihəyə uyğun olaraq, ərazidə 500 yerlik avtomobil dayanacağı da tikiləcək.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva güllə atıcılığı sahəsi ilə də tanış oldular. Bildirildi ki, bu sahə 10, 25, 50 və 300 metr məsafəyə güllə atıcılığı üzrə yarışların keçirilməsi üçün nəzərdə tutulub. Buraya 10 metr məsafəyə atıcılıq üzrə qapalı tir də daxildir. Tirdə eyni zamanda 80 idmançı yarışacaq. Burada 483 tamaşaçı yarışların gedişini izləyə biləcək. 50 idmançının yarışacağı 25 metrlik məsafəyə yarımqapalı atıcılıq tiri isə 390 tamaşaçı yerlikdir. Burada, həmçinin 50 metrlik məsafəyə 80 idmançının yarışacağı yarımqapalı atıcılıq tiri də quraşdırılır. Bundan əlavə, ərazidə 300 metrlik məsafəyə yarımqapalı atıcılıq tiri tikilir. 40 idmançının eyni vaxtda yarışacağı bu tirdə 414 tamaşaçı yeri olacaq. Həm Olimpiya oyunları, həm də dünya kuboku final yarışlarının keçirilməsi üçün nəzərdə tutulan 10, 25 və 50 metr məsafəyə atıcılıq üzrə qapalı tirlər isə eyni vaxtda 15 idmançının yarışmasına hesablanıb və 500 tamaşaçı yerlikdir.

Güllə atıcılığı binasının tir zallarının hər birində idmançılar, hakimlər, məşqçilər üçün ayrıca otaqlar yaradılıb. Bundan əlavə,

*binada geniş foye, qeydiyyat mərkəzi, kafe, restoran, gözləmə və istirahət otaqları, konfrans zalları, baxış eyvanları, mətbuat mərkəzi, texniki otaqlar, tibb, dopinq-nəzarət otaqlarının yaradılması da nəzərdə tutulub.*

*Bildirildi ki, Stend Atıcılığı İdman Kompleksi Avropada ən böyük atıcılıq komplekslərdən biri olacaq.*

*Dövlətimizin başçısı inşaat işlərinin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq əlaqələrinin daim genişləndirilməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2014-cü il*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Türkmənistanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Əminəm ki, qarşılıqlı münasibətlərimizin hərtərəfli inkişafı və möhkəmləndirilməsi yolunda səylərimiz xalqlarımızın rifahına mühüm töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2014-cü il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ FEDERAL NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*23 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Almaniya Federativ Respublikasının Xarici İşlər üzrə Federal naziri Frank-Valter Ştaynmayeri qəbul etmişdir.*

*Almaniyanın Xarici İşlər üzrə Federal naziri Frank-Valter Ştaynmayerin ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və digər istiqamətlərdə inkişafı və görüləcək işlərlə bağlı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını qeyd edən dövlətimizin başçısı əməkdaşlığımızın geniş sahələri əhatə etdiyini vurğuladı.*

*Nazir Frank-Valter Ştaynmayer ölkəmizə son səfərini məmnunluqla xatırlatdı, həmin səfərdən keçən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu qeyd etdi. O, Azərbaycan ilə Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən təhsil, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SERBİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NEBOYŞA RODİÇ İLƏ GÖRÜŞ

*23 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Neboyşa Rodiçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Neboyşa Rodiç Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev səfirin etimadnaməsini qəbul edəndən sonra onunla söhbət etdi.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən məmnunluq ifadə edildi, əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

*Səfir Neboyşa Rodiç ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

## AVROPA ATICILIQ KONFEDERASİYASININ VƏ RUSİYA ATICILIQ İTTİFAQININ PREZİDENTİ VLADİMİR LİSİN İLƏ GÖRÜŞ

*23 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Avropa Atıcılıq Konfederasiyasının və Rusiya Federasiyası Atıcılıq İttifaqının prezidenti Vladimir Lisini qəbul etmişdir.*

*Görüşdə idmanın müxtəlif növləri, o cümlədən atıcılıq idmanı üzrə ölkəmizdə yüksək standartlara uyğun infrastrukturun yaradıldığı qeyd edildi, mötəbər beynəlxalq idman yarışlarının, eləcə də bu günlərdə Azərbaycanda atıcılıq üzrə Dünya kubokunun final mərhələsinin keçirilməsinin önəmi vurğulandı.*

*Söhbət zamanı 2015-ci il Avropa oyunları ilə bağlı məsələlərdən danışıldı, 2017-ci ildə Azərbaycanda keçiriləcək atıcılıq üzrə Avropa çempionatına hazırlıq işlərinin yüksək səviyyədə aparıldığı bildirildi.*

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Prezident!

Çex Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Çex Respublikası arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 oktyabr 2014-cü il*

## İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN SƏDRİ DİN ŞPİLMAN İLƏ GÖRÜŞ

*24 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilmanı qəbul etmişdir.*

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman Bakıda keçirilən «İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu» mövzusunda beynəlxalq konfransın Avropa ölkələri hakimləri arasında dialoqun inkişaf etdirilməsi və Azərbaycanda məhkəmə sisteminin daha da təkmilləşdirilməsi baxımından önəmini qeyd etdi. O, müxtəlif ölkələrdən olan xeyli sayda hakimlərin konfransda iştirak etdiyini vurğulayaraq tədbirin Avropa səviyyəsində əhəmiyyətini diqqətə çatdırdı.*

*Strasburqa son səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkəmizin xüsusilə Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Avropanın müvafiq qurumları ilə fəal əməkdaşlıq etdiyini dedi və Azərbaycanda keçirilən mühüm beynəlxalq tədbirlərin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev bu baxımdan «İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu» mövzusunda beynəlxalq konfransın əlaqələrin genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə Azərbaycan ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ

**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Türkiyə sürətli və dinamik inkişaf yolu keçərək bu gün dünya miqyasında aparıcı ölkələr sırasına çıxmış, nüfuzlu güc mərkəzinə çevrilmişdir. Biz Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik.

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı ortaq tarixə, milli-mənəvi köklərə malik olan xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlət başçısı kimi fəaliyyətinizin ilk günlərində ölkəmizə rəsmi səfəriniz Azərbaycan–Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha təsdiq edir. Əminəm ki, qarşılıqlı inam, etimad və dəstəyimiz, birgə həyata keçirdiyimiz nəhəng enerji, nəqliyyat layihələri, o cümlədən reallaşdırmağa başladığımız TANAP–Trans–Anadolu qaz boru kəməri dostluq və qardaşlıq münasibətlərimizin daha da möhkəmlənməsinə, ölkələrimizin çiçəklənməsinə, xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcək.

Belə bir xoş gündə Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2014-cü il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD DAVUDOĞLUNA**

Hörmətli cənab Baş nazir!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Xalqlarımızı birləşdirən möhkəm dostluq və qardaşlıq hissləri bu gün dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsində və real məzmununda özünü əyani şəkildə nümayiş etdirməkdədir.

Əminəm ki, birliyimizin və müttəfiqliyimizin bariz ifadəsi olan sıx qarşılıqlı fəaliyyətimiz, həyata keçirdiyimiz irimiqyaslı layihələr bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2014-cü il*

## FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*27 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Fransanın paytaxtı Paris şəhərinə gəlmişdir. Həmin gün dövlətimizin başçısı Parisin Yelisey sarayında Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa prezidenti Fransua Olland Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Enerji, aerokosmik sənaye, hərbi-texniki, təhsil, metro inşaatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi. «Cənub Qaz Dəhlizi» enerji layihəsinin reallaşması ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların vəziyyəti, münaqişənin beynəlxalq hüquq normalarına əsasən, bununla bağlı indiyədək qəbul edilmiş sənədlərə uyğun ədalətli həlli ətrafında fikir mübadiləsi aparıldı. Münaqişə ilə bağlı status-kvonun dəyişdirilməsinin, işğal olunmuş ərazilərin azad edilməsinin zəruriliyi vurğulandı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*Paris*

*27 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın oktyabrın 27-də ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü keçirildi.*

*Daha sonra Fransa Respublikasının Prezidenti Fransua Ollandın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə birgə görüşü keçirildi.*

*Görüşlərdən sonra Fransa prezidenti Fransua Olland tərəfindən Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın şərəfinə şam yeməyi verildi.*

## GƏNCLƏR SİYASƏTİ ÜZRƏ I QLOBAL FORUMUN İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlayır, mötəbər toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Gənclər siyasəti öz müstəqilliyini 23 il əvvəl bərpa etmiş Azərbaycan dövlətinin fəaliyyətində prioritet istiqamətlərdəndir. Bu siyasəti uğurla həyata keçirmək üçün ölkəmizdə əlverişli sosial-iqtisadi və ictimai-siyasi şərait yaradılmışdır. Son illər aparılan ardıcıl islahatlar sayəsində iqtisadiyyatımız sürətli inkişaf yoluna qədəm qoymuş, əhalinin bütün təbəqələri, o cümlədən gənclər arasında yoxsulluğun və işsizliyin səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Təhsil, səhiyyə, mədəniyyət və idmanın maddi-texniki bazası möhkəmlənmiş, cəmiyyətdə davamlı sabitlik bərqərar olmuş, əsrlərboyu xalqımıza xas olan qonaqpərvərlik ənənələri və tolerantlıq mühiti daha dərin kök salmışdır.

Gənc nəslin intellektual, fiziki və mənəvi inkişafının təmin edilməsi, yaradıcı potensialının üzə çıxarılması, ictimai fəallığının artırılması, sosial-məişət və məşğulluq problemlərinin həlli sahəsində kompleks tədbirlərin görülməsi daim diqqət mərkəzindədir. Bu məqsədlə son 10 ildə müvafiq dövlət proqramları təsdiqlənərək icra edilmiş, gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin layihə və təşəbbüslərinə dəstək verən fond yaradılmışdır.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsi və mükəmməl infrastrukturun formalaşdırılması istiqamətində həyata keçirilən layihələr, müxtəlif ölkələr və beynəlxalq təşkilatlarla qurulan ikitərəfli və çoxtərəfli əlaqələr, irimiqyaslı tədbirlərin təşkili sahəsində qazanılmış zəngin təcrübə son illər Azərbaycanın region, qitə və dünya səviyyəli forumlara, konfranslara, zirvə toplantılarına və idman yarışlarına ev sahibliyi etməsinə imkan vermişdir.

Əminəm ki, bu gün işə başlayan Gənclər siyasəti üzrə birinci qlobal forum da həmin tədbirlər sırasında layiqli yer tutacaqdır.

Biz ilk forumun Bakı şəhərində keçirilməsi barədə qərarı ölkəmizin gənclərlə iş sahəsindəki təcrübəsinə verilən yüksək qiymət kimi dəyərləndiririk. Hesab edirik ki, bu toplantı qloballaşmanın geniş vüsət aldığı müasir dövrdə gənclər siyasətinin prioritetlərinin dəqiqləşdirilməsi, problemlərin həlli yollarının araşdırılması, iştirakçı ölkələrin dövlət orqanları və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətli olacaq, səmərəli müzakirələrlə yadda qalacaqdır.

Forumun işinə uğurlar, hər birinizə möhkəm cansağlığı arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2014-cü il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2014-cü il*

**BOLİVİYA ÇOXMİLLƏTLİ DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EVO MORALES AYMAYA**

Hörmətli cənab Prezident!

Boliviya Çoxmillətli Dövlətinin Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Boliviya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Boliviya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2014-cü il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ**
**XANIM DİLMA ROUSSEFFƏ**

Hörmətli xanım Prezident!

Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2014-cü il*

## GƏNCLƏR SİYASƏTİ ÜZRƏ I QLOBAL FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*29 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Bakıda Gənclər siyasəti üzrə I Qlobal forumun rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, mən bütün qonaqlarımızı Azərbaycanda salamlamaq istərdim. Gənclər siyasəti ilə bağlı ölkəmizdə keçirilən ilk qlobal forum bizim üçün çox vacib tədbirdir. Bu qədər çox ölkənin nümayəndələrini qəbul etməkdən böyük şərəf hissi duyuruq. Əminəm ki, ölkəmizdə keçirəcəyiniz vaxt sizin xatirənizdə qalacaq. Gənclər siyasəti ilə bağlı ilk forumun burada keçirilməsindən fərəh hissi duyuruq. Əlbəttə, gələcəkdə bir çox digər forumlar da keçiriləcək. Lakin bu forum tarixdə ilk forum kimi qalacaq. Biz qəbul edən ölkə kimi, Azərbaycanı seçdiklərinə görə təşkilatçılara minnətdarıq. Bunu hökumətimizin idman və gənclər, fəal inkişaf siyasəti sahəsində göstərdiyi səylərin yüksək qiymətləndirilməsi kimi qəbul edirik. Gənclər, idman, incəsənət bir-biri ilə bağlıdır. Ölkəmiz və hökumətimiz həyatımızın bu sahələrinə böyük əhəmiyyət verir.

Bizim üçün mühüm prioritetlərdən biri də təhsildir. Fərəhlənirik ki, Azərbaycanda savadlılıq səviyyəsi, demək olar ki, 100 faiz təmin edilib. Gənclər siyasətinə gəldikdə, həmçinin olduqca mükəmməl qanunvericilik bazası mövcuddur. Gənclər siyasəti ilə bağlı qanun var. Azərbaycanda gənclərlə bağlı 2

Dövlət Proqramı qəbul edilib və uğurla həyata keçirilib. Bu yaxınlarda biz Gənclər Fondunu yaratmışıq. Dövlət büdcəsindən bu fonda ayrılan vəsaitlər gənclərə özlərini cəmiyyətdə təqdim etməyə şərait yaradır. Onlar mədəniyyət, təhsil və sosial sahələrə, eləcə də siyasi islahatlara aid olan layihələr üzərində işləyirlər. Başqa sözlə desək, bu fond gənc nəslə öz istedadını müəyyən etməyə, özünü cəmiyyətə təqdim etməyə və beləliklə, ölkəmizin inkişafına töhfə verməyə yardım edir.

Təhsil və savadlılıq məsələlərinə toxundum. Həmçinin bildirmək istəyirəm ki, təhsil də hökumətimiz üçün əsas prioritetlərdən biridir. Çünki biz tamamilə əminik ki, yalnız təhsilli, müxtəlif sahələrdə biliklərə malik insanlar həm ölkənin, həm də özlərinin inkişafına kömək edə bilərlər. Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdiyi nailiyyətlərə nəzər yetirsək görərik ki, uğurlu inkişafın əsas vasitələri enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetlərdən biridir. Hesab edirik ki, beynəlxalq təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edərək biz daha böyük nailiyyətlər qazana bilərik. Bu səbəbdən uzun illər ərzində hökumətimiz gənc nəsillərimiz üçün dünyanın aparıcı universitetlərində təhsil proqramlarını maliyyələşdirir. Bu il təqribən 40 milyon avroya yaxın vəsait gənclərimizin xaricdə təhsili üçün sərf edilib. Azərbaycanda təhsilin səviyyəsini artırmaq üçün bu sahəyə böyük sərmayələr yatırırıq və universitetlərimizlə dünyanın aparıcı təhsil ocaqları arasında beynəlxalq əlaqələri daha da artırmağa çalışırıq.

Biz bu siyasətin faydasını görürük. Bu gün Azərbaycanın gənc nəsli yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edir.

Hökumətimiz üçün prioritetlərdən biri də idmandır. Bizim burada da yaxşı nailiyyətlərimiz var. İdmançılarımız Azərbaycanı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında,

eləcə də Olimpiya oyunlarında layiqincə təmsil edirlər. Sonuncu Olimpiya oyunları bizim üçün tarixi əhəmiyyətə malikdir. Çünki 2012-ci il London Yay Olimpiya oyunlarında Azərbaycan əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etdi. Azərbaycan, demək olar ki, 200 ölkə arasında 30-cu oldu. Gənclər arasında Olimpiya oyunları da Azərbaycan üçün əlamətdar oldu. Yığmamız təxminən 200 ölkə arasında 10-cu oldu. Bu onu göstərir ki, olimpiya hərəkatının inkişafı, müasir idman qurğularının yaradılması siyasəti nəticə verir. Eyni zamanda, idman cəmiyyətimizin ayrılmaz hissəsinə çevrilib. Gənc nəslin idman fəaliyyətinə qoşulması və həvəsləndirilməsi məqsədini daşıyan dövlət proqramları nəinki ölkənin beynəlxalq yarışlarda nüfuzu, o cümlədən gənclərə uğurlu yolun göstərilməsi baxımından vacibdir. Eyni zamanda, fiziki sağlamlıq gənclərə bütün həyatları boyu yardımçı olur. Bunun sayəsində gənclər pis vərdişlərdən, alkoqoldan, siqaret çəkməkdən və narkotik maddələrdən uzaq olurlar.

Buna görə siyasətimizin sosial sahəsi vacibdir. Həmçinin fərəhlənirik ki, Azərbaycan Avropa və dünya çempionatlarını qəbul edən ölkəyə çevrilib. Gələn il Azərbaycanda ilk Avropa oyunlarını keçirəcəyik. Bu bizim üçün tarixi hadisə olacaq. Panamerika, Asiya, Afrika oyunlarından fərqli olaraq, Avropa oyunları əvvəllər heç zaman keçirilməyib. Bu tədbir ilk dəfə burada keçiriləcək. Bu oyunlara 6 mindən çox atlet qatılacaq. Bu idman tədbirini Yay Olimpiya oyunları səviyyəsində keçirməyi planlaşdırırıq.

Biz 2016-cı ildə Dünya Şahmat Olimpiadasını keçirəcəyik. Şahmat komandamızın uğurlarından da hamımız fərəhlənirik. Yeri gəlmişkən deyim ki, bu komandanın bütün üzvləri gənc nəslin nümayəndələridir. Onların sırasında Avropa çempionları var. 2017-ci ildə isə İslam Həmrəyliyi oyunları keçiriləcək. Görürsünüz ki, qısa müddət ərzində Avropa və İslam Həmrəyliyi oyunları bir-birini əvəzləyəcək. Əslində bu, Azərbaycanın beynəlxalq məsələlərdə oynadığı rolu aydın şəkildə nümayiş etdirir.

Biz nadir ölkələrdən biriyik ki, hazırda həm Nazirlər Komitəsində sədrlik etdiyimiz Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Biz 2008-ci ildə başlamış «Bakı prosesi»nin təşəbbüskarıyıq. Həmin vaxt biz Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iclasına onların İslam Əməkdaşlıq Təşkilatındakı həmkarlarını da dəvət etdik. İlk dəfə idi ki, bu iclasda Avropa və müsəlman aləmini təmsil edən 100-dən artıq ölkə iştirak edirdi. Sonradan bu tədbir davam etdirildi. Biz eyni tədbirləri gələn il də keçirəcəyik. Ona görə ki, bu təşəbbüslər sivilizasiyalar, xalqlar və ölkələr arasında daha çox anlaşmaya xidmət edir.

Azərbaycanın ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, burada mədəni müxtəliflik, etnik və dini tolerantlıq mühiti hökm sürür. Azərbaycan çoxmillətli, çoxdinli ölkədir. Bütün vətəndaşlarımız sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Biz sivilizasiyalar dialoquna töhfə veririk. 2 dəfə mədəniyyətlərarası dialoq forumlarını keçirmişik. Mədəni müxtəlifliyə, multikulturalizmə aid, dünyanın müxtəlif yerlərində yaşayan insanların hansı şəkildə birgə işləməsinə, əməkdaşlığına və qarşılıqlı fəaliyyətinə həsr olunmuş Bakı Beynəlxalq Humanitar Forumunu 4 dəfə təşkil etmişik. Çünki hamımız bilirik ki, bu gün ən böyük təhdidlərdən biri sivilizasiyalar arasında ayrılmadır. Biz Azərbaycanda tariximizi, adət-ənənələrimizi və coğrafi mövqemizi, Avropa və müsəlman təşkilatlarına üzvlüyümüzü nəzərə alırıq. Biz sıx əməkdaşlığa, daha çox anlaşmaya, dəstəyə töhfə verməyə çalışırıq. Hesab edirəm ki, həmin səylər yaxşı nəticələr verəcək. Bu gün biz burada, Bakıda bütün dünyadan gəlmiş təmsilçiləri qəbul edirik. Siz gənclər cəmiyyətinizin fəal təbəqəsinin nümayəndələrisiniz. Ölkələrinizdə sizi böyük gələcək gözləyir. Buna görə tanış olmaq, birgə çalışmaq, bir-birinizin problemlərini anlamaq və yardım etmək cəhdləri, fikrimcə, çox vacibdir. Hazırkı qlobal forum, həmçinin bu baxımdan çox əhəmiyyətli olacaq.

Gənc nəslimiz innovasiyalarla bağlı məsələlərdə fəal iştirak edir. Gənc nəsil çox yaradıcıdır, dinamikdir. Azərbaycan, həmçinin informasiya-kommunikasiya texnologiyaları sahəsində də sürətlə

inkişaf edir. Hazırda ilk peykimiz var. Biz kosmos sənayesinə malik olan ölkəyik. Buna görə informasiya texnologiyaları çox sürətlə inkişaf edir və burada gənc nəslimiz aparıcı qüvvədir.

Biz 2 ildən az müddət öncə «ASAN» adlanan yeni dövlət xidmətləri sistemini tətbiq etməyə başlamışıq. İngiliscə bu, «easy», yəni «asan» deməkdir. Eyni yerdə «bir pəncərə» prinsipi ilə təqribən 30 növ xidmət göstərilir. «ASAN» sistemində çalışanların və könüllülərin tam əksəriyyəti gənc nəslin nümayəndələridir. Buna görə bu gün biznes fəaliyyətinin bir çox sahələrində bilikli, vətənpərvər, Azərbaycanın inkişafına çox sədaqətli gənc idarəetmə mütəxəssisləri var. Əminəm ki, gələn illərdə bu meyil daha da güclənəcək. Bir sözlə, bunlar bizim üçün əhəmiyyətli olan əsas sahələrdir.

Azərbaycan müstəqillik baxımından gənc ölkədir, yalnız 23 ildir ki, müstəqildir. Əhali də çox gənc, dinamik və fəaldır. Gənc nəslimizi iqtisadi və siyasi həyatımızın hər bir sahəsinə qoşmaq məqsədilə apardığımız fəal dövlət siyasəti hazırda yaxşı bəhrə verir.

Təhlükəsizlik məsələlərinə gəldikdə, biz həmçinin yalnız gənc nəslə güvənirik. Sərhədlərimizi qoruyan, hazırda erməni təcavüzkarları ilə üzbəüz səngərdə dayanan gənc azərbaycanlılar Vətənini qoruyur. Erməni təcavüzü zamanı əziyyət çəkmiş insanlarımızın əksər hissəsi gənc nəslin nümayəndələri olub. Bu, regional təhlükəsizliyə ən böyük təhdiddir. Əfsuslar olsun ki, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan Ermənistanın silahlı təcavüzü, etnik təmizləmə siyasəti və tarixi torpaqlarımızı işğal etməsi ilə üzləşdi. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, əsrlərboyu azərbaycanlılar bu bölgədə yaşayıblar. Ermənistanın dəstəklədiyi təcavüzkar separatizm bu vəziyyəti yaratdı. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizi 20 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. 1 milyondan çox insan həmin təcavüz nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb. Ermənilər tərəfindən Xocalı soyqırımı törədilib və 600-dən çox günahsız

insan – onlardan 100-dən artıq qadın, 60-dan çox uşaq – yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilib.

Bu gün Ermənistandakı diktatorluq, kriminal rejim beynəlxalq və regional təhlükəsizliyə və sabitliyə ən böyük təhlükədir. Bütün beynəlxalq təşkilatlar mövqemizi dəstəkləyir. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalır və 20 ildən çoxdur ki, icra olunmur. ATƏT eyni qərarları qəbul edib. Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri belə qərarlar qəbul ediblər. Onlar mövqemizi və Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. Dünyanın bütün ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Lakin münaqişə hələ ki, praktiki baxımdan həll olunmayıb. Onun həlli beynəlxalq təşkilatların, xüsusən də BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə əsaslanmalıdır. Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. Görürük ki, bəzi hallarda onlar bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 20 ildən çoxdur kağız üzərində qalır.

Biz daha güclü, daha təsirli olmalıyıq və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycanın ərazi bütövlüyünə əsaslanaraq həllinə nail olmaq üçün ürəkdən çalışmalıyıq. Əminəm ki, o gün gələcək və biz öz doğma torpaqlarımıza – Dağlıq Qarabağa, eləcə də işğal olunmuş digər ərazilərə qayıdacağıq. Beynəlxalq ictimaiyyət nəinki bu məsələ ilə əlaqədar, ümumiyyətlə, bizi qəti surətdə dəstəkləyir. Bunun bariz nümunəsi Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu. Biz 2 il – 2012–2013-cü illər ərzində Təhlükəsizlik Şurasının üzvü olduq. Biz beynəlxalq ictimaiyyətin tam əksəriyyətinin dəstəyi ilə seçildik, 155 ölkə Azərbaycanın lehinə səs verdi. Bu bizim üçün xüsusilə vacib idi. Çünki o vaxt cəmi 20 il öncə müstəqillik qazanmış Azərbaycan beynəlxalq birliyin mühüm üzvünə çevrildi və biz 155 ölkənin belə güclü dəstəyinə nail olduq.

Bu, yalnız bizim fəal diplomatiyamızın və beynəlxalq səviyyədə səylərimizin sayəsində deyil, o cümlədən Azərbaycanın artıq etibarlı tərəfdaş, müstəqil xarici siyasət yürüdən, regional və beynəlxalq problemlərə gəldikdə, öz mövqeyi ilə seçilən ölkə kimi tanınması nəticəsində mümkün oldu. Biz öz mövqemizi təkcə ifadə etmirik, onu müdafiə edirik və mövqemizin bu və ya digər səbəblərə, tarixi hadisələrə və regionumuz haqqında biliklərimizə əsaslandığını sübut edirik. Bu baxımdan hesab edirik ki, biz bu siyasətə görə etibarlı tərəfdaş olmuşuq. Biz müstəqilliyimizin son 20 ildən artıq müddətində dünyanın bu qədər ölkəsinin dəstəyini qazandıq. Bu həmçinin böyük məsuliyyətdir.

Biz Təhlükəsizlik Şurasının üzvü olduğumuz 2 il ərzində öncədən bəyan etdiyimiz kimi, ədaləti və beynəlxalq hüququ müdafiə etdik. Əgər həmin 2 element hər bir ölkənin prioriteti olarsa, əminəm ki, gərginlik, toqquşma, müharibələr və qan tökülməsi daha az olar. Beynəlxalq hüquq ayrı-ayrı tərəflər üçün deyil, hamı üçün işləməlidir. Ədalət hamı üçün olmalıdır. Çünki biz hamımız beynəlxalq birliyin üzvləriyik. Beynəlxalq birliyin bütün ölkələri bərabər hüquqlara, eyni öhdəliklərə malikdirlər. Onların hamısına hörmət və ehtiramla yanaşmaq lazımdır. Belə olan halda dünya daha yaxşı proqnozlaşdırıla bilər.

Əfsuslar olsun ki, bizi, yəni Azərbaycanı əhatə edən regionlarda – Orta Şərqdə, Avropada və dünyanın digər bölgələrində çox mürəkkəb hadisələrin və bəzən onların çox faciəli nəticələrinin şahidi oluruq. Bu səbəbdən dünya terrorçuluğa qarşı mübarizədə, beynəlxalq hüququn və ədalətin müdafiəsində bir yerdə olmalıdır.

Azərbaycan yerləşdiyi regionda beynəlxalq təhlükəsizlik və sabitlik baxımından mühüm rol oynayır. Azərbaycan sanki sabitlik, inkişaf adasıdır və proqnozlaşdırılan ölkədir. Biz regionda sabitləşdirici qüvvə, amil kimi öz rolumuzu oynayırıq. Çünki biz regional əməkdaşlıq, iqtisadi təşəbbüslər, enerji və

daşımalar sahəsinə aid olan addımlarla böyük nailiyyətlər əldə edə bilərik.

Siyasətimiz çox aydındır. Bu, regional əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə milli maraqlara, o cümlədən iqtisadi maraqlara, təhlükəsizliyə və sabitliyə doğru yönələn siyasətdir. Hər bir ölkə, əlbəttə ki, maksimal səviyyədə sabitlik və təhlükəsizliyə nail olmağa çalışır. Çünki bu, inkişaf üçün ilkin şərtdir. Əgər sabitlik və təhlükəsizlik olmasa, onda sərmayələr də olmayacaq. Sərmayəsiz isə bu gün dünyanın hətta inkişaf etmiş ölkələri belə, irəliyə doğru gedə bilməz. Eyni zamanda, hər bir ölkə öz hüdudlarından kənarda da təhlükəsizlik və sabitlikdə maraqlı olmalıdır. Axı siz ayrıca adada yaşamırsınız, sizin qonşularınız var. Ona görə biz öz sərhədlərimizdən kənarda, o cümlədən daxildə – Azərbaycanda proqnozlaşdırılan və sabit vəziyyətin olmasında maraqlıyıq. Biz regional təhlükəsizlik və əməkdaşlıq məsələlərinə bu cür yanaşırıq.

İrəli sürdüyümüz iqtisadi, enerji və daşımalar təşəbbüsləri bütün iştirakçılara fayda verir. Maksimal nəticələri yalnız bütün tərəflərin faydalandığı halda əldə etmək olar. Biz Azərbaycanda qitələrarası daşımalar üzrə mühüm beynəlxalq layihələrə başlamışıq. Bu layihələr enerji təhlükəsizliyinə, enerji mənbələrinin şaxələndirilməsinə aiddir. Bu təşəbbüslərə qoşulan bütün ölkələr bundan bəhrələnir. Belə halda əməkdaşlıq davamlı, proqnozlaşdırılan və faydalı olur. Bu səbəbdən fəaliyyətimizin bu hissəsi möhkəm iqtisadi bünövrəyə əsaslanır və inkişafın əsas qüvvəsidir.

Müstəqilliyimizi bərpa etdiyimiz zaman iqtisadiyyatımız, demək olar ki, sıfır səviyyəsində idi. Siyasi, hərbi böhran, erməni işğalı, vətəndaş müharibəsi təhlükəsi, iqtisadiyyatın tam tənəzzülü keçən əsrin 90-cı illərinin əvvəllərindəki vəziyyətin səciyyəvi cəhətləri idi. Lakin davamlı səylərlə siyasi sabitlik, siyasi islahatlar, demoqrafik inkişaf, müasir demokratik təsisatlar, azad mətbuat formalaşdı. Bu gün bizdə internet azaddır və əhalimizin 70 faizdən çoxu internetdən istifadə edir. Digər siyasi azadlıqlar, qanunun aliliyi, iqtisadi tərəqqi və islahatlar uğurlu inkişafı şərtləndirdi. Siyasi islahatlar və azadlıqlar olmadan davamlı uğur qazanmaq

mümkün deyildi. Çünki siz uğuru müəyyən vaxt üçün əldə edə bilərsiniz, lakin davamlı uğur üçün insanlara əsas azadlıqları təmin etməlisiniz. Çünki hər bir kəs anadan azad doğulur və insanlar azad cəmiyyətdə, təhlükəsizlikdə və bütün əsas azadlıqların müdafiə olunduğu şəraitdə yaşamalıdırlar.

Buna görə siyasi islahatlara iqtisadi islahatlarla dəstək verdik. İqtisadi islahatlar olmadan siyasi islahatları həyata keçirmək çox çətindir. Özünü təmin edən güclü iqtisadiyyatın qurulması bizim məqsədimiz idi. Bunun sayəsində etimad, iqtisadi müstəqillik və nəhayət, siyasi müstəqillik təmin olundu. Siyasi müstəqilliyi, müstəqil siyasəti iqtisadi əsaslar olmadan təmin etmək çətindir. Özünü təmin edən iqtisadiyyata malik olmayan, digər ölkələrdən asılı olan ölkələrə gəldikdə isə, onların özləri də müəyyən dərəcədə siyasi baxımdan asılıdır. Buna görə hər bir ölkə əvvəlcə özünün iqtisadi müstəqilliyini təmin etməlidir. Belə halda siz özünüzü azad, əmin, güclü hiss edəcəksiniz və öz mülahizələrinizi irəli sürə bilərsiniz. Onlar da bir daha ədalətə və beynəlxalq hüquqa əsaslanmalıdır.

Azərbaycanda bu gün də davam etdirdiyimiz iqtisadi islahatlar rəqəmlərdə əks olunur. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyat olub. Bizim üçün ən böyük nailiyyətlərdən biri təkcə ondan ibarət deyil ki, son illər ərzində iqtisadiyyatımız 3 dəfə artıb. Həmçinin yoxsulluq və işsizlik də 5 faizə qədər azalıb. Bu həmçinin daha çox gənclərə yardımçı olan amildir. Çünki biz böyük əmək qüvvəsinə, müsbət demoqrafik vəziyyətə malik olan ölkəyik. Buna görə iş yerlərinin yaradılması daim həyata keçirilməlidir. Biz son 10 il ərzində 1 milyon 300 min iş yeri açmışıq və işsizlik sosial bəla kimi, Azərbaycanda artıq mövcud deyil. Xarici borcumuz ümumi daxili məhsula nisbətdə çox aşağıdır. Bu, yalnız 8 faiz təşkil edir və o deməkdir ki, biz daha çox maliyyə resurslarını cəlb edə bilərik, lakin biz bu rəqəmi keçməməyə çalışırıq. Çünki ümumi daxili məhsul-xarici borc nisbəti iqtisadi sabitliyin əsas elementlərindən biridir. Bilirik ki, daim borc götürən ölkələr bir gün onu yüksək faizlə qaytarmalıdır.

Biz burada siyasətçilərin məsuliyyəti məsələsinə toxunuruq. Çünki burada gələcəyin bir çox mühüm siyasətçilərini görürəm. Siz ölkələrinizdə yüksək vəzifələr tutacaqsınız. Buna görə siyasi xadimlərin siyasi məsuliyyəti, iqtisadiyyat üzərində məsuliyyət, həmçinin çox əhəmiyyətli məsələdir. Bilirik ki, bəzən müəyyən ölkələrdə bəzi seçki kampaniyalarında, siyasi vəziyyətlərdə insanlara böyük vədlər verilir ki, onların əmək haqları, pensiyaları artacaq və «cənnət» yaranacaq. İnsanlar bu sözlərə inanaraq həmin siyasətçilərə səs verirlər. Siyasətçilər isə öz vədlərini yerinə yetirməlidirlər, lakin bunu edə bilmirlər, çünki iqtisadi məhdudiyyətlər var. Bu halda onlar nə edirlər? Başlayırlar beynəlxalq maliyyə təsisatlarından, digər ölkələrdən borc götürməyə. Bu bir piramidaya oxşayır. Dayanmadan kreditlər yığırlar və bir gün hər şey dağılır. Lakin kim əziyyət çəkir? Yenə də adi insanlar. Həmin populist bəyanatlara aldanmış insanlar əziyyət çəkir, çünki onların maaşları, pensiyaları azaldılır, iş yerləri ixtisar edilir və s.

Buna görə hər bir ölkənin iqtisadi mövqeyi real vəziyyətə əsaslanmalıdır. İslahatları necə aparmaq lazımdır? Bunu etmək çətin deyil. Sərmayələri necə cəlb etmək lazımdır? Yaxşı biznes mühiti, sabit siyasi vəziyyət və proqnozlaşdırılan gələcək olmalıdır. Bu halda sərmayədar gələ bilər, çünki onları sərmayə qoymağa başqa cür dəvət etmək çox çətindir. Qlobal bazarlarda iqtisadi və maliyyə böhranı yenə də davam edir. Bu sahədə müəyyən təcrübəmiz var, iqtisadiyyatımız davamlıdır, çoxşaxəlidir və irəliyə doğru rəvan şəkildə gedir. Davamlı inkişaf isə əsas hədəfimiz olub.

Sessiyalarda sizi müzakirələr gözləyir. Bildirmək istəyirəm ki, qonaqlarımızı burada qəbul etmək bizim üçün böyük şərəfdir. Fikrimcə, forum nəinki müzakirələr, o cümlədən Azərbaycan haqqında çox şeyi bilmək, ölkəmizi daha yaxşı tanımaq imkanı baxımından vacib olacaq. Ümid edirəm ki, bu günlər xatirinizdə qalacaq. Azərbaycan öz prioritetlərini və məqsədlərini aydın şəkildə müəyyən etmiş gənc, müstəqil, dinamik və müasir ölkədir. Biz Azərbaycan gəncləri kimi,

böyük potensial, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq.

Bu forumda bizimlə iştirak etdiyinizə görə minnətdaram. Sizə ən xoş arzularımı çatdırır və uğurlar arzulayıram.

Çox sağ olun.

## BMT-nin NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da BMT-nin ictimai məlumat şöbəsinin rəhbəri Maher Nasseri, BMT Baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavini, Avropa Şurasının demokratiya üzrə baş direktoru Snejana Samardjiç-Markoviçi və YUNESKO baş direktorunun köməkçisi Lalla Aişa Ben Barkanı qəbul etmişdir.*

*BMT-nin ictimai məlumat şöbəsinin rəhbəri Maher Nasser Gənclər siyasəti üzrə birinci qlobal forumun yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi, Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O, BMT-nin Baş katibi Pan Gi Munun tədbirə böyük maraq göstərdiyini vurğuladı və Baş katibin forum iştirakçılarına videomüraciətinin önəmini qeyd etdi. Maher Nasser Gənclər siyasəti üzrə birinci qlobal forumun ilk dəfə Bakıda keçirilməsinin gənclər siyasəti sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından çox önəmli olduğunu dedi.*

*BMT Baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavi tədbirin BMT-nin Gənclər siyasəti üzrə ilk qlobal forumu olmasının önəmini vurğuladı. O, forumun bu günədək bu sahədə ən çox ölkə və nümayəndənin bir araya gəldiyi tədbir olduğunu qeyd etdi. Ahmad Rafi Mohamad Alhendavi forumun yüksək səviyyədə keçirilməsinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Gənclər siyasəti üzrə birinci qlobal forumun Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

*BMT-nin Baş katibi Pan Gi Munun foruma ünvanladığı videomüraciətini tədbirə beynəlxalq səviyyədə verilən önəmin ifadəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın artıq çox nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini qeyd etdi, bunun ölkələr və xalqlar arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı.*

# KÜVEYTİN GƏNCLƏR MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ŞEYX SALMAN SABAH SALEM ƏL-HAMUD ƏS-SABAH İLƏ GÖRÜŞ

*29 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Küveytin Gənclər Məsələləri üzrə Dövlət naziri Şeyx Salman Sabah Salem əl-Hamud əs-Sabahı qəbul etmişdir.*

*Nazir Şeyx Salman Sabah Salem əl-Hamud əs-Sabah Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əs-Cabir əs-Sabahın, Küveyt Şahzadəsi və Baş nazirinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Qonaq Bakıda keçirilən Gənclər siyasəti üzrə birinci qlobal forumun işə başlaması münasibətilə prezident İlham Əliyevi və bütün Azərbaycan xalqını təbrik etdi. Ölkəmizdə olmağından məmnunluq hissi keçirdiyini deyən Küveytin Dövlət naziri dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Küveytə səfərini və Küveyt rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında mövcud olan əlaqələrin ikitərəfli əməkdaşlığın yaxşı nümunəsi olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan ilə Küveytin beynəlxalq təşkilatlar çərçivəsində də daim bir-birini dəstəkləməsinin və maraqlarını müdafiə etməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında gənclər siyasəti sahəsində əlaqələri genişləndirməyin vacib olduğunu bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Küveyt Dövlətinin Əmiri, Şahzadəsi və Baş nazirinin salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmiri, Şahzadəsi və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VESNA PUSİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Xorvatiya Respublikası Baş nazirinin birinci müavini, Xarici və Avropa İşləri üzrə naziri Vesna Pusiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında son illər ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə dinamik inkişafından məmnunluq ifadə olundu, enerji sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirildi və bu baxımdan «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# MACARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRİ PETER SİYARTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyartonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, son vaxtlar bu münasibətlərin dinamik inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın yaxşı perspektivlərinin olduğu qeyd edildi.*

*İkitərəfli əlaqələrimizin turizm, gənclər, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, hava nəqliyyatı və digər sahələrdə daha da genişləndirilməsi müzakirə olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA MİLLİ ASSAMBLEYASININ ÜZVÜ JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Fransa Milli Assambleyasının üzvü, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, yüksək səviyyədə keçirilən görüşlərin, o cümlədən Fransaya son səfəri zamanı prezident Fransua Ollandla keçirdiyi görüşün əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Fransada təsis olunmuş Azərbaycanın Dostları Assosiasiyasının fəaliyyətinin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Rəhbərlik etdiyi qurumda Fransa cəmiyyətinin müxtəlif təbəqələrinin nüfuzlu nümayəndələrinin birləşdiyini diqqətə çatdıran Jan-Fransua Mansel Azərbaycan ilə Fransanın bir-birini daha yaxından tanıması üçün səylərini əsirgəməyəcəklərini dedi. Ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli siyasi və iqtisadi əlaqələrin bu işə öz müsbət təsirini göstərəcəyinə ümidvar olduğunu qeyd edən Jan-Fransua Mansel onlara göstərilən diqqət və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələr, həmçinin Ermənistan–Azər-*

*baycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ SİLVİA MAYER KAYBİÇ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Avstriya Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Silvia Mayer Kaybiçi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, yüksək səviyyəli görüşlərin və qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmi vurğulandı.*

*İqtisadi əməkdaşlığın razılıq doğurduğu bildirilərək, Azərbaycanda iqtisadiyyatın bir sıra sahələrində Avstriya şirkətlərinin səmərəli fəaliyyət göstərdiyi vurğulandı, əlaqələrimizin bundan sonra daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.*

## ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ TAKEHİKO NAKAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq icra olunan layihələrin ölkəmizin iqtisadi inkişafı, o cümlədən müasir infrastrukturun yaradılması işinə töhfə verdiyini qeyd etdi.*

*Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakao Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi. O, gələn il Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının Azərbaycanda keçiriləcək 48-ci illik toplantısının əhəmiyyətinə toxunaraq ölkəmizdə bu tədbirin yüksək səviyyədə təşkil olunacağına və xeyli sayda ölkənin dövlət və özəl sektorunun nümayəndələrinin bu toplantıda təmsil olunacağına əminliyini vurğuladı.*

*Prezident İlham Əliyev Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 2015-ci ildə Bakıda keçiriləcək 48-ci illik toplantısının beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi, ölkəmizin dünyaya yüksək səviyyədə təqdim olunması, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə daha yaxından tanış olmaq baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Asiya İnkişaf Bankı ilə əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə əminliyini bildirdi.*

## DÜNYA BANKININ VİTSE-PREZİDENTİ LORA TAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Lora Takın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanda iqtisadi fəaliyyətin daha da optimallaşdırılması, xidmət sahəsində həyata keçirilən genişmiqyaslı islahatların, o cümlədən ölkəmizdə yaradılan «ASAN xidmət» tərəfindən görülən işlərin əhəmiyyəti vurğulandı. Bildirildi ki, Dünya Bankı Azərbaycanda həyata keçirilən iqtisadi layihələrə öz dəstəyini verməkdə maraqlıdır.*

*Söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ DEVİD LİDİNQTON İLƏ GÖRÜŞ

*5 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonu qəbul etmişdir.*

*Böyük Britaniyanın Avropa Məsələləri üzrə naziri Devid Lidinqton Bakıda böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə olduğu bildirildi, iqtisadi əməkdaşlıq sahəsində energetikanın prioritet təşkil etdiyi vurğulanaraq bu istiqamətdə Böyük Britaniyanın bp şirkətinin Azərbaycanın əsas tərəfdaşı olduğu qeyd edildi, mühüm infrastruktur layihələrinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edildi.*

**KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ**

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün birgə səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamboca xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2014-cü il*

## MACARISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Macarıstana işgüzar səfərə gəlmişdir.*

*Budapeştin Ferents List Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Macarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Budapeşt*

*11 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın noyabrın 11-də geniş tərkibdə görüşü olmuşdur.*

*Macarıstanın Baş naziri Azərbaycan Prezidentini parlament binasının önündə qarşıladı.*

*Sonra rəsmi foto çəkdirildi.*

*Macarıstan hökumətinin üzvləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Baş nazir Viktor Orbana təqdim olundu.*

*Geniş tərkibdə görüşdə çıxış edən Macarıstanın Baş naziri Viktor Orban prezident İlham Əliyevin səfərinin əhəmiyyətini yüksək qiymətləndirdi, ölkənin parlamentində və ümumiyyətlə, siyasi həyatında Azərbaycana böyük marağın olduğunu vurğuladı. «Bizim hər birimiz ölkənizdə əldə olunan tərəqqini böyük heyranlıqla izləyirik» – deyən Baş nazir Viktor Orban Azərbaycanın iqtisadi tərəqqisinin, o cümlədən qeyri-neft sektorunun uğurlu inkişafının Macarıstanda maraqla izlənildiyini diqqətə çatdırdı. Macarıstanın Baş naziri onunla prezident İlham Əliyev arasında dostluq münasibətlərinin ikitərəfli əməkdaşlığımızın inkişafında rolunu vurğuladı, əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.*

* * *

*Sonra prezident İlham Əliyev çıxış etdi. Azərbaycan Prezidenti qeyd etdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir və əlaqələrimiz qarşılıqlı etimada söykənir. Ölkələrimiz arasında güclü siyasi əlaqələrin olduğunu deyən prezident İlham Əliyev iqtisadi sahədə də münasibətlərin*

uğurla inkişaf etdiyini, ticarət dövriyyəsinin artdığını və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin mövcudluğunu vurğuladı. İmzalanacaq sənədlərin əhəmiyyətindən danışan dövlətimizin başçısı onların ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yaxşı hüquqi baza yaratdığını bildirdi.

Söhbət zamanı əlaqələrimizin yeni imkanlarının nəzərdən keçirilməsinin önəmi vurğulandı, birgə hökumətlərarası Komissiyanın fəaliyyətinin bu baxımdan əhəmiyyəti qeyd edildi. Azərbaycan ilə Macarıstan arasında enerji, təhsil, humanitar, əczaçılıq, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın perspektivlərinin müəyyən edilməsinin vacibliyi diqqətə çatdırıldı.

Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, həmçinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq, regional və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

## BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASI MƏRASİMİ

*Budapeşt*

*11 noyabr 2014-cü il*

*Azərbaycan Prezidenti İlham Əliyevin və Baş nazir Viktor Orbanın geniş tərkibdə görüşündən sonra noyabrın 11-də Azərbaycan ilə Macarıstan arasında Birgə Bəyannamənin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban «Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni imzaladılar.*

*Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev və Macarıstanın İqtisadi Tənzimləmələr üzrə Dövlət katibi Bela Qlatfelder «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Budapeşt şəhərinin meri İştvan Tarloş «Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) ilə Budapeşt Şəhər Meriyası (Macarıstan) arasında dostluq və əməkdaşlıq haqqında Protokol»u imzaladılar.*

*Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev və Macarıstanın Qida Məhsullarına Nəzarət üzrə Dövlət naziri Robert Şiqo «Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Macarıstanın Kənd Təsərrüfatı Nazirliyi arasında heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu imzaladılar.*

*Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev və Macarıstanın Milli İnkişaf naziri Miklos Şestak*

*«Azərbaycan Respublikası Hökuməti ilə Macarıstan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş»i imzaladılar.*

*Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov və Macarıstanın Milli İnkişaf naziri Miklos Şestak «Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Macarıstanın Milli İnkişaf Nazirliyi arasında Azərbaycan Respublikasında Regional Məlumat Mərkəzinin yaradılması və innovativ texnologiyaların tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto «Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto «Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında 2015–2017-ci illər üzrə İş Proqramı»nı imzaladılar.*

# MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Budapeşt*

*11 noyabr 2014-cü il*

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra noyabrın 11-də Macarıstanın Baş naziri Viktor Orban və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış etmişlər.*

## Macarıstanın Baş naziri Viktor Orbanın bəyanatı

Xanımlar və cənablar! Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi böyük səmimiyyətlə salamlamaq istəyirəm. Gördüyünüz kimi, biz bir sıra mühüm strateji sənədləri imzaladıq. Aydındır ki, bu sazişlər həm Macarıstanın, həm də Azərbaycanın maraqlarına xidmət edir. Eyni zamanda, imzalanmış bu sənədlər Avropa İttifaqının da maraqlarına uyğundur. Çünki 1996-cı ildən etibarən Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq sazişləri imzalanmışdır. Daha sonra bu sazişlər bir neçə dövlət tərəfindən ikitərəfli əsasda yenilənmişdir. Bunların sayəsində Azərbaycan ilə çox uğurlu əməkdaşlıq həyata keçirilir. Çox şadam ki, Macarıstan da həmin Avropa İttifaqı dövlətlərinin sırasındadır və ölkələrimiz arasında uğurlu əməkdaşlıq davam edir.

Xanımlar və cənablar, ölkələrimiz arasında bənzərliklər çoxdur. Biz Azərbaycanı çox dəyərli bir tərəfdaş kimi qiymətləndiririk. Çünki Azərbaycan Avropa və Asiya arasında böyük bir körpüdür.

Azərbaycan enerji resurslarından səmərəli istifadə yolu ilə iqtisadiyyatının digər sahələrini də uğurla inkişaf etdirərək dünya liderinə çevrilmiş bir ölkədir. Burada Azərbaycanı ona görə vurğulamaq istərdim ki, ölkənin Prezidenti, eyni zamanda, cənab

Prezidentin mərhum atası Heydər Əliyev də dövlətçiliyin gücləndirilməsində böyük işlər görüb. Azərbaycana səfər edən hər bir insan bunun şahidi olur. Onun xatirəsinə böyük və dərin ehtiramımız vardır.

Cənab Prezident, ölkələrimiz arasında imzalanmış sənədlər iqtisadi inkişaf baxımından çox gözəl şərait yaradır. Bu gün mən onu qeyd edə bilərəm ki, bu il Macarıstanda iqtisadi artım 3 faiz təşkil edir. Təbii ki, Azərbaycan dövlətinin başçısının yanında bu rəqəmlərlə öyünmək bir az çətindir. Biz belə bir razılığa gəldik ki, hər 2 ölkə dinamik şəkildə inkişaf edir və qarşılıqlı tələbatı nəzərə alaraq müxtəlif sahələri daha da inkişaf etdirə biləcəyik. Ticarət dövriyyəsi artmaqdadır. Amma qeyd etmək istərdim ki, potensialımız daha böyükdür. Bu gün imzaladığımız sənəd bizdə böyük ümid doğurur ki, gələcək illərdə də əməkdaşlığımıza çox güclü bir təkan veriləcəkdir. Mən cənab Prezidentə təşəkkürümü bildirmək istərdim ki, Macarıstana özü ilə işgüzar dairələrin nümayəndələrindən ibarət böyük bir nümayəndə heyəti gətirib.

Bizim xüsusi əhəmiyyət verdiyimiz sahələrdən biri enerjidir. Bu hazırda dünya siyasətinin prioritet məsələlərindən biridir. Bu sahədə bir çox müzakirələr aparılır, amma zənnimcə, konkret işlər görən ölkələr azdır. Bu sahədə Azərbaycan nümunə ola bilər.

Mən cənab Prezidentə bir daha dedim ki, ölkə üçün bizim prioritetimiz enerjinin qiymətini ABŞ səviyyəsinə çatdırmaqdan ibarətdir. Bunun üçün isə bizim tərəfdaşlara ehtiyacımız var və burada Azərbaycan müstəsna rol oynaya bilər. Bu bizim strateji maraqlarımıza uyğundur. Bu, təkcə Macarıstan üçün deyil, Avropa İttifaqı üçün də çox vacibdir ki, Azərbaycan qazı Avropaya nəql edilsin. Hazırda imzalanan sazişlər nəticəsində Azərbaycan qazı Cənubi Avropaya nəql ediləcəkdir. Növbəti illərdə isə müvafiq infrastruktur yaradılmalıdır ki, Azərbaycan qazı Mərkəzi Avropaya yol tapsın. Bunun üçün qonşu dövlətlər öz aralarında əlaqələndirici kəmərlər inşa etməlidirlər. Bu sahədə Avropa İttifaqı olduqca az iş görüb. Amma biz nümunəvi ölkə olmalıyıq və qonşu ölkələrdən qaz ala biləcəyimizi nümayiş etdirməliyik. Bunun üçün isə biz bütün imkanlardan və fürsətlərdən istifadə edəcəyik.

Diqqətinizə çatdırmaq istərdim ki, bu regionda heç də bütün dövlətlər bizim kimi düşünmür. Bizim bir neçə qonşumuz var ki, hələ də bu sahədə müvafiq şərait və imkanlar yarada bilməyib. Bunu etmədən biz Azərbaycan qazını Macarıstana nəql edə bilməyəcəyik. Ona görə də bu fürsətdən istifadə edərək qonşu dövlətlərə səslənirəm və Avropa İttifaqındakı tərəfdaşlarımızı vahid enerji bazarının yaradılması üçün zəruri addımlar atmağa dəvət edirəm.

Xanımlar və cənablar, burada ikinci məsələ isə insan amilidir. Bizim əməkdaşlığımızın tərkib hissələrindən biri də təhsil sahəsidir. Biz müvafiq sənəd imzaladıq və bunun sayəsində 200 azərbaycanlı tələbə Macarıstanda təhsil alacaqdır.

Biz paytaxtlar arasında da əməkdaşlığı təşviq etmək əzmindəyik. Bu gün bizim çox ümidverici müzakirələrimiz oldu. Əminəm ki, vahid məqsədləri vurğulamış olduq. Bizim məqsədlərimizdən biri isə Macarıstan universitetlərindən birinin fakültəsinin Azərbaycanda açılmasıdır. Bizim ali təhsil ocaqlarımız bu işdə azərbaycanlı həmkarları ilə çalışmağa hazırdır. Bir sıra digər sahələr də müəyyən etmişik. Hər 2 hökumətin üzvlərinə müraciət edərək onları bu işdə əllərindən gələni əsirgəməməyə dəvət edirəm. Çünki biz iqtisadi və təhsil sahələrində bütün imkanlardan bəhrələnə bilsək, bir çox işləri görmüş olarıq. Cənab Prezident, bir daha Sizi Macarıstanda salamlayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Hörmətli Baş nazir, əziz dostlar!

İlk növbədə, cənab Baş nazir, məni ölkənizə dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Dünən və bu gün keçirdiyimiz görüşlər, apardığımız fikir mübadiləsi bir daha onu göstərir ki, əlaqələrimiz doğrudan da strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Bir daha qeyd etmək istəyirəm ki, Budapeştdə olmaq həmişə böyük sevincdir. Çünki Budapeşt dünyanın ən gözəl şəhərlərindən biridir. Sizin rəhbərliyinizlə və

Budapeşt sakinlərinin istəyi ilə şəhər, tarixi keçmişiniz qorunur, bütün tarixi binalar bərpa edilir və bu, haqlı olaraq Sizə, ölkənizə, xalqınıza bizim etimadımızı, inamımızı və hörmətimizi artırır.

O ki qaldı bizim ikitərəfli münasibətlərimizə, biz bu əlaqələrin inkişafına böyük nikbinliklə baxırıq. Əminəm ki, gələcəkdə bu əlaqələr daha da sürətlə inkişaf edəcək. Bu gün imzalanan sazişlər də əslində bizim niyyətimizi göstərir. Onu göstərir ki, bizim əlaqələrimiz çoxşaxəlidir, müxtəlif sahələri – iqtisadi, siyasi, humanitar sahələri əhatə edir. Əlbəttə ki, bu sazişlərin arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə xüsusi yer tutur. Çünki bu, müfəssəl bir sənəddir, bizim gələcək illərdə birgə icra ediləcək layihələrimizin uğurla nəticələnəcəyini təmin edəcəkdir. Deyə bilərəm ki, strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında mümkün olan sazişlər üçün də gözəl zəmindir. Çünki bu sənəddə əməkdaşlığımızın bütün istiqamətləri öz əksini tapıb. Əlbəttə, bu səviyyəyə çatmaq üçün siyasi əlaqələr prioritet xarakter daşıyır. Bu əlaqələr çox müsbətdir, gözəldir.

Hörmətli cənab Baş nazir, Siz Azərbaycana 2 dəfə səfər etmisiniz. Bu isə mənim Macarıstana üçüncü səfərimdir. Yəni son bir neçə il ərzində bu qədər səfərlərin həyata keçirilməsi, əlbəttə ki, əlaqələrimizin yüksək səviyyədə olduğunu göstərir. Eyni zamanda, bu gözəl siyasi əlaqələr iqtisadi sahəyə də müsbət təsir göstərir. Birgə hökumətlərarası Komissiya uğurla fəaliyyət göstərir. Bu gün imzalanan sazişlər və biznes-forum çərçivəsində imzalanacaq sazişlər, əlbəttə, ticarət dövriyyəmizin artmasına gətirib çıxaracaq. Halbuki bu ilin nəticələrinə görə ticarət dövriyyəmiz bir neçə dəfə artmışdır. Biznes dairələrinin qarşılıqlı marağı kifayət qədər böyükdür və gələcək illərdə birgə həyata keçiriləcək layihələr ticarət dövriyyəmizin artmasına gətirib çıxaracaq. Qarşılıqlı sərmayə qoyuluşu, informasiya-kommunikasiya sahəsində əməkdaşlıq, ticarət dövriyyəsinin artması, əlbəttə, energetika sektorundakı əməkdaşlıq – bütün bunlar bizim üçün prioritetdir.

Şadam ki, Macarıstan şirkətləri Azərbaycan bazarında daha da fəal iştirak edirlər. Onların müxtəlif layihələrdə – inşaat, nəqliyyat,

kənd təsərrüfatı, infrastruktur, su təchizatı və digər layihələrdə iştirakı gözlənilir. Bizim gözəl əlaqələrimiz var və bu əlaqələr, əlbəttə, biznes qurumlarının birgə fəaliyyətinə ancaq müsbət təsir göstərəcək.

O ki qaldı enerji məsələlərinə, burada bizim əməkdaşlığımız üçün çox gözəl imkanlar var. Azərbaycan Avropa üçün yeni enerji mənbələrinin təmin edilməsində öz rolunu oynayır. Azərbaycan «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarıdır. Şadam ki, «Cənub Qaz Dəhlizi» artıq icra edilir. 2 ay bundan əvvəl Bakıda təntənəli mərasim keçirilmişdir və biz artıq yeni qaz kəmərinin tikintisinə başlayırıq. Əslində bu, Avropanın enerji xəritəsinə yeni əlavələr edəcək, enerji xəritəsi dəyişdiriləcək və Azərbaycanın çox zəngin qaz resursları Avropa bazarına nəql ediləcəkdir.

Bizim «Cənub Qaz Dəhlizi» ilə bağlı konkret iş qrafikimiz var. Əminəm ki, Azərbaycan qazı Avropaya vaxtında – 2018–2019-cu illərdə nəql ediləcəkdir. Burada, əlbəttə, əlaqələndirmə işləri yüksək səviyyədə aparılmalıdır. Həm ikitərəfli formatda, həm də Avropa İttifaqı ilə Azərbaycan arasındakı məsələlər də öz həllini tapmalıdır. Çünki biz, istəyirik ki, bu layihəni vaxtında icra edək. Çünki bu həm bizə, həm də Avropaya lazımdır. Bu, Avropa üçün yeni, alternativ bir qaz mənbəyi olacaq. Bizim üçün isə Avropa bazarı ən əlverişli bazardır. Burada bizim maraqlarımız birləşir. Eyni zamanda, tranzit, istehlakçı ölkələrin və Azərbaycanın maraqları da burada üst-üstə düşür. Biz yaxın vaxtlarda bu məsələ ilə bağlı Macarıstan–Azərbaycan ikitərəfli formatında danışıqlara başlamaq qərarına gəldik. Əminəm ki, bu danışıqların gözəl nəticələri olacaqdır. Çünki biz istəyirik ki, çox böyük qaz resurslarımız Avropa ölkələrinə maksimum dərəcədə nəql edilsin. Əlbəttə, burada böyük investisiyadan söhbət gedir. Bu investisiyanın böyük hissəsini Azərbaycan öz üzərinə götürüb. «Cənub Qaz Dəhlizi»nin ilkin hesablamaları belədir ki, minimum 45 milyard dollar sərmayə qoyulmalıdır. Əlbəttə, bu gün dünyada və Avropada, bizim bölgədə davam edən iqtisadi və maliyyə böhranı hələ ki, başa çatmayıb. Bu şəraitdə bu qədər

vəsaitin qoyulması, əlbəttə, bizim ciddi niyyətimizi və siyasi iradəmizi əks etdirir.

Əlbəttə, enerji məsələləri çox vacibdir. Ancaq humanitar sahə də çox böyük önəm daşıyır. Fürsətdən istifadə edərək, cənab Baş nazir, Sizə minnətdaram ki, azərbaycanlı tələbələr üçün 200 yerlik təqaüd ayırmısınız. Macarıstan tərəfi bu təqaüdlərin təminatını təşkil edəcəkdir. Bu bizə böyük dəstəkdir və bizə olan hörmətin əlamətidir. Eyni zamanda, azərbaycanlı tələbələr Macarıstanda oxuyarkən Sizin qədim tarixinizi daha da dərindən biləcəklər. Onlar bir növ Macarıstanın və Azərbaycanın səfirləri olacaqlar və öz gələcəklərini bundan sonra Macarıstanla bağlayacaqlar. Bu da insanlar arasındakı əlaqələrə çox müsbət təsir göstərir. Əlbəttə, biz çox istəyirik ki, Macarıstanın ali məktəbləri Azərbaycanda filiallarını açsınlar. Bu məsələ də dünən və bu gün müzakirə edildi. Əminəm ki, biz birgə səylərlə buna da nail olacağıq. Digər məsələlər – turizm, aviareyslərin təşkili, bütün digər məsələlər bizi daha da sıx birləşdirəcək.

Ancaq bir daha demək istəyirəm ki, əlaqələrimizin təməlində güclü siyasi iradə var və hər 2 tərəf bu iradəni göstərir. Əminəm ki, gələcəkdə biz daha da gözəl işlər görəcəyik. Fürsətdən istifadə edərək, cənab Baş nazir, Sizin üçün münasib olan vaxtda Sizi Azərbaycana dəvət edirəm ki, biz bu gözəl dialoqu davam etdirək. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

## AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMUNDA İŞTİRAK

*Budapeşt*

*11 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban noyabrın 11-də Budapeştdə keçirilən Azərbaycan–Macarıstan biznes-forumunda iştirak etmişlər.*

*Forumun aparıcısı, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto ölkəmiz, onun yerləşdiyi coğrafi region barədə tədbir iştirakçılarına məlumat verdi, son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf proseslərindən danışdı. O, son 10 ildə iqtisadi sahədə ölkəmizdə əldə olunan artım tempinin davam etdiyini və bunun da bir çox sahələrin inkişafına ciddi təkan verdiyini vurğuladı. Son illərdə Azərbaycan ilə Macarıstan arasında uğurlu siyasi-iqtisadi əməkdaşlığın yarandığını bildirən Xarici İşlər və Ticarət naziri bu biznes-forumun əhəmiyyətini vurğuladı, onun ikitərəfli əməkdaşlığa mühüm töhfə verəcəyini bildirdi.*

*Dövlət başçıları biznes-forumda çıxış etdilər*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş nazir!

Hörmətli nazirlər, əziz dostlar!

İlk növbədə, cənab Baş nazir, mənə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə bu auditoriyada da Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizin gözəl ölkənizdə olmağımdan çox məmnunam. Biz dünən axşamdan başlayaraq bu günə qədər Sizinlə birlikdəyik və çox səmimi danışıqlar aparmışıq. Əminəm ki, bu danışıqların çox gözəl nəticələri olacaq. Beləliklə,

Macarıstan–Azərbaycan əməkdaşlığı, dostluğu uğurla davam edəcəkdir.

Cənab nazirin çıxışında qeyd olundu ki, bu gün bizim aramızda strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. Bu, tarixi bir sənəddir. İlk növbədə ona görə ki, Macarıstan–Azərbaycan əlaqələrinin gələcəyini müəyyən edir. Demək olar ki, bütün sahələr o Bəyannamədə əksini tapıb. Biz haqlı olaraq bir-birimizi strateji tərəfdaş adlandırırıq. Eyni zamanda, həmin sənədin mahiyyəti ondan ibarətdir ki, Avropa İttifaqının üzvü olan Macarıstan bu Bəyannaməni Azərbaycan ilə qəbul edib. Beləliklə, gələcəkdə mümkün olan Avropa İttifaqı–Azərbaycan əlaqələrini tənzimləyən sənəd üçün gözəl əsas vardır.

Mən bir məqamı xüsusi qeyd etmək istəyirəm. Çünki hər 2 ölkənin biznes qurumlarının burada əyləşən nümayəndələri yaxşı bilirlər ki, biznes imkanlarının genişləndirilməsi və biznes qurumlarının rahatlığı üçün mütləq 2 ölkə arasında çox səmimi münasibətlər olmalıdır. Biznes nümayəndələri özlərini məhz dost ölkələrdə rahat hiss edirlər, onların işi daha da uğurlu olur.

Bizim ikitərəfli əlaqələrimiz ən yüksək səviyyədədir. Bundan əvvəlki dövrlərdə hörmətli cənab Baş nazirlə bizim çoxsaylı görüşlərimiz olub. O, Azərbaycana 2 dəfə səfər edib. Mən isə 3-cü dəfədir ki, Macarıstandayam. Biz qısa müddət ərzində, sözün əsl mənasında, strateji tərəfdaşlıq münasibətlərini qurduq. Bu gün bu münasibətlər yeni mərhələyə qədəm qoyur. Beləliklə, siyasi əlaqələr sizin üçün – bu salonda əyləşənlər üçün gözəl imkanlar yaradır. Siz bu imkanlardan çox səmərəli istifadə etməlisiniz. Mən çox istəyirəm ki, Azərbaycanda Macarıstan şirkətlərinin sayı çoxalsın. Buna nail olmaq üçün son illər ərzində bir çox tədbirlər görülüb. Ticarət dövriyyəmiz qısa müddət ərzində böyük dərəcədə artıb. Artım üçün yeni imkanlar var.

Biznes-forum çərçivəsində imzalanan sazişlər də konkret xarakter daşıyır və onlar müxtəlif sahələri əhatə edir. Beləliklə, gələcəkdə Macarıstan şirkətlərinin Azərbaycandakı fəaliyyəti daha da təsirli olacaqdır. Biz istəyirik ki, bütün layihələrimizdə Macarıstan şirkətləri iştirak etsin. Layihələr isə çoxdur.

Azərbaycanda çox böyük işlər görülür, investisiya qoyuluşu təmin edilir. Təkcə keçən il ölkə iqtisadiyyatına 28 milyard dollar sərmayə qoyulub. Onların 70 faizi daxili investisiyalardır. Daxili investisiyaların böyük əksəriyyəti dövlət xətti ilə qoyulan sərmayədir. Bu sərmayə infrastruktur layihələrinə – inşaat, nəqliyyat, kənd təsərrüfatı sektorlarına qoyulur. Macarıstan şirkətlərinin bu sahələrdə çox böyük təcrübəsi, dünya miqyasında çox gözəl nüfuzu vardır. Odur ki, mən gələcəkdə bizim biznes qurumlarının arasında əməkdaşlığı belə görürəm. Macarıstan şirkətləri həm investisiya qoyuluşu üçün – hər 2 tərəf buna maraqlı olmalıdır və hər 2 tərəfdə belə niyyət var – eyni zamanda, podratçı, yəni kontraktor kimi Azərbaycana dəvət olunurlar.

Artıq bir neçə dəfə biznes -forum keçirilib. Ancaq ilk dəfədir ki, ölkə rəhbərləri bu tədbirdə iştirak edirlər. Biz bu iştirakla əslində öz marağımızı və siyasətimizi ortaya qoyuruq. Biz istəyirik ki, gözəl siyasi əlaqələrimiz möhkəm iqtisadi əlaqələrlə də tamamlansın. Buna nail olmaq üçün bütün imkanlar var. Macar şirkətləri hansı sahələrdə daha da uğurla fəaliyyət göstərə bilər? Hesab edirəm ki, energetika sahəsində. Çünki gələcəkdə bu sahədə bizim aramızda çox sıx əməkdaşlıq olacaq. Azərbaycanın icra etdiyi «Cənub Qaz Dəhlizi» layihəsi həm bizim region, həm də Avropa üçün böyük imkanlar açır. Yeni kontraktlar icra ediləcək, inşaat sahəsində böyük işlər görüləcək. Bu layihə çərçivəsində ən azı 45 milyard dollar investisiya qoyuluşu gözlənilir. Macarıstan şirkətləri, əlbəttə ki, bu layihələrdə iştirak etməlidirlər. Nəqliyyat sektorunda böyük imkanlar vardır.

Mən bilirəm ki, Macarıstan şirkətləri Azərbaycanda nəqliyyat infrastrukturunda işlər görəcək. Biz nəinki regionumuz üçün, qitələr üçün böyük əhəmiyyətə malik olan dəmir yolu layihəsini yaxın illərdə tamamlayacağıq. Bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirir. Bildiyiniz kimi, Azərbaycan Asiya ilə Avropa arasında olan ölkədir. Bu dəmir yolu əslində yükdaşımalarının böyük dərəcədə artırılmasına xidmət göstərəcəkdir. Bakıda – Xəzər dənizinin sahilində yeni böyük ticarət limanı tikilibdir ki, onun

yükaşırma qabiliyyəti tam işə başlayandan sonra 25 milyon ton olacaqdır. Yəni nəqliyyatda böyük imkanlar yaranır.

Energetika, kənd təsərrüfatı sahələrində Macarıstanın çox böyük təcrübəsi var. Biz də kənd təsərrüfatının inkişafına böyük önəm veririk. Çoxsaylı subsidiyalar verilir ki, biz özümüzü kənd təsərrüfatı məhsulları ilə tam şəkildə – 100 faiz təmin edək, daha idxaldan asılı olmayaq. Bu sahədə də artıq əməkdaşlıq edilir. Bunun gözəl nəticələri vardır.

Bu gün imzalanan sazişlər arasında informasiya-kommunikasiya sahəsini xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan bu sahəyə də investisiyalar qoyur. Artıq birinci Azərbaycan telekommunikasiya peyki – «Azərspace-1» orbitə çıxarılıbdır. Biz ikinci və üçüncü peyklərin orbitə buraxılması ilə bağlı işlər aparırıq, bu sahədə də imkanlar var. Yəni bunlar perspektivli sahələrdir. Bu sahələrdəki infrastruktur layihələrinin icrasında Macarıstan şirkətləri çox fəal iştirak edə bilərlər. Bilirəm ki, su təsərrüfatının təkmilləşdirilməsi üçün indi Macarıstan şirkətləri Azərbaycanda bizimlə əməkdaşlıq edəcəklər. Həmçinin digər sahələrdə – kənd yollarının, magistral yolların, dəmir yollarının tikintisində də. Bütün bu sahələr bu gün Azərbaycanın qısamüddətli inkişaf proqramında öz əksini tapıb. Sadəcə olaraq, bu layihələrə qoşulmaq lazımdır. Bir daha demək istəyirəm, çıxışımın əvvəlində səsləndirdiyim kimi, bu gün bizim aramızda olan əlaqələr o qədər yüksək səviyyədədir ki, həm Azərbaycan, həm Macarıstan investorları, şirkətlər özlərini rahat hiss edəcəklər. Buna zəmanət verən 2 ölkənin rəhbərləridir ki, bu gün sizin yanınızdadırlar.

O ki qaldı Azərbaycanın ümumi inkişafına, deyə bilərəm ki, bu inkişaf çox dinamikdir. Son illər ərzində böyük iqtisadi inkişafa nail olunub. İqtisadi vəziyyət sabitdir. Dünyada hələ davam edən iqtisadi və maliyyə böhranı, demək olar ki, Azərbaycana böyük təsir etməmişdir. Biz hətta böhranlı illərdə iqtisadi artıma nail ola bilmişik. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 38-ci yerə layiq görübdür. Bu da aparılan islahatların nəticəsidir. Yəni bu gün Azərbaycan

iqtisadiyyatı hələ ki, neft-qaz amilindən asılı olsa da, bu asılılıq o qədər də böyük deyil. Bizim ümumi daxili məhsulda neft-qaz sektorunun çəkisi təxminən 45 faizdir, bəlkə ondan da azdır.

Bizim istəyimiz iqtisadiyyatı şaxələndirməkdir. Buna nail olmaq üçün dövlət infrastruktur layihələrinə investisiyalar qoyur, sənaye müəssisələrinin yaradılmasına dəstək verir, özəl sektora güzəştli şərtlərlə kreditlər ayırır, xarici investorları və firmaları cəlb edir ki, onlar öz təcrübələrini bizimlə bölüşsünlər. Azərbaycanın dinamik inkişafı ölkədə biznes dairələri üçün gözəl imkanlar yaradır. Çünki bizim gələcək iqtisadi inkişafımız da müsbət olacaqdır.

Azərbaycanda işsizlik, demək olar ki, tamamilə aradan qaldırılır, təxminən 5 faiz səviyyəsindədir. Siyasi sabitlik mövcuddur. Siyasi sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. İndi əksər ölkələrdə siyasi böhranlar yaşanır. İnvestorlar o ölkələrə heç vaxt investisiya qoymazlar. Bu gün heç bir ölkə investisiyasız inkişaf edə bilməz. İndi investisiyalar uğrunda rəqabət aparılır, mübarizə gedir. Ona görə bu sahədə Azərbaycan üçün gözəl imkanlar var. Dövlətin və hökumətin düşünülmüş strategiyası var. Biz dinamik inkişafımızı bundan sonra da davam etdirməliyik və neftdən, qazdan asılılıq minimum səviyyəyə düşməlidir. Buna nail olmaq o qədər də asan deyil. Çünki icrası nəzərdə tutulan «Cənub Qaz Dəhlizi» Azərbaycanın neft-qaz potensialını gələcəkdə daha da artıracaq. Beləliklə, qeyri-neft sektoru gərək daim çalışsın ki, neft sektorunu üstələsin.

Macarıstanda gözəl investisiya imkanları var. Bizim şirkətlər və dövlət qurumları bunu araşdırırlar. Əminəm ki, birgə səylərlə, hökumətlərarası Komissiyanın bilavasitə iştirakı və tövsiyəsi ilə investisiya layihələri də icra ediləcək. Beləliklə, biz daha da möhkəm əməkdaşlıq çərçivələri müəyyən edəcəyik. Siyasi əlaqələr yüksək səviyyədə olduğu üçün iqtisadi sahədə də mütləq daha böyük inkişaf olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq.

Çıxışımın sonunda Macarıstana və macar xalqına Azərbaycan xalqı adından bir daha dərin hörmətimi bildirmək

istəyirəm. Biz Macarıstanda gedən prosesləri maraqla izləyirik. Sizin təcrübəniz bir daha onu göstərir ki, harada hökumət milli maraqları müdafiə edir, xalq da o hökuməti müdafiə edir. Macarıstan bu gün bu regionda müstəqillik simvoludur. Bilin ki, dünyanın müxtəlif yerlərində sizin fəaliyyətiniz izlənilir, sizə baxırlar və sizin uğurunuza sizin dostlarınız sevinir, o cümlədən biz Azərbaycan da. Son parlament seçkilərində böyük qələbə qazanmış mənim dostum cənab Baş nazir Viktor Orban ölkəni inamla idarə edir və ona verilən səslər milli maraqlara verilən səslərdir. İndiki zəmanədə, xüsusilə bəzi beynəlxalq qurumlar çərçivəsində müstəqil siyasət aparmaq o qədər də asan məsələ deyil. Ancaq xalq hər şeyi görür və görülən işlərə qiymət verir. Biz buna sevinirik. Bu onu deməyə əsas verir ki, sizin gələcəyiniz çox uğurlu, parlaq olacaq. Biz də sizin dostlarınız olaraq buna baxıb sevinəcəyik.

Mənə və Azərbaycandan gələn bütün qonaqlara göstərdiyiniz qonaqpərvərliyə görə sizə bir daha minnətdaram, sizin hamınızı Azərbaycana dəvət edirəm. Sağ olun.

## Macarıstanın Baş naziri Viktor Orbanın çıxışı

Xanımlar və cənablar!

Möhtərəm cənab Prezident, mənim və bizim hər birimiz üçün böyük şərəfdir ki, Sizi bu gün Macarıstanda salamlayırıq. Macarıstanda belə bir atalar sözü var: «Bir kəs ki, meşədə ağacı görmürsə, o kordur». Həqiqətən də cənab Prezidentin çıxışı onu nümayiş etdirdi ki, uzaqdan baxanda hər şey aydın görünür. Cənab Prezident tərəfindən proseslər olduqca aydın təsvir edildi. Həqiqətən də çox sadə və açıq şəkildə ifadə etdi ki, gələcək suveren dövlətlərindir. Bəzi ölkələrdə bu gün çətinliklər yaşanır, öz milli maraqlarını aydın şəkildə vurğulaya, milli təsisatları qura bilmir, bununla da dost və tərəfdaş ölkələrdən məhrum olurlar. Digər ölkələrdən yardım istəyən ölkələr də var. Xanımlar və cənablar, bu ölkələrin gələcəyi yoxdur. Bütün bəşəriyyət bu gün çox çətin və mürəkkəb dövr yaşayır.

Münaqişə regionlarına diqqət yetirsəniz, bu gün bunları hesablamaq üçün əlimizdəki barmaqlar çatmaz. Bu gün xəbərlərə baxanda görürük ki, dünyanın müxtəlif yerlərində insanlar əzab-əziyyət, iztirab içindədirlər. Çünki bəzi dövlətlərdə səriştəli rəhbərlik yoxdur.

Xanımlar və cənablar, uzun müddət belə bir düşüncə var idi ki, gələcək beynəlxalq təsisatlarla bağlıdır. Təbii ki, burada müəyyən həqiqət vardır. Məsələn, Avropa İttifaqı, Avropa Komissiyası, Avropa Şurası vacib təsisatlardır. Təbii ki, xoş zamanlarda bu təsisatlar müasir avtomaşınlara bənzəyir. Yəni sürücünün müdaxiləsi olmadan da öz məntəqələrinə vara bilirlər. Amma iqtisadi tənəzzülün və çağırışların olduğu bir vaxtda biz görürük ki, həmin o müasir avtomaşınlara artıq səriştəli sürücülər lazımdır və həmin müasir avtomaşınlar müasir dövlətlərdir. Bu dövlətlərə uzaqgörən və səriştəli rəhbərlər lazımdır. Təbii ki, müxtəlif idarəçilik formaları var. Amma burada əsas məsələ, mahiyyət bənzərlikdən ibarətdir. Günün sonunda konkret strategiya lazımdır və həmin ölkələr də uzaqgörən siyasətçilər vasitəsilə o strategiyaya uyğun irəli aparılmalıdır. Mən azərbaycanlı dostlarımıza hər zaman deyirəm ki, tənəzzül nəticəsində ən böyük əziyyət çəkən Macarıstan oldu. Çox adam Yunanıstan haqqında danışır. Amma xatırladıram ki, 2008-ci ildə iqtisadiyyatı tənəzzülə uğrayan ən birinci ölkə biz olmuşuq. Biz 2008-ci ildən başlayaraq yeni mərhələyə qədəm qoymuşuq. Bu gün onu vurğulaya bilərik ki, biz iqtisadi artım baxımından Avropa İttifaqında ikinci yerdə qərarlaşmışıq. Təbii ki, siyasi rəhbərlik, xalqın dəstəyi, sabit siyasi mühit olmasaydı, bu, mümkün olmazdı. Mən hər zaman xalqıma minnətdaram ki, 2008-ci ildən 4 il keçəndən sonra, 2012-ci ildə artıq bizim gözəl iqtisadi perspektivlərimiz vardır.

Azərbaycan–Macarıstan biznes əlaqələrindən danışanda ancaq oxşarlıqlar nəzərə çarpır. Hər 2 ölkə əməkdaşlığı davam etdirməkdə qərarlıdır. Bizim birgə dəyərlərimiz var və biz onları müəyyən edərək mütərəqqi siyasətimizi aparırıq. Bizim oxşar cəhətlərimizdən biri də odur ki, ənənəvi dəyərlərə böyük önəm

veririk. Artıq Avropada belə bir təsəvvür var ki, hər bir məsələ ilə bağlı tənqid etmək olar, hər şeyə istehza ilə yanaşmaq olar. Amma mən bu yanaşma ilə razı deyiləm. Biz hər bir məsələni zarafata çevirməməliyik. Ailə, xalq və millət zarafat mövzusu deyil. Qürur çox vacib kateqoriyadır. Ona görə hər bir millətə və xalqa layiq olduğu hörmət, ehtiram göstərilməlidir. Bu bizim prioritet istiqamətimizdir və bu baxımdan da bu gün biz bu salonda belə bir ölkənin dövlət başçısını salamlayırıq. Əmin edə bilərəm ki, cənab Prezident, biz bu regionda da məhz bu siyasəti yeridirik.

Xanımlar və cənablar, iqtisadi nailiyyətlər baxımından bənzərliklərdən danışmaq bir az mübaliğə olardı. Çünki burada bir balaca öyünməyə imkan yoxdur. Azərbaycan bu sahədə standartları olduqca yüksək səviyyəyə qaldırmışdır. Bildiyimə görə, 2010-cu ildən bəri Azərbaycanın ümumi daxili məhsulu 17 faiz artıb. Məndə olan rəqəmlərə görə, son illərdə də 5-7 faiz artım olub. Macarıstanda isə artım 3 faiz təşkil edib. Bu, Avropa məkanında olduqca yüksək göstəricidir, biz də bundan fərəhlənirik.

Xanımlar və cənablar, biz Azərbaycan ilə əməkdaşlığımızın nəticələrini böyük məmnuniyyətlə, böyük diqqətlə müşahidə edirik. Azərbaycanın öz enerji resurslarından istifadə edərək digər sahələrdə inkişafın təmin olunmasında böyük nailiyyətləri var və bu bizim üçün geniş imkanlar açıb. Zəngin enerji ehtiyatları olan Azərbaycan müasir dövlət və iqtisadiyyat yaradır ki, bu da investorlar üçün çox cəlbedicidir.

Xanımlar və cənablar, gələcəklə bağlı bəzi fikirlərimi bölüşmək istərdim. Faktlar bəllidir, proqnoz verilir ki, növbəti bir neçə il ərzində Avropa iqtisadiyyatı və onun özəyi olan avrozona olduqca inkişaf edən bir məkana çevriləcək. Təəssüflər ki, bu belə deyil, belə nikbin proqnozların əsası yoxdur. Azərbaycanın templərinə baxsaq, Avropa İttifaqı olduqca ləng inkişaf edəcək. Təbii ki, avrozona layihəsi bu gün tənəzzülə uğrayıb. Biz avrozonanın üzvü olmasaq da, bu layihələrin irəliləməsində, avrozonanın inkişafında maraqlıyıq. Çünki bizim məhsullar əsasən Avropa ölkələrinə ixrac olunur.

Xanımlar və cənablar, bu gün əziyyət çəkən Avropa regionlarını müqayisə etsək, iqtisadi lokomotiv məhz Mərkəzi Avropa olacaq. Mən burada heç də Macarıstanı deyil, bütün regionu qeyd etmək istəyirəm. Çünki Avropanın gələcək iqtisadi inkişaf xəritəsinə baxsanız görəcəksiniz ki, Polşa, Çexiya, Slovakiya və Macarıstan burada aparıcı rol oynayacaqdır. Uzun müddət ərzində Macarıstan bu siyahıya daxil edilmirdi. Amma bu, artıq keçmişdə qalıb. Bu ildən sonra Macarıstan bu siyahıda aparıcı mövqelərdə yerləşəcək və biz inkişafa öz töhfəmizi vermiş olacağıq. Bizim sabit iqtisadi, maliyyə, bank, büdcə sistemimiz var və ixracımız artmaqdadır. Bizdən tələb olunan odur ki, ölkəmizi sabit körpüyə çevirək. Yəni qeyri-Avropa İttifaqı ölkələrinin işgüzar dairələri bizim ölkə vasitəsilə Avropa ilə əməkdaşlıq etsin. Azərbaycanlı iş adamları da Macarıstanı məhz potensial körpü kimi nəzərdən keçirməlidirlər. Buna mühüm töhfə verən odur ki, biz Macarıstanın tarixində ən böyük iqtisadi inkişaf proqramını icra etməyə başlayacağıq və bununla da ölkəmizin hüdudlarından kənarda da daha mühüm rol oynayacağıq. Bizim münbit iqtisadi artımımız var. Amma burada rəqəmlər təbii ki, artmalıdır. İllər öncə mən Bakıda oldum. Təsəvvür edin, Rumıniyada olanda bu ölkənin Prezidenti israr etdi ki, sən mütləq Azərbaycana getməlisən. Tanrının izni ilə və bir növ təsadüf nəticəsində mən Azərbaycana səfərə gəldim, enerji layihəsinin müzakirəsinə qatıldım. Cənab prezident İlham Əliyev ilə tanışlığım o zamandan başlandı və həmin gündən bizim dostluğumuz, əməkdaşlığımız uğurla inkişaf edir.

Cənab Prezident bir sıra nümunələri qeyd etdi, icazənizlə, bir neçə sahəni də mən qeyd edim. Biz bu gün belə bir saziş imzaladıq ki, 200 azərbaycanlı tələbə təqaüd proqramı üzrə Macarıstanda təhsil alacaq. Biz bunu danışıqlarımızda müzakirə etdik. Mətbuata bəyanatımızda da enerji sahəsi cənab Prezident tərəfindən vurğulandı. Bizim «MOL» adlı dövlət neft şirkətimiz var. Bu şirkət artıq Azərbaycanda fəaliyyət göstərir və əməkdaşlığı genişləndirmək üçün yeni imkanları araşdıracağıq. Burada bizim birgə baxışımız ondan ibarətdir ki, Azərbaycanın təbii qazı

Mərkəzi Avropaya nəql edilməlidir. Bu o qədər də asan məsələ deyil. Bildiyiniz kimi, Nabukko uğursuzluğa düçar olub. Bu gün «Cənub Qaz Dəhlizi»nin inşası – təbii ki, bu marşrut bir qədər Cənubi Avropa istiqamətində inşa olunacaq – bizim üçün mühüm əhəmiyyət kəsb edir ki, biz Xorvatiya ilə də müvafiq razılaşma əldə edək, eləcə də Xorvatiya ilə Macarıstanın sistemlərini birləşdirə və bu layihə nəticəsində Azərbaycan qazını Avropaya gətirə bilək. Çünki Rusiya qazından savayı, bu bizim ikinci alternativ yolumuz olacaq. Biz rəqabətli enerji qiymətlərindən danışırıqsa, burada əlavə şaxələndirməyə ehtiyac var. Bu gün Macarıstan Avropa İttifaqına səslənir ki, bizim tərəfdaşlarımız artıq qərar verdikləri layihələrlə bağlı işləri sürətləndirsinlər və yeni fürsətlər üçün qapılar açsınlar.

Biz bu gün tez-tez eşidirik. «Macarıstan elə bir tələbədir ki, professorlardan da yaxşı nəticə göstərir». Biz müxtəlif sahələrdən, mənbələrdən enerji əldə etsək, digər tərəflərlə bölüşə bilərik. Amma təəssüflər olsun ki, bəzi hallarda biz müəyyən təcridlərlə üzləşirik və qarşımıza müəyyən məhdudiyyətlər qoyulur.

Xanımlar və cənablar, iqtisadi və ikitərəfli əməkdaşlıq baxımından da görüləcək işlərimiz çoxdur. Kənd təsərrüfatı sahəsini qeyd etmək istərdim. Səhiyyə də bizim üçün çox maraqlı sahədir. Mən belə başa düşürəm ki, gələcəkdə bu sahələrdə gözəl əməkdaşlıq imkanları vardır. Cənab Prezident, qeyd etdiyiniz kimi, su resurslarının idarə edilməsində də bizim müəyyən təcrübəmiz vardır və bu təcrübəni sizinlə bölüşə bilərik.

Xanımlar və cənablar, azərbaycanlı dostlarımıza demək istərdim ki, uzun müddət idi Macarıstan haqqında danışanda deyirdilər: «Macarıstan hara birləşəcək, hansı bloka birləşəcək?» Yəni bizim tariximizi nəzərə alsanız, bu bizə qarşı ədalətsizlik idi. Amma bu gün bizim xarici və iqtisadi siyasətimiz ortaya belə bir sual qoyur ki, biz kiminlə əməkdaşlıq etməliyik? Bu çox yanlış sualdır və buna yanlış cavablar axtarılır. Biz bütün tərəfdaşlara bərabərhüquqlu, bərabər tərəfdaşlar kimi baxırıq. Amma milli maraqlarımıza gəldikdə, onları hər şeydən üstün tuturuq və xarici siyasətimizdə də bu bizim prioritet sahəmizdir. Elə bir münbit şərait yaradılmalıdır ki, Macarıstan çox uğurlu ölkə olması üçün

uğurlu əməkdaşlıq etsin. Hətta qarşıdurmada olan tərəflər də müəyyən uğura can atmalıdırlar. Bunun üçün dostluq, əməkdaşlıq, etibar və tərəfdaşlıq lazımdır.

Cənab prezident Əliyevə öz təşəkkürümü bildirirəm ki, onun simasında Azərbaycan bizim üçün dost ölkədir. İşgüzar dairələrin nümayəndələrinə deyə bilərəm ki, görülən işləri biz etmişik və artıq növbə sizindir. Bu yollar genişdir. Siz bu yollarla cəsarətlə və uğurla irəliləməlisiniz. Sağ olun.

* * *

*Daha sonra forum çərçivəsində Azərbaycan və Macarıstan şirkətləri arasında ümumi əməkdaşlıq, məlumat mübadiləsi, tədbirlərin təşkilində qarşılıqlı dəstək, yeni müəssisələrin yaradılması, daşınmaz əmlakın inkişafı və idarə edilməsi, Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən yeni və innovativ müəssisələrin inkişafına töhfə vermək məqsədilə investisiya imkanlarının yaradılmasına dəstəklə bağlı müxtəlif sənədlər imzalandı. İmzalanan sənədlərdə kənd təsərrüfatı, heyvandarlıq və ovçuluq, həmçinin nəqliyyat və su təchizatı ilə bağlı məsələlər də əksini tapdı.*

## MACARISTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*Budapeşt*

*11 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Budapeştdə Macarıstan Milli Televiziyasının müxbiri Bolaş İmreyə müsahibə vermişdir.*

**S u a l: Əvvəlcə, bizə müsahibə verdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü və dinamik iqtisadiyyata malik olan ölkəyə çevrilib. Bu necə baş verdi?**

**C a v a b:** Əslində, son 10 il ərzində Azərbaycan əhəmiyyətli iqtisadi inkişaf dövrünü yaşamışdır. Bu gün Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü iqtisadiyyata malik olan ölkədir. Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz regionunun iqtisadiyyatında 75 faizdən artıq paya malikdir.

Biz çoxsaylı iqtisadi islahatlar həyata keçirmişik və həmçinin dünyanın aparıcı energetika şirkətləri tərəfindən neft və qaz sektoruna investisiyaların yatırılmasına nail olmuşuq. Buna görə də enerji amili üstəgəl islahatlar və enerji ehtiyatlarının satışından əldə etdiyimiz aktivlərin insan kapitalına investisiya qismində yatırılması bizə iqtisadiyyatımızı şaxələndirmək imkanını verdi.

Bu gün biz enerjidən heç vaxt olmadığı kimi az asılıyıq və ümumi daxili məhsulun 50 faizdən çoxu qeyri-neft sektorunda istehsal edilir. Həmçinin beynəlxalq təşkilatlar bizim nailiyyətlərimizi tanıyır. Bu yaxınlarda Davos İqtisadi Forumunun reytinqində Azərbaycan iqtisadiyyatı qlobal rəqabətqabliyyətliliyinə görə 38-ci yeri tutmuşdur. Beləliklə, bu, iqtisadi islahatların göstəricisidir.

Maliyyə vəziyyəti sabitdir, xarici borc ümumi daxili məhsulun təqribən 8 faizini təşkil edir. Biz həmçinin işsizliyin və

yoxsulluğun çox aşağı səviyyəyə – təqribən 5 faizə qədər azaldılmasına nail olmuşuq. Bizim yaxşı perspektivlərimiz var, çünki iqtisadiyyat dinamikdir və vəziyyət sabitdir. Üstəgəl bizim bu gün beynəlxalq və Avropa bazarlarına çıxardığımız enerji ehtiyatları, əlbəttə ki, ölkəmiz üçün gələcəkdə əlavə imkanlar yaradacaq.

**S u a l: Azərbaycan Avropa İttifaqına üzv olan bir çox dövlətlərlə strateji sazişlər imzalamışdır. Siz Macarıstanla da belə bir razılaşma imzalamağa hazırlaşırsınız. Azərbaycan bu ölkələrə nə verə bilər?**

**C a v a b:** Bir neçə dəqiqə bundan əvvəl biz Baş nazir Viktor Orban ilə Macarıstan və Azərbaycan arasında strateji tərəfdaşlıq üzrə Birgə Bəyannaməni imzaladıq. Sizin də qeyd etdiyiniz kimi, Avropa İttifaqının bəzi üzvləri ilə də oxşar sənədləri imzalamışıq. Bu bizim niyyətlərimizi, eləcə də əməkdaşlığımızın səviyyəsini nümayiş etdirən tarixi bir sənəddir. Bu gün Macarıstan və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu sənəd bir çox sahələri – siyasi, iqtisadi, enerji, mədəniyyət və investisiya sahələrini əhatə edir. Düşünürəm ki, belə münasibətlər və sənədlər Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək potensial sazişin əsasını təşkil etməlidir. Biz bu ideyanı neçə illərdir ki, təbliğ etdik. Mən Avropa təşkilatlarının və Avropa İttifaqının rəhbərləri ilə olan təmaslarımda Avropa İttifaqı ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sazişinin əhəmiyyətini dəfələrlə qeyd etmişəm. Çünki enerji, təhlükəsizlik, ticarət, investisiyalar kimi sahələr, siyasi əlaqələr – bütün bunlar strateji əməkdaşlıq üçün əsas təşkil edir.

Hesab edirəm ki, bizim Macarıstan və Avropa İttifaqının digər dost ölkələri ilə ikitərəfli əlaqələrimiz gələcək əməkdaşlıq üçün yaxşı, möhkəm zəmindir. Biz Avropa İttifaqına yaxın olmaq istəyirik. Avropa İttifaqı öz üzvlərini dəstəkləyən dünya təşkilatının ən yaxşı təcrübəsini əks etdirir. Avropa İttifaqının standartlarına müvafiq yüksək həmrəylik səviyyəsinə çatmaq üçün hər bir ölkə cəhd etməlidir, o cümlədən də Azərbaycan. Buna görə də bizim Avropa İttifaqı ilə münasibətlərimiz praqmatik yanaşmaya əsaslanmalıdır. Biz bir-birimizə nə verə bilərik, qarşılıqlı maraq təşkil edən sahələr hansılardır, regionumuzda bir-

birimizlə qarşılıqlı əlaqədə necə olacağıq, hansı çağırışlar var? Düşünürəm ki, bu, irəliləmək üçün ən yaxşı yoldur. Strateji maraq, enerji təhlükəsizliyi, siyasi və regional təhlükəsizlik bir-biri ilə bağlıdır.

**S u a l: Siz Avropa üçün vacib məsələ olan enerji təhlükəsizliyini də qeyd etdiniz. Gələcəyin enerji təhlükəsizliyinə Azərbaycanın daxil olması nə üçün vacibdir?**

**C a v a b:** Əlbəttə, Avropa təşkilatları ilə münasibətlərimizdə enerji təhlükəsizliyi əsas prioritet təşkil edəcəkdir, lakin biz bununla kifayətlənmirik. Azərbaycan artıq öz investisiyaları ilə Avropa bazarına daxil olur. Biz indi təkcə Azərbaycana yox, həm də xaricə sərmayələr yatıraraq investisiya portfelimizi şaxələndiririk. Azərbaycan artıq Avropa İttifaqının bəzi üzv ölkələrinə yüz milyonlarla avro məbləğində investisiya yatırmışdır. Bu proses davam edəcəkdir. Biz Avropa İttifaqı və Azərbaycan arasında biznesin sadələşdirilməsi üzrə çox vacib saziş imzalamışıq. Bu bizim iş adamlarına və avropalılara bir-birilərinə daha asan çıxışı təmin edəcəkdir. Bu isə öz növbəsində xalqlar arasında əlaqələri gücləndirəcək. Çünki xalqlar arasında əlaqələr olmadan istənilən siyasi çərçivə bütöv deyil.

Enerji məsələsinə gəldikdə, bizim böyük enerji ehtiyatlarımız var. Biz bu ehtiyatları Avropa bazarına çıxarmaq üçün artıq çoxlu səylər göstərmişik. Avropa İttifaqının bəzi üzvləri neftin 40 faizini Azərbaycandan əldə edirlər. İndi isə biz Avropanın enerji xəritəsini tamamilə dəyişəcək «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçiririk. Bizim təsdiq olunmuş minimum qaz ehtiyatlarımız 2,5 trilyon kubmetr səviyyəsindədir və daha da çox olacaq. Çünki biz hələ də kəşfiyyat işləri aparırıq. Hətta bu miqdar ən azından 100 il ərzində Avropa istehlakçıları üçün etibarlı qaz mənbəyinin olmasına kifayətdir.

2 aydan da az müddət öncə, yəni, sentyabr ayında biz möhtəşəm «Cənub Qaz Dəhlizi» layihəsinə start verdik. Artıq işlər başlanılıb. Bu layihə Azərbaycana bir çox Avropa ölkələri ilə əlaqələr yaratmağa və yeni müasir paylayıcı sistemin qurulmasına imkan verəcək. Biz elə bir paylayıcı sistem quracağıq ki, onun vasitəsilə 50

milyard kubmetrə qədər qaz nəql etmək mümkün olacaq. Bildiyimizə görə Avropa ölkələri arasında qaz kəmərlərini bir-birinə bağlayan layihələr də nəzərdən keçirilir. Düşünürəm ki, burada bizə sıx əlaqələndirmə işlərini aparmaq və Azərbaycan kimi istehsalçı, tranzit və istehlakçı ölkələr arasında maraqlar balansını qorumaq lazımdır. Bu, enerji təhlükəsizliyi və şaxələndirilməsi layihəsidir. Enerji təhlükəsizliyi olmadan fiziki təhlükəsizliyi təmin etmək çətindir və bu məsələlər bir-birinə bağlıdır.

Enerji sahəsində ikitərəfli münasibətlərimizə gəldikdə, bu gün Baş nazir Viktor Orban ilə bu məsələni geniş müzakirə etdik və bizim əməkdaşlıq üçün yaxşı perspektivlərimiz var. Biz Macarıstanı enerji əməkdaşlığı sahəsində tərəfdaş hesab edirik və Azərbaycan qazının Macarıstana hansı marşrutlarla gətirilməsini dəyərləndiririk. Bu, Bolqarıstan–Rumıniya–Macarıstan marşrutu, ya da Balkan ölkələrindən keçəcək, sonradan da Xorvatiyadan Macarıstana gedəcək İoniya–Adriatik boru kəməri layihəsi ola bilər. Hansı marşrutun bizim hamımız üçün münasib olması məsələsi dəyərləndirilməlidir. Bizim icra etdiyimiz «Cənub Qaz Dəhlizi» layihəsini və Azərbaycanın qaz ehtiyatlarını nəzərə alaraq şübhəm yoxdur ki, Azərbaycan və Macarıstan qaz sahəsində tərəfdaş olacaqlar.

**S u a l: Deyə bilərsinizmi ki, Azərbaycan və Macarıstan bir-birilərinin sərmayələrindən necə faydalana bilər?**

**C a v a b:** Əminəm ki, aramızda olan çox yaxın siyasi əlaqələr və artıq bu gün rəsmiləşdirdiyimiz strateji tərəfdaşlıq iqtisadi şaxələndirmə sahəsində praktiki əməkdaşlıq üçün yeni imkanlara yol açacaq. Məsələn, bu il qarşılıqlı ticarət dövriyyəsində artım 3 dəfədən artıq – 300 faizdən çox olmuşdur. Bunun səbəbi də hər 2 tərəfin siyasi iradə nümayiş etdirməsidir.

Bu gün bir azdan başlayacaq biznes-forumda biz bir neçə praktiki müqavilə və anlaşma memorandumlarını imzalayacağıq. Onlar bir çox sahələri əhatə edir. Macar şirkətləri Azərbaycandakı böyük inşaat layihələrində iştirak edəcəklər. Onlar ölkəmizdə bir neçə körpü tikəcəklər. Eyni zamanda, macar şirkətləri su təchizatı

və paylanılması ilə bağlı layihədə bizim tərəfdaşlarımız qismində çıxış edəcəklər.

Azərbaycana müxtəlif növ kənd təsərrüfatı məhsullarının çatdırılması üçün macar şirkətləri ilə kənd təsərrüfatı sahəsində artıq çox yaxşı iş təcrübəmiz var. Bu gün informasiya texnologiyaları sahəsində sənəd imzalanmışdır və burada söhbət Regional Məlumat Mərkəzinin yaradılmasından gedir. Turizm, dərman preparatlarının istehsalı, əczaçılıq sahələri kimi bir çox digər sahələr də mövcuddur. Azərbaycanda infrastruktur və inşaat ilə bağlı icra olunan bir çox layihələr var. Biz bu layihələrə tərəfdaşlıq üçün Avropadan bir çox şirkətləri Azərbaycana dəvət edirik. Biz dost ölkələrdən olan şirkətlərlə ortaq işbirliyi qurmaq istəyirik. Buna görə ticarət dövriyyəsinin 3 dəfədən çox artması səbəbsiz baş verməmişdir. Bunun səbəbi bizim sıx siyasi əlaqələrimiz, qarşılıqlı etibarımız və qarşılıqlı hörmətimiz olmuşdur. Baxmayaraq ki, üçqat artım çox yaxşı göstəricidir, lakin mövcud olan potensial bundan qat-qat böyükdür və biz Baş nazir Orban ilə potensialın böyük olduğunu müzakirə etdik. Biz investisiya sahələrində daha çox əməkdaşlıq etmək istəyirik. Biz hökumətinizin də prioritet hesab etdiyi sahələr üzrə Macarıstana investisiya yatırmaq üçün müxtəlif fikirləri nəzərdən keçiririk ki, uzun illər ərzində davam edəcək güclü iqtisadi tərəfdaşlıq qura bilək və hər 2 tərəf bundan yalnız faydalanacaq.

**S u a l: Bu çox vacibdir: Azərbaycan Macarıstana nə verə bilər? Ölkəniz iqtisadiyyatla bağlı bizə nə məsləhət verə bilər, yoxsa sadəcə, investisiyalarla kömək edə bilər? Necə ki, Macarıstan Azərbaycanda yol və körpülərin tikintisi ilə bağlı bunu edib.**

**C a v a b:** Əminəm ki, Macarıstana heç bir məsləhət lazım deyil. Sizin əhalinin böyük dəstəyini qazanmış çox dinamik, effektli hökumətiniz var. Son seçkilər də bir daha Baş nazir Viktor Orbanın yürütdüyü siyasətin milli maraqlara söykəndiyini və əhalinin əksəriyyəti tərəfindən dəstəkləndiyini nümayiş etdirdi. Buna görə də siz doğru yoldasınız və biz də sizin dostunuz kimi, əldə etdiyiniz bu möhtəşəm nailiyyətinizə görə sizi və

hökumətinizi yalnız təbrik edə bilərik. Çünki ölkəniz indi müstəqil və milli maraqlara söykənən siyasət yürüdən ölkələrin rəmzidir və bu da həm sizin, həm də bizim hökumətimiz üçün yüksək prioritet təşkil edir. Aramızda bir çox oxşarlıqlar var, ola bilsin ki, bu oxşarlıqlar bizi birləşdirir.

Praktiki cəhətdən Azərbaycanın sərmayə ilə daxil olduğu istənilən ölkədə biz investisiya sahələri üzrə hökumət qurumları ilə məsləhətləşmələr aparırıq. Biz təbii ki, prioritet olmayan sahələrə investisiya yatıran tərəfdaş olmaq istəmirik. Biz bu layihələrə biznes və əlaqələrimizin gücləndirilməsi nöqteyi-nəzərindən baxırıq. Buna görə də bu sahələr turizm, hotel biznesi, infrastruktur, ağır sənaye ola bilər. Biz Macarıstanda, o cümlədən Azərbaycanda birgə investisiya layihələrini təşkil edə bilərik. Beləliklə, çoxlu imkanlar var və biz onları reallaşdırmağa hazırıq. Mənim səfərim və Baş nazir ilə dünən və bu gün apardığım müzakirələr əsasən bu yeni fürsətlərin dəyərləndirilməsinə, üstəgəl Macarıstandan Azərbaycana daha çox şirkətlərin dəvət edilməsinə yönəlib. Bu gün biznes-forumda, əlbəttə ki, Azərbaycanda mövcud biznes imkanları ilə bağlı təqdimat keçiriləcək. Növbəti illərdə biz nə etməyi planlaşdırırıq və xarici şirkətlərin bizə qoşulması üçün imkanlar nədir? Əlbəttə, bizim gələcəkdə yeni layihələrimiz və yaxşı nəticələrimiz olacaq.

**M ü x b i r:** Müsahibə verdiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri noyabrın 11-də başa çatmışdır.*

*Budapeştin Ferents List Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Macarıstanın yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Fələstin Dövlətinin Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Fələstin dostluğu xalqlarımızın iradəsini əks etdirərək bundan sonra da əməkdaşlığımızın dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 noyabr 2014-cü il*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 noyabr 2014-cü il*

*Azərbaycan Respublikasına noyabrın 12-də rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.*

*İranın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və prezident Həsən Ruhani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İran Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Həsən Ruhaniyə, İran nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Həsən Ruhani rəsmi foto çəkdirdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 noyabr 2014-cü il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Dövlət başçıları görüşdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Cənab Prezident, mənə məlumat verildi ki, bu gün Sizin ad gününüzdür. Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirəm, Sizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Şadam ki, bu gün Siz bizimlə bərabər Azərbaycandasınız. Bu Sizin prezident kimi, Azərbaycana ilk rəsmi səfərinizdir. Əminəm ki, səfər çox uğurlu keçəcək və ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir. Mən də İrana öz rəsmi səfərimi məmnuniyyətlə xatırlayıram. Bu ilin aprel ayında gözəl ölkənizdə oldum, Sizinlə geniş fikir mübadiləsi apardıq, bu gün isə bu dialoq davam etdirilir.

Şadam ki, Sizinlə bərabər böyük nümayəndə heyəti Azərbaycana gəlib. Nümayəndə heyətlərinin üzvləri bu gün bir-biri ilə sıx təmasda olacaq və çox önəmli məsələləri müzakirə edəcəklər.

Bizim əlaqələrimizin çox gözəl tarixi və gözəl gələcəyi var. İndi əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Çox geniş gündəliyimiz var. Siyasi, iqtisadi, mədəni, humanitar məsələləri müzakirə edirik. Əlaqələrimizin təməlində tarixi tellər, ortaq mədəniyyət tarixi dayanır ki, bu da inkişafda olan bugünkü əlaqələrimizin rəmzidir.

Mən əminəm ki, bu gün və sabah keçiriləcək danışıqlar, aparılacaq fikir mübadiləsi İran ilə Azərbaycan arasındakı əlaqələri daha da irəliyə aparacaq. Müzakirə ediləsi məsələlər çoxdur. Bütün məsələlər çox səmimi şəkildə müzakirə olunur. Bizim niyyətimiz də birdir – xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxın edək. Bu bizim əsas məqsədimizdir və bu hədəfə doğru inamla irəliləyirik.

Bir daha Sizi ürəkdən salamlayıram. Əminəm ki, səfərin çox gözəl nəticələri olacaq.

## İran prezidenti Həsən Ruhaninin çıxışı

Çox təşəkkür edirəm cənab Prezident!

Çox sevinirəm ki, nümayəndə heyəti ilə birlikdə bu gün aramızda ortaq dəyərlərin olduğu dost, qardaş və qonşu Azərbaycanda Sizin qonağınızıq. Biz bu səfəri əvvəlki görüşlərimizlə bərabər, elə bir səviyyədə qiymətləndiririk ki, qarşılıqlı əlaqələrin genişlənməsi və möhkəmlənməsi üçün irəliyə atılan addım olsun. Biz Davosda, Tehranda, Həştərxanda və bu gün də Bakıda görüşürük, müzakirələr aparırıq və artıq bu bizim dördüncü görüşümüzdür. Düşünürəm ki, biz 4 mərhələdə irəliyə doğru addımlar atmışıq. Şübhə yeri yoxdur ki, ölkələrimiz arasındakı əlaqələr 2 xalqın mənafeyinə xidmət edəcək. Ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi üçün mövcud olan imkanlardan yaxşı istifadə edə bilərik. Əvvəlki bütün danışıqlarda, məsul şəxslərin görüşlərində və əldə olunan razılaşmalarda biz 2 ölkə arasında mövcud olan imkanların yalnız cüzi hissəsindən istifadə etmişik. İqtisadi, mədəni, sərhəd məsələlərində, Xəzər dənizindən istifadə, həmçinin siyasi, beynəlxalq məsələlərdə əməkdaşlıq üçün böyük potensial var. Biz bu gün və sabah danışıqlarda bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün imkanlardan istifadə edəcəyik. Yaranan fürsətdən istifadə edib maraq doğuran bütün məsələlər haqqında müzakirələr aparacağıq. Şübhəsiz ki, bütün bu danışıqlar yaxın gələcəkdə növbəti əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə təsir göstərəcək.

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 noyabr 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirildi. Görüşdə ikitərəfli münasibətlərə, qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 noyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan–İran sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə İranın Enerji Nazirliyi arasında Anlaşma Memorandumunu İranın «Təvani» şirkətinin direktor müavini Davud Mənzur və Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Akim Bədəlov imzaladılar.*

*Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə İranın İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Anlaşma Memorandumunu İranın İqtisadi İşlər və Maliyyə naziri Əli Təyyibniyə və Azərbaycanın İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev imzaladılar.*

*Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İranın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunu, həmçinin Azərbaycan və İran hökumətləri arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunu İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi və Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov imzaladılar.*

*Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərhəd çaylarının nizamlanması və sahillərin mühafizəsi tədbirləri üzrə əməkdaşlıq haqqında Memorandumu İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

# QEYDLƏR

**1. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 5–32, 57, 128, 172.

**2. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 5–32, 44, 57, 164, 172, 173, 215, 251, 312, 329, 330, 340, 344.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi,

azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəl-

xalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 16, 31, 48, 57, 59, 83, 141, 142, 146, 172, 207, 229, 230, 231, 236, 243, 244, 326.

**4. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vasiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km,

gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılışı mərasimi olmuşdur. – 6.

5. **Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 6, 11, 16, 17, 19, 25, 26, 27, 28,29, 172.

6. **Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 7, 9, 10, 12, 16, 17–20, 28, 30, 258, 289, 290.

7. **Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 9–11, 13, 26, 30.

8. **Rosen Plevneliev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 9–11.

9. **Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7

min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 9, 11–12, 29, 30, 258.

**10. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 12, 15, 16, 17, 21, 271, 328, 332, 339, 343, 344.

**11. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 15–17.

**12. Tanər Yıldız** (d.1962) – Türkiyə siyasətçisi, mühəndis. 2009–2015-ci illərdə Türkiyə Cümhuriyyətinin Enerji və Təbii Sərvətlər naziri olmuşdur. – 17–20.

**13. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 20–21.

**14. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 22–23, 33, 153, 318.

**15. Klinton Bill,** Uilyam Ceferson Blayd (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi, 42-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 25.

**16. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 25, 26.

**17. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 25–28, 34, 191, 217, 236.

**18. *bp*,** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 28–31, 36.

**19. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 28–31, 36.

**20. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 31–32, 127.

**21. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 48, 50, 227–228, 265.

**22. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 45–47.

**23. İpək yolu**, böyük İpək yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək

yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 48, 73, 119, 216.

**24. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 55, 68, 111, 140, 192,229, 241, 243, 246, 248, 252, 253, 254, 255, 256, 257, 258, 259, 260, 261, 262, 279, 280.

**25. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 58–59, 68, 84– 87, 255–256, 277.

**26. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçiril-

məsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 61.

**27. Ramil Usubov,** R a m i l  İ d r i s  o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 70.

**28. İlyas Babayev**, İ l y a s  A t a b a b a  o ğ l u (d.1935–2017) – tarixçi arxeoloq, AMEA-nın müxbir üzvi, tarix elmləri doktoru, professor. – 72.

**29. Qafqaz Albaniyası,** A l b a n i y a (Qafqaz) – Şərqi Qafqazda qədim dövlət. İndiki Azərbaycan Respublikasının ərazisini və Dağıstanın cənub hissəsini əhatə edirdi. Təqribən e.ə. IV–III əsrlərdə formalaşdığı ehtimal olunur. Paytaxtı Qəbələ, V əsrdən isə Bərdə şəhəri idi. – 73.

**30. Abbasqulu ağa Bakıxanov,** ədəbi təxəllüsü Qüdsi (1794–1847) – Azərbaycan alimi, şair, maarifpərvər. Bakı xanı II Mirzə Məhəmmədin (1784–91) oğlu. 1828-ci ildə Türkməncayda Rusiya–İran danışıqlarında iştirak etmişdi. Bakıxanovun «Gülüstani-İrəm» (1841) əsəri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. – 73.

**31. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azər-

baycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 75, 114, 288, 301.

**32. Ann Brasör** (d.1950) – Lüksemburq siyasətçisi. 2014–2016-cı illərdə Avropa Şurası Parlament Assambleyasının sədri olmuşdur. – 75.

**33. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km², əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 76, 78–79, 80, 82–105, 120–125, 134–135, 184, 191, 271, 277.

**34. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km², əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 77.

**35. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 77.

**36. Vladimir Jirinovski** (d.1946) – dövlət xadimi, siyasətçi, türkoloq. 1992-ci ildən Rusiya Liberal Demokrat Partiyasının sədridir. 2000–2011-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının sədr müavini olmuşdur. Dövlət Dumasının deputatıdır. – 80.

**37. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 81, 284.

**38. Yoaxim Qauk** (d.1940) – Almaniyanın siyasi xadimi. 2012–2017-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 81.

**39. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 87.

**40. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 88–105, 121, 124, 134, 135.

**41. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hö-

kuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 88–105, 258, 349–352.

**42. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 88–105, 349–352.

**43. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 88–105.

**44. Nursultan Nazarbayev,** N u r s u l t a n  A b i ş  o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 88–105.

**45. Türkmənistan,** T ü r k m ə n i s t a n  R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 88–105, 136, 258, 283.

**46. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 88–105.

**47. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 90, 114,133, 135, 163, 202, 203, 291, 302, 303, 313, 318, 322.

**48. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 90, 114, 117, 133, 163, 190, 202, 203, 204, 212, 214, 303, 304.

**49. Valentina Matviyenko** (d.1949) – Rusiya dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiya Federal Məclisi Şurasının sədridir. – 120–126, 134–135.

**50. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 125.

**51. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 505,9 min km$^2$, əhalisi 46,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya kons-

titusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 154.

**52. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 163, 191, 292.

**53. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 177–182.

**54. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 178–182.

**55. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 125.

**56. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 190.

**57. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin dövlətinin prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 190.

**58. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 193–226.

**59. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi.1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 194–205.

**60. Akif Əlizadə,** Akif Ağamehdi oğlu (d.1934) – görkəmli geoloq-alim. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyası sədrinin müavini. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 200.

**61. TRASEKA** – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 202.

**62. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 202, 212, 263–264.

**63. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 202, 207.

**64. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi.

Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 249.

**65. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 $km^2$, əhalisi 330 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 253–262.

**66. İmamzadə piri,** İmamzadə türbəsi, Göy imam – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir. «Göy imam» adı da bununla əlaqədardır. – 253–254.

**67. Cavad xan** (? – 1804) – Gəncə xanı (1785–1804), Ziyadoğluları nəslindən idi. Cavad xan dövründə Qazax, Borçalı, Şəm-

səddil, Şamxor və s. yerlər Gəncə xanlığına daxil idi. Gürcüstan Rusiyaya birləşdikdə (1801) Cavad xan Şəmsəddilin qonşu 29 kəndini Gəncə xanlığına qatdı. 1803-cü ilin noyabrında çar generalı Sisianovun komandanlığı ilə Gəncəyə qoşun göndərildi. Sisianovun tabe olmaq tələbini rədd edən Cavad xan döyüşdə qəhrəmancasına həlak oldu. – 260.

**68. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 260.

**69. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 267, 313, 320–347.

**70. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 191, 273, 291–292, 314.

**71. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 273, 291, 292, 314.

**72. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 273, 274.

**73. Mixail Şmakov** (d.1949) – 1993-cü ildən Rusiya Federasiyası Müstəqil Həmkarlar İttifaqının sədridir. – 276.

**74. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 270, 282, 315.

**75. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 282.

**76. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 289.

**77. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 290.

**78. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 295.

**79. Əbdüləziz Buteflika** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. – 295.

**80. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i- k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 297.

**81. Dilma Roussef** (d.1947) – braziliyalı siyasətçi. 2011–2016-cı illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 297.

**82. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 126, 309.

**83. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 302.

**84. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 316.

**85. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir.

Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 317.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 31–32, 127
**Abdullayev Səbuhi** – 63
**Abıyev Əhəd** – 229
**Ader Yanoş** – 267
**Alhendavi Ahmad** – 309
**Andryön Pyer** – 191
**Aslov Sirociddin** – 200
**Ayma Evo** – 296
**Babayev İlyas** – 72
**Babayeva Gülər** – 54–55
**Bakıxanov Abbasqulu ağa** – 73
**Barrozu Joze** – 15–17
**Berdıməhəmmədov Qurbanqulu**– 88–105, 283
**Bələzuri** – 73
**Bokova İrina** – 130–131
**Böyük Plini** – 73
**Buteflikay Əbdüləziz** – 295
**Brasör Ann** – 75
**Cavad xan** – 260
**Cukanoviç Milo** – 14–15
**Dadli Robert** – 28–31, 36
**Davudoğlu Əhməd** – 290
**De Vinsenti Klaudio** – 23–25
**Dö Marjeri Kristof** – 273, 274
**Elizabet** – 260
**Ekklstoun Bernard** – 156
**Əl-Maliki Riyad** – 190
**Əl-Tani Mübarək** – 278
**Əl-Tüveycri Əbdüləziz** – 109, 131–133
**Əliyev Heydər** – 6, 16, 31, 48, 57, 59, 83, 141,

142, 146, 172, 207, 229, 230, 231, 236, 243, 244, 326
**Əliyeva Leyla** – 87
**Əliyeva Mehriban** – 55, 68, 111, 140, 192,229, 241, 243, 246, 248, 252, 253, 254, 255, 256, 257, 258, 259, 260, 261, 262, 279, 280
**Əlizadə Akif** – 200
**Ərdoğan Rəcəb Tayyib** – 289
**Əs-Sabah Salman** – 311
**Əsədov Heydər** – 200
**VI Felipe** – 154
**Fərəcov Zakir** – 141
**Fişer Hayntz** – 282
**Hüseynova Təyyibə** – 145
**Hadid Zaha** – 22
**Heydərov Kəmaləddin** – 200
**Hokstayn Amos** – 25–28, 34
**Gett Con** – 22
**Gəncəvi Nizami** – 202, 207
**İbrahim** – 254
**İmomov Mahmaisuf** – 208–220
**Jilkin Aleksandr** – 85–87, 277
**Jirinovski Vladimir** – 80
**Kasprşik Anji** – 191
**Kaybiç Silvia** – 315
**Klinton Bill** – 25
**Kerri Con** – 27–28
**Klark Helen** – 110, 126–130
**Kiselyov Dmitri** – 76
**Kopf Karlhaynts** – 270
**Qarayev Qara** – 125
**Qaribaşvili İrakli** – 11–12
**Qauk Yoaxim** – 81
**Quliyev Nizaməddin** – 243

**Quliyev Vilayət** – 323
**Landsbergis Vitautas** – 138
**Le Honq Anh** – 183
**Letta Enriko** – 107
**Lidinqton Devid** – 318
**Linkeviçius Linas** – 275
**Lisin Vladimir** – 286
**Lord Livinqston** – 22–23, 33
**Lord Risbi** – 153
**Lukaşenko Aleksandr** – 178–182
**Luijenburq Hans** – 45–47
**Mahmud Abbas** – 190, 348
**Mansel Jan-Fransua** – 314
**Matviyenko Valentina** – 120–126, 134–135
**Mesiç Stepan** – 139
**Meta İlir** – 268–269
**Məhəmməd Bağır** – 254
**Məmmədov Ziya** – 47–51
**Məmmədyarov Elmar** – 324
**Mustafayev Şahin** – 104,323
**Nakao Takehiko** – 316
**Nazarbayev Nursultan** – 88–105
**Obama Barak** – 25, 26
**Olekas Vuozas** – 155
**Olland Fransua** – 273, 291, 292, 314
**Orban Viktor** – 321–341
**Ottinger Günter** – 17
**Petrarka Françesko** – 122
**Pan Gi Mun** – 126, 309
**Plevneliev Rosen** – 9–11
**Popov İqor** – 191
**Ptolemey** – 73
**Pusiç Vesna** – 312
**Putin Vladimir** – 88–105, 121, 124, 134, 135

**Rasulzoda Koxir** – 222
**Rahimi Farxod** – 200
**Rəhmon Emoməli** – 194–205
**Rodiç Neboyşa** – 285
**Ruhani Həsən** – 88–105, 349–352
**Rousseff Dilma** – 297
**Rüütel Arnold** – 108
**Sadıqov Mirdaməd** – 53
**Salber Herbert** – 271
**Salvo Devid** – 191
**Sarkisyan Serj** – 292
**Samaras Antonis** – 13–14
**Səmədov Qüdrət** – 67–68
**Siyarto Peter** – 313, 324
**Sobyanin Sergey** – 78–79
**Sihamoni Norodom** – 319
**Svendsen Bard** – 20–21
**Si Cinpin** – 77
**Seçin İqor** – 272
**Solberq Erna** – 20–21
**Şerbakov Vladimir** – 276
**Şirəliyev Oqtay** – 53, 200
**Şmakov Mixail** – 276
**Şoyqu Sergey** – 184
**Şpilman Din** – 288
**Ştaynmayer Frank-Valter** – 284
**Tak Lora** – 317
**Toyliyev Sapardurdu** – 136
**Ulyukayev Aleksey** – 104
**Usubov Ramil** – 70
**Vəliyev Elmar** – 253
**Yıldız Tanər** – 17–20
**Zeman Miloş** – 287
**Zuxurov Şükürson** – 221
**Zatlers Valdis** – 137

## Coğrafi adlar göstəricisi

**Aktau** – 46
**Albaniya** – 9, 11, 13, 15, 16, 21–22, 30, 268–269
**Almaniya** – 81, 284
**Amerika Birləşmiş Ştatları** – 25–28, 34, 191, 217, 326
**Anadolu** – 18
**Aralıq dənizi** – 6, 17, 26, 27
**Asiya** – 43, 119, 216, 268
**Astana** – 182
**Avrasiya** – 48
**Avropa** – 8, 9, 10, 11, 15, 16, 17, 18, 20, 21, 22, 24, 26, 40, 43, 118, 119, 120, 127, 146, 158, 216, 217, 268, 288, 299, 304
**Avstriya** – 270, 282, 315
**Balakən** – 56
**Balkan** *(yarımada)* – 24, 26, 268, 345
**Belarus** – 177–182
**Bibiheybət** – 174
**Biləcəri** – 279–281
**Bolqarıstan** – 9–11, 13, 26, 30
**Bosfor** *(boğaz)* – 29
**Bosniya və Herseqovina** – 15
**Boliviya** – 296
**Böyük Britaniya** – 22–23, 33, 153, 318
**Braziliya** – 297
**Budapeşt** – 320–347
**Cənub-Şərqi Avropa** – 21
**Cənubi Avropa** – 14

| | |
|---|---|
| **Cənubi Qafqaz** | – 17, 271 |
| **Çex Respublikası** | – 287 |
| **Çikaqo** | – 29 |
| **Çin** | – 77 |
| **Dağlıq Qarabağ** | – 90, 114,133, 135, 163, 202, 203, 291, 302, 303, 313, 318, 322 |
| **Daşkəsən** | – 229–235 |
| **Düşənbə** | – 193–226 |
| **Estoniya** | – 109 |
| **Əfqanıstan** | – 128, 202 |
| **Əlcəzair** | – 295 |
| **Ələt** | – 39–51 |
| **Fələstin** | – 190, 348 |
| **Fransa** | – 191, 273, 291–292, 314 |
| **Gəncə** | – 253–262 |
| **Goranboy** | – 243–252 |
| **Gürcüstan** | – 9, 11–12, 29, 30, 258 |
| **Həştərxan** | – 82–105, 123, 277 |
| **Hyuston** | – 29 |
| **Xəzər dənizi** | – 6, 19, 38, 40, 48, 88–105, 123, 216 |
| **Xırdalan** | – 141–152 |
| **Xocalı** | – 302 |
| **Xorvatiya** | – 9, 15, 26, 139, 312 |
| **İran** | – 88–105, 258, 349–352 |
| **İsmayıllı** | – 52–62 |
| **İspaniya** | – 154 |
| **İtaliya** | – 9, 11, 23–25, 30, 107 |
| **Kabil** | – 128 |
| **Kamboca** | – 319 |
| **Kiş** | – 115 |
| **Küveyt** | – 311 |
| **Koreya** | – 73 |
| **Qafqaz** | – 16, 17, 18, 115 |

**Qara dəniz** – 6
**Qazaxıstan** – 12, 88–105, 258
**Qəbələ** – 56, 63–73
**Qətər** – 278
**Quba** – 67
**Latviya** – 137
**Litva** – 138, 155, 275
**London** – 22, 29
**Madrid** – 29
**Masazır** – 151–152
**Macarıstan** – 26, 267, 313, 320–347
**Makedoniya** – 13
**Monteneqro** – 9, 14–15, 21, 26
**Moskva** – 78–79
**Naftalan** – 67, 236–242
**Niderland** – 45–47
**Norveç** – 20–21
**Orta Şərq** – 304
**Özbəkistan** – 258
**Pensilvaniya** – 29
**Pirallahı** – 187–189
**Roma** – 73
**Rumıniya** – 10
**Rusiya** – 76, 78–79, 80, 82–105, 120–125, 134–135, 184, 191, 271, 277
**Saray** – 145
**Serbiya** – 10, 285
**Şamaxı** – 56, 67, 115
**Şəki** – 115
**Tacikistan** – 193–226
**Türkiyə** – 6, 7, 9, 10, 12, 16, 17–20, 28, 30, 258, 289,290
**Türkmənistan** – 12, 88–105, 136, 258, 283
**Vyetnam** – 183

**Yaxın Şərq** – 19
**Yunanıstan** – 9, 11, 13–14, 30

# MÜNDƏRİCAT

«ƏSRİN MÜQAVİLƏSİ»NİN 20 İLLİYİNƏ VƏ
«CƏNUB QAZ DƏHLİZİ»NİN TƏMƏLİNİN QOYULMASINA
HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*20 sentyabr 2014-cü il...........................................................................5*

BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYALAR
ÜZRƏ DÖVLƏT NAZİRİ LORD LİVİNQSTON İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il.........................................................................33*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN BEYNƏLXALQ ENERJİ
MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ AMOS
HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il.........................................................................34*

DÖVLƏT, HÖKUMƏT VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİ
BAŞÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*20 sentyabr 2014-cü il.........................................................................35*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2014-cü il.........................................................................36*

YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI
KOMPLEKSİNİN BƏRƏ TERMİNALININ AÇILIŞI
MƏRASİMİ

*22 sentyabr 2014-cü il.........................................................................37*

İSMAYILLI RAYONUNA SƏFƏR

*22 sentyabr 2014-cü il*..........................................................................*52*

RAYON MƏRKƏZİ XƏSTƏXANASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI İCTİMAİYYƏTİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2014-cü il*..........................................................................*53*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*22 sentyabr 2014-cü il*..........................................................................*63*

«QAFQAZ YENGİCƏ TERMAL HOTEL VƏ SPA» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 sentyabr 2014-cü il*..........................................................................*64*

AZƏRBAYCAN YƏHUDİ İCMASINA

*23 sentyabr 2014-cü il*..........................................................................*74*

AŞPA SƏDRİ ANN BRASÖRÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 sentyabr 2014-cü il*..........................................................................*75*

«ROSSİYA SEQODNYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİNİN BAŞ DİREKTORU DMİTRİ KİSELYOV İLƏ GÖRÜŞ

*23 sentyabr 2014-cü il*..........................................................................*76*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*25 sentyabr 2014-cü il*..........................................................................*77*

MOSKVA ŞƏHƏRİNİN MERİ SERGEY SOBYANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 sentyabr 2014-cü il* ........................................................................ *78*

RUSİYA LİBERAL-DEMOKRAT PARTİYASININ SƏDRİ, DÖVLƏT ŞURASININ ÜZVÜ, DÖVLƏT DUMASININ DEPUTATI VLADİMİR JİRİNOVSKİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2014-cü il* ........................................................................ *80*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA

*27 sentyabr 2014-cü il* ........................................................................ *81*

RUSİYA FEDERASİYASININ HƏŞTƏRXAN ŞƏHƏRİNƏ İŞGÜZAR SƏFƏR

*29 sentyabr 2014-cü il* ........................................................................ *82*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*29 sentyabr 2014-cü il* ........................................................................ *83*

HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ HƏŞTƏRXANDA İNŞA EDİLMİŞ «DOSTLUQ» UŞAQ BAĞÇASININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2014-cü il* ........................................................................ *84*

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IV SAMMİTİNDƏ İŞTİRAK

*29 sentyabr 2014-cü il* ........................................................................ *88*

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IV SAMMİTİNDƏ BEŞTƏRƏFLİ SƏNƏDLƏRİN

İMZALANMASI VƏ BƏYANATIN QƏBUL EDİLMƏSİ
MƏRASİMİ

*29 sentyabr 2014-cü il.......................................................................94*

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLARI

*29 sentyabr 2014-cü il.......................................................................95*

NƏRƏ BALIQLARININ VOLQA ÇAYINA BURAXILMASI
MƏRASİMİNDƏ İŞTİRAK

*29 sentyabr 2014-cü il.......................................................................99*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*29 sentyabr 2014-cü il.....................................................................100*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*29 sentyabr 2014-cü il.....................................................................101*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*29 sentyabr 2014-cü il.....................................................................102*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*29 sentyabr 2014-cü il.....................................................................104*

SAMMİT İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ
QƏBULDA İŞTİRAK

*29 sentyabr 2014-cü il.....................................................................105*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*1 oktyabr 2014-cü il.........................................................................106*

İTALİYA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ ENRİKO LETTA İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*.........................................................................*107*

ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜÜTEL İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*.........................................................................*108*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*.........................................................................*109*

BMT-nin İNKİŞAF PROQRAMININ RƏHBƏRİ HELEN ELİZABET KLARKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2014-cü il*.........................................................................*110*

IV BEYNƏLXALQ HUMANİTAR FORUMUN RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*2 oktyabr 2014-cü il* .........................................................................*111*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKO İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*.........................................................................*134*

TÜRKMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ SAPARDURDU TOYLİYEV İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*.........................................................................*136*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il*.........................................................................*137*

LİTVA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VİTAUTAS LANDSBERGİS İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il..........................................................................138*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*2 oktyabr 2014-cü il..........................................................................139*

IV BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*2 oktyabr 2014-cü il..........................................................................140*

ABŞERON RAYONUNA SƏFƏR

*3 oktyabr 2014-cü il..........................................................................141*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN TİCARƏT ÜZRƏ SƏFİRİ LORD RİSBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2014-cü il..........................................................................153*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*8 oktyabr 2014-cü il..........................................................................154*

LİTVA RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ YUOZAS OLEKASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 oktyabr 2014-cü il..........................................................................155*

«FORMULA-1»in RƏHBƏRİ BERNARD EKKLSTOUN İLƏ GÖRÜŞ

*8 oktyabr 2014-cü il..........................................................................156*

NAZİRLƏR KABİNETİNİN 2014-cü İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*8 oktyabr 2014-cü il..........................................................................157*

YEKUN NİTQİ

*8 oktyabr 2014-cü il..........................................................................165*

BELARUS RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 oktyabr 2014-cü il..........................................................................177*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA
İŞTİRAK

*10 oktyabr 2014-cü il........................................................................178*

VYETNAM KOMMUNİST PARTİYASI SİYASİ
BÜROSUNUN ÜZVÜ, PARTİYANIN MƏRKƏZİ KOMİTƏSİ
KATİBLİYİNİN DAİMİ ÜZVÜ
LE HONQ ANHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2014-cü il........................................................................183*

RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ SERGEY
ŞOYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*13 oktyabr 2014-cü il........................................................................184*

QALA–PİRALLAHI AVTOMOBİL YOLUNUN BİRİNCİ
HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*14 oktyabr 2014-cü il........................................................................185*

YENİ YARADILAN PİRALLAHI RAYONUNA SƏFƏR

*14 oktyabr 2014-cü il........................................................................187*

FƏLƏSTİN DÖVLƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİYAD
ƏL-MALİKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*15 oktyabr 2014-cü il*..........................................................................*190*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*15 oktyabr 2014-cü il*..........................................................................*191*

BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 oktyabr 2014-cü il*..........................................................................*192*

TACİKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*15 oktyabr 2014-cü il*..........................................................................*193*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*16 oktyabr 2014-cü il*..........................................................................*194*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*16 oktyabr 2014-cü il*..........................................................................*195*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*16 oktyabr 2014-cü il*..........................................................................*197*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 oktyabr 2014-cü il*..........................................................................*200*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*16 oktyabr 2014-cü il*..........................................................................*201*

İSMOİL SOMONİ ABİDƏSİNİ ZİYARƏT

*16 oktyabr 2014-cü il*..........................................................................*206*

TACİKİSTAN MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİ

*16 oktyabr 2014-cü il..........................................................................207*

TACİKİSTAN RESPUBLİKASI PARLAMENTİNİN AŞAĞI PALATASININ SƏDRİ ŞÜKÜRCON ZUXUROV İLƏ GÖRÜŞ

*16 oktyabr 2014-cü il..........................................................................221*

TACİKİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ KOXİR RASULZODA İLƏ GÖRÜŞ

*16 oktyabr 2014-cü il..........................................................................222*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*16 oktyabr 2014-cü il..........................................................................223*

«BAKI–TBİLİSİ–QARS DƏMİR YOLU XƏTTİ– İPƏK YOLU DƏHLİZİNİN İNKİŞAFINDA YENİ İMKANLAR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*16 oktyabr 2014-cü il..........................................................................227*

DAŞKƏSƏN RAYONUNA SƏFƏR

*17 oktyabr 2014-cü il..........................................................................229*

NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*17 oktyabr 2014-cü il..........................................................................236*

GORANBOY RAYONUNA SƏFƏR

*18 oktyabr 2014-cü il..........................................................................243*

ŞƏHƏRİN SU TƏCHİZATININ YENİDƏN QURULMASI VƏ KANALİZASİYA SİSTEMİNİN YARADILMASI LAYİHƏSİNİN İCRASININ BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR TƏŞKİL OLUNAN MƏRASİMDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2014-cü il*......................................................................................*248*

GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*18 oktyabr 2014-cü il*......................................................................................*253*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN NAZİRLƏRİNİN «İNKİŞAFDA QADINLARIN ROLU» MÖVZUSUNDA V KONFRANSININ İŞTİRAKÇILARINA

*20 oktyabr 2014-cü il* ......................................................................................*263*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ İŞTİRAKÇI ÖLKƏLƏRİN DƏMİR YOLU NƏQLİYYAT ŞURASININ NÖVBƏTİ İCLASININ İŞTİRAKÇILARINA

*20 oktyabr 2014-cü il*......................................................................................*265*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*20 oktyabr 2014-cü il*......................................................................................*267*

ALBANİYA PARLAMENTİNİN SƏDRİ İLİR METANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*......................................................................................*268*

AVSTRİYA PARLAMENTİNİN VİTSE-SPİKERİ KARLHAYNTS KOPF İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*......................................................................................*270*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBER İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*......................................................................................*271*

RUSİYANIN «ROSNEFT» DÖVLƏT ŞİRKƏTİNİN PREZİDENTİ İQOR SEÇİN İLƏ GÖRÜŞ

*20 oktyabr 2014-cü il*..........................................................................*272*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*21 oktyabr 2014-cü il*..........................................................................*273*

KRİSTOF DÖ MARJERİNİN AİLƏSİNƏ

*21 oktyabr 2014-cü il*..........................................................................*274*

LİTVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ LİNAS LİNKEVİÇİUSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 oktyabr 2014-cü il*..........................................................................*275*

ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERA-SİYASININ VİTSE-PREZİDENTİ MİXAİL ŞMAKOV VƏ BAŞ KATİBİ VLADİMİR ŞERBAKOV İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*..........................................................................*276*

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİ QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*..........................................................................*277*

QƏTƏR DÖVLƏTİNİN AZƏRBAYCANDAKI SƏFİRİ MÜBARƏK BİN FƏHD ƏL-TANİ İLƏ GÖRÜŞ

*22 oktyabr 2014-cü il*..........................................................................*278*

BİLƏCƏRİ QƏSƏBƏSİNDƏ STEND ATICILIĞI İDMAN KOMPLEKSİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*22 oktyabr 2014-cü il*..........................................................................*279*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

*23 oktyabr 2014-cü il...........................................................................282*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*23 oktyabr 2014-cü il...........................................................................283*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ
İŞLƏR ÜZRƏ FEDERAL NAZİRİ FRANK-VALTER
ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*23 oktyabr 2014-cü il...........................................................................284*

SERBİYA RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ NEBOYŞA RODİÇ
İLƏ GÖRÜŞ

*23 oktyabr 2014-cü il...........................................................................285*

AVROPA ATICILIQ KONFEDERASİYASININ VƏ RUSİYA
ATICILIQ İTTİFAQININ PREZİDENTİ VLADİMİR LİSİN İLƏ
GÖRÜŞ

*23 oktyabr 2014-cü il...........................................................................286*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MİLOŞ ZEMANA

*24 oktyabr 2014-cü il...........................................................................287*

İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİNİN
SƏDRİ DİN ŞPİLMAN İLƏ GÖRÜŞ

*24 oktyabr 2014-cü il...........................................................................288*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*25 oktyabr 2014-cü il*......................................................................................*289*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD DAVUDOĞLUNA

*25 oktyabr 2014-cü il*......................................................................................*290*

FRANSA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*27 oktyabr 2014-cü il*......................................................................................*291*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*27 oktyabr 2014-cü il*......................................................................................*292*

GƏNCLƏR SİYASƏTİ ÜZRƏ I QLOBAL FORUMUN
İŞTİRAKÇILARINA

*28 oktyabr 2014-cü il*......................................................................................*293*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*29 oktyabr 2014-cü il*......................................................................................*295*

BOLİVİYA ÇOXMİLLƏTLİ DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EVO MORALES AYMAYA

*29 oktyabr 2014-cü il*......................................................................................*296*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
XANIM DİLMA ROUSSEFFƏ

*29 oktyabr 2014-cü il*......................................................................................*297*

GƏNCLƏR SİYASƏTİ ÜZRƏ I QLOBAL FORUMUN RƏSMİ
AÇILIŞI ƏRASİMİ

*29 oktyabr 2014-cü il*......................................................................................*298*

BMT-nin NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 oktyabr 2014-cü il*............................................................................*309*

KÜVEYTİN GƏNCLƏR MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT
NAZİRİ ŞEYX SALMAN SABAH SALEM ƏL-HAMUD ƏS-SABAH İLƏ GÖRÜŞ

*29 oktyabr 2014-cü il*............................................................................*311*

XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ
MÜAVİNİ VESNA PUSİÇİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2014-cü il*............................................................................*312*

MACARISTAN RESPUBLİKASININ
XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRİ
PETER SİYARTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il* ............................................................................*313*

FRANSA MİLLİ ASSAMBLEYASININ ÜZVÜ
JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il* ............................................................................*314*

AVSTRİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI
SƏFİRİ SİLVİA MAYER KAYBİÇ İLƏ GÖRÜŞ

*3 noyabr 2014-cü il* ............................................................................*315*

ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ
TAKEHİKO NAKAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2014-cü il* ............................................................................*316*

DÜNYA BANKININ VİTSE-PREZİDENTİ LORA TAKIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2014-cü il* ............................................................................*317*

BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ DEVİD LİDİNQTON İLƏ GÖRÜŞ

*5 noyabr 2014-cü il* ............................................................................*318*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

*6 noyabr 2014-cü il* ............................................................................*319*

MACARISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 noyabr 2014-cü il* ..........................................................................*320*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 noyabr 2014-cü il* ..........................................................................*321*

BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASI MƏRASİMİ

*11 noyabr 2014-cü il* ..........................................................................*323*

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*11 noyabr 2014-cü il* ..........................................................................*325*

AZƏRBAYCAN–MACARISTAN BİZNES-FORUMUNDA İŞTİRAK

*11 noyabr 2014-cü il* ..........................................................................*331*

MACARISTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*11 noyabr 2014-cü il* ..........................................................................*342*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*12 noyabr 2014-cü il* ..........................................................................*348*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 noyabr 2014-cü il* ........................................................................*349*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 noyabr 2014-cü il* ........................................................................*350*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 noyabr 2014-cü il* ........................................................................*352*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 noyabr 2014-cü il* ........................................................................*353*

QEYDLƏR...........................................................................................*354*

*Şəxsi adlar göstəricisi*......................................................................*375*

*Coğrafi adlar göstəricisi* ..................................................................*379*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.